Sədrəddin Hüseyn

# AZƏRBAYCAN MƏRSİYƏ ƏDƏBİYYATI və ƏBÜLHƏSƏN RACİNİN POETİK DÜNYASI








BAKI-2015

***Sədrəddin Bayram oğlu Hüseyn***

# *AZƏRBAYCAN MƏRSİYƏ ƏDƏBİYYATI və ƏBÜLHƏSƏN RACİNİN POETİK DÜNYASI*

**BAKI-2016**

# AZƏRBAYCAN MƏRSİYƏ ƏDƏBİYYATI VƏ ƏBÜLHƏSƏN RACİNİN POETİK DÜNYASI

**MÜƏLLİF:**

**Sədrəddin Bayram oğlu Hüseyn**
f.ü.f.d.
Qafqaz Universiteti

**ELMİ REDAKTOR:**

**Teymur Əhmədov**
Professor, f.e.d.
"Respublika" qəzetinin baş redaktoru

**RƏYÇİLƏR:**

**Alxan Bayram oğlu Məmmədov**
Professor, f.e.d.

**Almaz Əli qızı Məmmədov**
Professor, f.e.d.

**Emin Famil oğlu Ağayev**
Dosent, f.ü.f.d.

**DİZAYN:**
**İlham Əliyev**

© S.B. Hüseyn, Bakı, 2016
© Qafqaz Universiteti, Bakı, 2016

**Ekoprint Çap Evi**
Bakı-Elmlər, Az1000 Bakı, Azərbaycan

**BAKI-2016**

## MÜNDƏRİCAT

**ÖNSÖZ** ..... **5**

**GİRİŞ** ..... **11**

**I FƏSİL.** ***Ümumi məsələlər*** ..... **19**

*1.1. Ə.Racinin həyatı, mühiti və dünyagörüşü* ..... 19

*1.2. Ə.Raci poeziyasının tədqiqi, Ə.Racinin sələf-xələf münasibətində yeri* ..... 53

**II FƏSİL.** ***Əbülhəsən Racinin lirikası*** ..... **65**

*2.1. Ə.Raci lirikasında məhəbbət mövzusu* ..... 65

*2.2. Ə.Racinin lirikasında ictimai motivlər* ..... 85

*2.3. Ə.Racinin dini-fəlsəfi şeirləri* ..... 115

**III FƏSİL.** ***Əbülhəsən Raci poeziyasının sənətkarlıq xüsusiyyətləri*** ..... **171**

**NƏTİCƏ** ..... **191**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ..... **195**

# MÜƏLLİF HAQQINDA

*Sədrəddin Bayram oğlu Hüseyin uzun illərdi Respublika mətbuatında elmi, bədii, publisistik yazılarla çıxış edir. Bu onun sayca altıncı kitabıdır. "İmla məcmuəsi" -metodik vəsaiti -2001, "Əbülhəsən Racinin yaradıcılıq yolu" monoqrafiyası -2004, "Yeniyetməlik dövrünün yol xəritəsi" -2007 , "Gəncliyin yol rəhbəri" adlı tərcümə əsərləri -2009, "Əbdülün macəraları" adlı əxlaqi-didaktik romanı 2013-cü ildə işıq üzü görmüşdür. "Azərbaycan mərsiyə ədəbiyyatı və Əbulhəsən Racinin poetik dünyası" adlı monoqrafiyada isə ədəbiyyatımızdakı mərsiyə mövzusu əhatəli şəkildə işlənmiş, Razinin obrazı həm mərsiyəxan, həm də lirik şair kimi canlandırılmışdır. S. Hüseyn qırx ilə yaxındır orta və ali məktəblərdə pedaqoji fəaliyyət göstərir. Respublikanın qabaqcıl təhsil işçisidir.*

# ÖN SÖZ

XIX əsrdə Rusiya-İran istilaçıları tərəfindən parçalanmış qədim Azərbaycanın cənub bölgəsində şovinist fars əsarətində yaşayan xalq məhrumiyyətlərə, təqib və təzyiqlərə baxmayaraq öz mənəvi dəyərlərini: dilini, mədəniyyətini, adət-ənənəsini qoruyub saxlamış, inkişaf etdirmişdir. Feodal cəmiyyətində dini-mövhumatın hökm sürdüyü ictimai mühitdə Ahi, Mirzə Həbib Qüdsi, Pürğəm, Qumri, Dəxil, Dilsuz, Raci kimi şairlər klassik şeir üslubunda yazdıqları əsərlərdə toxunduqları mövzulardan asılı olmayaraq, dövrün ab-havasını, insanların ağır həyat tərzini, dini dünyagörüşünü, nisgilli ümid və arzularını da əks etdirirdi. O dövrdə mərsiyə ədəbiyyatının yaradıcıları arasında Hacı Əbülhəsən Raci öz dəsti-xətti ilə seçilən qüdrətli sənətkar kimi tanınırdı. Buna baxmayaraq, təxminən 150 ilə yaxın müddət ərzində öz müasirləri kimi Hacı Əbülhəsən Racinin ədəbi irsi də tədqiq olunmamış, keçmiş zamanın kəsif dumanında sanki unudulmuşdur.

Racinin bəzi müasirləri, o cümlədən Seyid Əzim Şirvani, ədəbiyyatşünas Firidun bəy Köçərli, alim və şair Ələkbər Dexuda, ədəbiyyatşünas Məhəmmədəli Tərbiyət şairin həyatı və yaradıcılığı barədə yığcam məlumat verməklə kifayətlənmişlər.

Sovet dövründə isə məhərrəmlik təziyədarlığı və onunla əlaqədar yaranan mərsiyə ədəbiyyatı ədəbi-tənqidi fikirdən sərfnəzər edilmiş, Azərbaycan xalqının ruhuna, sovet ideologiyasına yabançı hesab edildiyindən öyrənilməmişdir. Mərsiyə yazan şairlərin əksəriyyətinə, eləcə də Raci yaradıcılığına birtərəfli yanaşılmışdır. Halbuki Mirzə İbrahimovun dediyi kimi, XIX əsr ədəbi-ictimai fikrində "anlaşılmaz və qəribə" görünsə də, ziddiyyətli görüşlərin müşahidə olunması, o zamanın ictimai həyatın bulanıq vəziyyəti, mövhumatın qatı dumanının nəticəsi idi. Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Dəxil, Qumri, Ləli, Raci kimi dinə bağlı şairlər mərsiyə yazsalar da, "dar təəssübkeşliyi pisləyən, fanatik görüşlərin əleyhinə olan və bütün bunları xalqın tə-

rəqqisinə, zəmanə ilə ayaqlaşmasına mane olduğu üçün tənqid edən", insanın mənəvi aləmini, dünyəvi arzularını, sevgisini, ictimai kədərini, ədalətsizliyə qarşı etirazını, mübarizə əzmini əks etdirən əsərlər də yazmışlar ki, onlar öz ideya baxımından məzmunu və sənətkarlıq dolğunluğu ilə milli ədəbiyyat xəzinəmizi zənginləşdirmişdir.

Akademik Mirzə İbrahimov yazırdı: "Hacı Əbülhəsən Raci öz müasir həmkarları kimi XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının inkişafında, dilinin, obrazlar silsiləsinin büllurlaşmasında, xürafatın fəlsəfi əsaslarını sarsıtmaqda, rümuzi-eşqə qarşı insan qəlbinin təbii hisslərindən doğan dünyəvi eşqi gözəl təşbehlər və fikir dönüşlərilə canlandırmaqda qiymətli xidmətlər göstərmişdir".

Raci "şirin və duzlu" şeirlərində yarın camalını cürbəcür boyalarla vəsf edirdi, insana zövq və ləzzət verən dünyəvi hislərdən qaçan zahidin riyakarlığını istehza və gülüşlə qırmaclayır, dönüklük və vəfasızlıqdan, həyatın təzadlarından kədərlənir, dərin fikirlərə dalırdı:

Nə eşq olaydı, nə aşiq, nə hüsni-dilbər olaydı,
Nə ayinə, nə səfa, ey könül, nə cövhər olaydı,
Nə hüsn olaydı, nə könlüm, nə dəstə-dəstə bu zülf,
Nə şah, nə mülk, nə bu fövc-fövc ləşkər olaydı.
Nə kuyi-yarı qoyub xəlq edəydi meyli-behişt,
Nə şeyx olaydı, nə məscid, nə vəzi-minbər olaydı...

"Nə eşq olaydı, nə aşiq..." şeirindən göründüyü kimi, Raci "Nakam eşqin iztirablarından, əhdi-peymanı pozan gözəllərdən, amansız hökm edən şahlardan və onların qan axıtmağa hazır olan qoşunlarından, iti qılıncdan və baş kəsən cəlladlardan, ürəklə ruhun təzadlarından yorulmuş, onların nə səfasından, nə də cəfa əzablarından baş aça bilməmişdir."

Mütəfəkkir şairin pərişanlığı və dünyagörüşündəki ziddiyyətlər yaşadığı mühit və zamanla həmahəng idi. Ədəbiyyatşünas alim Nazim Rizvan "Əbülhəsən Raci" adlı ədəbi oçerkində şairin həyatı,

mərsiyə və müsibətnamələri, lirikası haqqında geniş söhbət açmış, təsir dairəsindən bəhs etmişdir. Onun Raci haqqında dərin məzmunlu, əhatəli elmi məqaləsi mütəfəkkir şairin həyatını, mühitini və poetik yaradıcılığını mükəmməl tədqiq etməyin ədəbiyyat tarixinə və ədəbiyyatşünaslıq elminə son dərəcə faydalı olacağı barədə dolğun təsəvvür yaradır.

Bu nöqteyi-nəzərdən Nüseyn Sədrəddinin belə çətin və məsuliyyətli elmi mövzunu tədqiqat obyekti kimi seçməsi, onu elmi səviyyədə, dolğun, mükəmməl yerinə yetirməsi üçün ondan təkcə istək, vətənpərvərlik duyğusundan savayı klassik ədəbiyyata, tarixə, ictimai dəyərlərə dərin bələdçilik və tədqiqatçılıq səriştəsi, üstəlik istedad, və ciddi yaradıcılıq zəhməti, iradə və dözüm tələb olunurdu.

Müəllifin "Azərbaycan mərsiyə ədəbiyyatı və Əbulhəsən Racinin poetik dünyası" adlı monoqrafiyası giriş, üç fəsil (Əbulhəsən Racinin həyatı, mühiti və dünyagörüşü, tədqiqi və sələf-xələf münasibətində yeri; Əbulhəsən Racinin lirikası; Əbulhəsən Raci poeziyasının sənətkarlıq xüsusiyyətləri), nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Məlum olduğu kimi, Əbülhəsən Racinin həyatı XIX əsr Cənubi Azərbaycan feodal cəmiyyətində dini fanatizmin hökm sürdüyü dövrə təsadüf etmişdir. Təbrizin Xiyaban məhəlləsində tacir Hacı Ələkbərin ailəsində anadan olmuş Raci kiçik yaşlarından ərəb-fars dillərində mükəmməl təhsil almış, dini və dünyəvi elmlərə dərindən bələd olmuşdur. Ticarəti dolanacaq yolu seçsə də, bədii yaradılcılıqla ardıcıl məşğul olmuş, gənc yaşlarından istedadlı şair kimi tanınmışdır.

Ə. Raci təxminən 45 yaşında Kəbəni ziyarət etmiş, vətənə qayıdarkən Qırmızı dənizdə tufana düşərək həlak olmuşdur.

Raci Azərbaycan və fars dillərində yazdığı orijinal qəzəl, qəsidə, rübai, təcnis və mənzum hekayələrdən, eləcə də mərsiyələr "Divan"ından ibarət zəngin irs qoyub getmişdir.

Əbülhəsənin dövrü, mühiti və dünyagörüşü, tədqiqi və ədəbiyyatımızda yeri monoqrafiyanın giriş fəslində dolğun elmi şərhini tapmışdır. Müəllif Racinin doğum və ölüm tarixi ilə bağlı elmi ədəbiyyatdakı dolaşıqlığı inandırıcı faktlar əsasında dəqiqləşdirmişdir.

Pacinin poetik yaradıcıığında dini-fəlsəfi şeirlər üstünlük təşkil etmişdir. İstər dini məzmunlu şeirləri və ya şeirlərindəki dini motivlər, istərsə də "Divan"ına daxil etdiyi mərsiyələri onun islami dəyərlərə, "Quran"ın müqəddəs ehkamlarına dərin bələdliyini sübut edir. Raci mərsiyə ədəbiyyatının yaradıcılarından biri olmuşdur. Onun dini təəssübkeşliyi, dinə bağlılığı kitabda inandırıcılıqla elmi şərhini tapmışdır. S.Hüseyn Raci poeziyasında kəskin bədii kontraslar olduğunu müəyyən edərək şairin dünyəvi mövzularda yazdığı məhəbbət lirikasına, dünyəvi məzmunlu şeirlərə diqqəti cəlb etmişdir.

Məlum olduğu kimi, Raci Azərbaycan və fars dillərində klassik Şərq ədəbi ənənəsi səpkisində "Divan" bağlamışdır. Müəllif "Divan"ın Bakı və Təbrizdə nəşr olunan nüsxələrini diqqətlə araşdıraraq şairin dünyəvi səciyyə daşıyan, Füzulinin təsiri ilə yazdığı qəzəllərini, lirik şeirlərini ətraflı təhlil edir. Racini Füzulinin layiqli davamçısı kimi səciyyələndirir. Racinin lirikasında eşq, məhəbbət mövzusu üstünlük təşkil edir. Təbriz gözəli vurğunluqla təsvir olunur. Qənirsiz gözəlin hüsnü, ədası, mina gərdanı, "kipriyilə şana çəkməyə hazır oduğu pərişan zülfü", əlvan libası bədii boyalarla göstərilir. Şairin sevdiyi sərvqamətli gözəllər gözəli bağa seyrə çıxsa, qumrular başına dolanar, bülbüllər əfğanə gələr, kim rüxsarını görsə, günə baxmaz, heyran qalar, tuti dili lal olar.

Ülvi məhəbbət, vüsal eşqi, nəcib insani duyğuların rəngarəng bədii təsviri Racinin həyata sıx bağlılığını, dünyagirliyini sübut edir.

S.Hüseyn belə qənaətə gəlir ki, "...lirik əsərlərində iki Raci görünür: biri hardasa "dini dünyaya verməyən", ilahi eşqə bağlı olan, özü də nə qədərsə zahidləşən, digəri isə ancaq dünya üçün ya-

şayan, dünya gözəlinin yolunda çəkdiyi məşəqqətlərə, bu gözəlin vəsfinə, eşqinin ucalığına şirin nəğmələr deyən -Raci".

Feodal cəmiyyətinin ağır dini fanatizm mühiti, ictimai həyatda şahidi olduğu təzadlar Əbülhəsən Racinin həssas qəlbində pərişanlıq, dünyagörüşündə anlaşılmazlıq yaradırdı.

Fil.ü.f.d. Hüseyn Sədrəddin şairin fəlsəfi və ictimai lirikasında Racinin mənəvi aləmində baş verən sıxıntını, pərişanlığı, zülmət səltənətindən ictimai azadlığa çıxış yolunu tapa bilməməsini və bu səbəbdən dünya ilə bağlı hər şeydən "əl çəkdiyini" açıb göstərmişdir.

Onun qənaətinə görə Raci həyat həqiqəti ilə axirət dünyası arasında çırpınırdı. Şair ictimai ədalətsizliyə, soyğunçuluğa, xalqı cəhalətdə saxlayan mollalara, zahidlərə qarşı bəzən, ötəri də olsa etiraz edirdi. Ancaq xalqın düçar olduğu bəlaların səbəblərini, ağır ictimai vəziyyətdən çıxış yolunu tapa bilmirdi. Raci din təəssübkeşi idi. "Bu dünya onun nəzərində sevgilisinin hicranı və vüsalına bürünərək hicran-vüsal şərbətini dada-dada onun ağrı-acısını yaşaya-yaşaya gileyli bir ömür yolu olmuşdur".

Raci sənətkar şairdir. Klassik ədəbiyyatın qəzəl, qəsidə, rübai, mütəfərriqə, mürəbbe, növhə, sinəzən və sairə şeir formalarında doğma Azərbaycan dilində və farsca yazıb-yaratmışdır. O, klassik ədəbiyyatdan və şifahi xalq ədəbi nümunələrindən yaradıcılıqla bəhrələnmişdir. Müəllif Racinin qəzəllərində Füzuli, Nəsimi, Nəbati poeziyasının təsiri barədə maraqlı nümunələr gətirir.

Hüseyn Sədrəddin şairin sənətkarlığından bəhs edərkən onun bədii təsvir vasitələrində yetərincə poetik tapıntıların, yeni obrazlı deyimlərin olmasına görə Racini milli poeziya xəzinəsini zənginləşdirən yenilikçi şair kimi təqdim edir: Raci poeziyasının ən böyük gücü, özəlliyi "...onun bədii təsvir və ifadə vasitələrindən yaradıcılıqla, orijinal şəkildə istifadə etməsindədir. Bunlar təravətlidir, Raciyə məxsusdur. Raci təqliddən uzaq, orijinal üslubu, sənətkarlıq xüsusiyyəti ilə seçilən ustad şairdir..."

Tədqiqat zamanı müəllifin gəldiyi nəticələr Raciyə və mərsiyə ədəbiyyatına bu günün prizmasından yanaşmağın vacibliyini və bu irsin tədqiqinə böyük ehtiyac duyulduğunu göstərir. Racinin bir sənətkar kimi bədii-elmi portreti yaradılır və ədəbiyyatımızda tutduğu yer müəyyənləşdirilir. Bu baxımdan monoqrafiya həm araşdırıcılar, həm tələbələr, həm də kütləvi oxucular üçün dəyərli mənbə ola bilər.

***Professor, f.e.d.* Əhmədov Teymur**
*"Respublika" qəzetinin baş redaktoru*

# GİRİŞ

Əbulhəsən Racinin həyatı cənubi Azərbaycanın qarışıq, mürəkkəb və acınacaqlı bir dövrünə təsadüf edir. Ədəbiyyat aləmində idealist, kanon[1] maarifçiliyinin süqut etdiyi, avropasayağı materialist fəlsəfədən ilham alan maarifçiliklə əvəz olunduğu, reformların və yeniləşmənin zərurət olduğu belə bir dövrdə klassik ənənələr, xüsusilə Füzuli təsiri qalmaqda, "mürtəce" dini ədəbiyyat da yüksələn xətlə inkişaf etməkdə idi. Mərsiyəçilik və məhərrəmlik mərasimləri insanları "cəhalətdə saxlayan" alətə çevrilirdi. Bu gedişata baxışlar müxtəlif olduğdundan mərsiyə ədəbiyyatına uzun müddət obyektiv qiymət verilməmişdir. Halbuki ədəbi xəzinəmizdən bu faktı çıxsaq, yerində qalan böşluq tamlığı və bir çox bağları qırmış olar. Bölünmüş və asılı vəziyyətdə olan bir xalqın heç bir məsələsi uzun zaman obyektiv dəyərləndirilmədiyi, tarixi əyri yazılıb, əyri yozulduğu üçün Raci kimilərin yaradıcılığının araşdırılması bu günün aktual məsələsidir.

Yuxarıların təzyiqi, ideoloji nöqteyi-nəzər, bəzən də qərəzli münasibət klassiklərin tədqiqində obyektiv, ədalətli yanaşmaya imkan vermirdi. Bu sahədə elə bir tendensiya yarandı ki, indi də özünü göstərməkdə, ədəbiyyatımızı düzgün qiymət verməyə mane olmaqdadır. Buna münasibət bildirərkən Yaşar Qarayev: ""Tam", "bütöv həqiqət" konsepsiyası klassik irsə yenidən qayıtmağı zəruri edir. ...Orta əsrlərin və yeni dövrün elə mühüm bədii, ictimai, fəlsəfi, dini, ideoloji hadisələri, abidələri, simaları var ki, onlar ən əsaslı, prinsipial, səriştəli təhlilə layiq olduğu halda, biz onlara münasibətdə səthi, qeyri-professional təftiş və elementar inkar məqamlarından irəli gedə bilməmişik" –qənaətinə gəlirdi[2]. Çünki bu yanaşma çox vaxt da dövrün tələblərindən irəli gəlib. O dövrün ədəbi simalarından biri olan Əbulhəsən Raci də hələ ki, öz

---

[1] *Əliyev Rəhim.Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Qanun" nəşriyyatı,2012, səh.33*

[2] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, səh.57*

dəyərini almamış, haqqında geniş elmi araşdırmalar aparılmamışdır. Ötən müddətdə Bakıda kiril əlifbası ilə sadəcə bir "Divan"ı çap olunmuşdur. Şeirlərindən görünür ki, Raci yaradıcılığında daha çox Füzulinin, qismən də Nəsiminin təsirindədir. Bununla belə, İslam dini, Şərq fəlsəfəsi, doğma xalqının poetik təfəkkürü, onun yaradıcılığına, qanına, iliyinə hopub. Kərbala müsibəti kədər notlarını gücləndirib, yaşadığı dövrdə xalqının bəla və müsibəti, şeirlərini göz yaşları ilə suvarmağa, öz dərdini Kərbəla faciəsinə büküb ağlamağa səbəb olub. Elə bu deyilənlər də onun uzun zaman unudulması, tədqiqdən kənar qalması ilə nəticəılənib. Bir çox şairlər kimi Raci də sxolastik, "epiqonçu", mərsiyəxan kimi çox vaxt tənqid edilib, dışlanıb, yaxşı halda barəsində susulub, unudulub[3]. Bizdə sovet, cənubda pəhləvi rejimi, bizdə dinə qarşı qərəzli münasibət, orada dinin təhrifi, birtərəfli qəbulu Raci, Dəxil, Qumri, Dilsuz, Sərraf kimi "təriqət şairlərinin"[4] üzərinə xeyli vaxt kölgə salmış, bu zəngin xəzinənin üstünü örtmüşdür. Bir səbəb də adı çəkilən şairlərin yaradıcılığında gizli, ya açıq şəkildə, eyhamla, üstüörtülü olaraq rejimə qarşı yönəlmə, onun gizlinlərini aşkarlama olub. Onların tədqiqi, bu gizli və zəngin xəzinənin xalqa çatdırılması üçün indi –müstəqil və sərbəst düşüncə tərzinə malik bir şəraitdə əlimizə düşən fürsəti layiqincə dəyərləndirmək lazım gəlir. Problemin bir mühüm tərəfi də ondadır ki, düşmənlər islam dinini içdən parçlamaq üçün Kərbəla vaqeəsindən süi-istifadə edirlər. Bu gün islam coğrafiyasının az qala hər yerində yeni yezidlər, yeni şümrlər peyda olmaqda, haqqa, ədalətə, haqpərəstlərə sitəm etməkdə, dini dəyərləri ayaq altına almaqda, şeytani qüvvələrə rəvac vermədə, yeni-yeni Kərbəla ocaqları yandırmaqdadırlar. O da danılmaz haldır ki, indi hər məhərrəm ayında sadəcə şiəliyin yayıldığı bölgələr deyil, dünyanın bir çox yerində, xü-

---

[3] *Məmmədov Xeyrulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: 2006*

[4] *Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki (Qədim dövrlərdən 1930-cu ilədək). Bakı: 2013.səh.84*

susən də vaxtilə Osmanlının nüfuz dairəsində olan Avropa ölkələrində də bu mərasimlər keçirilir, mərsiyələr deyilir, bu janrın yeni, müxtəlif formaları ortaya çıxır. Kərbəla mövzusunda təkcə Azərbaycanda deyil, Türkiyədə də bir çox şairlər mərsiyə yazmış və yazmaqdadırlar.

Və nəhayət, bu mərsiyələri sinə döydürmək vasitəsindən qurtarıb ədəbi akta çevirməyin, onu həm ədəbiyyatşünasların, həm də oxucuların xidmətinə verməyin lazım gəldiyini, bu sahədə görüləcək işlərin zəruri olduğunu düşünürük. Belə olarsa, o şairlərin digər əsərləri də "mürtəcelik"dən xilas olub ədəbi fakta çevrilər.

Tədqiqat zamanı Əbulhəsən Racinin Bakıda çap olunan "Divan"ı, kitabxanalardakı və bəzi fiziki şəxslərdə mövcud olan ana dilli və farsca "Divan"ları, əllərdə olan şeirləri, XIX əsr İran və Azərbaycan ictimai-siyasi tarixi, ədəbiyyatı barədə bir çox elmi araşdırmalar tədqiqata cəlb edilmişdir. Həm dövri mətbuata, həm elmi əsərlərə istinad edilmiş, Raci digər klassik şairlərlə müqayisəli şəkildə tədqiq edilmişdir. Respublikanın arxivlərində saxlanan, İranda çap olunan bir sıra nəşrlərdən faydalanmaqla, Raci ilə bağlı yazılar, internet mənbələri, elektron kitablar mümkün qədər araşdırılmış, tədqiqata cəlb edilmişdir. Tədqiqat zamanı məlum olmuşdur ki, Racinin "Divan"ı "Seçilmiş əsərlər" adı ilə ilk dəfə 1992-ci ildə Bakıda çap olunmuşdur. Kitabın tərtibçisi və ön sözün, şərhlərin müəllifi Hafiz Abıyevdir. Burada 146 qəzəl, 2 qəsidə, 40 beytlik 1 təcnis, 6 rübai, 9 mütəfərriqə, 1 mürəbbe, "Hekayəti-İbrahim Ədhəmi" adlı bir mənzumə, 84 növhə verilmişdir.[5]

Seyid Əzim Şirvani öz təzkirəsində Racinin bir sıra şeirlərini nümunə olaraq təqdim etməklə Səburun (farsca) şerinin bir qisminin tərcüməsini verir və "əhbabları" tərəfinfən həmin il (1876) asari-farsi və türki və mərsiyələrinin Təbrizdə mətbu edildiyini

[5] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992.*

bildirir. S.Ə.Şirvani Racinin "Üzari-yar tutub türreyi-siyahdami" mətləli mürəbbisindən 13 bəndini, 9 qəzəlini və bir çox şeir parçalarını vermişdir. O həm də dəqiqləşdirmələr apararaq Xalifeyi-Xalxal Acizin bir qəzəlini Racinin kitabında "mülahizə qıldığını" qeyd edir və bunun üçün Acizin "Divan"ının daha əqdəm çap olunduğunu əsas göstərir.

Lerikli Molla Qələmə məxsus bir "Divan" varislərindən Əhməd Qasımovdadır. "Divan"ın ön və son səhifələrində nasixə məxsus möhür var. Ön səhifədə həmçinin "Məhəmmədhüseyn Vələdi Molla Rüstəmzadə 1342 və Məmmədhüseyn vələdi Molla Rüstəmzadə 1343 (1924) Əliyyürrəhim" dərkənarlarından o tarixdə bu şəxslərdə olduğu bilinir. Ancaq ən mühümü 237-ci səhifədə farsca sinəzən və qəsidələrinin bitməsi haqda "tamam şod Divan 1292" qeydidir. Buradan "Divan"ın müəllifin ölümü ərəfəsində, ya da S.Ə.Şirvani demiş, ölən ili əhbabları tərəfindən mətbu edildiyi məlum olur. "Divan"ın bir hissəsi ana dilində, qalanları farscadır. Sonunda isə "Mirzə Əli Vələdi Kərbəlayi Molla Məşədi Əhməd ağanın xahişi ilə çap olunub. 1296-nın ramazan ayında təb və təhrir şod" şəklində yazı var.

Ə.Raci haqqında ilk ən geniş məlumatı Firidun bəy Köçərli verir. O, Raci divanının Təbrizdə dəfələrlə çap olunmasını qeyd edərək təəssüflə iki böyük qüsuru göstərir:

1. İranda çap olunan kitabların heç birində müəllif haqqında məlumat verilmir...haqlarında bir cümlə belə yazılmır.
2. İstədikləri şairin şeirlərindən nümunələri tərtib etdikləri divana daxil edirlər. Və onların müəllifləri də göstərilmir. Buna görə də hansı şeirin kimə aid olmasını təyin etmək çox çətin olur.

Eyni halı S.Ə.Şirvani də müşahidə etmiş və düzəlişini eləmişdir.

"Seçilmiş əsərlərin" tərtibçisi H.Abıyev də eyni nöqsanı müşahidə etdiyini bildirir və bəzi şeirlər arasındakı fərdlərin Dəxilə aid olduğuna görə kitabdan çıxardığını yazır.

F.Köçərli şairin yaradıcılığını mümkün qədər ətraflı şərh edib və mərsiyəxanlar içərisində Racinin üstünlüyünü göstərib. O Racini "Azərbaycan şüərasından Dəxildən sonra ən fəsih bülbüli-xoşəl- hanı,... ən suznak növhəxanı" hesab edir. Pürqəmdən danışarkən onun Racidən bəhrələndiyini qeyd edir. Qəzəl, mərsiyə və təcnis- lərdən nümunələr verir. Səburun mərsiyəsinin farsca mətnini verir və ən önəmlisi də odur ki, Ə.Raci divanının qəzəliyyatı-farsi, qəsideyi-türki, qəzəliyyatı-türki, təcnisi-türki şəklində tərtib olunduğunu bildirir. F.Köçərli Səburun növhəsindən əlavə şairdən iki qəzəl, bir təcnis, bir növhə və şeirlərindən ayrı-ayrı nümunələr vermişdir.

Sonrakı dövrlərdə H.Zərdabi, A.Sur, C.Məmmədquluzadə, S.Hüseyn, Ü.Hacıbəyov, C.Xəndan, R.Əfəndizadə və b. qələm əhlinin əsərlərində Ə.Raci ilə bağlı dağınıq məlumatlara rast gəlinir. Onun adı ən çox mərsiyə ədəbiyyatı, epiqonçu, mürtəce dini ədəbiyyatla bağlı yazılarda hallanır. Əksər halda isə ona tənqidi nöqteyi-nəzərdən yanaşılır. Feyzulla Qasımzadə mərsiyə ədəbiyyatından danışarkən "Riyazül-Qüds"ün "Hədiqətüs süəda"nın təsiri ilə yazıldığını, Dəxilin dini bir dastan yaratdığını qeyd edir, bir çox mərsiyəxanla birgə Racinin də adını çəkir və mərsiyəçilik "...çarizmin müstəmləkə siyasətinə uyğun olaraq şiəlik təbliğinin gücləndirilməsi ilə izah oluna bilər"-deyir.[6] Sonra isə təziyədarlıq ədəbiyyatının "Azərbaycan ədəbiyyatının realist – demokratik keyfiyyətlərinə tam ziddiyyət təşkil etməsi"[7] göstərilir.

M.Tərbiyət "Danışməndani Azərbaycan" əsərində Raci haqqında qısa məlumat verir. Doğum ilini 1247 (1831), ölümünü isə Səburun şeirindəki maddeyi-tarixə əsasən "Əya qaffar" (1293-1876) kimi göstərir. Fars və türk dillərində "Divan"nın Təbrizdə dəfələrlə çap olduğunu bildirir. Oğlu Əbdulməcidin Naci təxəllüsü ilə şeirlər yazdığını və şeir divanının olduğunu qeyd edir.

---

[6] *Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. II c.EAAzF. Bakı: 1944, səh. 73*

[7] *Azərbaycan ədəbiyyatı tarixi.3 clddə. IIc., Bakı, 1960, səh. 62*

Cavad Heyət "Azərbaycan ədəbiyyatına bir baxış" kitabında Raci haqqında da qısa məlumat verir. Farsca və türkcə qəzəllərindən nümunələr, təcnisdən 6 beyt verir. Müəllif "Ta tora, ləli-ləb, ey dust ze mey rəngin əst"(Nə qədər ki, ləl tək dodağın şərab rəngindədir) mətləli farsca qəzəlinin tərcüməsini də vermişdir.

ASE-da da şairin haqqında yığcam məlumat vardır.

Yazıçı Anarın rəhbərliyi ilə tərtib edilən "Min beş yüz ilin oğuz şeiri" adlı antologiyada 5 qəzəli, bir növhə və 5 beytlik bir əfradı verilmişdir.[8]

Kamal Talıbzadə Azərbaycan ədəbiyyatının tənqid tarixini izləyib incələyərkən Raci kimiləri epiqonçu ədəbiyyatın nümayəndələri olaraq görür[9]. Onları müdafiə edən Ünsüzadə qardaşlarından da "Əcabə, Şeyx Nizamiyə abidə tikmək həvəsində olan nəslimiz Racini unudaraq, Qumrisinə xor baxacaqmı" deyən Seyid Hüseyndən də, "O, kitabların ("epiqonçular"ın əsərlərinin S.H.) ədəbiyyat silkinə daxil olmağa nə ləyaqətləri vardır?" deyən R. Əfəndiyevdən də nümunə göstərir.

M.İbrahimov Raci yaradıcılığına bir qədər ətraflı toxunur. "Onun da qəzəllərində dini və dünyəvi məhəbbət: zahid və rind, eşq və mal-dövlət kəskin bədii kontrast təşkil edir" -qənaətinə gəlir, şeirlərdən nümunələr gətirir və məşhur "Nə eşq olaydı..." qəzəlini qabarıq nəzərə çatdırır. M.İbrahimov Racinin 36 qəzəlini antalogiyaya daxil edib.[10] Lakin bunların 24-ü eynən "Seçilmiş əsərlər" də vardır, qalan 12-si isə yoxdur. "Dahilərin göz yaşı" kitabında Racinin on beş növhəsi çap edilib, bunlardan onunun arasında əfradlar verilir, bəzi əfraddan sonra "tamamiyi-növhə" və ya "baqiyi-növhə" qeydi var. Kitabdakı şeirlərin hamısı "Seçilmiş əsərlər"də var. (*əfradlardan başqa, H.Abıyev onları ixtisar edib.*)

---

[8] *Anar. Min beş yüz ilin Oğuz şeiri. Antologiya. I kitab. Bakı, 1999, səh. 462-467*

[9] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, səh.87*

[10] *Cənubi Azərbaycan ədəbiyyatı analogiyası. 3 cilddə. I c., Bakı: Elm, 1981.*

Kitabın tərtibçisi "bir dostunda S.Ə.Şirvaninin öz dəsti-xətti ilə köçürtdüyü "Növhələr" kitabını görmüşdüm", – deyir. Çox güman ki, orada da Raciyə məxsus mərsiyələr varmış. "Necə qan ağlamasın daş bu gün" kitabında şair haqqında yığcam məlumatla birgə 11 mərsiyəsi verilmişdir. Qazi Hacı Mirəziz Seyidzadənin "Kəlam" jurnalında "Azərbaycan mərsiyə ədəbiyyatı" və "Əbülhəsən Raci" adında iki məqaləsi çap olunmuşdur. Başqa bir antalogiyada 37 qəzəli verilmiş- dir.[11]

Milli Elmlər Akademiyasının kitabxanasında Racinin "Divani-Raci" adıyla

F 1457, F 1921

F 2111 – 1294; F 2630 – 1293

F 412, F 1457 və F 985 MIAZ79, f 2725–1247şifrəli "Divan" ları saxlanılır. Bunlardan ancaq F 1457-1290 F 2630-1293, F2111 – 1294 şifrəli "Divan"ında "(1247-1931) tarixdə təvəllüd yafte" şəklində qeyd var.

Qalan "Divan"ların əvvəli və sonu ya aşındığından, ya da olmadığından heç bir əlavə məlumat almaq olmur. "Divani-farsi" şəklində qeyd olunanların çoxunda ana dilində də nümunələr verilmişdir. Bəzən növhələrdə bəndlər arası ərəb dilində şeirlər salınıb.

Mənbələr və əldə olan "Divan"lar Racinin türkcə, farsca şeirlər divanının dəfələrlə Təbrizdə nəşr olunmasını təsdiq edir. Bu divanlara başqalarının, xüsusilə Dəxilin şeirlərindən nümunələr salınmışdır. Şair, yaradıcılığında bir çox məsələlərə toxunsa da, əsasən məhəbbət və dini mövzularda yazmışdır. N.Rizvanın "Raci lirikasının bəzi xüsusiyyətləri" məqaləsində Racini "qüdrətli... novator... XIX əsr poeziyasında qüdrətli yerlərdən birini tutan... bir lirik" şair kimi təqdim edir. Tehran-1340, Təbriz-1295-ci illərdə "Divani-Raci" adlı kitablarının çap olunduğunu göstərir.

[11] *Salatın Əhmədova, Teymur Əhmədov. XIX ısr Azərbaycan ədəbıyyatı. I cild. Poeziya. Bakı: Nurlar, 2009, səh.522-538*

Monoqrafiyada Racinin heç bir nəşrə düşməyən, Lənkəranda mərsiyəxanlardan əldə olunan 4 mərsiyə və 6 beytlik əfrad əlyazmaları da tədqiqata cəlb olunmuşdur.

Bunlardan əlavə əlimizdə Racinin Sirus Qəmərinin tərtibi ilə 1364-cü ildə Təbrizin "Firdovsi" nəşriyyatında çap etdirdiyi "Külliyati-Divani-Raci" qəzəllər, qəsidələr və mərsiylərdən ibarət əlyazmanın fotosurəti, bir də Əbulfəzl Əhmədlunun 1377-ci ildə "Divani-Raci-Təbrizi" və 1379-cu ildə nəşr etdirdiyi "Raci Təbrizinin növhə və mərsiyələri" kitabları vardır. Cənab Əbulfəzl Əhmədlinin kitablarının üstünlüyü ondadır ki, Raci ilə bağlı özünəqədərki nəşrlərin hamısına – Təbrizdə və Tehranda basılmış beş "Divan"a və Bakı nüsxəsinə sərf-nəzər edir, hərəsi haqqında fikir yürüdür, Racinin təsirləndiyi mənbələr, müasirləri, Racidən təsirlənənlər haqda qısa xülasə verir. Dövrü və mühitindən danışır. Ən önəmlisi də şairlə bağlı bu günə qədər məlum olmayan "Şəcərənamə"nin (fars dilindədir) verilməsidir. Burada Racinin özü və nəsil şəcərəsi haqqında ətraflı bilgilər verilir.

"Cənubi Azərbaycan ədəbiyyatı tarixi" kitabının Əbülhəsən Raciyə həsr olunan 43 səhifəlik oçerkini yazan Nazim Rizvan şairin həyat və yaradıcılığı ilə bağlı ətraflı, geniş və yeni bilgilər verir. Maraqlı mülahizələrlə çıxış edir ki, tədqiqatda yeri gəldikcə mötəbər mənbə kimi N.Rizvanın fikirlərinə və son illərdə çıxan başqa mənbələrə də istinad edilmişdir.

Türkiyədə çap olunan bir mərsiyələr toplusundan da istifadə edilmişdir. 809 səhifəlik bu antologiyada 209 şairin mərsiyəsi verilmişdir. Az qismi XVI-XVII əsrə, qalanları bizdəki kimi XIX əsrə aid olan bu şairlərin mərsiyələrinin dili, üslubu və məzmunu Azərbaycan şairlərinə çox yaxındır, hətta daha xəlqi və sadədir.[12]

---

[12] *Abdullah Yegin. Islami-elmi-edebi-felsefi yeni lüğat. İstanbul, 1997, 800 səh.*

# I FƏSİL

## ÜMUMİ MƏSƏLƏLƏR

### *1.1. Əbülhəsən Racinin həyatı, mühiti və dünyagörüşü*

XIX əsr Azərbaycan üçün siyasi, mədəni və iqtisadi baxımdan çox ağır, ziddiyyətli və mürəkkəb bir dövr idi. Rusiya isti sulara çıxmaq, Xəzərə və Qara dənizə yiyələnmək, İstanbulu almaq uğrunda apardığı çoxillik, davamlı və hiyləgər fəaliyyətində Azərbaycanla bağlı marağını, axır ki, bu əsrin əvvəlindən gerçəkləşdirməyə başladı. İranla apardığı müharibələrdə (1813 və 1828-ci illər) reallaşdıra bildi. "Fevralın 9-dan 10-na keçən gecə Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya ilə İran arasında müqavilə bağlandı".[13] Bu müqaviləyə əsasən Azərbaycanın bir hissəsi Rusiyanın, qalan hissəsi isə Qacarların işğalında qaldı.

İşğalın ilk günlərindən Azərbaycana koloniya, azərbaycanlılara kölə kimi yanaşmağa başladılar. "...Yerli vassal xanlara bir oyuncaq kölə kimi baxan Baş komandan onların təbəəliyində olanları insan yerinə qoymurdu"[14]. M.İbrahimov yazırdı: "...Rusiya ilə birləşmiş Şi mali Azərbaycan müstəbid şahlığın sınıq-salxaq arabasından qopdu, yeni həyat və təfəkkür tərzi ilə yaşamağa başladı"[15]. M.F.Axundov H.Zərdabiyə yazdığı məktubunda vəziyyəti

---

[13] *Türkmənçay müqaviləsi, Azərbaycan tarixi üzrə qaynaqlar. (tərtibçilər: S.S, Əliyarov, F.R.Mahmudov, F.İ,Əliyeva, L.L. Həsənova). Bakı: BDU. 1989, səh.277-286*

[14] *Azərbaycan tarixi. Bakı, 1996, səh.613-615*

[15] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi Ic., Bakı: Nurlar nəşriyyatı, 2009, səh.10*

belə izah edirdi ki, "...biz Rusiya dövlətinin himayəsi sayəsində... saysız basqın və talanlardan xilas olduq və nəhayət rahatlıq əldə etdik". Bu rahatlığın içində Şərqin ən zəngin Ərdəbil kitabxanası "qərb kübarlığınaxas" bir şəkildə talanıb Peterburqa aparılırdı. "Çar hökuməti ...bunları müstəmləkə şəklinə salmağa və Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün xammal bazasına çevirməyə çalışırdı"[16]. Zülmə dözməyən kəndlilər bəylərin torpaqlarından qaçaraq, ya şəhərlərə üz tutur, ya da dağlara çəkilib qaçaqçılıq edirdilər. XIX əsrin birinci yarısında Quba və Dərbənd qəzalarında Molla Nur, Yarəli, Hacı Məhəmməd, Naxçıvan mahalında Adıgözəl kimi cəsur kəndli qaçaqlar xalq içində cəsarət simvoluna çevrilmişdi. Rusiya Azərbaycanda belə qəhrəmanları məhv edir, sürgündə çürüdür, əzir; əvəzində Qurbanəli bəyləri, Xudayar bəyləri (M.Cəlil) yetişdirir, xalqı bunların əli ilə idarə edir, nəticədə xalq Məmmədhəsən əmiyə, Novruzəliyə (M.Cəlil) dönürdü. Belə "süzgəclə təmizləmə" yolu ilə Çarlıq Rusiyası bu zümrənin tərkibini öz xeyrinə dəyişdirirdi"[17]. Düzdür, Rusiya İrana nisbətən inkişaf etmiş ölkə idi, avropalaşmağa meyilli idi. Vətən müharibəsində rus ziyalılarının Avropadan gətirdikləri maarifçilik Qafqaza da yayılırdı. Arxa planda isə azərbaycanlıların milli ruhunun öldürülməsi, mənəvi-əxlaqi dəyərin aşınması, millətin köləliyə alışması, tarixi köklərindən və əsrlərdi bağlı olduğu şərq dünyasından hər cür bağların qoparılması işğal planlarının tərkib hissəsi idi. Bu cür gərgin və faciəli bir şəraitdə yaşamağa məhkum olan talesiz millətimiz ömür sürərək Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani, Aşıq Ələsgər və başqalarının timsalında öz ədəbiyyatını yaradırdı.

Şimaldakı vəziyyətdən fərqli olaraq Cənubda İran özünün durğunluq və sıxıntılı dövrünü yaşayır, ölkə şahlıq üsulu ilə idarə olunurdu. Bu üsul-idarəyə qarşı çıxan hərəkatlardan biri Babilik idi. Onun ən qüdrətli nümayəndəsi Tahirə Qürrətüleyn bu tari-

---

[16] *Azərbaycan ədəbiyyatı tarixi.3 cilddə. IIc., Bakı, 1960, səh.9*

[17] *Azərbaycan tarixi. Bakı, 1996, səh. 636*

qətin ideyalarını fars dilində yazdığı şeirlərlə təbliğ edib yayırdı. Halbuki hələ ana dilində şeir yazmaq ənənəsi mövcud olmamışkən, İ.Nəsimi belə sıxıntı çəkməmiş, öz ideyalarını ana dilində yazdığı şeirlərlə yayınlamışdı. Halbuki, bu dil I Pyotrun vaxtında da Şərqlə Rusiya arasında ümumanlaşma dili idi. "Bu dil ilə bütün Asiyanı başdan başa dolaşmaq olardı" (B.Marlinski). "1787-ci ildə gürcü çarından Rusiya baş komandanına dilәkçəni də bizim türkcədə yazırdılar"[18] . Rusiyanın hələ 1802-ci ildən kadr hazırlığı üçün açdığı məktəblərdə dilimizdə dərslər keçilməyə başlayır. 30 may və 25 iyul 1817-ci il tarixli imperator buyruqları Rusiyanın tabe etdiyi xalqlar içərisində məhz Azərbaycan türkcəsinə çevrilmiş və "Asiya sövdası üçün bacxanə qanunları" adı ilə 1830-cu ildə Sankt-Peterburqda çap edilmişdir"[19].

İşğaldan sonra Rusiyaya veriləcək təzminatın Güney Azərbaycan xalqının üzərinə yüklənməsi onların vəziyyətini çox ağırlaşdırırdı. A.Qriboyedovun özünü hədsiz sərbəst aparması, erməni general Madatovun İrandakı rus ordusuna başçılığı, xüsusilə Cənubi Azərbaycan türklərinə qarşı talan, təcavüz, soyqırımın, gələcək müsibətlərin başlanğıcı idi. "General Madatov... Mişkin və Əhəri qarət etməyə getdi. Mişkin vilayətini o ki var soyub qarət etdilər"[20].

Fətəli şahdan başlayaraq "Qacarlar sülaləsində Azərbaycan mühüm yer tutmuş, vəliəhdlər Azərbaycanda yaşamış, Cənubi Azərbaycan "Vəliəhdnişin" hesab edilmişdir. Təbriz isə "darüssəltənə" (səltənət evi) adlandırılmışdır"[21]. Təbriz ikinci paytaxt rolunu oynayırdı. "Xarici ölkələrin səfərətxanaları və işgüzar adamların iqamətgahları Təbriz şəhərində yerləşirdi"[22].

---

18 *Azərbaycan tarixi. Bakı, 1996, səh.724*

19 *Yenə orada, səh.725*

20 *Yenə orada, səh.616*

21 *Cənubi Azərbaycan tarixi oçerkləri (1828-1917). Bakı: Elm, 1985, səh.37*

22 *Azərbaycan tarixi. Bakı, 1996, səh.62*

Vəliəhdin və valinin (sahibe-divan) Təbrizdə oturması Azərbaycan əhalisinin vəziyyətini ağırlaşdırırdı. Lakin bu amillər hər nə qədər xalqın güzəranına mənfi təsir etsə də, Cənubi Azərbaycanın və onun timsalında Təbrizin İranın daxili və xarici həyatında mühüm rol oynaması burada bir çox sahədə inkişafa zəmin yaradırdı və Azərbaycan amilinin danılmaz olduğunu göstərirdi. Ticarət və iqtisadi əlaqələr genişləndikcə ölkəyə xarici kapital axını güclənir, yerli sərmayədarlarla əlaqələri inkişaf edirdi. "Cənubi Azərbaycanda xaricilər milli sərmayədarların iştirakı ilə on dörd qarışıq şirkət yaratmışdılar."[23]

Azərbaycanın şimalında rus əsarəti, cənubunda isə assimiliyasiya, milli dəyərlərdən uzaqlaşma, istibdada alışqanlıq, cəlladını sevmək duyğusu, müsəlman görünsə də, dinə dəxli olmayan fasık, bidətçi bir həyat tərzi formalaşır ki, bu da xalqın ədəbiyyatında özünü əks etdirirdi.

Cənubi Azərbaycanda sosial-iqtisadi və siyasi durum xalqın yaşayışını dözülməz etmişdi. Sənətkarlar, xırda tacirlər, kəndlilər içərisində güclənməkdə olan narazılıq artıq kütləvi çıxışlara səbəb olurdu.

"30-cu illərin sonu, 40-cı illərin başlanğıcında Təbrizdə, 1847-ci ildə Zəncanda, 48-ci ildə yenə Təbrizdə xalq ayağa qalxmışdı. 1850-ci ildə Zəncanda babilər üsyana başladı. 1858-ci ildə vəzirenizam Mirzə Fəzlullaha qarşı Təbrizdə üsyan alovlandı.

1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabəti ilə üzləşən tacirlərin kütləvi etirazı baş verdi... bu çıxış 4 ay çəkdi... Bunlar kortəbii çıxışlar idi. Yalnız 1848-52-ci illərdə genişlənmiş babi üsyanı öz ictimai-siyasi məzmunu və kütləviliyi ilə seçilirdi."[24]. Tarixən bir çox təriqətlər, fərqli dini dünyagörüşlər mövcud olmuşdur. Bunun xarici amillərlə bağlı səbəbi vardısa da, bir-iki

---

[23] *Cənubi Azərbaycan tarixi oçerkləri (1828-1917). Bakı: Elm, 1985, səh.104-117*

[24] *Azərbaycan tarixi. Bakı, 1996, səh.795-796*

mühüm daxili səbəbi də olmuşdur. Biri ədalətsiz dövlət quruluşu, xalqın dözülməz həyatı, digəri bundan irəli gələn xilaskar axtarışı. Bir də hökmdarların öz əməllərinə dini don geydirib "qanuniləşdirmə", dini hakimiyyətlərinə alət etmə cəhdləri idi. Hər yeni təriqətin başçısı əvvəl özünü şeyx, mürşid, təfsirçi və fitva verən, daha sonra Mehdi kimi görmüş, bəziləri də daha uzağa gedərək peyğəmbərlik iddiasında olmuşdur. Bunlardan biri də Babilik hərəkatı idi.1820-ci ildə Şirazda doğulan Seyid Əli Məhəmməd "Şeyxi" təriqətinin başçısı Seyid Kazımın vəfatından sonra özünü şeyx, daha sonra İmam Mehdinin vasitəçisi adlandıraraq "bab" ləqəbi (ərəbcə qapı) götürmüş, yeni bir təriqətin əsasını qoymuş və peyğəmbərliyə qədər "ucalmışdır". Görüşlərini "Bəyan" adlı əsərində əks etdirmişdir. Bab "Bəyan" adlı əsərində qeyd edir ki, hər yeni dövr qayda qanunları ilə yanaşı, yeni peyğəmbərini də zühura gətirir. 12-ci imamın zühuruna ümid də bu fikirlə səsləşir. Əslində hədisi-şərifdə Məhəmməd peyğəmbərdən (s.ə.s.) sonra əsrdə bir vəlinin, təfsirçinin, mücəddidin gələcəyinə işarə var. Təriqətçilər, yalançı peyğəmbərlər bu hədisi öz xeyirlərinə yozmuşlar[25].

Mirzə Kazım bəy də "Bab və babilər" əsərində qeyd edir ki, "vəd olunan imamın gəlişini müsəlmanlar artıq 900 ildir ki, gözləyirlər və bu müddətdə "nəhəng müsəlman imperiyasında" Babəkilər, Muğannalar, Abdulla, Əbu-Müslüm, Bəyazid, Mənsur, Şeyx Əhməd kimi bir çox "xilaskarlar" "tarix səhnəsinə çıxmış, şöhrət və ya qeyri-şöhrət uğrunda günahsız qurbanların qanını axıtmışlar"[26].

M.Kazım bəy o nəticəyə gəlir ki, bu hərəkatlar əslində daha çox azadlıq arzularından, haqq-ədalət istəyindən doğur və zülmə, istibdada, despotizmə qarşı yönəlir [27]. Babilər hərəkatı mütəşəkkil və uzunömürlü oldu. İdeologiyadan, təriqətçilikdən çıxıb

---

[25] *Cənubi Azərbaycan tarixi oçerkləri (1828-1917). Bakı: Elm, 1985, səh.41*

[26] *Мирзе Казым-Бек. Избранные произведения. Баку: Элм, 1985, стр.68*

[27] *Yenə orada, стр.102*

silahlı üsyanla nəticələndi və uzun illər İran dövlətinin başağrısına çevrildi. Dini baxımdan sapıq bir ideologiya olsa da, babilərin içindən azadlıq işinin yeni döyüşçüləri, 1905-11-ci illər məşrütə hərəkatının fəalları yetişdi.

XIX əsrin ortalarında İranda xalq ağır şəraitdə yaşayırdı və özünün mədəniyyətini, incəsənət və ədəbiyyatını yaradıb inkişaf etdirirdi. Cənuba Şimalın təsiri özünü göstərirdi və bu təsir tarixi reallığın ifadəsi idi. Dünyanın mütərəqqi mədəni hadisələri Rusiya vasitəsilə Şimali Azərbaycana, oradan da Cənuba nəql olunurdu: "XIX əsrin ortalarından Şimali Azərbaycanda baş verən mütərəqqi ədəbi-mədəni yeniliklər cənuba da siyarət edirdi" [28].

Cənubi Azərbaycanda maarif və mədəniyyət də inkişaf etməkdə idi. Bir qayda olaraq ibtidai təhsil verən məktəblər şəhərlərdə və bəzi iri kəndlərdə açılırdı. Şəhərlərin böyüklüyündən, əhalinin sayından asılı olaraq onların da sayı müxtəlif olurdu. XIX əsrin ortalarında Təbrizdə yüzə qədər məktəb açılmışdı. 1869-cu ildə Təbrizdə açılan "Mədrəseyi-Nasiri" adlı məktəbə qədər Cənubi Azər baycanda yeni tipli məktəb yox idi. Sonra "Təbriz dövlət mədrəsəsi" açıldı (1877). İran maarifinin atası sayılan Mirzə Həsən Rüşdiyyə isə 1888-ci ildə "Dəbistan" adlı "üsuli-cədid" məktəbi açmış və "Ana dili", "Vətən dili" dərsliklərini yazmışdır. Bundan əlavə "Cənubi Azərbaycanın maarifçilik tarixində... Cabbar Baxçaban, Hacı Məhəmməd Naxçivaninin böyük xidmətləri olmuşdur"[29]. Məktəblə birgə kitab nəşri və mətbuat da inkişafda idi.

İranda əlyazmalar şəklində kitab yazmaq, bu sahədə müxtəlif xəttatlıq, illüstrasiya kimi incəsənətin müxtəlif növləri üzrə zəngin və tarixi ənənə mövcud idi. Bu dövrdə "Cənubi Azərbaycanda rəssamlıq, nəqqaşlıq və xəttatlıq sahəsində Mirzə Məhəmməd Rza Təbrizi, Məhəmməd Hüseyn Təbrizi, Ağa Əbülhəsən

---

[28] *Məmmədov Xeyrulla. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: Yazıçı, 1987, səh.46-52*

[29] *Məmmədli P. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı: Elm, 2009, səh.17*

Urməvi və b. görkəmli ustalar yetişmişdi. Məhəmməd Hüseyn Təbrizi Bəhmən Mirzənin yazdığı "Təzkireyi-Məhəmmədşahi" əsərini gözəl nəstəliq xəttilə yazmışdır"[30]. Ancaq bunlar dövrün tələblərinə cavab vermirdi. Daşbasma ilə də olsa, mətbəələrə böyük ehtiyac var idi. Bu sahədə mühüm rolu olan Abbas Mirzənin göstərişi ilə Təbrizə 1812-ci ildə ilk çap maşını gətirilir və çap sənətinin mahir üstası Ağa Zeynalabdin Təbrizinin səyi ilə ilk (litoqrafiya) daş çapı mətbəəsi yaradılır (1817). 1820-30-cu illərdə tək Təbriz deyil, Urmiyyə, Ərdəbil, Qəzvin, Xoy şəhərlərində də bir neçə mətbəə fəaliyyətə başlayır.

Mətbuatımızın tarixi 1875-ci ildən hesablansa da, ilk qəzet Təbrizdə çap edilmişdir. Düzdür, hələ 1830-cu ildən Tiflisdə çıxan "Tiflisskie vedomosti" qəzetinə əlavə olaraq həftədə bir dəfə "Tatarskie vedomosti" adı ilə bir vərəqə nəşr edilməyə başladı. Bu səhifə fars və Azərbaycan dillərini yaxşı bilən M.A.Enikolopova tapşırılsa da, A.Bakıxanovun köməyindən də istifadə edilirdi. Bu qəzet 1832-ci ildə bağlanır, doqquz il sonra (1841-46-cı illər) "Zakavkasskiy vestnik"ə əlavə olaraq yenə azərbaycanca bir vərəqə nəşr olunur.

Təbrizdə 1858-ci ildə "Azərbaycan" adlı ilk qəzet (fars dilində) nəşr olundu. Bu qəzet "Təbrizdə hicri qəməri 1275 (1858)-ci ildə litoqrafiya üsulu ilə yayılmış aylıq qəzet idi. "Əxbari-Darüssəltaneyi-Azərbaycan", "Ruznameyi-millətin-məmləkəti Azərbaycan" və "Vəqaeyi-şəhri-məmləkəti-məhru-seyi-Azərbaycan" adları ilə də yayılmış və bir neçə il davam etmişdir"[31]. Əsrin 80-ci illərində Cənubi Azərbaycanda "Təbriz" və "Mədəniyyat" qəzetləri nəşr olunmağa başladı. Bunlar "Əkinçi"nin ideyalarını davam etdirirdilər. 1897-ci ildə Seyid Hüseyn xan Ədalətin redaktəsi ilə "Əlhədid", 1898-ci ildə isə Əliqulu Səfərovun redaktorluğu ilə "Ehtiyac" adlı qəzet nəşr olunmuşdur. Birincinin üç, (ikinci dəfə Seyid Mə-

[30] *Azərbaycan ədəbiyyatı tarixi.3 cilddə. IIc., Bakı, 1960, səh.18*

[31] *Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, səh.439*

həmməd Şəbüstərinin redaktorluğu ilə 1905-ci ildə çıxmışdır), ikincinin isə ancaq yeddi nömrəsi çap olunmuşdur. Təbrizdə hicri qəməri 1296 (1870)-cı ildə Kamal adlı bir şəxsin redaktorluğu ilə çıxan yarımaylıq "Təbriz", "...Sonralar "Kamal","Dəbistan", "Uxuvvət", "İttihad", "Məktəb", "Tehran", "Ədəb", "Gəncineyi-fünun" kimi qəzet və jurnallar nəşr olundu"[32]

Cənubi Azərbaycan mətbuatı İrandan kənarda da fəaliyyət göstərirdi. Məhəmməd Tahir Təbrizi və Mirzə Mehdi Əxtərin "Əxtər" qəzeti (1875-1895) Mirzə Əbdürrəhman Talıbov və Seyid Məhəmməd Şəbüstərinin redaktoru olduqları "Şahsevən" qəzetləri (1888-ci il) İstambulda, Zəimüddövlə Təbrizinin "Hikmət" qəzeti (1892-1906) Misirdə çap olunurdu. Bununla belə qeyd etmək lazımdır ki, Raci yaradılcılığının mətbuat aləmi ilə də, yeni tipli məktəblərlə də ciddi bir əlaqəsi olmamışdır. Çünki "Azərbaycan" qəzetindən başqa digərlərinin fəaliyyəti və yeni tipli məktəblər Racinin vəfatından sonraya düşür. Sadəcə o dövrün ədəbi prosesini ətraflı təsəvvür etmək üçün xülasəsini verməyi lazım bildik.

Dövr və mühit fərqli olduğundan Şimalla Cənubun ədəbiyyatı da fərqli idi. Azərbaycan ikiyə bölünəndən sonra Şimali Azərbaycanda ədəbiyyat dörd istiqamətdə inkişaf etməyə başladı:

1. *Maarifçi-realist ədəbiyyat,*
2. *Ənənəvi divan ədəbiyyatı,*
3. *Dini-fəlsəfi poeziya,*
4. *Aşıq ədəbiyyatı,*

Burada ədəbiyyatımızın Q.Zakir, M.Ş.Vazeh, M.F.Axundzadə, M.B.Nadim, B.Şakir, X.Natəvan, S.Ə.Şirvani, S.Nigari və b. qüdrətli nümayəndələri yetişdi. Bunlar bir tərəfdən klassik ənənələri davam etdirir, dini və fəlsəfi poeziyanı dövrə uyğun şəkildə inkişaf etdirir, bir tərəfdən maarifçilik ideyalarını təbliğ edib yayır, bir

[32] *Məmmədli P. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı: Elm, 2009, səh. 18-20*

tərəfdən də əsarətə, zülmə, haqsızlığa qarşı çıxış edir, buna uyğun satirik poeziyanı yaradıb inkişaf etdirirdilər.

Cənubda isə Əndəlib Qaracadaği, Seyid Əbülqasim Nəbati, Mirzə Mehdi Şükuhi, Məhəmməd Bağır Xalxali, Axund Molla Hüseyn Marağalı Dilsuz, Mirzə Əli xan Ləli, Sərraf Hacı Rza, Seyid Rza Sabir və b. müqtədir şairlər yetişmişdi. Onlar da quzeydəkilər kimi, məhrumiyyətlər içərisində olmuş, yurdundan uzaqlaşdırılmış, Mirzə Mehdi Şükuhi İrəvanda, Mirzə Əli xan Ləli Tiflisdə yaşayıb, oralarda da vəfat etmişdir. Öz "Sələbiyyə"sində "müsəlmanları iztiraba salan" Qurddan danışan Məhəmməd Bağır Xalxali "Qalıb qürbətdə əl çəkmə vətəndən" nəsihəti ilə çıxış edir. Onların da yaradıcılığında klassik ənənələrlə bərabər ictimai motivllər də mühüm yer tuturdu. Əlavə olaraq burada mərsiyə mövzusu da geniş yayılır, bunun güclü nümaydələri yetişir, "mərsiyə ədəbiyyatı" deyilən bir ədəbi məktəb yaranırdı. Bu ədəbiyyatda ictimai motivlər güclənirdi. Neçə on illər sonra həyata gələcək Ə.Talıbovlara, Z.Marağayilərə, "dur vəqti-səhərdir" haraylarına zəmin hazırlayırdı, onlara hamilə idi. Onu da demək mümkündür ki, ustad M.Şəhriyarın lirik dünyasında da bu dövrün lirizmindən, dil və üslub xüsusiyyətlərindən çox şey var.

Seyid Əbülqasım Nəbati o dövr ədəbiyyatında mühüm yer tutmaqla şeirləri Raci yaradıcılığı ilə bir çox cəhətdən oxşarlıq təşkil edir. O, ədəbiyyatımızın (Cənubda o, Şimalda Mir Həmzə Nigari) son sufi şairi, yazdıqlarını həm də yaşayan, yəni həyatını bir zöhd, təqva içərisində keçirən sənətkardır. Sufi-panteist fikirlərini ictimai həyatla, maddi aləmlə əlaqələndirən, klassik üslubu xalq ədəbiyyatı ilə birləşdirən bir şairdir. Şeirlərini həm heca, həm də əruz vəznində yazmışdır

Nəbati Azərbaycanın bir çox yerlərini gəzib dolaşmış, Əhərdə Şeyx Mahmud Şihabəddinin məqbərə və ziyarətgahında güşənişinlik etmiş, riyazətlə məşğul olmuşdur. "güşeyi-vəhdətdə sirri nihan" axtarmaq, mərifətullaha yetişmək, gizli sirlərdən xə-

bərdar olmaq, haqqa qovuşmaq üçün çırpınsa belə, ziddiyyətlərdən də xilas ola bilməmişdir. Haqqı dərk etmək, yaradılışın qayəsini aramaq yolunda şeytan vəsvəsəsindənmi, ya yetərincə elmi olmadığındanmı, arada ixlası qaçırdığındanmı, qədərincə zühd və takva yolunda duruş gətirə bilmədiyindənmi, ya nədənsə belə bır məqam sahibi farsca şeirlərinin birində daxili ziddiyyətlərini belə etiraf edir:

Gah ağıllı, gah divanə oldum,
Gah abad, gah viranə oldum,
Gah xərabət içində sufi,
Gah da meyxanə süpürgəçisi oldum...[33]

Həyatdan gələn buna bənzər ziddiyyətləri Raci yaradıcılığında da müşahidə edəcəyik. Onlar, M. F. Axundovun "Kəmalüddövlə məktubları" fəlsəfi traktatı, M. Ə. Talıbovun "Əhmədin kitabı" və "Kitab yüklü eşşək" əsərləri, Z. Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanı yazılan bir ədəbi mühitdə yatişirdi. Bunları və digər müəlliflərin əsərlərini ümumiləşdirən bir xüsusiyyət vardı: Şərq despotizmi dözülməzdir. Qacar şahlığı insanlıqdan kənar bir üsul-idarə qurmuşdur. Üzdə müsəlman ölkəsi kimi görünən İran cəhalət içərisində yaşayır. "Get vur sən də onun atının gözünü çıxart" (M.F.Axundov) hökmü verən bir xanla Xorasanda zəvvarları "qonaqlayan" din mənsubları (Z. Marağayi)[34] və "eşşək ağlı ilə" sahibindən daha ağıllı düşünən Çoşşa (Ə. Talıbov) tarixi hadisə olmasa da, reallıqdan uzaq deyildi. Bunlar tarixi həqiqətdən xəbər verirdi. Bəzi "Şeyxlərin şəyyad, abidlərin əbusən qəmtərir" (M.P.Vaqif) olduğunu görənlərin "imanlarında xələllərin görünməyi" (S.Ə.Şirvani) "məscidi meyxanə etmək istəməsi" (M.F.Axundov) mümkün idi. "Bu şairlər bir tərəfdən dünyəvi məhəbbəti tərənnüm edir, fanatizmə və yalançı ruhaniliyə qarşı çıxaraq, elm və mədəniyyəti tərifləyir, məscidi "bayquş yuvası" adlandıraraq, arif

---

33 *Nəbati S.Ə. Əsərləri.Bakı: Azərbaycan SSR EA nəşrləri, 1968, 332 səh. 94*
34 *Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Bakı: Elm, 1982,499 səh.*

adamları oradan uzaqlaşmağa çağırır, ikinci tərəfdən isə dini mərasimlərdə oxunan mərsiyə, növhə, sinəzən və mədhanələr yazırdılar. Özü də bu hal XIX əsr şairlərinin, demək olar, əksəriyyətinə xas olan bir xüsusiyyət idi. "... mövcud dini təəssübkeşliyi pisləyib, vaiz və zahidləri riyakar, ikiüzlü adlandıran Əbülhəsən Raci..."[35] də belə qarmaqarışıq bir mühitdə yaşamış və az bir qisminə yığcam şəkildə toxunduğumuz o cür zəngin ədəbi mühitlə əhatə olunmuşdu. Bir də özünə qədərki zəngin və cahanşümül ədəbi irsə sahib idi, onun xəzinəsindən bəhrələnmişdir.

"Yanıqlı növhə və sinəzənləri ilə məşhur olan mərsiyə şeirinin ikinci görkəmli nümayəndəsi"[36] Əbülhəsən (Mənbələrdə bu cöz *ü* ilə yazılsa da, *u* ilə yazmağı uyğun gördük. Çünki ərəb dilində *ü* səsi yoxdur, əbu oğul deməkdir. *Ü* ilə yazmaq sözü təhrif edir.) Raci haqqında ilk məlumatı S.Ə.Şirvaninin təzkirəsindən alırıq. "İsmi-şərifləri Əbülhəsəni-əlaqəbənd, bir cavandır xirədmənd, təvəllüdi-şərifləri 1250-ci sənədə darüssəltəneyi-Təbrizdə, əsri-Məhəmməd şah Qacarda vaqe olub"[37]. Məhəmmədəli Tərbiyət isə onun adının Hacı Mirzə Əbülhəsən olduğunu, hicri qəməri 1247(1831)-cü ildə doğulduğunu yazır[38] . F.Köçərli isə 1247-1252-ci illərdə Təbriz şəhərinin Xiyaban məhəlləsində doğulduğunu qeyd edərək Səbur adlı şairin onun ölümü ilə bağlı (elə ölən ili) farsca yazdığı bir növhəni olduğu kimi vermişdir[39]. Cavad Heyət 1247-ci ildə,[40]. İran İslam Respublikasında nəşr olunan "Yol" adlı məcmuədə Məhəmməd Rza Kərimi adlı bir müəllif isə 1228-ci (1812) ildə, M.İbrahimov 1251-ci (1835) ildə[41] anadan olduğunu yazır. ASE-də bu tarix 1835-dir.[42], AMEA kitabxanasında F.2725

[35] *XIX əsr Azərbaycan şeiri antologiyası.Bakı: Şərq-Qərb. 2005, səh. 13*
[36] *Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. II c.EAAzF. Bakı: 1944, 395 səh. 98*
[37] *Şirvani S.Ə. Əsərləri.3 cilddə. IIIc., Bakı, 1974. səh. 181*
[38] *Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, səh. 271*
[39] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 347*
[40] *Heyət Cavad. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: Yazıçı, 1993, səh. 104.*
[41] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, səh. 116*
[42] *Azərbaycan Sovet Ensiklopediyası. VIII c., Bakı,1984, səh. 88*

şifrəsi ilə saxlanan (Raci. Ğəzəliyyat farsi və türki. Tehran.1340) bir divanında 1247 (1831) "təvəllüd yafte" şəklində qeyd var. "Necə qan ağlamasın daş bu gün"[43]kitabında 1831-ci ildə Təbrizin Xiyaban məhəlləsində doğulduğu göstərilir.

Göründüyü kimi, fikirlər müxtəlifdir. S.Ə.Şirvani 1834, C.Heyət 1831, M.Tərbiyat 1831, İ.Qəribli 1831, F.Köçərli 1831, M.İbrahimov 1835, ASE 1835, "Dahilərin göz yaşı" kitabında 1835, M.R, Kərimi 1228 (1812); yuxarıda qeyd olunan bir "Divan"da təvəllüd tarixi 1831-ci il göstərilir. Nazim Rizvan (1834-1875)[44] kimi qəbul edir. Sirus Qəmərinin çap etdirdiyi "Külliyyati-Divani-Raci"[45] kitabının son səhifəsində "dər sale 1247 şəhre Təbriz təvəllüd yaft və 64 sal zindegi karde" qeydi var. Raci əsərlərinin ən son Təbriz nəşrlərinin tərtibçisi Əbulfəzl Əhmədlu əldə olan "Divan"ları, haqqında yazılanları və tapdığı "Şəcərənamə"ni incələyərək şairin 1247-ci ildə Təbrizdə doğulduğunu, 1293-cü ildə vəfat etdiyini qeyd edir[46]. "Seçilmiş əsərlərin" tərtibçisi Hafiz Abıyev də bu məsələyə toxunaraq göstərir ki, şair, Kərimiyə görə 64 il, digərlərinə görə isə 40-45 il yaşamışdır. Tərtibçi həm də şairin əsərlərinə istinad edir və fikrini belə yekunlaşdırır:

"... Racinin "Divan"ında elə beyt və misralara rast gəlmək olur ki, şairin 40-45 deyil, bəlkə də bir az artıq yaşadığını təsdiq edir"[47]. Düzdür, müəyyən mənada bu fikirlə razılaşmaq olar. Çünki çox vaxt hər müəllifin tərcümeyi-halının ən mötəbər mənbəyi onun yaradıcılığı olur. Bəzən hətta əbcəd hesabı ilə dəqiq qeydləri də olur. Amma yaşına işarələr rəmzi xarakterdə də ola bilər[48]. Çox

---

43 *Necə qan ağlamasın daş bu gün, (mərsiyələr,sinəzənlər,qəsidələr) (tərtibçi Islam Qəribli,Teymur Kərimli). Bakı: Yazıçı, 1993, səh. 3*

44 *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh.35*

45 *Külliyati-Divani-Raci, (t.S.Qəməri)Təbriz, Firdos kitabxanası, 1364. 196 səh.*

46 *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 17*

47 *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 5*

48 *Hüseyn Sədrəddin Əbülhəsən Racinin cənub nəşrləri. Journal of Qafqaz University. Philologi, and Pedagogi. Bakı, 2013,(163-168), səh.120-126*

vaxt cavanlar da "qocaldıq" deyə nəyəsə işarə edirlər. Bu hal şairdə də ola bilər, ona görə bu nöqtə həssaslıq tələb edir. Raci "pir vəqtindən", "kəmalə ərdiyindən", "saqqalının səfidliyindən", "rənginin solmasından", "özünün qocalmasından, amma könlünün cavan qalmasından", "qocalıb qamətinin xəm olmasından" danışır. Bəzən isə bir bəşər övladı kimi daim dəyişdiyini, maddədən maddəyə keçdiyini, torpaqdan meyvəyə, oradan də şərab şəklində qaba daxil olduğunu, amma bu şərablıq xislətinin çoxdan torpaqda mövcud odluğunu, şərab kimi isə indi zühurunu dilə gətirərək fəlsəfi ümumiləşdirmələr aparır:

Mən o xakəm ki, bəni-takdə müddətdi varam
Saqiya, indi zühur eyləmişəm səhbadə[49].

Adı çəkilən müəlliflər qənaətlərində mənbə göstərmirlər. Təkcə F.Köçərli Racinin vətəndaşı və həmməclisi olan bir şəxslə dəmir yolunda tanış olmasından söhbət açır: "Ol cənab ziyarətə gedirdi və Racini görmüşdü. Racinin əxlaqü adabından əhvalpürsan oldum. Məzkur hacı Racini çox tərif edib, ziyadə xoşxülq, xoşrəftar və xoşsöhbət olduğunu söylədi. Mərhumun əxlaqi-pəsəndidələrindən birisi də onun artıq mütədəyyin, vətənpərəst və həmçinin hirsü təmədən ari, cümləyə yaxşılıq edən dərvişsifət və əhliqənaət, pakdamən bir vücud olması barədə bir beytdə deyibdir:

Qalıb bu pənd mənə pirimdən:
Həmişə zində bu aləmdə niknam qalır"[50].

F.Köçərli də şairin yaradıcılığına istinad edərkən "Racinin dostluqda, vəfada və vətənpərəstlikdə sabitqədəm olmağına bu şeirləri şəhadət verir:

Sər fədaye-dust kərdən pişe-ma doşvar nist,
Danəm in naqabeliha qabele-ezhar nist.

Dustan, əfğane-Raci başəd əz hobbe-vətən,
Mouseme-qol bolboli danəd ke, dər qolzar nist"[51].

---

[49] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 61*
[50] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 350*

(Bizlərdə dosta baş fəda etmək çətin deyil. Bulirəm ki, bunun izharı qabiliyyətsizlərə mümkün deyil. Ey dostlar, Racinin naləsi vətən sevgisindəndir. Bülbül bilir ki, mövsümü olmadığı üçün gül gülzarlıqda deyil.)

Mənbələrdə Racinin ailə həyatı haqqında da müəyyən məlumatlar verilir. M.Tərbiyət şairin Əbdulməcid adlı oğlu olduğunu və Naci təxəllüslü ilə şeir divanının olduğunu bildirir[52]. M.Tərbiyət Nacinin "Divan"ını görübmüş, amma təəssüf ki, barəsində heç bir məlumat verməyib. Şairin ailə həyatı ilə bağlı bu günlərə qədər ən ətraflı bilgi əlimizdə olan Ə.Əhmədlunun təqdim etdiyi "Şəcərənamə"dir. Oradan məlum olur ki, bu sülalə əslən Xoydandır. Cəbəlu Amul nəslindəndir. Ulu babaları Şeyx İbrahim Cəbəlu Amulidir. Orada nəslin ardıcıllıqla altı övladının adı sıralanır. Bunlardan beşincisi Hacı Şeyx Məhəmməd Cəbəlu Amulidir. Qıtlıq və qarışıqlıq üzündən Şeyx Məhəmməd mülklərini sataraq qardaşı Həsəni də özü ilə götürüb Zunuza gəlir. Şeyx Məhəmmədin altı uşağının altıncısı Hacı Əli Əkbər Zunuzidir. Onun da doqquz övladı olur. Bunların altısı cavankən ölür. Qalanları Əbul Huseyn, Əbul Həsən Raci və İbrahimdir. Bu qardaşlar birlikdə iyirmi il əlaqəbəndliklə və ticarətlə məşğul olurlar. Sonra kiçik qardaşları Kərbəlayi İbrahim onlardan ayrılıb Həmədana köçür. Raci bu ayrılığı şeirlərində kədərlə dilə gətirir[53]. Ə.Əhmədlu kitabında Səburun mərsiyəsini də vermiş və orada Racinin Əbdulməcid Nacidən başqa, İbrahim adlı bir oğlu və Səriyyə adlı bir qızı da olduğunu qeyd etmişdir. Səriyyə əmisi İbranimin oğlu Məsih ilə evlənmişdir ki, o da sonra doktor Məsihülmülk adı ilə tanınmış və sözü gedən "Şəcərənamə"ni də o üzə çıxararaq bir dostuna göndərmişdir[54]. Racinin qadını Fatma xanım özündən əvvəl vəfat etmişdir.

---

51 *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh.350*

52 *Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, səh.271*

53 *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh.19*

54 *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh.19*

Racinin əsərləri onun zəngin ədəbi mühitlə əlaqəli olduğu, mükəmməl təhsil aldığı və o dövrün elmlərinə dərindən bələd olduğundan xəbər verir. Əbulfəzl Əhmədlunun yazdığına görə "Şairin oğlu da atasının yolunu davam etdirmişdir. Əbdulməcid Xiyampuran öz "Fərhəngi səxnuran" kitabını farsca yazan şairlərə həsr etmişdir. Orada Əbdulməcid Nacidən də ad aparmışdır. Buradan görünür ki, Naci ana dilində yazdığı şeirlərdə olduğu kimi, farsca şeirlərində də atasının layiqli davamçısı olmuşdur"[55]. Hələ mərsiyələri nəzərə almasaq, sadəcə lirik şeirlərində Racinin yetərincə dinə bağlı olduğu, yüksək din bilgisi aldığı, din tarixini gözəl bildiyi məlum olur. Şeirlərində Bəyazid Bəstami, İbrahim Ədhəmi kimi nəhəng din alimlərinin adını çəkir. "Namaz qılma, oruc tutma" deyən bidətçilərə rişxənd eləyir.

Gəlibdü ərsəyə indi qəribə ariflər,
Olubdu hərə bir Bayazidi-Bəstami.
...Namaz qılma, oruc tutma, sahibi-əmr ol,
Haçan deyib bu sözü Bayazid Bəstami?[56]

Yeri gəlmişkən, qeyd edək ki, Bayazid Bistami fitva verə biləcək qədər savada malik tabiinlərdən olan din alimidir. İbrahim Ədhəm haqqında isə ayrıca bir hekayəti vardı. Rəvayətə görə Rabiə əl-Ədəviyyə adında zühd və takva sahibi bir qadın Haq yolunda olmazın müsibətlərə, işgəncələrə və təzyiqlərə məruz qalır, ancaq heç nə onun Allah sevgisinə qarşı dura bilmir. Nəticədə kəramət və şəfaət sahibi olur. Rabiənin bu məqamı qarşısında sınan hökmdar onu köləlikdən azad edir. Azad olan gün ziyarət vaxtına düşdüyndən ləngimədən Məkkəyə üz tutur. Ancaq yol uzaq, özü yayaq və yorğun, vaxt az olur. Təvaf günü özünü Kəbəyə çatdıra bilməyən Rabiə ağlar gözlə dua eləməkdə, eyni vaxtda Kəbəyə özünü çatdıran, amma çox az gecikən İbrahim Ədhəmi Kəbənin bomboş olduğunu gördükdə heyrətdən donur, lakin

[55] *Yenə orada, səh.19*
[56] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.255,256*

ilhamla ona agah olur ki, bütün zəvvarlar Kəbə qarışıq Allahın izni ilə Rabiənin pişvazına çıxıb. Rabiə olan yerə gedən İ.Ədhəmi artıq onu yalqız görüb “qarşılamaq üçün göndərildiyini” bildirir.

İbrahim Ədhəm vaxtilə Bəlx valisi olmuş, ancaq Allaha qulluğu hər şeydən üstün tutuğuna görə hər şeyi atıb Məkkəyə gedir və Kəbədə haqqa qulluq edir. İllər keçir, bir Həcc günü Kəbədə oğlu ilə qarşılaşır. İllərdi görmədiyi oğlunu qucaqlayır. Atalıq şəfqəti cuşa gəldiyi anda Allah sevgisinə xələl gələcəyi qorxusundan sarsılır və “Allahım, sənin sevginə şərik çıxacaq kimsəni məndən al!” deyə dua edir. Duası qəbul olunur və oğlu qolları arasında canını tapşırır. Raci məhz qəlbi Allah sevgisi ilə dolu olan belə bir vəli ilə Rabiə kimi bir övliyanın qarşılaşdığı səhnəni qələmə alır. Yaradıcılığından görünür ki, Raci özü də elə bir ömür yaşayıb. Dünya nemətlərində gözü olmayıb. Bunu F.Köçərlinin həmsöhbəti də təsdiq edir.

Sufiyi-eşqəmü xəlvətgahi-qəm içrə müqim,
Yar adı virdi-zəbanimdə, riyazət çəkirəm[57].

Ona görə “namü nişanının çıxmağını istəyən simüzəri tərk edib əşar, qəzəl cəm eləməlidir”. “Desəm Raciyə şeir yaz,hey yazar, Pul adı gətirsəm biləkdən qurur”[58].

Bundan sonra “bimar sanılmayan” ustadı Füzulisayaq:

Səqqalı çıxub, rəngi solub, hüsni gedibdür,
Canənə baxun, indi hələ nazə qoyubdur.

yaxud:

Sərf oldu, Raci, ömr belə ahü-zar ilən,
Heç bilmədim nə növ ilə gəldim cəhanə mən[59].

və ya

---

[57] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 31*
[58] *Köçərli F. Azərbaycan ədəbiyyatı.2 cilddə. I c., Bakı: Elm, 1978, səh. 350*
[59] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 51, 61*

Sədparə könlümü necə bir yerə cəm edim,
Hər parəsindən ötrü min il cüstcu gərək[60],

– deyə şikayət edir.

Raci bu yolu çox erkən tutur, sona qədər də tərk eləmir. Uşaqlıqda "pir ətəyindən" tutur ki, kəmalə yetəndə də onun əlindən bir "növcavan" tutsun."Pir ətəyindən" "tifil"likdən tutan şair bunu bilə-bilə, məqsədli şəkildə edir və dediyindən bəlli olur ki, bu fikrə tifillikdən gəlibsə, demək elə bu vaxtdan "kəmalə yetmiş"miş.

Bu fikrə yar ətəgin, Raci, tifl ikən tutdum,
Bu pir vəqtə əlimdən o növcəvan tutsun.[61].
Lətafəti-zənəxi-yari Racidən soruşun,
Onun için də bu səqqalin eyləyibdü səfid[62].

Könlü cavan qalsa da, Yar yolunda çəkdiyi cəfalar artıq onu qocaldıb. Bütün bunlarla bərabər şair "nə qədər cəhd eləsə də qulluğunda bir qüsur olacağından" narahatdır. İnsanın kamilləşməsinin asan olmadığını, ən kamil insanın belə hər an büdrəyə biləcəyini, "riyavü həsəd"dən qurtarmağın müşküllüyünü bildiyindən yenə "İmdad elə, ya Rəb, sən özün, bimədədüğ biz"[63] deyərək üzünü dərgaha tutur.

Ə.Raci şeirlərində Ağa Bağır ağanın adını çəkir, onun məclisindən danışır. Bu həmin Ağabağırdır ki, F.Köçərli Qumri haqqında danışarkən müxtəlif mərsiyəxanlar içərisində Bağırın da adını andığı şeirdən bir parça verir[64]. Bu məclislər ədəbi məclisdən ziyadə əza məclisləri idi. Belə məclislərdə Racinin öz yeri

[60] *Yenə orada, səh. 68*
[61] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 191*
[62] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 267*
[63] *Yenə orada səh. 88*
[64] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 319*

var. Zəmanə heç kimi güldürməyib. "Kimsənin kamincə dövr etmüb bu çərxi-kəcrəftar". Şair özünün də bir insan olaraq günahlardan xali olmadığını bilir. Əlacı da dərgaha üz tutaraq ağlayıb yalvarmaqda görür.

Qərqi-günah olubsan başdan ayağə, Raci,
Yox göz yaşundan özgə bu əldə bir bəhanə.

"Hərə bir dərd ilə bu dərgaha dərmana gəlib", "Ey kaşaniqəm bülbüli-Raci, elə nalə" deyən,"Allahdan onu zəlil etməməsini" və hər il matəm tutmağı arzulayan Racinin əza məclisi bu şəkildədir:

Əhli-zəminü asiman gör necə sərbəsər yanar,
Bəzmi-əzadə Racinin şöleyi-ahü zarinə.

Şair heç bir əməlin əvəzsiz qalmayacağını, xeyrin mükafatla, şərin cəza ilə nəticələnəcəyini gözəl bildiyindən bu qənaətə gəlir:

Əkə hər kimsənə göz yaşı ilə töxmi-əməl,
Raciya, həşr günündə birə min hasil olur.
Əcrin alur o kəs kim, ağlar Hüseynə, Raci,
İstər bu aləm olsun, istər qiyamət olsun[65]

Bu matəmdə nəvaxan olanların üzünə "dəri-rövzeyi-rizvanın" açılacağını, göz yaşının məşhər günü gövhər yerinə xərc olacağını düşünərək yuxarıdakı hökmləri verir. Çünki "Bəzli-can canan yölunda...bu qism olur"

Şair əhli-beytə arxalanmağın Allaha arxalanmaq olduğunu bildiyindən çox vaxt İmam Hüseynə xitab edir. Daim Allahdan qanad istəyir ki, Kərbəlaya güzər eləsin, gözyaşı ilə o səhranı suvarsın, o "şeşgüşəni" ağuşuna bassın. "Ərbabi-məanilər" məna qapılarının Babüllah ilə fəth olunduğunu biliblər. Ona görə də *"aşiqi-*

[65] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 193, 144, 218, 148*

*sadiqlərin mütləq fənafillah"* olmaları vacibdir ki, surətdən keçsinlər, məna onlara kəşf olunsun[66].

Dil istər ona kəşf ola gər babi-məani,
Raci, belə tövcih edüb ərbabi-məani,
Babülillah ilən fəth olu hər babi-məani
Feyzi-nəzəri-babi-Şübeyrü Şəbər istər[67].

Raci klassik ədəbiyyatdan bəhrələnirdi, onun təsirində idi, eyni zamanda dövrünün ədəbi mühitinin əhatəsində idi, onun abhavası ilə yaşayıb yaradırdı. Dərdli şair idi. Kərbala şəhidlərinin eşqini ruhuna hopdurmuşdu. Həyatı boyu oralara-o müqəddəs məkanlara can atırdı. Ona görə də yaşı əlli olmamış artıq qocaldığını, dərddən belinin büküldüyünü, saçlarının ağardığını bildirir və "Kərbəlanı qismət elə Raciyə hüzzar ilən", – deyir.

Ağlaram, ta nə qədər cismdə canım vardur,
Oxşaram mən səni ta nitqi-bəyanim vardur.
Raciyəm, bir sənə aləmdə gümanim vardur,
Ya Hüseyn, istə bu il vəqfeyi-qurbanə məni.

deyə yalvarır. Arzusu baş tutmayanda səbrə üstünlük verir.

Raci, əgər bu il sana
Olmadı qismət Kərbəla
Səbr et gilən, ey binəva,
Əssəbri miftəhül fərəc[68].(*səbr hər xoşbəxtliyin açarıdır*)

Şair beləcə həyatı boyu bir Əhli-beyt aşiqi, Allah aşiqi kimi bir islam həyatı yaşayır, müqəddəs yerləri görməyə can atır və bir gün zəvvarlara qoşulub Həccə ziyarətə gedir. "Şəcərənamə" də Həccə getməyi ilə də bağlı maraqlı bilgilər var. Qeyd etdiyimiz kimi, bu üç qardaş ip toxuma (əlaqəbəndlik) işi və ticarətlə məşğul olmuşlar. Bu barədə yeri gəldikcə şeirlərində söhbət açır.

---

66 *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 93*
67 *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 91*
68 *Yenə orada, səh. 222, 237*

Ziyarət ərəfəsi topladıqları pul ancaq birinin həccə getməsinə imkan verir. Raci çox istəyir ki, bu haqdan böyük qardaşları Hüseyn istifadə etsin. Ancaq sonda Racinin getməsi qərarlaşdırılır. Orada Raci ilə gedən başqa qohum və tanışlarının da adı çəkilir[69]. S.Ə.Şirvani yazır ki, "Tarixi-hicrətin 1292-minci ilinin əvaxirində şahzadeyi-əzəm Fərhad Mirzə beytüllahül-hərамə azim olan ili Məkkeyi-müəzzəməya müşərrəf olmüşdur. İtmami-ə'maldən sonra cənab Fərhad Mirzə ta'beləri ilə Cəddə yolundan vapor ilə İstanbul yoluyla müraciət edirlər. Amma cənab Hacı Əbülhəsən Cəddədən rakibi-səfineyi-atəşi olub, dəryayi-Şəbdən rəvaneyi-Ətabati-aliyət ikən təlatümi-tufandan səfinələri şikəst olub, ol gövhəri-ğülzümi-ədəb və ol afitabi-bürci-həsəb dəryayi-şəbdə əhbaları (Məhərrəm ayının 10-u,1293-ci sənədə) ilə qərq oldular"[70]. Burada bir maraqlı məqam onların şahzadə Fərhad Mirzə ilə Həccə getmələridir. İşin daha qəribə tərəfi ziyarətdən sonra yollarının ayrılmasıdır. Belə ki şahzadə Fərhad Mirzə təbəələri ilə İstanbul yolunu tutur, Raci isə nədənsə Cəddədən Qülzümə doğru gedir. Ədəbiyyatşünas N.Rizvana görə Raci "Hafizin "Divan"ından fal açmış, gördüyü ilk

Eşq dərdinə, dəniz meykədə, mən qəvvasam,
Cummuşam burda, görən bir də hayandan çıxam

beytini oxuyub İstanbul yolundan əl çəkir və Cəddədən gəmiyə oturub Qırmızı dənizin Bab-əl-Məndab boğazında tufana düşür və on məhərrəm 1292 (17.02.1873)-ci ildə 300 nəfərlə birgə qərq olur"[71].

M.Tərbiyət isə ziyarətin 1293-cü ildə olduğunu və S.Ə.Şirvani kimi Səburun mərsiyəsindəki "əya qəffar" ifadəni maddeyi-tarixə çevirərək hicri 1293-cü ildə Qülzüm (Qırmızı) dənizdə bo-

---

[69] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 18*

[70] *Şirvani S.Ə. Əsərləri.3 cilddə. IIIc., Bakı, 1974. 499 səh. 181*

[71] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, səh. 251*

ğulmasını qeyd edir. M.İbrahimov da bu fikirdədir, ASE-də də qərq ili 1293(1876), ancaq yeri Qırmızı deyil, Aralıq dənizi göstərilir. F.Köçərli və C.Heyət 1292(1875) rəqəmini qəbul edirlər. Ə. Əhmədlunun kitabında verdiyi Səburun mərsiyəsində isə hər şey aydındır. Bunu mötəbər mənbə kimi qəbul etməmək olmur, çünki hələlik bundan və "Şəcərənamə"dən başqa əlimizdə başqa dəlil yoxdur. Bir də lerikli Molla Qələmdən qalan əlyazmasıdır ki, orada da "Divan"ın yazılma tarixi 1292 göstərilir. Bütün qaynaqlar da "Divan"ın ölümündən dərhal sonra tərtib və nəşr olunduğunu göstərir. Səburun mərsiyəsi də "Qələm ənbərin şəmim Səbur, Yafət əz kəlimə aya ğaffar".

قلم عنبارین شمیم صبور یا فت از کلمه آیا غفّار [72]

beyti ilə bitir. Bizcə, burada illə bağlı fərqlərdə sadəcə diqqətsizlik olmuşdur. Çünki Səbura istinad ətsək (bütün mənbələr də buna istinad edir.), 1293-ü qəbul etməliyik. Fərqlilik sadəcə "əya qəffar" ifadəsinin "əif"lə, ya da "ye" ilə başlamasındadır. "Əlif" in əbcəd hesabı ilə rəqəmi **1** olduğundan sayılıb-sayılmaması da bir ilin artıb-azalmasına səbəb olur. Adı keçən müəlliflər ərəb əlifbasını gözəl bilirdilər. Bu baxımdan bəzilərinin "aya" sözündəki "əlif"i nəzərdən qaçırmaları təəccüb doğuruir. Dənizə gəldikdə isə buradakı fərqlilik müəlliflərin o vaxtkı coğrafi bilgiləri ilə bağlı ola bilər. Əgər S,Ə.Şirvani həm Qülzüm, həm də "dəryayi-Şəb" (Qara dəniz) deyirsə, onda ASE-yə görə bu dənizin qonşusu Aralıq dənizi ola bilər. Bunun da Qırmızı dənizlə əlaqəsi yoxdur. Bu iki dənizi birləşdirən Süveyş kanalı isə o vaxt mövcud deyildi. Deməli, Raci ya Qırmızı dənizdən cənuba doğru hərəkət edib İran körfəzinə daxil ola bilərdi, ya da şimala doğru getsə, dənizin sahilində quruya çıxmalı və quru yolu ilə Aralıq dənizinə qədər getməli, oradan da, Qara dənizə və Osmanlının sahillərinə çıxaraq yenə quru yolu ilə vətənə dönməli idı. Bu baxımdan Qırmızı də-

[72] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 19*

nizdən cənub marşurutu ilə getməsi ağlabatandır və bu versiyanı qəbul etmək lazım gəlir. Əlavə, Cavad Heyət də qərq olduğu yeri Qülzüm[73], İ.Qəribli də[74] Qırmızı dəniz olaraq qeyd edir. Seyid Əzim Şirvanidəki "dəryayi-Şəb" ifadəsi rəmzi də ola bilər. Nəhayət Racinin olum və ölüm tarixləri ilə bağlı bu nəticəyə gələ bilərik:

1. *Həm doğumu, həm də ölümü ilə bağlı fikirlərdə fərqlilik və diqqətsizlik var.*
2. *Bəzi mənbələrə əsaslanıb doğumunu 1247 (1831), ölümünü də 1293 (1876) qəbul etsək, onda cəmi 45 il yaşamış olur. Halbuki, bəzilərində 64 il yaşadığı qeyd edilir.*
3. *Şairin öz əsərlərində də qocalıqdan danışılır, ancaq bu yaş, il olaraq deyil, ruhən, qəlbən "zəmanədən" qocalması mənasına gəlir.*
4. *Bəzi kitabların üzündə verilən şəkillərdə də[75]-də 70-80 yaşında,[76] -də isə hardasa 40 yaşında təsvir olunur.*
5. *Ziddiyyətləri yekunlaşdıraraq şairin ölümünü 1876, yaşının 45-47, təvəllüdünün isə buna görə 1829 və ya 1831 olduğunu qəbul etmək olar.*
6. *Raci öz zəhməti ilə dolanmış, Allaha, dinə bağlı təqva əhli kimi bir həyat yaşamış, bu səbəbdən onun lirik şeirlərində yüksək bədii təfəkkür, estetik zövq, mərsiyələrində Əhli-beytə qarşı sevgi, haqqa qulluğun mahiyyəti duyulmaqdadır.*

Belə mürəkkəb və ziddiyyətli bir dövrdə, çox da uzun olmayan zəngin bir ömründə şairin dünyagörüşü də ziddiyyətli, olmuş, yaradıcılığına öz damğasını vurmuşdur. Bu ziddiyyətlilik ya-

---

[73] *Heyət Cavad. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: Yazıçı, 1993, səh. 104*

[74] *Necə qan ağlamasın daş bu gün, (mərsiyələr,sinəzənlər,qəsidələr) (tərtibçi Islam Qəribli,Teymur Kərimli). Bakı: Yazıçı, 1993, səh. 49*

[75] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 69*

[76] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 28*

radıcılıq boyu şairi izləyir, fikrin ifadəsinə təsirsiz qalmır, üslubuna qədər bir çox sahədə müəyyənedici rollardan biri olur.

Şairlərin dünyagörüşü, estetik idealı yaradıcılığının əsas tərkib hissəsi olmuşdur. Qələm əhlini dünya, insan, bunların yaradıcısı, həyat-ölüm, ölümsüzlük və əbədiyyətlə bağlı məsələlər daim düşündürmüş və bu sahədə müxtəlif dünyagörüş formalaşmışdır. Baxışlar nə qədər fərqli və müxtəlif olsa da, əsasən iki bir-birinə zidd dünyagörüş aparıcı olmuşdur: Mifoloji-dini və fəlsəfi-elmi. Yəni Allahı hər şeyin yaradıcısı və idarəçisi olaraq qəbul etmək; bir də yaradıcılıq qabiliyyətini maddəyə, təbiətə, səbəblərə, mütləq ideyaya bağlamaq. Tarix boyu bu iki qütb arasında kəskin qarşıdurma olmuş, "namərd ilə mərdanəni" ayırd etmək mümkün olmamış, qanlı müharibələr, repressiyalar cəmiyyəti didib çeynəmişdir. Əslində dünyanın izahında bu sistemlər hakim siniflərin, qüdrətli dövlətlərin əlində ideoloji silaha çevrilməsəydi, bu qədər haqsızlıqlar olmaz, günahsız qanlar tökülməzdi. Dünyanın elmi-fəlsəfi izahında fakt var, maddə var, ağlın gözə enməsi var. Görünən, duyulan materiyanın izahına cəhd var. Maddəni ilkin qəbul etdiklərindən ona bağlılıq, mümkün qədər onu daha çox mənimsəmək uğrunda mübarizə var. Görünməyən, əqlin irişmədiyi pərdə arxası, metafizik dünyanın inkarı var.

Dində həm görünməyən dünya, metafizik aləm və onun izahı var, həm də fəlsəfənin izah edə bildiyi, məntiqin qəbul etdiyi elmlərin əsası var. Xüsusən Qurani-Kərimdə bu günkü elmi kəşflərin hamısına işarə tapmaq mümkündür. Başqa sözlə, ən böyük elmi kəşflər, ən böyük alimlər islamiyyətin gəlişindən sonra Quran və Hədislərdən yan keçə, ona biganə qala bilməyiblər. İşin sirri bundadır ki, Quranda hər şey şifrələrlə, rəmzlərlə, gizli şəkildə verilir. Çox vaxt da böyük bir elmi kəşfin əsası olan bir ayənin sirrinin vaxtında açılmamasının səbəbi sadəcə, onun üçün zamanın və şərtlərin yetişməmiş olmasıdır. Bir sözlə, əsl elm Allahın bizə göndərdiyi elmdir. Quranı, islamiyyəti onlara bu günkü ge-

riliyin səbəbi, fanatizmi kimi baxmaq xəstəliyindən qurtarıb ona bir də əsl elm qaynağı kimi yanaşmaq lazımdır. Məqsəddən uzaqlaşmamaq üçün sadəcə bir faktı aşkarlamaqla kifayətlənirik.

Allahın Rəbb ismi təlim verən, öyrədən mənasına gəlir. "Fatihə" surəsindəki "əlhəmdulilləhi Rəbbil aləmin" ayəsinin mənası aləmlərin Rəbbi olan Allaha həmd olsun deməkdir. Aləmlər dedikdə mikro aləmdən makro aləmə, zərrəcikdən kainatın sonsuzluğuna qədər hər şey əhatə olunur. Bu boyda nəhəngliyin Rəbbi, təlim verəni, proqramlayanı olan Allaha həmd, şükür olsun. Yəni milyon illərdir Günəşlə Yerin arasındakı məsafənin 149 mln.km. olması və Günəş ətrafında saatda 105 km. sürətlə dövrə vurması, hörümçəyin, arının, qarışqanın, boğazımızdan adlayan gidanın öz funksyalarını dəqiq və səhvsiz icra etmələri və s. kimi elmin izah edə bilməyəcəyi bu sirlərin, müəmmaların şübhəsiz bir proqramlayanı-Rəbbi var. Üstəlik mikro aləmdən makro aləmə qədər mövcud olan bütün dəqiq-tabiət və sosyal elmlərin hamısı bu ayədə əhatə olunur. İnsana ancaq buradan çıxış edərək onu kəşf etmək və işlətmək qalır.

Deməli, 1400 ildir bütün ağıl sahibləri az və ya çox Allah kəlamı ilə bağlı olmuşlar. Xüsusilə də söz sənətkarları. Bunların yaradıcılığına sərf-nəzər edib sırf elmi fəlsəfi görüşləri də ön plana çəkmək olar, sırf dini görüşləri də, bunların sintezi kimi ümumi dünyagörüşü də. Biz üçüncü yola üstünlük verməyi məqsədəuyğun hesab etdik. Və məsələyə bu prizmadan yanaşmağı düzgün saydıq.

Eşq-məhəbbət mövzusu isə tarixən dünyagörüşün tərkib hissəsi olmuş, aparıcı qolunu təşkil etmişdir. Qələm əhli eşqi dərk etməyə çalışmüş, bu mövzuda çoxsaylı və müxtəlif açıqlamalar verilmiş, gözünə eşq duzu qatılmayan bir əsər yazılmamışdır.

Zaman-zaman "eşq" deyəndə başqa cinsdən olan bir fərdə qarşı meyil nəzərdə tutulmuş, digərləri ondan sonra gəlmişdir.

Dünya eşqi, həyata bağlılıq, insan olaraq bu dünyada nədən istifadə edə bilərsə, ona qarşı meyil və bu müxtəlif meyillərin müxtəlif adamlarda müxtəlif təzahürü ədəbiyyatın da əsas mövzusu olmuşdur.

İslamiyyətin gəlişindən sonra isə vəziyyət dəyişir, insan özünü yeni müstəvidə dərk etməyə başlayır, yeni eşqə mübtəla olub divanələşir ki, bu "sərməstlik"dən "idrak etməzəm dünya nədir" (Füzuli) səviyyəsinə qalxır və dünyaya talib olan insan eşqi yenə Füzulinin şəxsində imam Hüseyn sevgisinə çevrilir və "əgər sevgilimin astanasında can versəm, məzarım üstə qəbir daşı qoymayın, qoyun mənim qəbrimə o sərvi-qamətdən kölgə düşsün" vəsiyyətinə qalxır. Füzulidəki imam Hüseyn eşqi, səhabə eşqi, Peyğəmbər (s.ə.s.) eşqi Yaradana, can verənə-Canana doğru gedən eşqin mərhələləridir, vəsiləsidir. İlahi eşqə mübtəla olanda insanlığın yeni dövrü başlayır və ədəbiyyatın da vəsfi yeni məcraya yönəlir. Dünyanı bu məhəbbətlə tanıyır, dərk edir: "Məhəbbət kainatın özüdür. Həyatdan zövq alma və ona zövqlə baxma, Allahın insanın mənliyinə qoyduğu sevgi sayəsində mümkün olur. Kin və nifrət onun ənğin iqlimiylə yox edilir. Sevməyən insanların olğunlaşıb, yüksəlmələrinə imkan yoxdur. İnsan sevdiyini onu tanıdığı nisbətdə sevər, tanımadığının isə düşməni olmuşdur.

...Bir sözün sevgiyə və idraka məzhər olması onu söyləyənin sevğisinin qəlblərdəki dərəcəsinə görədir"[77]

Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrinin əsərlərinin dəyəri Allahı bilmələri, tanımaları ölçüsündədir, bu tanıma bucağından onu təqdim etmə səviyyəsindədir. Bu baxımdan şairlərin önündə şübhəsiz, Nizami gəlir. "Xəmsə"yə daxil olan əsərlərin hər birinin əvvəli minacat və nətlə başlayır. Bu janrlarla o ilahi elmlərə, Qurani Kərimə bələdliyini, bilgisini nümayiş etdirir. Yaradanını nə dərəcədə tanıdığını göstərir. "Sirlər xəzinə"sini "Bis-

[77] *"Yeni ümid" dərgisi. İstanbul, 2002, sayı 55, 66, sıh.57*

millahirrəhmanirrəhim"lə başlayır. Hər işi bismillahla başlayıb Allahın adıyla bitirməyi məsləhət bilir və sonrakı beytlərdə Allahın isim və sifətlərini açıqlayır.

Bütün var olanları yalnız odur yaradan (*Xaliq*)
Pərdəli iş görənin sirrini saxlayandır (*Səttar*)
Günəşin kəmərinə ləl ilə zinət verən (*Cəmil*)
Torpağa həyat donu, suya səxavət verən (*Hayy və Rəzzaq*)
Könül sahiblərinə əxlaq, hikmət göndərən (*Rəbb*)
Ruzi uman kəslərə ruzi, nemət göndərən (*Rəzzaq*)[78]

Şair bu ənənəni digər poemalarında da davam etdirir. Xaliqini nə qədər tanıdığını, tanıdığı nisbətdə sevdiyini oxucuya bəyan edir, bildirir:

Tək sənə sığınır hər yüksək, alçaq,
Hər varlıq yoxluqdur, sən varsan ancaq,
Yuxarı, aşağı hər gözə çarpan
Nə varsa onları sənsən yaradan.
Sənsən hər biliyi bizə öyrədən,
Torpağın köksünə qələm işlədən[79].

O hər şeydə öz ismini yazır, yaradılan hər şey Onu xatırladır. Demək, bu nümunələr ayələrin açıqlamalarıdır. Beşincı, altıncı misralarda "hər biliyi bizə öyrədən sənsən" deməklə Allahın Alim, Rəbb (təlim verən) isimlərinə işarə edir. Bu ənənə sonrakı dövrlərdə də davam etmiş, hər qələm əhli bacardığı qədər Quran elminə istinad edərək bir növü onun irşad və təbliğinə söykənmişdir. Nəsimi nə qədər rəmzlərlə danışsa, nə qədər *"Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz"*[80],- desə də, açıq bəyan edir ki: *"Gəlmiş cahana şərh edə şimdi Nəsimi haq sözün"*, amma bu işin ağırlığını da dərk edir *"Gər şərh edəsən ayəti-hüsnün kitabını, Hər bab*

---

[78] *Nizami Gəncəvi. Lirika. Sirlər xəzinəsi. Şərəfnamə. Bakı: Elm, 1992, səh. 87*
[79] *Yenə orada, səh. 227*
[80] *Klassik Aərbaycan ədəbiyyatı kitabxanası. V c., Bakı: Elm, 1985, səh. 170*

*içində fəslinə yüz min fəsil ola"*[81], Yenə Qurandan gələn *"Mən sizə şah damarından da yaxınam"*[82] fikrini Nəsimi *"Hərçənd yaxındır o bizə göz bəbəyindən, Bimərifət ancaq bu yaxın nuru nə anlar?"*[83], - deyərək haqq nuruna boyanır və könlünü canana verir. *"Şol bimisalın eşqinə verdi Nəsimi könlünü, Dünya nə ola, ya axirət, kim qala mülkü-malına"*. Çünki *"Həqqi bilən bilir ki, ...gördüyüm ol, bildiyim ol, istəyim həm ol- durur, Əvvəl oldur, axir oldur, anı gözlər gözlərim"*[84]. Haqqı bilmək və bildiyi qədər sevmək Nəsimidən sonra Füzulidə xüsusi mərhələ-zirvə təşkil edir, hətta məktəbə çevrilir. Füzuli ayrıca bu mövzuda "dini-fəlsəfi" deyilən "Mətləül-etiqad" əsərini qələmə almışdır. Əhli-beyt sevgisini dilə gətirən "Hədiqətüs-süəda" əsərini yazmış və orada Hz. İsmayılın (ə.s) dilindən *"Canımı əgər Canan istərsə minnət canıma, Can nədir ki, anı qurban etməyim Cana- nıma"*, Hz.İsmayılın anası Saranın dilindən *"Can ilə əgər xoşnud ola Cananımız, Cana minnətdir anın, qurbanı olsun canımız"*, atası Hz. İbrahimin (ə.s) dilindən *"Dərdi-eşqi yar könlümün sultanıdır, Hökm anın hökmüdürür, fərman anın fərmanıdır"*[85], – deməklə hər üçü əbədi var olmaq yolunun yox olmaqdan keçdiyini, "Canı Canana tapşırmağın", mülkü ancaq mülk sahibinə əmanət etməyin vacibliyini bildirmişlər[86].

Ə.Raci də can və canan sözlərini sıx-sıx işlətmişdir. Məlumdur ki, klassik ədəbiyyatda can deyəndə ruh, canan deyəndə can verən, Allah başa düşülmüşdür. 16-cı əsrdən sonra canan sözü tədricən mənasını dəyişib, başqa cinsdən olan fərdə, məşuqəyə, sevgiliyə aid edilmişdir. Racidə hər ikisi müşahidə olunur. Canan dünya gözəli mənasında:

---

[81] *Yenə orada, səh. 70,26*

[82] *Bünyadov Z., Məmmədəliyev V. Qur'an (tərcüməsi).Bakı, 1992. səh. 527*

[83] *Nəsimi. Seçilmiş əsərləri. (fars divanı) Bakı, 1985, səh. 35*

[84] *Klassik Aərbaycan ədəbiyyatı kitabxanası. V c., Bakı: Elm, 1985, səh. 28, 168*

[85] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, səh. 39*

[86] *Hüseyn Sədrəddin. Ədəbiyyatımızda can və canan obrazları / Azərbaycan-Avropa Ədəbi -mədəni Əlaqələr Mərkəzi. Tədqiqlər -2.Bakı: Elm, 2000. səh. 42-49 (47)*

Bir güşeyi-çeşm ilə baxanda alu min can,
Cananı görün bir necə bazarı tutubdur.

Söylə cananə sənin dərdü qəmin sübhə kmi,
Basaram bağrıma hər gecələr can yerinə.[87]

Gər istərsən başun üstə, könül, gələ canan,
Gərək ayağunun altında xaki-rah olasan[88].

Bir sənin tək bivəfa canan yolunda can verə,
Racini eylər məzəmmət xah düşmən, xah dust[89].

Göründüyü kimi, misallardakı obrazlar real bəşər övladlarıdır. Biri baxışı ilə can alır, birində cananın dərdini can yerinə bağrına basır, birində "başın üstə gəlməsi üçün ayağı altda rahi-xak olmasından, başqa bir yerdə hətta "bu gecə bəzmdə canan ilə hər üzün vurmasın"dan, sonuncuda isə bivəfa canandan söhbət gedir. Sadalanan sifətlərin hamısı bəni-adəmə aiddir, bivəfalıq isə Xaliqin şəninə uyğun deyil.

Raci şeirlərinin az qismində sələflərini təkrarlayır. "Laləgün sirişki canan kuyinə yol açır" və aşiqləri ardınca səsləyir:

Çox aşiq həsrəti-rüxsari-canan ilə can verdi,
Mənim tək atəşi-hicrə de, aya bir əhəd düşdü?

beyti Füzulinin məşhur "məni bimar sanmazmı?" fikri ilə səsləşir.

Hər kəs əl çəksə canindən tez yetər cananinə,
Şəm əyağində edüb xakistəri-pərvanə nəqş[90].

Aşiq pərvanələr tək özünü oda vurub şamın ayağında xakisar olmağı bacarmasa, canana yetə bilməz:

---

87 *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh. 98,233*

88 *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 45; 46-47*

89 *Yenə orada, səh. 84*

90 *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh.242,143*

Cananə yetişməz o hər kəs yanmasa canı,
Bu noqtə yazılmış pəri-pərvanələr üstə.

Görsün ruxi-cananı əyan daim özündə
Ayinə kimi qəlbi müsəffa gərək olsun[91].

Bəzi beytlərdə isə şairin kimi nəzərdə tutduğunu müəyyən etmək olmur:

Canan yolunda səhldü keçmək bu candan
Aşiq odur ki, əl çəkə sudi ziyandan.

Dolandıqca qədi cananə cövrün artırır ey dil,
Edəndə bağiban xidmət, nihali növdə bar artar[92].

Bir çox klassik şairlərimizdə olduğu kimi, Racinin dünyagörüşündə də hər nə qədər elmi-fəlsəfi fikirlərə rast gəlsək də, dini baxışlar sistemi üstünlük təşkil edir."Onun da qəzəllərində dini və dünyəvi məhəbbət: zahid və rind, eşq və mal-dövlət kəskin bədii kontrastlar təşkil edir... Ürək və ruhun təzadlarından yorulmuş, onların nə səfasından, nə də cəfa və əzablarından baş aça bilməyən şair"[93] durur qarşmızda.

Raci üzünü gah Hz.Əliyə (əs) tutur *"yüz yirmi dörd min adəm minnətin çəkincə, gəl, Raci, get çək bir Əmirəlmömünün minnətini"*, gah da *"Həlqeyi-babi-niyazdan"* yapışıb, hər qapıdan əl çəkir, dərgah qapısını hər dərdə çarə görür. Bütün bunlardan sonra Raci axirəti düşünür. Baqi dünyasını qazanmağın yollarını arayır:

Bu şərt ilə sənə can nəqdini nisar edərəm
Tanrı yanında qiyamətdə üzrxah olasan[94].

Cənnəti qazanmağın asan olmadığını bildiyindən

---

[91] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 74, 247*
[92] *Yenə orada . 57, 68*
[93] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh. 28-29*
[94] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 45*

Almağa məşhər günü, Raci, mətai-cənnəti,
Bir düri-şəhvar olur bu çəşmi-əski-tər mənə.
Əkə hər kimsənə göz yaşı ilə toxmi-əməl,
Raciya, həşr günündə birə min hasil olur[95].

Göz yaşı axıtmağı möminlərin acızliyi, pessimistliyi kimi qəbul ediblər. İslamın əxlaqi dəyərlərini gülüş obyektinə çəvirməyə vasitə, fürsət biliblər. Əslində məsələ düzgün anlaşılmır.

*"Bir günah etsəm əgər, min bir gün ah etməm gərək"* deyən Füzuli, *"Ağlamaq ki vardır mərhəmətdəndir"* deyən Vidadi və başqa fikir sahibləri elədikləri günaha qarşı əzab çəkmək, sancı çəkmək, insafa gəlmək, qəlbi yumşaltmaq, "Allah bağışlasın", - deyə inləmək, tövbə, inabə etmək, nəfsinlə, mənlik, qürur və cəlladlığınla vuruşaraq cəmiyyətdə hüzuru bərqərar etmək niyyətiylə axıdılan göz yaşları, cəkilən ahlar (Onu da deyək ki, təsəffüfdə *AH* həm də Allaha işarədir) insanı saflaşdırır, ədalətli edir, imanını gücləndirir.

Yalnız qəlbi bu qədər yumşalan, Allah qarşısında göz yaşı tökən "haq yolunda baş-candan keçər", "rəhi-cananda can verər, didari-qiyamətə qalan vəsl istər, hicrdə can verər" .

Məlumdur ki, Məhəmməd Peyğəmbər (s.ə.s.) "ümmətim, ümmətim" deyərək məhşər günü ümmətinin xilasını Allahdan diləmişdir. Raci həmin məsələni belə ifadə edir: "Ruzi-məşhərdə deyər piri-muğan "Ya ümməta"[96].

Racinin dünyanı ilkin dərkindən başlayıb axirətə qədərki fikirlərini bu cür sıralayıb bir sistemə salmaq olar. Ancaq bu sistemi onun dünyagörüşü kimi birmənalı qarşılayıb hökm vermək də düz olmaz. Raci də digərləri kimi ziddiyyətlərdən yaxa qurtara bilməmiş, yaradıcılığı boyu müxtəlif fikirlərin bədii ifadəçisi olmuşdur.

---

*95 Yenə orada. 117,197*

*96 Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh. 77*

"Nəmazi" rədifli qəzəlində yarın səri-kuyini Kəbəyə, qaşının tağını mehraba bənzədərək ona səcdə edir və

Hər yerdə yüzün görsə düşər səcdəyə Raci,
Kafir degü kim eyləyə inkar namazı[97] – deyir.

"Təbbət" surəsinin son ayəsinin məalına görə Əbu Ləhəbin arvadının boynunda xurma lifindən toxunmuş kəndir var; bununla cəhənnəmdə hamballıq edəcək. Çünki Peyğəmbərimizə (s.ə.s.) əziyyət verib. Bu surənin son ayəsini Raci belə ifadə edir:

Mənə zahid deyəndə kim, nədir bu zülf üzar ilə,
Yadimə "innə fi ceydü həblin min məsəd" düşdü[98].

Sevgilisinin hörükləri o kəndirə bənzədilir. O da şairə zülm etdiyinə görə Əbu Ləhəbin arvadı kimi cəhənnəmdə əzab görəcək.

Şair yaradıcılığa Bismillahirəmanirəhim sözü ilə başlayır, lirik şeirlərində Qurandan, hədislərdən gələn deyimlərdən əlavə sıx-sıx dini ifadələr işlədir. Belə ki 52 dəfə "zahid", 24 dəfə "La ilahə illəllah", ayrıca eyni rədifli qəzəlində 11 dəfə, 7 dəfə ilahi, Tarı-8, Peyğəmbər-2, Quran-9, Hay-huy-4, sözü işlədir.

Hədisi şərifdə "Heç ölməyəcəyini zənn edən kimi çalış, sabah öləcək bir adam kimi də təvəkkül et"[99] deyilir. Raci yaradıcılığında axirətlə, dinlə bərabər dünyaya bağlıdır, daha çöx dünyəvi mövzularda yazır. Bəzən dünyəvi rəmzləri dini rəmzlərdən önə çıxır. Nəsibini bu dünyada almağı üstün tutur. Ya axirətə inanmır, ya inanan zahidlərə gülür, nəqdi qoyub nisyə dalınca getmək istəmir.

Səri-kuyin mənə dünyadə əta eylədi həqq,
Çünki üqbadə mənim meyli-cinanım yox idi[100].

---

[97] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56*

[98] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh. 178*

[99] *Caniüs sağir. II/12. Mətbəə Dar-əl-fikr. Qahirə. 2004. (Hədis N 1201)*

[100] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı. 1377, səh. 247*

Şair bir xəlvətdə, bir mey məclisində yarın vəslinə o qədər aludə olur ki, hər şeyi unudur:

Dil süfrəsində ləli-ləbin daği-qəsrinə,
Kəc baxsa Raci nanü nəmək mübtəlasıdur.
Bu saqiyi-şərab, bu xəlvət, bu mey, bu yar,
Bu məni-nəfs, məhz bir Allah rizasıdır.[101]

Mey, saqi, meyxana, xəlvət, yar nəfsin sevdiyi nemətlərdir. Onlardan uzaq dura bilmək "mə'ni-nəfs" etmək "Allah rizasıdır". Ancaq "dil süfrəsində ləli-ləbə də kəc baxmaq" olmur. "...can, canan, ...meyi-meyxanə" və s. bu kimi sözlərə...xüsusən 19-cu əsr poeziyasında rəmzi ...məna vermək düz deyil. "XIX əsr Cənubi Azərbaycan şairləri əksər hallarda bu ifadələri insan qəlbinin təbii hiss və həyəcanlarını bildirmək üçün işlədirdilər. Onların sufizm və hürufizmdən götürdüyü ifadələrin ilk mənbədəki mənaları tamam dəyişir... Mey, meyxanə və s. kimi anlayışlar, qaranlıq (?S. H.), mövhumi (? S. H, ) fikirlərə qarşı qoyulur".[102]

Raci başqa qəzəllərində də bir az əvvəlki fikrə qayıdaraq bu dünyadakı zövq-səfanı axirətin cənnətindən üstün tutur. "Ruyisəfanı" Aya, Musaya görünən təcəllaya; bəla küncündə yar fikrilə lal oturmağı qəsri-behiştdə huri söhbətinə vermir, axı zahid nigarın kuyini görsə behiştə meyl etməz.

Nə kuyi-yarı qoyub xəlq edəydi meyli-behişt,
Nə şeyx olaydı, nə məscid, nə vəzi-minbər olaydı.[103]

Bəzən rəmzlər dəqiqləşir, meyxana müstəqim mənada, xəlvət isə zahidlərin guşənişin olduqları yer kimi verilir:

Huri-behişti vəsf eləmə munca, zahida,
Cənnətdə bu vəcahətdə harda hur var!

---

[101] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 115*
[102] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, səh. 19*
[103] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 38*

Zahid, ovsaf eləmə Raciyə çox cənnəti-hur,
Meykədə cənnətü məvadu mana, hürdü bu.[104]

"Üzü qiblə, qaşı mehrab" deyən Raci yarın üzünü qibləyə, üz xətlərini Quran yazılarına, qaşını mehraba, kuyin Kəbəyə, təsbehi zünnar həlqəsinə təşbih edir.

Eşq əhlini kuyində görüb eyləmə təşviş,
Şövt etməyə bu Kəbəni züvvari tutubdur.

və ya

Xəm qaşun səcdəgah eyləllə mələksimalər,
Randeyi-dərgahi-rux olsa əzazil xətün.[105]

Mələksimaların yarının qaşına səcdə etməyin mədhi o yerə çatır ki, üzünü görəndə imam belə ona səcdə eləyir. "Niqab atsan əgər yüzdən, görünsə daği-əbruyun, Dönər mehrabi-məbəddən sənə səcdə imam eylər", hətta onun "bir nazı ilə qiyamından türfə qiyamətlər qiyam eylər", -deyə Raci, üzünü harada görsə, orada səcdəyə gedər. Misallara nəzər salaq:

Qıldım səri-kuyində qaşun tağinə sücud,
Məqbul olu çün Kəbədə zəvvar nəmazı.
Hər yerdə yüzün görsə düşər səcdəyə Raci,
Kafər degü kim, eyləyə inkar nəmazı.[106]

Az-çox dini bilgisi olan bir adam sevgilinin bu qədər göylərə qaldırılmasına dözə bilməz, Allahdan başqa kiminsə qarşısında səcdəyə getməyin ən azı müşriklik olduğuna görə bu fikirləri qəbul etməz. O da ola Raci kimi dərin dini bilgisi olan, ömrünün sonunda dinin ən vacib şərtlərindən biri olan Həcc ziyarətini yerinə yetirən və bəlkə də bilə-bilə özünü bu yolda fəda edən bir adam.

---

[104] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 93*

[105] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz) Bakı: Sabah,1992,səh.21, 27*

[106] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 240*

Dini görüşlərə görə bu dünyada hər şey Allah rizası üçün edilməlidir. Raci bu məsələdə də çox uzağa gedir.

Mən vermişəm rizamı o dilbər rizasinə,
Aşiq olan gərək ola dildar ilən belə.[107]

Allah rizasını dilbər rizasına dəyişmək. Doğrudanmı, bu belədir, belə deyilsə, şairin dünyagörüşündə bu ziddiyyət nədəndir? Ya bunlar sadəcə rəmzlərdir, işarələr, şifrələrdir və bunun arxasında bizim anlaya bilmədiyimiz fikirlər, sirlər nədir? Başqa bir beytində "Tutub dövri-ləbi-ləlin xəti-səbz, ey mənim qibləm,

Yetibdür sünbüli-mişkin deyirsən, abi-zəmzəmlə", -deyə ətirli saçını yetirən zəmzəm suyu bəxş edəcək "ləli-ləbi"nə yetdi-yi "qibləsi"ni digər beytində üzünün səhifələrini Qurana bənzədir. Əgər "zahid rümuzi-eşqi dərk etsə".

Nəzər et səfheyi-ruyində xalü xəttə, ey zahid,
Rümuzi-eşqi dərk eylə, bu Qurani-mütərcimlə.[108]

Ə.Raci yarın üzünü Günəşə bənzədir və onu görən kimi namazı qəzaya verir. Sübh namazı Günəş çıxana qədər qılınmalıdır. Yoxsa qəzaya gedər. Bir rəvayətdə deyilir ki, bir dərviş namaz qılır. Önündən "Leyla-Leyla" deyən bir aşiq keçir. Dərviş namazı qurtarandan sonra "Oğlum, namaz qılanın önündən keçməzlər, sən niyə keçdin?" deyincə aşiq: "Baba dərviş, Leylanın eşqindən gözümə heç nə görünmür, ona görə səni görmədim. Sən də qarşısında səcdə etdiyini bu qədər sevirsənsə, niyə sənin önündən keçdiyimi gördün, fərq etdin?"- deyir. Racinin eşqi də hardasa bu qədərdir. Məşuqəsinin üzünü görüncə hacı olur. Çünki Kəbə mislindədir.

Üşşaqə olsa Kəbeyi-kuyin əgər nəsib,
Həccaci-eşqə Raci, o gün miri-hac olur.[109]

---

[107] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56*
[108] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 224*

Bəzi şeirlərində Raci hər nə qədər ziddiyyətli görünsə də, o, "dinini dünyaya dəyişməyən" imanlı bir dünyagörüşə sahibdir. Q. Dərbəndi, S. Nigari, Nəbati, Sərraf kimi Raci də "divan-təriqət ədəbiyyatının nəhəng simaları", "təsəffüf-irfan şairi" kimi qəbul edilir.[110] O, Kanon ədəbiyyatının sonuncu nümayəndələrindəndir. Yaradanı Allah bilir, hər şeyin onun iradəsilə olduğunu qəbul edir. İçində bir Allah, bir Peyğəmbər, bir Əhli-beyt sevgisi var. Bunlar sadəcə şeirlərində deyil, yaşantılarında da özünü göstərir. Dini bir həyat yaşayır. Həccə gedir, içindəki İmam Hüseyn sevgisindəndir ki, qəzaya uğradığı gün də məhərrəm ayının 10-u-aşura günü olur, özü də həcc səfərindən sonra. Əsərlərinin çoxu da aşura günü çap olunmuşdur.

Şeirlərindən göründüyünə görə, ziddiyyətli cəhətlər bir neçə amillə bağlıdır. Başqa klassiklər kimi Raci də şifrəli yazır, rəmzlərlə danışır, hər fikrin, ifadənin bir neçə açımı, yozumu olur; bir insan kimi o da zaman-zaman ziddiyətli görüşlərə sahib ola bilər; ziddiyyətlərdən xilas ola bilməyən insanlığın hali-ruhiyyətinin tərcümanı ola bilər. Amma bunlar onun bir dini dünyagörüşə sahib olan insan kimi sabitqədəm olmadığı demək deyildir. Mistik düşüncələrdən uzaqdır. Şairə görə hər şeyin yaradıcısı Allahdır. İnsan bu dünyaya Allaha qulluq etmək, imtahan üçün gəlib. Bu dünyada "qazandıqları" onu axirətdə (baqi dünyada) ya cənnətə, ya da cəhənnəmə göndərəcəkdir. Hansı yolu tutması isə faili-muxtar olan insanın özündən asılıdır.

### *1. 2. Əbülhəsən Racin poeziyasının tədqiqi, Ə.Racinin sələf-xələf münasibətində yeri*

Ə.Raci də başqa şairlər kimi müxtəlif mənbələrdən bəhrələnmiş, müxtəlif dünyagörüşün, təriqətlərin, ideologiyanın, ədəbi mühitin, müxtəlif şairlərin təsirinə məruz qalmış, onlardan yaradıcı şəkildə bəhrələnnişdir. Ə. Əhmədlu şifahi xalq ədəbiyyatı,

---

[109] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 81*

[110] *Məmməd Tahirə. XIX əsr Azərbaycan ədəbiyyatı.(I hissə) Bakı: 2010, səh. 68-69*

Quran və musiqinin Raciyə təsirindən danışır. Biz bu təsirləri təqribən aşağıdakı şəkildə sərgiləyə bilərik.

1. *Qurani-Kərim,*
2. *Hədislər,*
3. *Dini və qeyri-dini əfsanələr, rəvayətlər,*
4. *Xalq ədəbiyyatı, xalqın dili, xalqın ruhu,*
5. *Klassiklər,*

Qurani-Kərimin nüzulundan bu günə əsərlərində o böyük kitaba toxunmayanı tapmaq çox çətidir. Folklorumuz belə ilhamını Ondan alır, aşıqlar bağlamalarında ayələrdən istifadə edir, ...*İl var bir günə dəyməz, Gün var min aya dəyər*[111] ("Qədr" surəsi. Bu gecənin min aydan daha xeyirli olmasına işarədir). Qurandakı ayələr, qissələr, hədislər, dini rəvayətlər, əfsanələrin Racinin yaradıcılığına nə qədər təsiri olması və ondan nə qədər bəhrələnməsi, bu mövzuların onda nə qədər yer tutması ilə bağlı əvvəlki fəsillərdə kifayət qədər söhbət açılmışdır. İndi isə digər qaynaqlara nəzər salaq.

Raci yeri gəldikcə xalq yaradıcılığı xəzinəsindən bəhrələnir, ondan gen-bol istifadə edir. Şair "məsəldü deyərlər" şəklində xalq ifadələrindən istifədə edir. "Gedər məsəldü, deyir, xalq yağ-yağ üstə". "Məsəldü, bu, it hürər, kərvan keçər". Bəzən atalar sözünü olduğu kimi şeirə daxil edir:

*Özgəyə quyu qazan özü düşər. Qan yumazlar qan ilən.*

Şair çox vaxt atalar sözlərini şeirdə əridir. Onu şeirin məzmunu ilə uyğunlaşdırır. "Durmaz sınıq səbudə deyillər su...", "Səbr ilə yaxşı-yaman keçər", "Həqiqi dost rahində başun ver, "uf" demə, Raci", "Xəzinə tapsa bir müflis onu tez hesab eylər", "Məni öz başıma qoyma, gözəl, meydani-eşq içrə", Atalar sözlərində isə deyilir: *Ölünü öz başına qoysan kəfəni yırtar*. "Deyəndə yandı di-

---

[111] *Quran. Səudiyyə Ərəbistanı. Əl-Mədinə Əl-Münəvvərə. 1305,406 səh.*

lim, dinməyəndə dıl yandı", "Öz ayağı altına salmaz şüasın, rəsmdür, Pərtövin əmma salur hər yanə şəm".[112]

Racinin şeirlərində bayatılarımızla da səsləşən fikirlər çoxdur.

Oxu candan.
Aç kitab oxu candan,
Təbib, qurbanın ollam,
Çıxarma oxu cannan.

Və ya

Gül adamlar,
Qönçələr, gül adamlar,
Bülbül döşün xar yırtar,
Qanını gülə damlar.

Racidə:

Çıxa can raziyam ey məhliqa sinəmdən,
Degüləm razi sənin tirü kamanın çıxsun.[113]

Könüldən tiri-müjganun çıxsa, çıxar, canım
Vücudum qəsri müstəhkəm olub tiri-möhkəmlə.[114]

Dutalla şişəyə bülbüllərin qanın qoymun,
Gülabü-qönçəni gülçini-bağiban dutsun[115].

Birinci misalı həm müstəqim, həm məcazi mənada ələ almaq olar. Belə ki, ürəyə ox, ya bıçaq batırsa, həkimə çatınca onu çıxartmasalar, sağ qala bilər. Digər tərəfdən sevgilisinin ürəyinə sancdığı ox, onun ağrısı şair üçün o qədər şirindir ki, onu çıxarmağı rəva görmür.

---

[112] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 27,43,26,31,49,62,80,84*

[113] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah, 1992. səh.34*

[114] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 224*

[115] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 35*

Xalq yaradıcılığından əlavə, Raci bir də klassiklərdən yaradıcı şəkildə istifadə edir. Onuun şeirlərində ən çox yer tutan, təsirində olduğu sənətkar M. Füzulidir. Ayrı-ayrı beytlər, misralar və ifadələrdəki takva dinyası, təsəvvüf və zühd aləmi, can və canan eşqi Füzulini xatırladır, Füzulisayaq dərin və şirin poetik deyim tərzi, ifadə xüsusiyyətləri özünü göstərməkdədir. Şeirlərinin birində o özü belə deyir:

Əhya ola bu nəzmim ilə əzmi-Füzuli,
Bu möcüzəmin şahidi İsayi-zamandur.[116]

Burada Füzuli sümüklərini dirildəcəyinə simvolik bir işarə etməklə bərabər, vaxtilə Füzulinin dediyi

Məndə tövfiq olsa ol düşvarı asan eylərəm,
Növbahar olğac tikəndən bərgi-gül izhar olur.[117]

misraları xatirə gəlir; Raci də sanki burada ustadı kimi öhdəlik götürür. Füzuli "*Saqi, kərəm eylə cam gəzdir*" dediyi kimi, Raci də

Götür, saqi, meyi-külfami, doldur cami-zərrinə,
Əlimdən tut amandır, qərq oldum qüssə bəhrinə[118]

– deyir.

Raci "Divan"ının müqəddiməsində H.Abıyev də bu təsirdən danışaraq yazır:

"...Racinin demək olar ki, əksər qəzəllərində Füzulinin təsiri aşkar görünməkdədir. Onun elə beyt və misraları var ki, məzmun və ifadə formasından başqa, ahəng, rədif, bəhr etibarı ilə də Füzuli şeirinə bənzəyir, ...qəzəllərinin davamı kimi səslənir". Raci də Füzuli kimi aşiqi-sadiqdir. "Aşiqi-sadiq mütləq fənafillah olmalıdır".[119]

---

[116] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 16*
[117] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. VII c., Bakı: Elm, 1988, səh. 166*
[118] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 17*
[119] *Nəbati S.Ə. Əsərləri.Bakı: Azərbaycan SSR EA nəşrləri, 1968, səh. 93*

**Füzulidə:**

Eylə zəif qıl tənimi firqətində kim,
Vəslinə mümkün ola yetirmək səba məni[120] litotası

**Racidə:**

Bünyadi-dili süst elədin naz ilə axir,
Qoyma bu işi süst ola bilmərrə xərab et [121]
Və ya Təbibi-eşqi gedin başım üstə bir gətirün,
Bu dərd ilə gedə bilməm təbib evinə[122] şəklindədir.

**Füzulidə**:

Eşq ilə riya deyil müvafiq,
Rüsva gərək həmişə aşiq.[123]

**Racidə:**

Gizlənməz eşq dərdi fəraqi-vüsal ilə,
Qalmaz bu sirr şahidi hərgiz niqabdə.[124]
Yaxud Nəngi-nam istəsən, eşq ilə könül, bədnam ol.[125]

Füzuli yaradıcılığı boyu çox vaxt cəfadan doymur, qəmlə qol-boyun olur, elə dərd axtarır, dava istəmir, bəla istəyir, hərdən də bezib "usanmazmı" deyirsə, Racidə də bu "cününluq" özünü göstərir, amma sona qədər dözə bilmir, cəfalardan imtahan olduğunu bilsə belə, bezir, zara gəlir.

**Füzulidə:**

Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kim ki, aşiqdir, işi ahü fəğandır.[126]

---

[120] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. VII c., Bakı: Elm, 1988, səh. 304*

[121] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 68*

[122] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 52*

[123] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. VII c., Bakı: Elm, 1988, səh. 276*

[124] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh. 216*

[125] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 69*

**Racidə:**

Min beyt ilən bu beyti çəməndə oxur həzar:
Aşiq olanların işi ahü fəğan keçər.[127]

**Füzulidə:**

...Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?[128]

**Racidə:**

Nalə ilə yuxuni xəlqə həram eyləmişəm.[129]

Füzuli dəfələrlə təbibə xitabən ondan əl çəkməyini, bu dərdin dərmansız olduğunu bildirdiyi kimi, **Raci** də eyni fikirdədir.

Bu dərdi-eşqi çəkmə, təbib, əbəs yerə rənc,
Əlac yoxdur əgər gəlsə çarə yüz yerdən.[130]

Füzulinin fələkləri ahindən yandığı kimi, Raci də "canı çıxana qədər fəqan etməyi" lazım bilir ki, bəlkə "əflakə fəqanı çıxa".

**Füzuli:**

Olsaydı məndəki qəm Fərhadi mübtalədə,
Bir ah ilə verərdi min Bisituni badə.[131]

**Raci:**

Bir ah çəksə Raci əgər, şəmi-məhrü mah,
Bəzmi-sipehri-günbədi-dəvvardən keçər.
Və ya Onun evin bir ah ilə nə tarü-mar elədim.[132]

"Leli və Məcnun" əsərində Leylinin həyatinə gələn Məcnunu görən Leyli

[126] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.8c., Bakı: Elm,1988, səh. 295*
[127] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 30*
[128] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.7c., Bakı: Elm, 1988, səh. 109*
[129] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 31*
[130] *Yenə orada , səh. 36*
[131] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.7 c., Bakı: Elm,1988, səh. 100*
[132] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992,278 səh. 56, 81*

...Qılalım sərf nəmiz vər isə mehmanimizə,
...Can verib dilbərə minnət qoyalım canimizə[133] deyir.

Raci də bu şəkildə hər şeyi sevgilisinə qurban etməyə hazırdır:

Xəmidə qaşlarun tapşur mən ilə rast tərpəşsün,
Ona qurban edim mən də əlimdə hər nə varim var.[134]

**Füzuli:**

Pəmbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim.[135]

**Raci:**

Əcəl, can xirqəsin al bu vücudi-natəvanimdən,
Məlamət oxlarilə olmuşam asudə kisvətdə.[136]

Bunlardan əlavə, bir çox Azərbaycan şairləri kimi Raci də Kərbəla mövzunun ilk anadilli əsəri olan "Hədiqətüs-süəda"nın müəllifi Füzulidən bəhrələnmişdir.

Füzulidən sonra Raci yaradıcılığında Nəsiminin təsiri də özünü göstərir. Burada H. Mənsur, hürufi, ənəlhəq sözlərinə rast gəlinir. Şairdə yeri gəldikcə Nəsimi kimi haqqı dərk etmə meylini görrürük. Nəsiminin çox vaxt rəmzlərlə danışdığı və bu rəmzlərin hər adamın başa düşə bilməyəcəyi fikirlərə Racidə də rast gəlirik.

Sevgilisində yox olan, onunla bütövləşən Raci vücudunda ondan başqa bir şey olmadığını bildirir və Nəsiminin "Ağrımaz" dakı "sərpa" ifadəsini belə işlədir:

Külli cismimdə tapılmaz səndən özgə bircə şey,
Həq bilür gər yarsalar tiğ ilə sər ta pa məni.[137]

---

[133] *Məhəmməd Füzuli. Leyli və Məcnun. Bakı: Azərnəşr, 1940. 231 səh. 331*
[134] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 64*
[135] *Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 269 səh.16*
[136] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992,səh. 243*
[137] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992. səh. 32*

**Nəsimidə:**

Aləmdə bu gün səncıləyin yar kimin var?
Gər var desən,yox deməzəm,var, kimin var?[138]

**Racidə:**

Saqi, bu şəkər ləb ki, sənin vardı, kimin var?
Bu cami-ləbaləb ki, sənin vardı, kimin var?[139]

Bildiyimiz kimi, "Kitabi-Dədə Qorqud"da Dəli Domrulun xanımı Əzrailin (əs) istəyi ilə ömrünü ərinə bağışlamağa razı olur. Ömürdən başqalarına payın mümkünsüzlüyünü bilsələr də, şairlər zaman-zaman istəklərini "qurban olmaq", "can vermk" şəklində bildirmişlər. Raci bu məsələyə öz fikrini belə ifadə edir:

İstərəm həqdən ki, qoysun ömrün üstə ömrümü,
Dəmbədəm məlbus olursan cameyi-əlvan ilən.[140]

**İ.Həsənoğlu:** Tutuşmayınca dər atəş bulunmaz xisləti-ənbər,...[141]

**Raci:**

Canana yetişməz hər o kəs yanmasa canı,
Bu nöqtə yazılmış pəri-pərvanələr üstə.[142]

Şairlər yeri gəldikcə yamsılamalardan da istifadə edir. İ. Həsənoğlu "nə qülqül, qülqülü badə" (62, 25), Ş.İ.Xətayi "qum-qum der ıdı ağacda qumri".[143] şəklindədir. Racidə

Saqi, mina gərdənin, şirin ləbin vəsf eylərəm,
Şişə ta qülqüldədür, peymanə şirəngizdür.[144]

---

[138] *Nəsimi. Seçilmiş əsərləri. (fars divanı) Bakı, 1985, səh. 49*
[139] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.48*
[140] *Yenə orada, səh. 44*
[141] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.20 cilddə. III c., Bakı: Elm, 1984, səh. 25*
[142] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 74*
[143] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.20 cilddə. III c., Bakı: Elm, 1984, səh. 415*
[144] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.46*

Vaqif yaradıcılığının Raciyə təsirindən danışmaq düzgün olmazdı. Çünki Racinin vaxtında Qüzey Azərbaycanı Rusiyanın işğalı altında idi. O vaxt Vaqifin əsərləri çap olunmamışdı. Şifahi şəkildə Raciyə çatıb-çatmadığı da bəlli deyil. Ancaq yəqin ki, Raci öz müasiri Nəbati ilə və əsərləri ilə tanış idi. Vaqif və Nəbatidə özünü göstərən bəzi oxşar notlar Nəbati vasitəsilə Raciyə də çatmış ola bilər. Bu yöndən Vaqiflə Raci arasında paralellər aparmağı lazım bilməyib, bircə oxşar nümunəni verməklə kifayətlənirik:

**Vaqif:**

Qoymaz göz önündən sevən sevəni,
Könüldən könülə yollar görünür.[145]

**Raci:**

Gərçi deyillə yoldu könüldən könüllərə,
Raci, bu söz yalandır mənim etiqadimə.[146]

Şairlər qübar-toz sözündən müxtəlif şəkildə istifadə etmişlər.

**Aşıq Abbas**:

...Dəstələ zülflərin yerə dəyməsin,
Yollar qubarlanar, toz dyər sana.[147]

**Raci:**

Dəməni-pakin qübaralüdə olmaz, qorxma, gəl,
Geymiş boyunca yar qəba, damənin öpüm.

Ali-əba yetişdi çün Kərbübəla diyarinə,
Batdıla sərbəsər möhnəti qəm qübarinə.[148]

Bağrına basmaq ifadəsi Vaqifdə müstəqim mənadadırsa, Racidə obrazlaşır, metaforik güc qazanır. Birində vəfalı Kərbala

[145] *Molla Pənah Vaqif. Əsərləri. Bakı: Yazıçı, 1988,190 səh. 86*
[146] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 80*
[147] *Aşıqlar. Bakı: Gənclik, 1970, səh. 10*
[148] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 43, 142*

yaralı Qasimi bağrına basırsa, digəri gülbədən tək yardan gələn məktubları. Şəhriyarda isə zaman, məkan dəyişir, səngər, yara alan əsgər və metaforik "tellər"in tam yeni bir ifadəsi:

**Vaqif:**

Səfərdə yar yanından gələn kağızları bir-bir,
Öpər Vaqif, basar bağrına hərdən gülbədənlər tək.[149]

**Raci:**

Yar dərdin basaram dərdimə dərmən yerinə.

Və ya

Ağuşə can kimi allam məzaruvi[150]

**M.Şəhriyar:**

"Tellərin bas yarama, qoyma məni qan apara!"[151]

Şübhəsiz, Raci klassiklərdən təsirləndiyi kimi, özündən sonrakı ədəbi irsə də öz müsbət təsirini göstərə bilmiş, bir çox şairlər ondan bəhrələnəcəyi qədər ustad bir sənətkardır və ədəbi varislik zəncirində özünəxas bir halqaya sahib olmuşdur. Təkcə "Nə eşq olaydı..." mətləli qəzəlinin təsir dairəsinə nəzər salsaq kifayət edər.

**Raci:**

Nə eşq olaydı, nə aşiq, nə hüsni-dilbər olaydı.[152]

**X.Natəvan:**

Nə mən olaydım, İlahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi qəm olaydı![153]

**M.Ə.Sabir:**

Nə dərs olaydı, nə sənət, nə elmi sənət olaydı.
Nə dərsə, məktəbə, elmə, filanə hacət olaydı.[154]

---

[149] *Molla Pənah Vaqif. Əsərləri. Bakı: Yazıçı, 1988, səh. 105*

[150] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 40, 123*

[151] *Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: Elm, 2000, səh. 28*

[152] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 37*

[153] *Natəvan X.Əsərləri.(tertibçi Bəylər Məmmədov). Bakı: Yazıçı, 1983. 158 səh. 279*

[154] *Mirzə Ələkbər Sabir. Hophopnamə. Bakı: Yazıçı, 1980, səh. 166*

**H.Cavid:**

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı.
Nə xəlq olaydı, nə xaliq, nə əşki-həsrət olaydı.[155]

**M.Səfvət:**

Nə eşq olaydı, nə aşiq, nə dil, nə dilbər olaydı,
Nə gül olaydı, nə bülbül, nə mey, nə sağər olaydı.[156]

[155] *Hüseyn Cavid. Əsərləri.4 cilddə. II c., Bakı, 1982, səh. 32*
[156] *Cənubi Azərbaycan ədədbiyyatı tarixi. II c., Bakı: Qanun, 2013, səh. 189*

# II FƏSİL

# ƏBÜLHƏSƏN RACİNİN LİRİKASI

## 2.1. Əbülhəsən Racinin məhəbbət lirikası

Ə.Racinin yaradıcılığını ənənəvi üsulla təhlil qeyri-mümkündür. Onun yaradıcılığına mütləq klassik Azərbaycan, Şərq ədəbiyyatı kontektsindən, dini və fəlsəfi görüşlərinə də eyni ədəbiyyatın fəlsəfəsindən yanaşmaq lazım gəlir. Klassik irsi tədqiq edərkən "nəzəri fikrin son nailiyyətləri səviyyəsindən onları yenidən qiymətləndirmək" (Y.Qarayev) lazımdır. Çünki "ədəbiyyatşünaslığımız tarixində elə hallar olmuşdur ki, klassiklər qarşısında qeyri-obyektiv müddəalar və tələblər irəli sürülmüş, "klassikləri öyrətmək (!)" iddiası "klassikləri öyrənmək" vəzifəsini üstələmişdir. ...bu baxımdan görüləsi işlərin böyük bir hissəsi hələ qarşidadır."[157] Hər hansı bir sənət əsəri yarananda o mütləq özündən əvvəlki ədəbiyyatı sərf-nəzər edir, ondan bəhrələnir: "Klassik bir əsər... Düşüncə baxımından bir dəyər daşımalı, çoxluq tərəfindən dəyərləndirilən dini, tarixi və əxlaqi normalara uyğun, ...gələcək nəsillərin sevəcəyi və faydalanacağı əsərlər olmalıdır."[158]

İnsan yarandığı gündən onun özünün daxili aləmi, başqasına bənzəməyəcək hisslər, duyğu və düşüncələr dünyası olmuşdur. Bu duyğu və düşüncələrin ən riqqətli anında onlar dilə gəlmiş, sözlə ifadə olunmuşdur. Sözün qəlbə tərcümanlığı isə söz sənətkarlarına, şairlərə nəsib olmuşdur. Şairlərin ipə-sapa düzdüyü bu duyğu-düşüncələrə şeir deyilmişdir. Aristotelə görə "Şairin vəzifəsi həqiqətən olub keçənlərdən deyil, ola bilən şeylərdən,

---

[157] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, səh. 414*
[158] *Ramazan Kaplan. Klassiklər tartışması Ankara, AKM yayın,1998, səh. 25*

daha doğrusu, ehtimala və ya zərurətə görə mümkün ola bilən hadisələrdən bəhs eləməkdir... Buna görə də poeziya tarixdən daha fəlsəfi və daha ciddidir."[159]

V.Q.Belinskiyə görə hər bir adamda lirik hiss vardır. Ancaq şeirin ifadə qudrəti yalnız sənətkarlara, ilham sahiblərinə xasdır. "Hər bir poetik əsər şairin bütün varlığına hakim kəsilən qüdrətli fikrin məhsuludur."[160]

Mehmed Doğan şeir haqqında danışarkən onun əslində bir dua olduğu qənaətinə gəlir. "Toplum şüurun allak-bullak olduğu bir zamanda şair topluma şüurunu yenidən qazandırmaq üçün şeirindən bir şəfa kimi istifadə edir".[161]

Ə.N.Tanpınar isə duanı şeirin ən yüksək mərhələsi hesab edir və ruhun kainatla duada birləşdiyini deyir.[162]

Əgər biz Azərbaycan ədəbiyyatına nəzər salsaq, Dədə Qorquddakı alqışlardan bu günə qədər bədii əsərlərin çoxunda duaya meyil, əl açıb kimdənsə imdad diləmə halları görmək mümkündür. Ancaq bunlar sadəcə, verilən nümunələrin məzmununda duanın olmasını göstərir. "Şeir və dualar" deyiminin əsas məğzi isə odur ki, ilhamla gələn şeirlərin yazılması, dilə gətirilməsi Allah tərəfindən şairə verilən bir lütfün qarşılığıdır, onu icra etmək, yəni yazmaq Allaha qarşı bir dua, bir təşəkkür əvəzidir. Yəni feli duadır. Ancaq tarixən şeirin bəşəri, cəmiyyətə baxan tərəfinə, vəzifəsinə daha çox diqqət verilmiş, onun əsas vəzifəsinin insana xidmət olduğu fikri ağırlıq təşkil etmişdir.

Şairin və seirin birinci *vəzifəsi milliliyini itirmədən bir kültürün yeni şüur səviyyəsinə qalxmasını qoruma*: bir millətə onun öz sosyal şəxsiyyətini və yabancı ünsürləri təqdim etməklə ona

---

[159] *Aristotel. Poetika. Bakı, 1974, səh. 63*

[160] *Belinski V.Q. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979, səh. 141*

[161] *"Yağmur" dərgisi. İstanbul, 2002, sayı 14. səh. 33-37; 57, 65*

[162] *"Yağmur" dərgisi. İstanbul, 2002, sayı 14.s.57, 65 səh. 57*

xidmət etmək, onu mədəniləşdirməkdir... Digər bir vəzifəsi də *millətinin dilini həm mühafizə etmək, həm də gəlişdirməkdir. Şair bir kültürün duyğu və düşüncə incəliklərini ifadə edərkən bizim hiss edib, amma ifadə edə bilmədiyimiz təcrübələrə dildə anlam qazandıran, dili zənginləşdirəndir.*[163] Ə.Racinin müasiri M.F.Axundzadə isə şeirə yeni prizmadan baxaraq bu qənaətə gəlirdi: "Şeir fikri sözlə obrazlı, qafiyələnmiş və ahəngdar bir şəkildə ifadə etmək sənəti, müəyyən nizama malik olub ahəngdar şəkildə olan nəzmli sözlərdir."[164]

19-cu əsrə qədər Azərbaycan ədəbi fikir tarixində şeirin vəzifəsi varlığı, yaradanı dərk etmək, ona qarşı sevgi, oxucunun zövqünü oxşamaq, poetik təfəkkürünü inkişaf etdirib zənginləşdirmək, onda xoş duyğular, düşüncələr yaratmaq idi. Şeir "əzm etdiyi yerlərdən mərsumi-məvacib istəməyən, kimsəyə şiru-şəri dəyməyən", "səfabəxşi-əhli-nəzər" (Füzuli) olan lirik parçalar idi. "...Şairdə dilin gözəlliyini və şirinliyini arardılar, peyğəmbərlərdə həqiqəti."[165] 19-cu əsrin ortalarından isə Azərbaycan poeziyasında şeirə münasibət və tələb dəyişir. Kanonçuluq[166] yerini maarifçiliyə verməyə başlayır. Əvvəl xalqın sosial istək və arzularına cavab verən vasitəyə, sonralar isə sinfi mübarizə alətinə, daha sonra partiya (komunist) və dövlət siyasətinin təbliğat vasitəsinə çevrilir. H.Zərdabiyə görə *"şeir böyük bir alətdir ki, onunla bizim yuxuda olan qardaşlarımızı ayıltmaq çox asandır."* A.Sura görə *"Asari-şair yaşadığı əsrin, mənsub olduğu qövmün, gördüyü, eşitdiyi vaqiənin bir ayineyi-jəngnapəziri olmalıdır."*[167]

Şairlərə aid edilən bütün bu xüsusiyyətlərdən Raci şeirlərində daha çox duaya meyil, Haq sevgisi, İlahi və dünyəvi eşq, Əhli-

---

[163] *"Yağmur" dərgisi. İstanbul, 2002, sayı 14.s.57, 65 səh. 42*
[164] *Axundov M.F. Əsərləri. 3 clddə. I c., Bakı: Azərnəşr, 1951, səh. 193*
[165] *Aristotel. Poetika. Bakı, 1974, 191 səh. 129*
[166] *Əliyev Rəhim.Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Qanun" nəşriyyatı, 2012*
[167] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, səh. 209, 211*

beyt eşqi, dünyanı dərkə cəhd özünü qabarıq göstərir. "Divan ədəbiyyatı islam dininin... təsiri altında formalaşan bir ədəbiyyatdır."[168] Raci həm ana dilində, həm də farsca "Divan" bağlamışdır. Bunların içərisində əsasən iki-Bakı və Cənub nəşri üzəridə duracağıq. Təbriz nüsxəsi (28) "Seçilmiş əsərlər"dən (96) və Mərsiyələr divanından (97) fərqli olaraq Racinin lirik şeirlərini geniş əhatə edir. Belə ki, buradakı[169] 188 qəzəlin Bakı nəşrində 146-sı verilib. Burada qəzəllər "Divan" ənənəsinə uyğun olaraq (rədifül əlif, r-l be və s.) əlifba ilə düzülüb və həm qəzəllər, həm də hər qəzəlin beytləri sıra ilə nömrələnib. İranda istifadə olunan çap şriftləri ilə basılıb. Bu baxımdan əlyazmalardan fərqli olaraq rahat oxunur və asan tədqiq etmək olur. Ədəbiyyatşünas Nazim Rizvan şairin əsərlərinin yayılma arealı ilə bağlı belə bir fikirdə haqlıdır ki: "Çox hazırcavab, yüksək zövq və mədəniyyətə malik olan Raci hələ sağlığında təkcə doğulduğu Təbrizdə deyil, bütün Cənubi Azərbaycanda, o cümlədən Qafqazda da tanınan və seçilən şairlərdən olmuşdur."[170]

Ə.Racinin yaradıcılığında müxtəlif mövzuları əhatə edən qəzəl, qəsidə, mənzumə, rübai, təcnis və s.-lə bərabər bir də Kərbəlaya həsr olunan mərsiyələri, növhə və sinəzənləri də mühüm yer tutur.

Şairin lirik yaradıcılığı hər nə qədər müxtəlif sahələri əhatə etsə də, məhəbbət onda aparıcı mövzudur. Bu məsələdə o ən çox ustadı Füzuliyə bağlıdır və onun ən layiqli davamçısıdır. Bu bağlılıqda imitasiya yoxdur, yeni dövr üçün yazılmışdır, orijinaldır, özünəxasdır.

"Qüssə bəhrinə qərq olan" şair ustadı kimi saqiyə müraciət ədir və eşq bəzminin təsvirinə belə başlayır.

---

[168] *Məmməd Tahirə. XIX əsr Azərbaycan ədəbiyyatı.(I hissə) Bakıl: 2010, səh. 32*

[169] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu).
Təbriz: Fəxri-Azər nəşriyyatı.1377,516 səh.*

[170] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh.49*

Səbu başini məclisdə, müğənni qoydu tar üstə,
Dedi ahəstə-ahəstə nigar adin bu gəmginə.

Bu məclisdə "türki-qəzələ" ehtiyac var və onu özü deyəcək:

De bir türki-qəzəl, Raci, oxusun bu gözəl Raci,
Bələd olsun əzəl, Raci, rümuzi-eşqin dərdinə.[171]

Ancaq eşqin bir bəla olduğunu, bu dərdi çəkməyin rəmzlərinə bələd olmadan,"qəvvas" olmadan müşküllüyünü Racinin lirik qəhrəmanı da çox gözəl dərk edir və eşqə düşənlərə "Əvvəl çigərün sixi-məhəbbətdə kəbab et,

Ondan sonra bu meygədədə meyli-şərab et.
Nigar kuyidi, can verməsən nəsib olmaz,

və ya

Məgər verüllə behişti günahkarə, yeri "

– deyə əvvəldən xəbərdarlıq edir.

Göz yaşı ilə hər yeri laləzar etmək, dərya etmək hələ azdır, gərək *"ruxi-didarə qeyz ilə deyil, yalvara-yalvara baxasan"*. *"Eşq bir gəncinədir kim, mənzili viranədi"* və eşqə düşənlərin fikri elə dağınıqdır ki,

Gözüm gər istəyə könlümü bir yerə edə cəm,
Gərək qiyamətətən axtarıb nişan tutsun.[172]

Rahi-cananda candan keçməyin Füzuli deyimlərini Raci də çox vurğulayır. *"Rahi-cananda, könül keçgilən öz canından, Töksələr qorxmagilən bircə qaşıq qanından"*-deyə məsələyə bir qədər də romantik yanaşır.

Bu fikirləri inkişaf etdirərək eşq aləmində sanki öz manifestini elan edir:

---

[171] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 18*
[172] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 35*

Gərək qaşü gözü zülfü xətü xal istəyən aşiq,
Qərarü, səbrü, əqlü, dinü imandan əl çəksün.[173]

Klassiklərimiz hər nə qədər mütəvazi olsalar da, yeri gələndə öz məqamlarını, sənət dünyasında tutduqları yeri göstərməyi lazım biliblər. Həm də bunu çox dəqiq ifadə ediblər. "Şeirdən ucalıq umma dünyada, çünki Nizami ilə qurtardı o da" deyən Nizami kimi, "hər sözü bir pəhləvan olan", "aşiqi-sadiq" olan, "şeirinə xalqın müştaq olduğu" Füzuli kimi, "Bənzərəm bir qocaman dağə ki, dəryadə durar" deyən Sabir kimi Raci də hərdən sənət dünyasında özünü təqdim edir, sənət aləmində kimliyini bəyan edir:

Raci, fünuni-şeirdə gərçi, vahidsən,
Dəm vurma çox ki, baisi-lafi-gəzaf olur.[174]

"Nəsimi sözün kimsə fəhm edə bilmədiyi" kimi, "süturi-səfheyi-afaqə sərbəsər baxan və bir hərfin belə qeydsiz olunmadığını" görən Raci də "Qəşr ilə annamaz bu sözün, Raci, məğzini, Dərrakə yox bu şəhrdə ləbbü-ləbbadə", təəssüfü ilə "Raci, fünuni şeirdə həddə, kəmalə yetmisən,...", -deyə özünü öyməyi də unutmur:

Saymaram İskəndərü, Cəmşidü, Keykavusi mən,
Ləbşikəstə cam ilən, Raci, sınıq qəlyan ilən.

Raci öz yerini bildiyindən başqalarından da diqqət və sayğı gözləyir, bu olmayanda qarğışdan belə çəkinmir:

Bu Racidü, hər kimsənə etməz buna xoşluq,
Dutsun görüm Allah boğazından, bu naxoşluq.

Raci şeir aləmində öz yerini göstərdiyi kimi, eşq aləmində də nəyə qadir olduğunu bildirir. Özünü Yaqubla, Yusiflə, Fərhad, Məcnun və Sənanla müqayisə edir: Yaqub tək xəndan kimi "diligiryan" olub Təbriz şəhrinə gəldiyini bəyan edir.

---

[173] *Yenə orada, səh. 54*
[174] *Yenə orada , səh. 17*

Bənzəməz bir daği-xüşk ilə mənə Fərhad, mən
Sinəmin yüz dəfə daği-zəxmidarın görmüşəm[175]

Özünü sevgisi uğrunda dağ çapan Fərhada bənzətsə də, əslində sinəsində yüz dəfə "daği-zəxmidarın gördüyündən" Fərhadın ona bənzəmədiyinə işarə edir. Necə ki, M. Füzuli "Məndə Məcnundan füzun aşiqlik istedadı var" deyirdi. Şair özünü Məcnunla da müqayisə edir. "Onu ərəb çöllərində, Racini də İranda risvayi-eşq olsun deyə yazıblar. Amma bu Məcnun müasir aşiqlərdəndir. Qeys çöllərdə, Raci şəhrdə olur".

Eşqin əzabına hər kim dözə, duruş gətirə bilməsə də Raci durur, dözür.

Qəm bəstərindən heç kim ayağa duranmadi,
Durdi, düzəldi, bu dili-biçarə tazədən.

Qurban bayramında "Eydi-əzhadə kəsər xəlq qoyun qurbani, Sən də gəl kəs məni qurban, boyun qurbanı", -deyərək xalqdan fərqli olaraq özünü sevgilisinə qurban verməyi arzulayır. Bunu da ehtiyatla deyir, çünki eşq rəmzini hər tifl anlaya bilməz.

Nərgislərə təklif eləmün eşq rümuzin,
Əbcəd dögü, hər tifli bu irşadə gətirməz.

Yaradıcılığı boyu Racinin ən çox müraciət etdiyi, xəyalən dialoqa girdiyi, bəzən tənqid etdiyi, bəzən də kinayə ilə süzdüyü zahidlərdir, zühd əhlidir. Bura qədər deyildiyi kimi, lirik əsərlərində iki Raci görünür. Biri haradasa "dinini dünyaya verməyən". İlahi eşqə bağlı olan, özü də nə qədərsə zahidləşən, digəri isə ancaq dünya üçün yaşayan, dünya gözəlinin yolunda çəkdiyi məşəqqətlərə, bu gözəlin vəsfinə, eşqinin ucalığına şirin nəğmələr deyən şair bunların sərhəddini də dəqiq müəyyənləşdirir.

Ata malı kimi zahid mən ilən böldi püşk atdı,
Mənə qismət səri-kuyin, ona cənnət düşdi.

---

[175] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 20, 28, 44, 298, 19*

Və ya:

Zahid, cünuni kamili-bədnamlıq mənim,
Sən saxla əqli-naqisü, namusü arüvi.[176]

– deyə "aşiqi risva" Raci başqa bir yerdə "səri-kuyinin səfasını" hətta "Musaya görünən təcəllaya" belə vermir.[177]

Ə.Raci təsvir elədiyi gözəllərin zahiri aləmini də nəzərdən qaçırmır. Zülf, yanaq, xal, qaş, kiprik və s. kmi elementlər Raciyə xas bir şəkildə vəsf olunur. Zülfünün yanağını, üzünü örtməsi, bürüməsi şairi halbahal edir və çox maraqlı, orijinal mənzərələr yaradır. Qaş çox halda mehraba bənzədilir. Şair sevgilisinin ünvanını da dəqiq göstərir. O, Cənubi Azərbaycandandır. Ya Təbrizlidir, ya Həmədanlı. Onun qəzəlləri qəzəlçilik tariximizdə ayrıca mərhələ təşkil edir. "Dil təmizliyinə, məna aydınlığına, fikirlərin tutumuna, hisslərin səmimiliyinə, məhəbbətin ülviliyinə və reallığına, gözəlliyin fəlsəfi şərhinə,... humanist ruhuna, orijinal üslubuna, zəngin bədii ifadə vasitələrinə, novatorluğuna,...görə bu qəzəllər diqqəti cəlb edir."[178] Racinin lirikası süjetsiz lirikadır. Çox az şeiri var ki, konkret bir mövzunu əhatə eləsin. Onun beytləri, hətta misraları o qədər bitkin, orijinal və bədii cəhətdən yüksək səviyyədədir ki, hər birini ayrıca təhlil etmək lazım gəlir. Hər biri sanki ayrıca bitkin bir əsərdir. Hətta "Görmüşəm", "Mənim eşqim", "Dutubdur", "Vallahi-billahi", "Çəkirəm", "Özğədir", "Baxgilən", "Yerinə", "Verməræm", "Olasan", "Kimin var?", "Tövbə", "Gətirməz", "İstər", "Eşidür", "Əl çəksün", "Deyillər", "Mən", "Kamimcə", "Tapmışam", "Ta- pıldı", "Eylədi" və s. rədifli şeirlərində daha çox mövzudan kənar məsələlərdən danışlıır. Füzulidəki kimi hər beytdə müstəqil fikir söylənir.

---

[176] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.50, 53.42,41*

[177] *Yenə orada , səh. 43*

[178] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 35*

Dağıtdı dəsteyi-zülfün yüzündə məşşatə,
Şil olsun əlləri hər kim bu zülfə şanə vurar.[179]

Raci sevgilisini beləcə görmək istəyir. "Arizi-cananı" zülfə bürünmüş halda. Bu zülflə zülf içində hərdən görünən yanaqları arasında rəngarəng bədii lövhələr yaradır. Gah:

Nigar naz ilə zülfi-siyahə şanə vurar,
Əbirdən rəhi-Maçinə bərxanə vurar.

...Nə çürm edibdü könül bilmirəm o mahvəşə,
Çəkib kəməndə o zülf ilə taziyanə vurar.

Gah da pərişan könlünü yarın dağınıq zülfünə bənzədir:

Bilsə əgər nə növ pərişandu bu könül,
Xatircəm ol ki, sındıru məşşatə şanəsin.

Yalvarır ki, o pərişan saçlar necə var, elə də qalsın. Çünki o saçlar ürək quşunun yuvası imiş. Bu saçlar şair üçün yeddi padşahın xəzinəsindən qiymətlidir. Ona görə də məşşatədən rica edir ki, "zülfü-mişkinini" dağıtmasın, çünki "Yığılur qaşi qətlüvə əlbir olunur". "Zülfü boynunda zəncir kimi görür. ...zəncirdə divanə əgləşsin"-deyir.

Könlüm gərək o zülfdə zəncirə çəkilsün,
Əmma özümü kuhü biyabanə yazublar.[180]

Gah da sevdiyi xalını zülfündə tələdəki dənə bənzədərək "navəki-müjganından" əlhəzər eyləyir, məşşatələr ona zib (bəzək) vuranda sanki aşiqin əyninə qəm libası geydirirlər. Bəzən isə saçı qaranlıq gecəyə, yanağını şamın şöləsinə, özünü pərvanəyə bənzədir.

Arizin meydən əgər ərəqriz olu, zülfə düzülür,
O qara riştədə çün şəddeyi-mərcan görünür.

---

[179] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 29*
[180] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 28,35,39*

Aç pərü baluvi, ey dil quşu, pərvanə kimi,
Şöleyi-arizi çün şəmi-şəbistan görünür.[181]

Vaqif yaradıcılığının bir hissəsini təşkil edən erotik duyğular və onların vəsfi az da olsa Raci qəzəllərində də yer almaqdadır. Fərq burasındadır ki, Raci daha qısqanc, daha kübardır, daha çox üstüörtülü-eyhamla yazmağı xoşlayır. Allahın bu lütfünə qarşı o qədər minnətdardır ki, sevgilisinin gözəlliyindən sadəcə zövq almağı daha üstün tutur. Zülfü ilə o qədər əylənir ki, bir də görür:

Yarı gecə olunca deyər kakilün könül,
Məşquli zülf olur, gecə çün yaridən keçə.

Çünki bu "zülfi-mişkin ləli-şəkərbar üstünə dağıdılanda nə qönçə xəndan olar, nə sünbül mütərranələnər". Burada "yarı" sözündən çox incə bir cinas yaradıb: Bir yarını gecə olunca görmək, bir də gecə yarı olanda görmək mənalarında.

Belinin incəliyini tari-zülflə müqayisə edir və bu anda bel o qədər incədir ki:

Əzbəs ki, tari-zülfi kimi incədir beli,
Təşxis vermək olmuri bir **tar** ilən belə.

Klassik poeziyada bədii tapıntılar, orijinal təsvir və ifadə vasitələri, bənzətmələr çox olub, ancaq saçları kipriklə daramaq istəyi Raciyə məxsusdur.

Məşşatə, vurma şaneyi-şümşad o kakilə,
Müjganım ilə, qoy edərəm yaxşı şanə mən.[182]

Kanon ədəbiyyatında İskəndərin dirilik suyu üçün zülmətə getdiyindən çox bəhs edilir. Buna müxtəlif mənalar verilir. Raci isə bu zülməti "zülfi-siyahda, abi-həyatı qönçə dəhanda" tapır. Gah da zülfü üzə örtülən niqaba bənzədərək sevgilisinin qara bağlaması, ona matəm saxlaması kimi mənalar verir:

---

[181] *Yenə orada, səh. 48*

[182] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56, 57, 60*

Ey zülf, ölübdü yoxsa bir istəkli aşiqün,
Matəm tutub ona başuva qarə salmısan.

Vaxt olur üzünün zülfə bürünməsindən də bezir "badi-səbaya" yalvarır. Axır badi-səba rəhmə gəlir, açılan gül üzünə tamaşa etməyə imkan tapır və buna şükr edir.

Etdi səba o zülfüvi yüzdən kənarə, şükr,
Etdim doyunca gül yüzünə mən nəzarə şükr.

Heç nəyə əli yetməyəndə Füzulinin "bir ah ilə min Bisütunu badə verdiyi" kimi, Raci də ona hər gecə ilan olan

O zülf ki, mənə hər tari mardir, Raci,
Onun evin nə bir ah ilə tarü-mar elədim.[183]

– deyərək təsəlli tapır. Rəhmsiz yarı "sinəsini yaralayıb zülfünü dağıdır, sanki müşki-xütən görsənir." Göstərdiyi zülf içində xalın nə olduğunu anlaya bilmir, bəlkə də "könül mülkünə dam qurub dən göstərir." Onu elə bir tora salıb ki, "Eyləyib atəşi-rüxsarını hin-duyə behişt, Xaliqin hansı Xəlili belə icaz bilür" kimi misallarla yanağı içində xala möcüzə kimi baxır, bunları qaçılmaz bir tilsi-mə bənzədir.

Qaçammaz həlqeyi-zülfündən, ey dilbər, mənim könlüm,
Qöyubsan üstünə xali siyahdan qərəvil sən[184]

Burada Aşıq Abbasın orijinal bənzətməəri yada düşür: "Dəstələ zülflərin yerə dəyməsin, Yollar qubarlanar, toz dəyər sənə."[185] Şair həm də çox ustalıqla "qərəvil" sözünü şeirə gətirməklə siyasi manevr edir. Racinin şeirlərindəki gözəlin saçları da topuğa dəyir, yerlə sürünür. Hətta o qədər uzundur ki, bütün bədənini örtə biləcək paltar kimi nəzərə gəlir.

Gözəlin saçlarını Zöhhakın çiynindəki ilanlara bənzədərək bir az da uzağa gedir. Möminlərin əmmamələri kəfəni əvəz ede-

---

[183] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 72, 82, 81*
[184] *Yenə orada, səh. 78*
[185] *Aşıqlar. Bakı: Gənclik, 1970, səh. 10*

cək ölçüdə olduğu kimi, Raci gözəlıinin zülfləri də belə bir funksiya daşıyır. Təkcə özünü deyil, hətta, hər ikisini bürüyə bilir. Çünki birinci şəxsin dili ilə danışır:

Ölsəm əgər bu zülf ilə bir tari-muyi-zülf,
Olsa kəfən, bu cism bir şəkikbardan keçər.[186]

Örtünmək, hicab, yad nəzərlərdən qorunmaq (oxu: bu gün sadəcə soyuqdan qorunmaq) insana xas bir illətdir. Hicab-təsəttür son anda Allahın əmridir. Buna görə ayə nazil olunmuşdur. Pərdədə olan, görünməyən, görməyə can atılan var olanların, yaradılanların ən qiymətlisidir. İ. Nəsimi

Bürqeyi üzündən açarsan məgər naməhrəmə,
Gizli əsrarı əyan etmək dilərsən, etməgil.[187]

deyirsə, Raci biganənin xəyalının belə könül mülkünə girməsinə dözə bilmir:

Yol vermə könül mülkünə biqanə xəyalin,
Naməhrəmi qoyma hərəmi-eşqə, hicab et.
Naz ilə dilbərim əgər üzdən niqab atar,
Can nəqdini bu aşiqi-bisəbrü tab atar.
Aç müshəfi-rüxsarun, ey yari-Məsihaləb,
Rəhm eylə müsəlmansan, insaf eylə, tərsasan.[188]

deyərək bu məsələyə müxtəlif cəhətdən öz münasibətini bildirir. Göründüyü kimi, zahiri əlamətlər Racinin yaradıcılığında özünəxas şəkildə canlandırılır, şəxsləndirilir, nitqləndirilir və rəngarəng obrazlar silsiləsi yaradılır. Mina gərdəni, al yanağı, sərikuyi, xalı, ləbləri, boyu, hətta libası belə qeyri-adi mənzərələr üçün sanki rəng çalarına dönür. Bu qədər dərin bədiiliklə bərabər həm də çox aydın və anlaşıqlı deyir.

---

[186] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56*
[187] *Klassik Aərbaycan ədəbiyyatı kitabxanası.5 c., Bakı: Elm, 1985, səh. 146*
[188] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 18, 76, 78*

Şairin sevgilisi Günəşdən nur alan Ay kimi sübh qəsrdən çıxar. Qırmızı atlasdan paltar geyir. Bu əlamətlər şairin axıtdığı qanlı göz yaşlarına bənzəyir.

Tifli-yətimi-əşkimi gör dövlətində ha,
Ey şahi-hüsn, qırmızı ətlas libasıdır.
Sübhdəm çün qəsrdən naz ilən ol ziba çıxar,
Kəsfi-nur etməkliyə mehri cahanara çıxar.

O həm də yaşıl paltardadır: Yaşıl qəba içində o muyi-miyan keçər,

Guya miyani-səbzdə sərvi-rəvan keçər.
Qəbayi-səbz ilə yaşıl əmmamə başində,
Deyərsən tutidir bir sərvi xoşrəftar başində.[189]

"O sərvqamətin nərgisi-məstindən fitneyi-axirzaman, suriqiya mət görsənir", "O bu qədd-qamətlə bağə getsə başinə qumrilər dolanar, bülbüllər əfğanə gələr", "Arizin görən aşiqin qurumuş əşki-çeşmi car olur"**-**tam "bahar əyyamı"kimi.

Şair onu tovuza bənzədərək "ruyindəki zülf ilən xalə təəccüb edir ki, tovus necə saziş edər mar yanında, rüxsarini görən heç kəs günə baxmaz, ayinə heyran qalar, tuti lal olar." "Cananın arizi-ərəqi-xəyali ümmanda tapılan düri-şəhvardu", zahid diqqətlə baxsa, bu pəriçöhrədən rövzeyi-rizvanda tapılmayacağını" dərk edər.

Lirik qəhrəmanın cigəri kipriklərinə kabab kimi düzülür, arizi aləmi yaxıb yandırır, yalvarır ki, xəncəri-xunrizi-qəmzəsi yerində dursun, onsuz da tiri-şəhabi-naz şairi həlak eləyib.

Mənim bu əşhəbi-təbim gümüşdən sinəbənd istər,
Qolun, ey siminbər, gəl boynuma eylə həmayil sən.

– deyərək Fərhaddan, Manidən fərqli olaraq Şirininin rəsmini Bisütunda, bütxandə deyil, tişə ilə qazıb sinəsinə –canə nəqş edər. Hicran atəşi aşiqi o qədər ağladıb ki, göz yaşı onu görünməz edib.

---

[189] *Yenə orada, səh. 31, 31, 30, 33*

Racinin sevgilisinin gözəllikdə misli yoxdur. Ona "Bu gözəllərin tacı deyillər", "ondan əl götür desələr də, bu şəhrdə ondan özgə dilbər yoxdur", "ancaq onun gül üzünün əndəlibidir","əgər Sənana namə yazsalar, gəlib bu gözələ baxsa, zünnarı yandırıb imana gələr.", "Günəş onunla rubəru gəlsə, asimandan ayağına düşər", "bu hüsn ilə ona nə aftab, nə də məhvi-nuri-mah demək olar. Raci o qədər aludə olur ki, *xubsən, məhbubsən, məğrubsən, mətlubsən, zülf ilən, rüxsar ilən, qaşü gözü müjgan ilən,* deyərək Züleyxanı şahid gətirir.

Ey Züleyxa, bu pəriçöhrə gözəldir, Yusif,
Gəl şəhadət elə bu barədə imanundan.[190]

Raci gözəlin zahiri aləmi qədər də bu aləmdən nəşət edən onun daxili dünyasına baş vurur və eyni zövq və istedadla hər ikisinin vəhdətini yaradır. "Racinin lirik qəhrəmanı aşiq olub yuxusuz gecələr keçirməyə başlayandan sonra kamilləşir, dünyanı dərk, gizli sirləri kəşf etməyə... başlayır."[191] Məhəbbət gözdə olur, yəni göz qəlbin aynası, tərcümanıdır, şairin qəlbində eşq atəşini yandıran sevgilisinin baxışları, sonra "kəman-əbrusunun" atdığı müjganlar, sonra işvəsi və nazıdır. Sinəsini paralayan müjgan onun üçün əzizdir, mehr salır ona. (Təbib, qurbanın ollam, çıxarma oxu cannan! – Kərkük bayatısı)

Sinəmi qıl xəncəri-müjganuv ilə çak-çak,
Ta sənin mehrindən özgə şey məvalənməsün.

Qəribədir ki, Raci sevgilisinin yerinə qısqanır, baxmağı özünə rəva bilmir və bundan çıxış yolu arayır. Özgə kimsəni görməmək üçün "əşki-xunfəşan ilə gözünün rövzələrini tutur ki, ondan özgə mahruxsarə təmaşələnməsin". Könlü "xəyali-arizi-canan ilə, biruhu-qalibi genə bir can ilə dolan" aşiq "xədəngi-çeşmini şərhə-

---

[190] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.40*
[191] *Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. IV c., Bakı: "Elm", 2011, səh. 649, 645*

şərhə sinəsinə basaraq bir nihali-tazə dikür bağî-canə can ilən","... gözün aç ey kəmanəbru, Tiğin bağrımi yarsun, xədəngün canə əgləş- sün"deyir. Başqa yerdə:

Göz-göz olmuş nəvəki müjganların zəxmilə, dil,
Arizin görməkliyə, sana həzəran didədir.

Nərgizi-məstin alur əzbəs ki, can yüz naz ilə,
Can alınca aşiqi-biçarəni candan qoyar.

Qaşı, kipriyi Rüstəmin oxları, özü qana bələnmiş İsfəndiyar kimidir. Ürəyə batan oxu çıxaranda can çıxan kimi sevgilisinin kiprikləri də onun ürəyinə elə saplanıb. Oxlar o qədər çoxdur ki, ətrafında istehkam yaradıb:

Könüldən tiri-müjganın əgər çıxsa, çıxar canim,
Vücudum qəsri müstəhkəm olub bir tiri-möhkəmlə.[192]

Onun sinəsi o qədər paralanmış, hər yerə səpilmiş ki, "səd-parə könlünü bir yerə cəm etmək üçün min il cüstçu gərəkdir". "Könlü fəsli-xəzan olduğundan ahu-nalə yeridür, dönüb əndəlib evinə."

Racinin ilham mənbəyi tək bir gözəl deyil, gözəllərdir. Sabit deyil. Bu Təbrizli də ola bilər, Həmədanlı da, hətta kafər də, hər hansı bir cavan da.

Ancaq bu gözəllərin hamısının nazü-qəmzəsi, cövri-cəfası eynidir. Yollarında o qədər göz yaşı axıdıb ki, özü onda qərq ola bilər:

Qaldı cismim zövrəqi-girdabi-əşki hicrdə,
Qərq edər badi-muradi-vəsl bu dərya məni.

Şair bəzən Füzulinin Məcnunu kimi hicr qəmini vüsaldan üstün tutur, amma buna çox dözə bilmir, "vüsali-yardə nə xoş

---

[192] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 65, 70, 21,75*

olur ölmək", Allahdan istəyir ki, "onu bu hicrandan qurtarsın". Verdiyi vədə əməl etməyəcəyindən qorxur, Allahı şahid çağırır:

İlahi, sən özün axir, bu əhdü peymanə
Mən ilə yar arasında gərək güvah olasan.

"Dərdi-qəmi-eşqə dərmanı Ərəstüdə, Loğmanda" tapa bilməyən şairin nəbzinə baxıb "buna çarə yox" deyəndə Raci buna bir çox çarə tapır:

Min dərd ilə bu eşq mərizi şəfa tapar,
Bir dəfə əmsə ləli-ləbi əbdaruvi.

Dediyimiz kimi, Füzulidən sonra ədəbiyyatda tədricən eşqin xəyali deyil, real yaşantıları başlayır. Dekameronçuluq virusları şeir sətirlərinə yol tapır. Bu hallar Raci yaradıcılığında da görünməkdədir. Oxucusunu busələrin – "kami-aləmi şirin edən ləblərin" dadından hali etməkdən özünü saxlaya bilmir. İnsafsız yarı bir busədən ötrü şairi başına dolandırır. "Bildir imanını bir busəyə alıb, küsüb, bu il də canını verməyə hazırdı ki, bildirkinin ziyanı çıxsın," Bəzən heç imana, dinə də bir busə vermir, ancaq şair yenə canını verməyə hazırdı. Hərdən də zənəxdanı öpməklə kifayətlənir, bunu qənimət bilir. Sevgilisinin xalını Həcərə təşbeh edərək xalını öpməklə həddi-kəmalə yetişəcəyini, hacı olacağını düşünür. Bəzən də dialoqa girirlər:

Dedi: – bir busəyə allam, – bəlakeş, o canın,
Dedim: – ey məhliqa, çün belədür, bəs dəgsün.[193]

Ləbindən ötrü könlü qanə dönən şair onu dönə-dönə əmmək istəyir. Ancaq bu da asan deyil, ucuz "satmaq" istəmir. Aralarında hesab başlayır.

Hesab olmaz mənim bir gündə yüz ölməyim, əmma
Özü bir busə versə, tez hesab ol bihesab eylər.

---

[193] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 45, 40, 74*

Bütün bu istəklərə, nəhayət, vəslinə yetişmək üçün Raci "Eşq Fərhadı nədir, kuh nədir, tişə nədir? Sinəsini dırnaq ilə şirin-şirin qazar", çox şeylərdən keçər, çox şeylərə: ayağının altda döşənməyə, toz olmağa hazırdır.

Əgər qoyam yüzimi xaki-payinə bir də
Götürmərəm dəxi mən bəxtiqarə yüz yerdən.

Gər istəsən başun üstə, könül, gələ canan,
Gərək ayağının altında xaki-rah olasan.
Çəkdim əyaği başə, qoyum baş ayağuvə,
Saqi, edüm bu nemətə mən bəxtiqarə şükr.

Bir busə üçün imandan, candan keçsə də, ayağının altına döşənsə də, bir şey çıxmayanda Raci *yalvarışa* keçir. Bu vasitə ilə rəhmə gətirməyə çalışır. Riza rədifli qəzəlində İmam Rzaya and verir.

Yoxumdu möhnəti-hicranuva mənim tabım,
Gəl indi tərki-səfər et, səni imam Riza.

Nə qədər yalvarum əcz ilə türkü-türkanə,
Tərəhhüm eylə mənə, getmə vəssalam, riza.

Deyin, ol bivafa az bu dili-əfkarı yandırsun,...[194]

Raci qəlbə girməyin yolunu bunda gördüyündən könlünə yumşaq dillə danışmağı məsləhət bilir.

Qeyz ilə az, könül, ruxi-dildarə baxgilən,
Rüxsari-dildarə yalvarə-yalvarə baxgilən.

Və ya

Göstər dili-rüxsarini, canım sənə qurban.

Bu qədər yalvarış, fəryadü nalə qəlbinə təsir eləyir, ahından "nərm səngi-xarə" olur və buna şükr eləyir. Heç bir təbibin dərman tapa bilmədiyi dərdə vüsal dərman olur, çarə olur.

---

[194] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 62, 36, 58, 45, 82, 23, 24*

Könül vüsala yetəndə duyğularını "Bir saət" rədifli qəzəlində belə ifadə edir:

Yetişdi çün könül, ey məh, vüsalə bir saət,
Doyunca qoy baxım ol gül cəmalə bir saət.

Fəraqi-saəti bir ilcədir yanimdə mənim,
Vüsalin illəri gəlməz xəyalə bir saət.

"Ney kimi ləbrizi-nalə olsa da, səsini çıxarmadan ah-nalə et, bu vüsal gecəsində nigar ilə o qədər əyləş ki, sübhə bircə saət qalsın",-deyir "bəxtavər" Raci.[195] Racinin lirikasından söhbət açarkən N.Rizvan onun baş qəhrəmanının "İnsan" olduğunu, aparıcı ideyanın "MƏHƏBBƏT", lirik mənin ətrafında dolanan üç əsas obrazın isə "AŞİQ, MƏŞUQƏ və RƏQİB" obrazlarının olduğunu söyləyir.[196]

Bir çox şairlər kimi Raci də **rəqibdən** gileylidi, rəqibin əlindən göz aça bilmir. Sevgisi də vəfasızlıq edir. Əğyara bel bağlayır. O hamını atıb yarı tutur, yarı da gedib əğyarı tutur. Rəqibə mərhəm olandan aşiqinə kəmməhəl olur. Əgər yəqin eləsə ki, **yarı** əğyarə **yar** olub, bu **yara** ölüncə sinəsindən getməyəcək. Rəqib bunu bilir, ona görə də yarı Racinin sinəsində görcək (? S. H. ) qəlbinin imanla dolduğunu düşünür.[197] Xəzan yeli hüsnünə əsəcək, qəddi əyiləcək, bütün bədnəzərlər üz çevirəcək, Raci də sübhi-şam qalan deyil, -deyərək cəfasına dözmür. Ustadı Füzuli daim qəm və cəfa istədiyi halda, Raci artıq bezir.

Əritdi büteyi-qəmdə bu cismi-natəvan, zalım,
Cəfadur-həddən aşdı, imtəhandur bu əgər-bəsdi.

"Ol cismi-məst gecələr rəqib ilən mey içir, gündüzlər sərkəran keçir". Raciyə görə nigarın özü şairə yaxşı-yaman deyə bilər, amma bu sözlərini əğyardan nihan tutsun.

---

*[195] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 33, 248, 21*

*[196] Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 35*

*[197] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.129,53,70,4*

Aşiqlərlə rəqib arasında qeylü-qal olur. Bundan Raci təngə gəlib. O divsurətdən əl çəkməyini istəyir, çünki mələk şeytanla iltifat edə bilməz. "Yari-vəfadar ilən qərar qoyur ki, Mundan sonra əğyar ilən oturmasın", deyərkən qısqanclıq son həddə çatır:

Göstərmə o rüxsarun hər bisərü bipayə,
Könlüm səni aləmdə hər gözdən iraq istər.

Əğyardan cana doyan şair kafəri ondan üstün tutur. Belə ki, gündə min dəfə kafər üzünü görməyə razıdı, ancaq ildə bir yol əğyarı görmək istəmir. Yarı ilə rəqibin aşinalığını görəndə söyüşdən belə çəkinmir. "Rəqib ləblərin əmdikcə mən baxıb yandım, dedim ki, çeşməyi-heyvanı qoyma it yalasın",-deyə Əğyarın yanlarında ol- masını istəmir.

Cana, nə deyim, mən sənə əğyar yanında?
Bülbül nə desin öz gülünə xar yanında?

Görmək səni mümkün dögül əğyarın əlindən,
Gəl yanimə bir indi ki biganə yatıbdur.[198]

AŞİQ, MƏŞUQ və RƏQİB Raci şeirlərinin də əsas qəhrəmanıdır. Onun məşuquna qısqanclığı fərqli şəkildə büruzə verir. "İnsana həyat eşqi aşılayan, şeirlərə canlılıq, həmişəyaşarlıq bəxş edən **qısqanclığın duzlu məzəli ifadəsi** Racini demək olar ki, bütün qəlb və qələm sahiblərindən fərqləndirir. Həm eşqin, həm də sənətkarlığın ucalıqlarına qaldırır."[199] Qısqanclıq onda fərqli bir şəkildə təzahür edir. Yarını qarşısında durduğu ayinəyə, yarın özünə belə qısqanır.

Raci niğarı vəsf etməkdən belə, ehtiyat edir ki, dilə-dişə düşər, rəqib duyar, dirilik suyu dediyi ağzına tamah salar, başına bəla açar. Bu dirilik suyu deyil.

---

[198] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.27*

[199] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 37*

Çeşmeyi-heyvan görüb ağzun üçün rəqib etmiyə təm
Çeşmeyi-heyvan deyil, söylə təmannələnməsin.

Şair heç cür rəqibin başını tovlaya bilməyib. O, şairin sevgilisi ilə illərlə bir yerdədir. Artıq tamahlanıb da... Raci üçün indi yalvarış obyekti dəyişir. Dilbərdən əl çəkib, indi rəqibə yalvarır.

Sənindi neməti-vəsl, ey rəqib, illərnən,
Verin macal mənə laməhalə bir saət.[200]

Heç bir əxlaq normasına sığmayan, milli dəyərlərdən uzaq olan bu özünüifadə, bu münasibətin açımı, yozumu nə imiş? Neyləyirmiş illərnən rəqiblə olanı Raci "bircə saət"? O, "Bir saət" rədifli qəzəlində fikirlərini belə ümumiləşdirir: Doyunca tamaşa etmək, behiştdəki Tuba bunun sayəsi olduğundan bu Tubamisalın qamətinə bir baxan onun-tubanın arzusunu çəkməz, əli yetişsə, "ol danə xalə bir saət kəməndi-zülf ilə min könül" quşu tutar. Ney kimi dopdolu nalə olsa da, səsini çıxarmasa da, qarşısında bu fikirlərlə o qədər əyləşir ki, sübhə bir saət qalır. Yaxud başqa yerdə "Qoy başını mənim dizim üstə, səvab elə, Ol çeşmi-məstin indi ki xab arzusu var." Deməli, Racinin bu məqamdakı sevgisi çılğın hisslərdən, ehtiraslardan, qadına qarşı təmannalardan uzaq, saf, tərtəmiz, Məcnunsayaq bir eşqdir. Allahın bu gözəl nemətinə əl vurmadan, toxunmadan bu gözəllik qarşısında "Surəti-halın görən surət xəyal eylər"cəsinə Xaliqinə şükranlıqla, heyranlıqla baxmaq, xoş duyğular yaşamaq. Ancaq buna da əli çatmayanda küskün-küskün

Könül, ol məhliqa bivəfadu qoy getsün,
Həmişə aşiqə cövrü cəfadu, qoy getsün,

Rizayə bir belə yalvarma, Raci, əl çək sən,
Özü ki getməkliyə indi rizadu qoy getsün.

– deyir. Ancaq bu getməkliyə də bir insan kimi çox dözə bilmir. Əlindən heç nə gəlməyəndə gücü bədduaya, qarğışa,üsyana çatır:

---

[200] *Raci.Seçilmiş əsərləri (tərtibçi Abıyev Hafiz). Bakı:Sabah,1992,səh.65, 81*

Yetməsin mətlubinə, hicrankəşidə aşiqi,
Cövr ilə dünyadə hər kim vəsli-canandan qoyar.

Məni yandırı aləmdə bu növ atəşi-qəmdə
Onu da görüm aləmdə mənim tək Tari yandursun.[201]

Göründüyü kimi, Racinin məhəbbət lirikası rəngarəngdir, əhatəlidir, səmimidir, həm də mürəkkəb və ziddiyyətlidir, insan qəlbinin poetik tərcümanıdır, eyni zamanda yüksək sənətkarlıqla yazılmış sənət əsərləridir, şeirimizin dəyərli incilərindəndir.

## *2.2. Ə.Raci lirikasinda ictimai motivlər*

Racinin sevgi şeirləri ilə bağlı bir məsələ də şairlərin əksəriyyətinin yaradıcılığında aparıcı mövzu olan eşqin predmetinin nə olmasıdır. Bu sadəcə sırf bir dünya gözəlidirmi? Raci "Divan"ı nın tərtibçisi Hafiz Abıyev kitabın müqəddiməsində yazır: *"Raci qələminin əsasını saf, bəşəri məhəbbətin yüksək bədii tərənnümü tutur. Onun lirikasında şirin vüsal həsrəti ilə çırpınan bir qəlbin təbii həyəcan və sarsıntıları duyulmaqdadır"*.

Deyilənlərdən də aydın olur ki, məsələ sadəcə bu deyil, eşqin predmeti daha geniş və əhatəlidir. Bu baxımdan məhəbbət fəlsəfəsini bu təsnifatda incələmək olar:

1. *Sırf ilahi eşq.*
2. *Peyğəmbər eşqi və əhli-beyt, səhabə eşqi.*
3. *Dünya ğözəllərinə qarşı məhəbbət.*
4. *Dünyəvi eşq, yəni dünya nemətləri ilə, dünya ilə bağlı məhəbbət. Bura daş-qaş, təbiət gözəlliyinə qarşı sevgidən tutmuş, dosta, qohuma, doğmalara, vətənə məhəbbətə qədər hər şeyi daxil etmək olar.*
5. *Bu dördünün qarışıq şəkildə verilməsi.*

Məsələyə bu ölçülərlə yanaşdıqda görürük ki, Racinin dünyəvi-lirik şerlərinin əksəriyyətində bu saydıqlarımız elə qaynayıb

---

[201] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 85, 23, 58*

qarışır ki, konkret nədən bəhs etdiyi çox az şeirlərində bəlli olur. Misralar, beytlər ya Qurani-Kərimdən bir ayə ilə bağlı olur, ya ayə və hədislərdə nəyəsə işarə edilir, ya gəlib getmiş peyğəmbərlərdən hansınınsa adı çəkilir, onunla bağlı qissələrə toxunulur, ya da əhli-beytdən kimlərsə xatırlanır, onlara müəyyən işarələr edilir. Deməli, eşqin predmeti müxtəlifdir. Yaradandan, onun Rəsulundan tutmuş meylimiz nəyədirsə, qəlbimizi riqqətə gətirən nədirsə, eşqin predmeti də odur. Şairlərin toxunduğu mövzular da onların yaşantıları, dünyagörüşü, mühiti, əxlaqı və elmi səviyyəsindədir.

H.Abıyevə görə *"Onun nəzərində aşiq "xəlqən" və "xülqən" pak bir vücud sahibi olmaqla, dünya və üqbadan əl çəkməli, öz meylini yalnız sevdiyi gözələ salmalıdır"*. Mərsiyələrində isə *"...atanın oğula, qardaşın-qardaşa, bacının qardaşa və son nəticədə Allaha olan məhəbbəti o qədər cazibəli təsvir edilmişdir ki, oxucu qəlbini kədərlə, gözünü yaşla doldurur"*[202], –deyir.

*"Öz xahişini tərk eləsin talibi-canan, Nə talibi dünyavü, nə üqba gərək olsun" deyən Raci isə "əgər aşiq Canana talibdirsə, dünya və üqbadan əl çəkməli, onları unutmalıdır" qənaəti hardasa Nəqşibəndilərin "tərki dünya, tərki ukba, tərki tərki, tərki həst" fəlsəfəsini xatırladır.*

Canan isə canı verən –Yaradan mənasındadır.

Raci də Nəsimi kimi kainat kitabından ilahi sirləri oxumağın mümkünlüyünü qəbul edir və onu müxtəlif yerdə arayıb axtarır. Yəni hara baxsan yaradandan, hər sənət sənətkardan xəbər verir, onu tanıdır. Bir gözəlin çöhrəsində

Çöhreyi-camə içində ruxi-canan görünür,
Sədəf içrə deyəsən mehri-dirəxşan görünür.
Bu xalü xəti kim, ruxi cananda yazublar,
Bənzər o hürufata ki, Quranda yazublar.

---

[202] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 7, 7, 13*

Şair kainat kitabının heç bir səhifəsində bir hərf xətasının belə olmadığını bildirir, Günəşi nümunə gətirir:

Baxdım süturi-səfheyi-afaqə sərbəsər
Bir hərf nəbaqaidə yox bu kitabda.

Bu karxanada hər şey öz yerindədir. Kainat kitabında qeyd olunmamış heç nə yoxdur. Hər şey yazılıb, sadəcə oxuya bilmək lazımdır. Dünyəvi sevgisinin üzündəki xətti-xalın sirrini anlayan yoxdur. Onu anlayan aşiqin eşqi Müshəfinin (Quran səhifələrinin) də mütərcimi olmuşdur.

Yüzündə xalü-xətin sirrini anliyən yox idi,
O müshəfin də mütərcim edib mənim eşqim.[203]

"Surəti fərmani-həq, fərmanə bax, can gözün ac, surəti-yəz–danə bax" deyən sələfi Nəsimi kimi "Baxanda hər yerə, hər yana surətin görür", – deyə fəlsəfi görüşlərini dilə gətirir. Əslində isə hürufilərin əsas fikirləri də bu idi ki, yaradılanın hər biri xaliqindən xəbər verir. Bu sirri anlamaq üçün hürufat ən yaxşı açardır, vasitədir. Sənətkar yaratdığına imzasını qoymamış deyil. (Bu gün çox şeydə, o cümlədən insan orqanlarında Allah sözünü oxumağa cəhd geniş yayılıb və nəticələrə dair çoxlu faktlar aşkara çıxır.) Yaradılanların ən mükəmməli insan olduğundan ən çox ona təvəccöh edilir.

Bir qaranlıq gecədir yarın saçı
Surətində ol mahi-tabana bax.
Nigari-səfheyi-ruyun nəzarəsi xət ilə
Aparır göz işığın ruzixət kitab kimi.

Hay – həyat, daim diri olan, yaşayan və yaşadan anlamına gəlir. Külli kainat bu sözü zikr edir. Mövləvi dərvişlərin dilində "Hay-hay", "hey-hey" şəklində virdi-zəban olmuşdur. Hətta xalq ifadəsi kimi, hay-huy, hay-küy şəklində daşlaşmışdır:

---

[203] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 8, 17, 20*

Gəlir bu "hay-huy", Raci, bu dəm meyxanə səmtindən,
Ki, huşum uçdu başımdan, bu nə qovğa, bu nə səsdir.

Şair bəzən bu səsi haraya çağırır: "Yetişsin nəreyi "hey-hey" fələkdən mahi pərvinə". Haq nurunun hər yerdə təcəllasını Raci də qəbul edir:

Eylədi ayineyi-aləmdə nuru-haq zühur,
Tapdı ayətində surət məniyi-əllahi-nur,
Bundan artıq çeşmi-həqbinə degil ayət zərur,
Sərasər bu ənfusi afaqi-ayətdür qərəz.[204]

Bu xüsusilə insan surətində görünür, yaradılanların ən mükəmməli olduğundan.

"Baxıram, vəchi budur daim o rüxsarüvə,
Var səvabı baxa hər kimsənə Quran yüzünə"

– deyə hürufanə bir fikir yürüdür və bunun dalınca çox qəribə və orijinal bir təşbih işlədir:

Dəstə-dəstə tökülüb gül yüzə bu zülf siyah,
Deyəsən əbr düşübdür mahi-təban üzünə.[205]

Səni görən bilü tarını cəmalunda
Yazubla bəs deyəsən la ilahə illəllah.

Bu yazılanları oxumaq, Nəsiminin ifadəsilə, "quş dili" olduğundan heç də asan deyil.

Dedi, bir daneyi-xalilə könül vəsfi-ruxun,
Kimdi bu nöqtədə təfsir edə Quranı dürüst.

Bir xal dənəli ruxu vəsf etmək olar, amma bu nöqtədə Quranı kimsə dürüst təfsir edə bilməz. Bu çətinliyi etiraf etsə də, şair bacardığı qədər "xət"dən danışır, təşbihlər işlədir, sifətdə "Qul hu vəllahi əhəd" surəsinin yazıldığını deyir. Ayrıca "Xətün" rədifli qəzəl də yazır.

---

[204] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.64,36, 29, 180*
[205] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 175*

Belə ki, eylədi gəlməkliyə təcil xətün,
Dutacax səfheyi-rüxsarüvi bu il xətün.
...Müshəfi-surətivə surəbəsurə məktub
Bəiyinnat ayəsinə yazdilə təvil-xətün.

Xəm qaşun səcdəgah eyləllə mələksimalər və s.

və ya

Nə deyim, xalü xətün vəsfini mundan artux,
Oxur eşq əhli onu sureyi-Quran yerinə.

-deyərək bu fikri davam etdirib elə bir həddə çatır ki, Tövhid (Allahın birliyi) nöqtəsini nigarın xalında görür.

Axtarma sirri-nöqteyi-tohidi, zahida,
Xali nigara bax, elə pərvərdigara şükr.

Özünü dənə və suya həsrət qəfəs küncündə qalan bülbülə bənzədərək yalvarır ki,

Həm xalü həm ləbə de bu künci qəfəsdə
Biabü danə mürği-dili-zari saxlasın.[206]

Burada Nəsiminin

"Ey bülbüli-qüdsi, nə giriftari qəfəssən,
Sındır qəfəsi tazə ğülüstan tələb eylə."[207]

beytini əlavə etmədən keçə bilmədik. Sələfi kimi Raci hərdən Quran ayələrindəki bəzi beytlərini elə bəzəyir ki, fikirlərin bundan gözəl ifadəsi təsəvvürə gəlmir:

Cameyi-səbz ilə göstərdi ruxi-alini yar,
Zahir oldu mənə sirri-şəcəri-əxdəri nar.

Yasin surəsinin 80-ci ayəsinin məalı belədir: "O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur siz indi ondan

---

[206] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 24, 26, 27, 40, 83, 25*
[207] *Klassik Aərbaycan ədəbiyyatı kitabxanası. V c., Bakı: Elm, 1985, səh. 230*

od alırsınız." Beytdə hər şey aydındır, bircə "cameyi-səbz"dən başqa. Əvvəlcə ayənin rəmzlərinə nəzər salaq. Ərəbistanda yaşıl halda sındırılarkən od saçan ağacın mövcudluğu bu yaxınlarda bəlli olub. Quran qissələrindən bilindiyi kimi, İbrahimi (əs) Nəmrud oda atdırarkən od yandırmaq xislətinin ziddinə olaraq genişlənib bir yaşıllıq əmələ gətirir və Xəlilullah yanmır. Yaşıl ağacın xislətində od və ya odun içərisində yaşıllıq (yəni yanmamaqlıq), bunun həyatdakı əlaməti: 40, bəzən də 50-60 dərəcə istidə yarpaqların yaşıl qalması sirri. "Cameyi-səbzə" gəldikdə isə çox güman ki, cam (şam) ağacının yaşıllığı içərisindən odun-qızartının zühuru Allahın ğizli sifətlərindən biridir. Və bunu bir tərəfdən yaşıl örpəyə bürünən, üzündə yaşıl niqab olan və bunların altından "ruxiali"nin zühuruna təşbeh edirsə, digər tərəfdən də içərisində yaşıllaq olan Nəmrudun yandırdığı tonqala təşbeh edir:

Həmişə xaneyi ümmid qalmaz, Raci, dərbəstə
Olur bir gün ki, lütf ilə Yədullahi fəthi-bab eylər.[208]

Fəth surəsinin 10-cu ayəsi belədir: "Ey peyğəmbər, (s.ə.s.) Hüdeybiyyə səfəri zamanı bir ağacın (ridvan) altında sənə beyət edənlər şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın (qüdrət) əli onların əllərinin üstündədir. Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olur. Allaha etdiyi əhdi yetrinə yetirsə, Allah ona mükafat verər"[209]. Ayətdə Məkkənin fəthinə işarə edilir:

Hübb ayəsi, zahid, sənə Quranda tapıldı,
Mistaği mənə arizi-cananda tapıldı.[210]

Hübb ayəsinin məalı belədir: "Vəzirin övrəti cavan qızımızı tovlayıb yoldan çıxarmaq istəyir. Yusifin məhəbbəti onun bağrını qan etmişdir. Biz onun açıq-aşkar (doğru yoldan) çıxdığını görürük."[211]

---

[208] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.69, 62*
[209] *Bünyadov Z., Məmmədəliyev V. Qur'an (tərcüməsi).Bakı, 1992. səh.510*
[210] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.71*
[211] *Bünyadov Z., Məmmədəliyev V. Qur'an (tərcüməsi).Bakı, 1992. səh.204*

Şair özünü zahidlərlə müqaisə edir. Allah Yusifləri Züleyxalarla imtahana çəkir. Züleyxaların ğözəlliyi və eşqi qarşısında hər kəs duruş gətirə bilməz, bu imtahandan üzü ağ çıxa bilməz. Zahidlər bu hikməti Qurandan öyrəndikləri üçün zühdə qapılırlar. Racinin nəsibi (misdağı) arizi-canan oldu. Şairin sinəsi bir məsləki-ürfan viranəsidir ki, eşqin tilsimi də, həqq sirri də orada tapılır.

Aşiqi-şüunati-zühurati-həqayiq,
Əlhəq genə bu məsləki-ürfanda tapıldı.
Sinəmdə əyan oldu tilsimati-məhəbbət
Bir gəncdü məxfi ki, bu viranda tapıldı.

Qurani-Kərimin yalnız "Nəml" surəsində iki dəfə "bismillah" deyilir. Bir qayda olaraq surənin əvvəlində və 30-cu ayəsində. Süleymandan (ə.s) gələn məktub haqqında tabeliyində olanlara Bilqeyis belə deyir: **"İnnəhu min Süleyman və innəhü bismillahirrəhmanirrəhim"**. (Bu məktub Süleymandandır və o bismillahla başlayır.) Bu qissə Raci şerində belə səslənir:

Tutub xət səfheyi-ruxsaru alun, qaşların, guya,
İki bismillaha bənzər yazılmış sureyi-"Nəmlə."

Şair sevgilisini Süleymandan məktub alıb imana gələn Bilqeyisəmi bənzədir? Və ya Nəsimi kimi Yaradanın isimlərini yaratdıqlarının cizgilərində oxumaqmı istəyir? Müəmmalı sualların cavabı sonrakı beytlərdə aşkarlanır.

Nəzər et səfheyi-ruyində xalu xəttə, ey zahid,
Rümuzi-eşqi dərk eylə, bu Qurani-mütərcimlə.[212]

Racinin müasiri Səyid Əzim Şirvani də

Rümuzi-eşqinin dərk etməmiş mənasını Seyyid,
Gedib meyxanalar içrə laübali-meyküsar olma.[213]

–deyərkən rəmzlərlə danışdıqlarını, "bu quş dilini" (Nəsimi) dərk etməyin asan olmadığı, bunun açarının Quranda oldu-

---

[212] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 75*
[213] *Şirvani S.Ə. Qəzəllər. Bakı, 1960, səh. 25*

ğu qənaətində olmuşlar. "Nəml" surəsilə bağlı beytdən çıxan nəticə odur ki, şair sələfləri kimi insanı Allahın kainat kitabının mükəmməl bir səhifəsi kimi görür və ondakı mənaları oxumağa çalışırlar. Çünki "...bütün (rəmzi-metoforik) elementlər ilahi təcəllanı (teogonik sublimasiyanı, Allahın varlıq elementlərində təcəllisini) inikas edir."[214] "La ilahə illəllah" rədifli qəzəlində bu məsələ açıq və kəskin şəkildə qoyulur. Bələ ki, hürufilər kimi insanın üzündə Yaradanın isimlərini oxuyır.

Səni görən bilü bir Tarıni cəmalında
Yazıbla bəs deyəsən, La ilahə illəllah![215]

Sonrakı beytdə üzünü görəndə yüz təsbeh "La ilahə illəllah" deməsəm, lənətə gəlim deməklə hər varlığın Xaliqi təsdiqlədiyini bildirir. Bu fikir o qədər dərinləşdirilir, sevgilisini o qədər ilahiləşdirir ki, az qala şirkə düşür və

Hər yerdə yüzün görsə düşər səcdəyə Raci,
Kafər deyü kim, eyləyə inkar namazı

– deyir. Bəzən həddi o qədər keçir ki, yarın xalını Həcərə bənzədərək onu öpənin hacı olacağına şübhə etmir:

Xalın qoy öpüm, ta yetişim həddi kəmalə,
Hər kim Həcəri öpsə ona hacı deyirlər.

Lirik mənin sevğilisinə məftunluğu o qədərdir ki, "Məxluqa xaliq demək mümkün olsaydı, sənə Rəbbim deyərdim", deməkdən çəkinmir.

Deyərdim mən sənə Rəbbimsən ey bimislü bihəmta

Deməklik mümkün olsaydı əğər məxluqa xaliqdür. (Səni bu hüsni-cəmal içrə görüb, Qorxdular haq deməyə dönüb insan dedilər. İş Nəsimi)

---

[214] *Seyfəddin Rzasoy. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015 səh. 68*

[215] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992, səh. 24*

Deməli, eşqin, məhəbbətin bir anlamı tanıdığına, bildiyinə qarşı meyildirsə, onun dərəcəsi hər zərrə vücudunda adının zikr edilməsi və nəhayət ona qovuşmaq istəyi, ondan "dərman istəmək" anıdır. Vücudun vəhdətdə, cüzvün külldə əriməsi, onunla bütövləşməsi məqamıdır.

Eşqində dolanbac yollardan keçən Raci də Həqqə qovuşmanın can verməklə mümkün olduğunu dərk edir və *"Can vermək, üzün görmək əgər olsa müyəssər, Çox nəflü sevdadu bu, sevda gərək olsun"* deyərək "Mən"in mənlikdən çıxıb "Sən"ləşməsi qənaətinə gəlir:

Sən ilə böylə doldu cəm, ey sənəm,
Həqiqətlə baxsan əgər, *mən sənəm.*[216]

Bununla belə, bəşəri eşq də unudulmamış, müxtəlif formada ilahi eşqlə birgə ədəbiyyatın əsas mövzusu olmuşdur. Özünü "Eşqdir mehrabı uca göylərin, Eşqsiz, ey dünya, nədir dəyərin" deyən Nizaminin mənəvi varisi sayan, iliyinə qədər ilahi eşqə mübtəla olan, "ağrını sevən" Füzuli belə, "Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən, Desəm ol bivəfa bilməm inanarmı, inanamazmi?" deyəndə ilahi eşq fəzasından dünyəvi məhəbbətə enir. Əgər enməsə, ilahi eşqində "bivəfalıq" aramalı olurdu; bu da Füzuli üçün mümkünsüz idi. Halbuki Füzulidəki ilahi eşq olmasaydı, onun Məcnunu İbn Salam öləndən sonra öz Leylisini qəbul edər, adamların biri olub, adam kimi yaşayırdı. Leylinin bu rəddi heç də Məcnunun əldən düşməsi və ya "hər şeyin öz vaxtı" fikri ilə bağlı deyildi. Ədəbiyyatşünas Yaşar Qarayevin fikrincə "...Sözün geniş, simvolik mənasında Leyli və Məcnun bir-birinə yox, ...ikisi birlikdə "mütləq hüsnə" aşiqdirlər, məhz zirvəyə-kamillik, mərifət və həqiqət mərtəbəsinə yetəndə Leyli və Məcnun bir-birinə, ikisi birlikdə Tanrıya yetişirlər."[217] Başqa sözlə, "İnsanın

---

[216] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56, 63, 248, 250*

[217] *Qarayev Yaşar. Füzulinin Tanrı sevgisi // "Cahan" jurnalı. Bakı, 2000, səh. 17*

Allaha aşiqliyində ifadə olunan həqiqi məhəbət İnsanın (aşiqin) İnsana (məşuqəyə) aşiqliyində ifadə olunan məcazi məhəbbət kodu ilə paralelləşir."[218] Füzulidə bu səviyyəyə qalxan haqq sevgisi Füzulidən sonra getdikcə məcrasını dəyişir, Nəbatidə burulğana düşüb kursunu itirir, Vaqifdə sırf dünya gözəli və ondan alınan zövq-səfanın tərənnümü əsas yer tutur, S.Vurğun isə "yaldan tək aşan qızın qarşısında atdan düşüb yol çaşır"[219], ömrünün qürubunda isə ilk eşqinin Leylasını görməyi arzulayır. Ustad Şəhriyar da qoca və xəstə olanda yanına ziyarətə gələn Leylasına-Sürəyyaya "Hala çera?" ("İndi niyə?") rədifli qəzəlini deyir. İzlərini Racidə də gördüyümüz Y.Qarayevin fikirlərinə nəzər salaq:

"Füzuli sevgisi də ayrılıqda nə tanrı-insan, nə də qadın-kişi rəğbəti demək deyil.

...Biz tək ölümümüzü yox, həm də ölməzliyimizi (əbədiyyəti) dərk edirik və bunun real gerçəkliyi kimi, sevgimizi (fərqi yoxdur, istər ilahi sevgi olsun, istər bəşəri) dərk edirik. Bu sevginin hər ikisi birlikdə ədəbiyyatımızın şərtini və zəminini təşkil edir: ailə yoxdursa, cismani irsiyyət və əbədiyyət yoxdur, ruh yoxdursa, mənəvi irsiyyət və əbədiyyət yoxdur. Çünki nəşə indikidir və fanidir, kədər-əbədi və sabit. Son məqsəd həqiqətə və əbədiyyitə yetməkdir. Bu məqsədə isə, müdrikliyə isə bizi iztirab aparır, nəşə yox...

Füzuli hər bir ölümdən bir yox, iki dünyada əmələ gələn zəlzələni təsvir edir və elan edir ki, ölüm aktı ilə yoxsullaşan, və...zənginləşən dünyalar var"[220] (41, 194).

Deməli, bütün sevgilərin üstündə ilahi sevgi durur. Əgər o sevgi yoxdursa, hər şeydə Yaradanın sənətini görüb buna görə

---

[218] *Seyfəddin Rzasoy. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015, səh. 68*
[219] *Səməd Vurğun. Seçilmiş əsərləri. 2 cilddə. I c., Bakı: Azərnəşr, 1976, səh. 273*
[220] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, səh. 194*

onu sevmir və bunları bizim üçün yaratdığını dərk edib buna görə şükr etmiriksə, sevdiklərimizi də onun üçün sevmiriksə, başqa sevgilərin hamısı saxta və keçici olar."Xəlqi ifadələr, detallar, təşbehlər, obrazlar kimi, sufi motivlər və ideyalar da bu şeirə birbaşa elmi, dini, fəlsəfi mənbədən yox, Nizamidən, Nəsimidən, C. Rumidən, Ş. Təbrizidən, Ş. M. Şəbüstəridən və Nəvaidən bu poeziyaya gəlir."[221]

"Canı hər kim cananı üçün sevsə, canın sevər" deyən Füzulimi doğru yoldadır, Vaqifmi, və ya ziddiyyətlər burulğanında kursunu itirən, "Gah ağıllı, gah divanə olan, gah kəlisalara rəhban olan, gah dərviş, gah meyxana süpürgəçisi"olan Nəbatinin axtardığı nədir? İnsanoğlunun axtardığı doğru yolun-haqqın kökünü yenə Qurani-Kərimdən tapmaq olar. "Nəbə"-(xəbər) surəsində (8-ci ayə) "Biz hər şeyi cütlər olaraq yaratdıq"[222] deyilir. Təfsirlərdə insanların da cüt yarandığı və biri digərinin yarısı, birləşdikdə tam olması, bütöv ləşməsi bildirilir. Ərəb dilində qadının bir mənası zövcə deməkdir. "Zövc bir-birini tamamlayan və ya tamamlama durumu olan bir şeydir."Əgər bir-birinə zidd kimi gördüyümüz şeylər bir-birinin zövcəsidirsə, acı şirinin, yoxuş enişin, iztirab sevincin, ölüm də həyatın zövcəsidir. Deməli, insanın başqa cinsə olan meyli özünü tamamlamağa, bütövləşdirməyə olan cəhdidir. *"Bu evlənmədə (ölümlə həyatın zövcündə) bütün evliliklərdə olduğu kimi nikah kəsilir və izdivac gerçəkləşdirilir... və bu nikah Allah qarşısında olur, orada əhd edilir. Və "insanoğlu ölmək üçün var olur, dirilmək üçün ölür və əbədiyyəti duyub yaşamaq üçün də dirilir."*[223]

Bir az əvvəl deyildiyi kimi, insanlar (Leyli və Məcnun) bir-birinə deyil, ikisi birlikdə Hüsnü-mütləqə aşiqdir, bu aşiqliyin də sonu Allaha qovüşmaqdır. Yoxsa Füzulinin dərdi bir başqa dərd

---

[221] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, səh. 209*
[222] *Bünyadov Z., Məmmədəliyev V. Qur'an (tərcüməsi).Bakı, 1992.362 səh. 611*
[223] *"Sızıntı" dərgisi. İstanbul, 2002, mart sayı, səh. 55*

deyilmiş ki "məni bimar sanmazmı?" deyib "dərdinə dəva" axtarsın. Bu dərdin dəvası canana qovuşmaqdır ki, o da baqi dünyaya köç etməklə olur. "Tərki-can derlər bu dərdin mötəbər dərmanına", ona görə də "eşq dərdi ey müalic, qabili dərman degil."[224] Bu da bu alış-veriş dünyasinda nə qazandığımızdan və bu qazancın orada nə qədər karımıza gələ biləcəyindən asılıdır.

Raci Hz. Əlinin (ə.s) adını çəkdiyi bir qəzəlin sonunda

"Məşhur idi qeytermeyi xurşidi fələkdən,

Raci, onu gizlətmək olur, gün tək əyandır" deyərək Məhəmməd peyğəmbərin (s.ə.s) Günəşi dayandırması ilə bağlı möcüzəsini yada salır. Əslində bu hədislə bağlı qaynaqlarda fərqli fikirlər var. Mövzumuz bu olmadığından bu beyti Racinin Hz. Əliyə sevgisinin ifadəsi kimi qəbul etməklə kifayətlənirik.

Zahidliklə yanaşı rindanəlik və onunla bağlı rəmzlər də onun şeirlərinin əsas elementləri olaraq fəlsəfi estetik, sosial görüşlərinin açımına xidmət edir. M. Füzuli "saqi, kərəm eylə, cam gəzdir" dediyi kimi Raci də:

Götür, saqi, meyi-külfami, doldur cami-zərrinə,

Əlimdən tut amandır, qərq oldum qüssə bəhrinə. - deyir. Şərabı artıq içdikcə nəşə necə artırsa, vəslə meyil etdikcə də eşq havasının artdığı qənaətinə gələn Raci hər ikisini çox vaxt birgə götürür və məsələyə müxtəlif baxış bucaqlarından yanaşır.

Sufilikdə həqiqət mərtəbəsinə ulaşmaq üçün 40 gün riyazət dövrü keçirirlər. Guşənişin olur, daim ibadət edir, heyvani qidalardan uzaq dururlar. Lirik şeirlərində 50-dən çox zahid sözü işlədən və əksəriyyətində tənqidi, ironik mövqedən yanaşan Raci bəzən birbaşa onların yolunu tutur, bu dəfə adi şərab deyil, vəhdət meyi içir.

---

[224] *Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 269 səh. 218*

Saqiyi-qeyb əlindən meyi-vəhdətdən içüb,
Süturi-məst kimi bari-şəriət çəkirəm.[225]

Həmişə tənqid etdiyi "əfsürdəmaq" zahidlərin şairi belə görəndə rişxənd edib güləcəklərini bildiyindən onları qabaqlayır.

Vurma tənə mənə ey zahidi-əfsürdəmaq,
Mən'i-nəfs eyləmişəm, rənci-təriqət çəkirəm.

–Nəfsi mə'n etmək onu cilovlayıb aşa və susdura bilməkdir. Başqa bir yerdə onları saya salmır. "Zahidin pəndü mənə eyləməz əsla təsir. Qulağım gündə mənim yüz belə dastan eşidir. ", – deyir. Və nəhayət güşənişinlik və riyazət anları:

Sufiyi-eşqəmü xəlvətgahi-qəm içrə müqim,
Yar adı virdi-zəbənimdə, riyazət çəkirəm.

Əlbəttə, vəziyyət bu həddə çatanda "yar" rəmzi artıq dünyəvi deyil, ilahi mahiyyət daşıyır. Füzulinin "bir günah edəndə min bir gün ah edib" günahlardan münəzzəh olduğu kimi, Raci də bu möhnətin nəticəsiz qalmayacağını düşünür.

Raci, şikva eləyib dəxi demə çoxdu qəmim,
Tari şahiddi ki, mən yüz belə möhnət çəkirəm.

Özünü bu səviyyədə təqdim edən şair başqa şerlərində adi şərabı meyi-vəhdətdən, meyxanəni xəlvətdən üstün tutur, hətta o həddə çatır ki, şərab ilə dəstəmaz alır. Müsəlman olmazdan əvvəl öz qız uşaqlarını diri-diri basdıranlar imana gələndən sonra qarışqanı belə tapdamaqdan qorxardılar. Raciyə görə belə zahiddən qorxmağa dəyməz. "Bircə cami-mey"lə salik yol üstündəki muru görməz olar.

Başqa bir yerdə: *Min zəhmət ilə Kəbəyə bir hacı yetməsün, Gəlsin təvaf etsin o zair bu məclisi*. və ya *bu bəzmə, saqiya, meyxanədən mey nəhr ilən gəlsin*[226] deməklə yenə məclisi Kəbədən üstün tutur, çünki saqiyə bəzən "piri-muğan" deyir və o qanını mey tək halal edən bir fitva verir.

---

[225] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 16, 31*

[226] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 31, 74, 49*

Güldü, danışdı yar, dur, ey eşq müflisi.
Doldurdu ləli-dürrü cəvahir bu məclisi - və axır ki,
Hicran çölündə Raci əgərçi dolandi çox,
Tapdı, həzar şükr, o müsafir bu məclisi.

Zahid deyər haramdu dəgsə dilə şərab,
Qoymaz dəgə dilə, odu Raci şərab atar!

deməkdə iki fikir anlaşılır.

1. Zahid şərabı haram bilir, odur ki, Raci də şərabı atır. 2. Bu şərabın haramlığı elə bir yanğıdır ki, o odu ançaq şərabla atmaq-söndürmək olar.

Meyxanədə şərab ilə al, Raci, dastəmaz,
Bir öylə səcdəgahdə böylə vüzu gərək.

Nümunələrdən göründüyü kimi, şair şərabla dəstəmaz almaqla həm də ləli-ləbini şərabdan üstün tutur, bir yerdə hətta İsa möcüzəsi kimi ölüləri diriltməyə qadir olduğunu göstərərək Qurandakı Yasin surəsinin 78-ci ayəsindəki "Öz yaradılışını unudur: "Çürümüş sümükləri kim dirildə bilər? -deyə bizə bir misal da çəkir." fikrinə işarə edir. Yarın ləbinin İsa möcüzəsinə-diriltməyə qadir olduğunu bildirir.

Təkəmmül qıl, əyan olsun dəmündən möcüzi-İsa,
Ləbün icazı çün dəviyi "mən-yühyilizam" eylər.[227]

"Yar sinəsində olan şairin qəlbi imanla dolur.", "Zahid eşqin dərd-qüssəsilə aşiqi qorxutmasın, eşqin dərdi dərman, qüssəsi şadlıq, rənci rahatlıq gətirir.", "Eşq əhli halını bir hal ilə keçirir.", "Nisyə yerə qiyamətə göz dikməsinlər. O, hurisini bu cahanda tapıb.", "Raci kimi hamı sənə dil versə, pirü cəvandan bir nəfər xudapərəst qalmaz", – deyə sevgilisinin yolunda lirik qəhrəman dinini belə dəyişməyə hazırdır. O bu dərsini piri-muğandan almışdır. Raciyə görə, Zahid özü də, Sənan da belə edərdi:

---

[227] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 75, 76, 69, 27*

Təsbehi zahid əlindən atar, görsə xaluvi,
Sənan da zülfüvə zünnardan keçər.

Təsbeh möminlər üçün Yaradanı zikr etmə vasitəsi, zünnar isə xristiyanların və ya zahidlərin belinə bağladıqları simvolik bel bağıdır**.** "Xalı görəndə şair təsadüfən təsbehi atmayıb. Min dəfə istixarə eləyib".

Nəticədə "Rəbbim", "qibləm"deməkdən, "yüzünə and iç-məkdən" özünü mə'n edə bilmir.

Mənim imanü, dinü məzhəbü qibləm *bu gün* sənsən,
Yüzün aç, and içüm, kafər, əgər Quranə qailsən?

Deməli, sadəcə "bu gün". Yəni başqa gün başqa birisinə təvəccöh edə bilər. Üstəlik, qəribə məntiqsizklik. Əgər bu kafərdirsə, o, Qurana necə qail ola bilər, əgər Quranə qaildirsə, o necə kafərdir? "Əzmi-rəmimi-aşiqin ehya olur əgər,

Ey İsanəfəs, eyliyəsən bir dəm iltifat". Yəni bir dəmcə iltifat göstərsə aşiqin ölmüş sümükləri dirilir. Bütün bunlarla bərabər xərabətdə kəramət görür, "İxlas" surəsini dilə gətirir.

Ey müdərris, bu mədarisdə, məgər küfrü zəlal,
Gəl xərabata ki, yüz kəşfü kəramət görsənir.

Dur, eylə sureyi-ixlasi həzərxan, Raci,
Müdərris ol ruxi-ümmülkitabə baxmaqdan[228]

Şair ziddiyyətlərin gətirdiyi mənəvi boşluqdan, iki yol ayrıcında qalaraq fikir döyüşlərindən xilas olub çıxış yolu tapa bilmir. Bu dünyadan yetərincə kam ala bilməyən şair "Nə eşq olaydı, nə aşiq" mətləli məşhur qəzəli ilə səsləşən başqa bir qəzəlində belə deyir:

Nə döndü bu fələki kəcmədar kamimcə,
Nə mümkün oldu mənə vəsli-yar kamimcə.

---

[228] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 55,60,78, 66.*

...Nə təngə gəldi gözüm intizar çəkməkdən,
Nəticə verdi nə bu intizar kamimcə.

Nə bü zəmanəyə mən bağladım bel, ey Raci,
Nə saziş eylədi bu rüzigar kamimcə.

Allah yaratdığı qullarını bağışlayır. Onun arınması üçün çeşidli yollar açır. Tövbə qapısı həmişə açıq olduğundan Raci də tövbə edir. Ayrıca "Tövbə" rədifli qəzəl də yazır. Ancaq qəribədir ki, bu qəzəlin özü də ziddiyyətlə doludur. Çıxılmaz vəziyyətdə qalanın yol aramasından çox, tövbə ilə bağlı fikir mübadiləsinə bənzəyir:

...Demişəm içmərəm mey, ey saqi, əmma keç günahimdən,
Səni mən görməmişəm, eyləmişəm bixəbər tövbə.
Nə mən bu eşqdə iczü-niyaz etməkdən əl çəkdim,
Nə sən naz eyləməkdən əl çəkdin, ey zibapəsər, tövbə

Həqiqi dost rahində başun ver, Raci,"uf" demə,
Məcazi aşinadan tövbə, tövbə, müxtəsər tövbə[229]

Göründüyü kimi, Raci Allah qarşısında tövbəyə meyllidir və günahı da "məcazi aşinaya" meyl etməklə və ya "badəgunluqla" bağlıdır.

Əgər gətirilən nümunələrə dərindən diqqət etsək, bu, sadəcə sevgilinin qaşını mehraba təşbeh, ona "Rəbbim", demək "yüzünü görəndə yüz təsbeh lailahə illəllah" çevirməsi və s. deyil. Nümunələr Allaha şərik qoşmağı göstərir ki, bu da günahların ən böyüyüdür. Ömrü boyu bir müsəlman həyatı yaşayan, həccə gedən bir şair, görəsən, bu sözləri necə işlədir, necə bu qənaətə gəlir? Şeirlərin çoxunda müşahidə olunan ziddiyyətlərin kökü nədədir? Necə oldu, bu antiklerikal görüşlər Nizamidə, Nəsimi və Füzulidə görünmədi və ya görünməz dərəcədə az oldu, Füzulidən sonrakı ədəbiyyatımızda məsələlərə bu qədər fərqli qütb-

---

[229] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 66, 49*

dən yanaşıldı, bir insanın daxili dünyasında bir-birinə zidd bir neçə dünya yaşandı? Baxmayaraq ki, Nizaminin özünün belə "tövbə evini" hərdən "eşq xərab etmədə, aşiq iftarına sevda meyi-nab etmədədir."

Əslində ümumilikdə götürsək, bu bəşər övladına xas xüsusiyyətdir. Hər kəsin həyat boyu yaşantıları dolanbac olur, fəlsəfi düşüncələri, dünyadərki də həmçinin. Şairləri də insan qəlbinin tərcümanı kimi qəbul etsək, əvvəla bu fikri götürməliyik ki, bütün bunlar insanoğlunun qəlb aləminin şair qələmində bədii əksidir. Onda şairlərin həm də daha həssas, daha dərin və duyarlı yaşadıqlarını, mənən daha zəngin və ilhamlı olduqlarını, yaza bilmək qabiliyyətlərinin də olduğunu qəbul etməliyik və deməliyik ki, bunlar insanların yaşantılarının, duyğu və düşüncələrinin bədii əksi olmaqla bərabər, həm də şairin iç dünyasının bədii inikasıdır. Deməli, "niyələrdən" nə insanlar, nə də şairlər yaxa qurtara bilir. Əsas sirr isə yenə insanın yaradılışının hikmətində, sirrindədir. İnsanın iç dünyasında imanla nəfs baş-başadır. Şeytanın vəsvəsəsi daim insana haramları gözəl göstərir və insan *dünyaya* meyilli olur, imanın ittihamlarından qurtarmaq üçün inkar yolunu belə tutur.

Əgər Məhəmməd peyğəmbər (s.ə.s.) bir hədisində **"Allahım, məni göz açıb yumuncaya qədər nəfsimlə baş-başa qoyma"**, –deyirsə, onda başqaları hər an nəfsinin əsiri ola bilər. Dünyada hər şey bir-birinə qarışıb, zəmanədən baş açmaq olmur.

> Rindü, şeyxü, salikü, zahid qarışmış bir yerə,
> Çeşmi həqbin yox seçə namərd ilə mərdanəni.[230]

Qeyd olunan ziddiyyətlər də bundan sonra baş verir, onun bədii ifadəsi də. Nə qədər ki, nəfs var, şeytana uymaq var, günah da var, suç da, ziddiyyətlər də. Belə ziddiyyətləri Racinin də bütün yaradıcılığı boyu müşahidə edəcəyik. Onların digər mühüm səbəbləri də vardır.

---

[230] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 71*

Danılmaz həqiqətdir ki, **"şairin vəzifəsi həqiqətən olub keçənlərdən deyil, ...ehtimala və ya zərurətə görə mümkün ola bilən hadisələrdən bəhs etməkdir."**[231] Dögrudan da heç kəs deyə bilməz ki, şairlərin (o cümlədən Racinin) yazdıqları bütünlüklə yaşantılarının bədii ifadəsidir. Bunlar sadəcə həm bəşər övladının, həm də özlərinin duyğu və düşüncələrinin məhsulu, xəyallarından keçənlərin bədii ifadəsidir. Həmişə gələcək zamana aid olur. Felin arzu, əmr, ya da şərt şəklindədir. Həqiqət deyil, xəyalidir. "Aldanmayın, şair sözü, əlbəttə, yalandır" (M.Füzuli). Ancaq hər nə qədər bədii yalan olsa da, qəribə görünən və bizi heyrətdə qoyan Racinin yaradıcılığı boyu müşahidə olunan elə ziddiyyətli fikirləridir ki, bunu elə bir imanlı adamın, Əhli-beyt aşiqinin, "məcazi eşqindən" tövbə edən, həqiqi dostunu tapıb yolunda "uf" demədən başını verməyə hazır olan şairin dilindən deyilməsi təəssüf doğurur. "İymanında xələllər görünməyinə" (S.Ə.Şirvani) acıyırsan. Şairin bu halbahalının içərisində məskunlaşan neqativ cəhətlər oxucuya da sirayət edir, onu da nəfsin çəkdiyi girdaba "şirin-şirin" (Raci) sürükləyir. Bu hisslər, duyğu və düşəncələr Raci yaradıcılığında da nəşət edir. Ziddiyyətlərin kökünü axtarmaq üçün çox uzağa getmək lazım deyil. Quranın Nəcm surəsində deyilir: "**Müşriklər Allahı qoyub yalnız qadın bütlərə (Lata, Mənafa, Uzzəya, Nailəyə) tapınır və yalnız asi şeytana ibadət edirlər"**[232], "**Şeytan müşrik- lərə vədlər verir, ürəklərdə arzular oyadır. Lakin ...yalnız yalan vədlər verir.**"[233] Bu ayələrdən çıxan nəticə belədir ki, müşriklərin könül verib yalvardıqları və ya adına dəvət etdikləri məbutları dişilər olur. Bunların nəzərində ilahi məfhum və mabut təsəvvürü hər şeydən əvvəl bir qadın xəyalıdır. Və bunun üçündür ki, bütlərin əksəriyyəti qadın surətində və qadın ismindədir. O bütün zövqünü və bütün ilhamını qadından almaq istəyir. Ona görə də xəyallarında canlandırdıq-

---

231 *Aristotel. Poetika. Bakı, 1974, səh.63*

232 *Quran. Səudiyyə Ərəbistanı. Əl-Mədinə Əl-Münəvvərə. 1305, Nisə surəsi, ayə 20*

233 *Yenə orada. Nisə surəsi, ayə 4/117-120).*

ları qadınları az qala ilahiləşdirilir və bunların qarşısında əsil qadınlar təhqir edilir, zövq vasitəsinə çevrilir. Mabudunu qadun təsəvvür edən müşriklərin əlində həqiqi qadınlar elə alçaldılır ki, hörmət bir yana, onlar ən bəsit insan haqlarından belə məhrum edilirlər. Bu müşriklər nəyə baxsalar, onu qadın təsəvvür edirlər və bu surətdə bütün ibadət zövqünü şəhvətdə toplayıb haq və həqiqətləri xəyallara fəda edərək, qadın rəsmləri, heykəlləri qarşısında gerçək qadınları ayaqlar altında süründürürlər. Belə hallar mifik təfəkkürdə də özünü göstərmiş, ağac, balıq, canavar və s. arxetiplər kulta çevriləndə qadın şəklində düşünülmüş, yəni mifik qəhrəmanlar onlardan doğulmuşdur. Ənənə sonralar da davam etmiş, bu gün yarıçılpaq şəkillərin sərgilənməsi, reklama alət kimi hallar qadına münasibətin yeni bir formada təzahürüdür. Real həyatdakı bu hallar ədəbiyyat müstəvisində sənəmləri ilahiləşdirməyə və ilahi eşqin dünyəviləşməyinə səbəb olmuşdur.

Bunun başqa bir izahı da sevdiyində fani olmaq, onun prizmasından əsl sevgilini görə bilməkdir. Haqqa qovuşmaq üçün gül bülbülə, Leyli Məcnuna bir vəsilədir. Nəqşibəndilərdə Haqqa qovuşmanın yolu fənafil şeyx, fənafil Rəsul, fənafil Allah olmaqla mümkündür. Bu vəsilələri Seyid Əzim Şirvani belə mənalandırır:

Kimi Kəbədə, kimi deyr içrə görər,
Hərə bir növ gəzir, axtarır ol canani.
Dağə Fərhad çalıb tişəni şirin-şirin,
Gördü Şirində həq nurunu verdi cani.
Gördü Məcnun əsəri-Xaliqini Leyladə,
Düşdü vadilərə, mənzil etdi səhrani.[234]

Məcnunun İbn-Səlamdan sonrakı Leyliyə münasibətinin sirri də məncə bundadır və bu haqda bu günə qədər deyilənlərdən daha tutarlı və daha məntiqi dəlildir.

Nizami və Füzulilərin yaradıcılığında isə özlərindən sonrakılarda olan belə ziddiyyətlərin görünməməsi imanlarının kamilli-

[234] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 84*

yində, nəfsi yenmələrində, Allaha qulluqda qüsursuzluqlarında idi, yüksəldikləri məqamda dura bilmələrində idi. Sonrakı düşüncə dünyamızda nə qədər dəyişmələr olsa da, ""Füzuli şair deyil" deyən M.F.Axundzadə öz avropaçı modern konsepsiyası ilə sufizmə zərbə vursa da...sufizmi məhv etmək olmazdı. Nə qədər ki ALLAH var, İNSANIN ona ilahi-mistik məhəbbəti var, sufizm olacaq"[235] və ilahi eşq də olacaq, onun tərənnümü də.

İnsanın ictimai görüşləri onun dünyaya, cəmiyyətə qarşı münasibətindən doğur. O nə istəyir? İstədiyini əldə etmək, arzularını reallaşdırmaq üçün qarşısını kəsən nədir? -Qarşısını kəsən, mane olan qüvvələri dəf etmək üçün yollar aranır. Bu axtarışda meydana gələn fikirlər sosial görüşləri formalaşdırır. İnsan xarakterinə görə üsyankar olur, mübariz olur, şikayətçi olur, ağlayır, sızlayır, heç nəyə əli çatmayanda hər şeydən üz döndərir, ya asi olur, ya da Allaha təvəccöh edir, dua edir, yalvarır. Bəs Racinin istəyi, bu dünyadan umacağı nədir? Əslində onun həyat tərzi zahidlərin, dərvişlərin, təsəvvüf əhlinin həyat tərzinə çox bənzəyir. Onlar kimi Racini də bu dünyanın nazü nemətləri maraqlandırmır.

Nə zəmanəsindən, nə insanlardan, nə quruluşdan, nə hökmdarlardan, nə onların haqsızlıqlarından açıq şəkildə heç nə deyilmir. "Bir sınıq qəlyan ilən hökmdarları saymayan" şair minnətsiz, sadə yaşamağı üstün tutur. Belə çıxır ki, mövcud vəziyyəti ilə razıdır. Onu nə vətənin taleyi, gələcəyi, nə həmvətənlərinin acınacaqlı, faciəli halları, nə şah rejimində əzilmələri, milli varlığının təhlükə qarşısında qalması, nə də bəşərin taleyi maraqlandırır. Tək bir mürəbbesində din adamlarının dinə pozğunluq gətirmələrindən, hərə özünü bir Bayazid Bistami hesab edərək fitva və hökmlər verməklə bidətçiliyi yaymalarından şikayətlənir, dinin təəssübkeşi kimi çıxış edir. Qalan hallarda isə onun istədiyi nigarıdır. Onun zülf içində hərdən görünən yanağına, xalına, qaş-gözünə doyunca tamaşa etməsidir. Çox uzağa gedəndə xalını öp-

---

[235] *Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1912, səh. 345*

mək, ləblərin əmmək istəyir. Bu dünya onun nəzərində sevgilisinin hicranı və vüsalına bürünərək hicran-vüsal şərbətini dada-dada, onun ağrı-acısını yaşaya-yaşaya, rəqibdən gileyli bir ömür yoludur. Bununla belə misralarda, sətiraltı deyimlərdə sosial görüşləri də öz əksini tapmaqdadır. "Doğrudur, Raci nə inqilab xadimi, nə də ateist idi. Lakin o, yeri gəldikcə ədalətsiz dövlət quruluşuna, soyğunçu hakim təbəqələrə, xalqı cəhalətdə saxlayıb kor etməyə, dünyadan əl çəkdirməyə çağıran saxta mollalara qarşı haqq sözünü deməkdən çəkinmirdi"[236]

Şikayəti rəqibdəndir, əğyardandır, nigarın vəfasızlığıdır, dünyanın fani olmasıdır. Raci "Gah sufi kimi dünyadan və onun varından üz döndərən, gah da doqquz axçadan ötrü az qala dünyaya və dünyadakı bütün övqaflara lənət oxuyan"[237] gah da "bivəfa dünyada gördüklərini bivəfa görən"[238] "salamı rüşvət deyil deyə alınmayan", "aşiqi-sadiq" olan, tam bir zühd, takva həyatı yaşayan ustadı Füzulidən fərqli olaraq bu dünya əzabının imtahan olduğunu yəqin etsə də, ona axıra qədər səbri çatmır.

Əritdi buteyi-qəmdə bu cismi-natəvan zalım,
Cəfadur-həddən aşdı, imtəhandur bu əğər-bəsdir.[239]

Onun bu halını görkəmli ədəbiyyatşünas F.Köçərli çox gözəl xarakterizə edir**:** "Atidə yazılan qəzəlində Raci insanın başına eşqdən gələn bəlaları bir-bir tədad edib, onların olmağını, filcümlə dünyada insanın zövq-səfası və eyş-işrəti üçün xəlq olunmuş əsbabü əlamətlərin yoxluğunu və hüsn aləmin, qəm-qüssəsinin nəfyini arzu edib **əsil mətləb və təmannasın nə olduğunu gizli saxlayır**. Rus şairi Lermontov kimi bizim Racimiz də nə ölmək istəyir və nə sağ qalmaq, nə şirinliyə meyl edir, nə acılığa, nə hicrin zəhri-həlahilini və nə vəslin şəkəri-safini tələb edir."[240]

---

[236] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c. Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh. 249*
[237] *Qaraxan Ə. Füzuli mühiti, həyatı və şəxsiyyəti. Bakı, 1989, səh. 200*
[238] *Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, səh. 213*
[239] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.29*
[240] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 352*

M. İbrahimov da bu məsələdə F. Köçərli ilə təqribən eyni fikirdədir:"...şairin çox zaman dərin düşüncələrə daldığını, həyatda rast gəldiyi dönüklük və vəfasızlıqdan kədərləndiyini, həyatın təzadları barədə dərin fikirlərə cumduğunu, bu təzadlardan bəzən baş açıa bilmədiyini göstərən şeirləri də var:

İmtahan eylədim, ey dil, hamı xubanı dürüst,
Tapmadım bircə nəfər ədldə peymanı dürüst.

Nakam eşqin iztirablarından, əhdi-peymanını pozan gözəllərdən, amansız hökm edən şahlardan və onların qan axıtmağa hazır olan qoşunlarından, iti qılıncdan və baş kəsən cəlladlarından, ürəklə ruhun təzadlarından yorulmuş, onların nə səfasından, nə də cəfa və əzablarından **baş açıa bilməyən şair** məşhur "Nə eşq olaydı" ... şerini yazır."[241]

Raci konkret olmasa da, ümumi şəkildə gizli eyhamlar işlədir. "Nə şah, nə mülk, nə bu fövc-fövc ləşkər olaydı", "Nə tiğ olaydı. nə cəllad, nə bu xəncər olaydı", "Nə tifl olaydı, nə məktəb, nə dərs olaydı, nə elm." "Ustad sənətkar dövrün cəza aparatından yaxa qurtarmaq üçün gözəl ədəbi vasitəyə əl atır. Elə məcazlar işlədir ki, heç kim onu şaha, cəlladlarına, qoşun ləşkərinə nifrətdə təqsirləndirməyi bacarmır."

Şairin ictimai-fəlsəfi motivlərlə zəngin olan "Nə eşq olaydı..." şeiri "...mütəfəkkir novator bir sənətkarın qələmindən çıxmış qiymətli poeziya incisidir. Təqrubən yüz iyirmi ildən bəri dillərdə əzbər deyilən, Natəvan, M.Ə.Sabir, H.Cavid, "...Ş.M.Xiyabaninin yaxın dostu və silahdaşı..." M.Səfvət kimi şeir sənət sahiblərinə ilham verən bu əsər bənzərzisliyi və ecazkarlığı, təzadlar, konfliktlər silsiləsi, üsyan ruhu ilə lirikamızda xüsusi iz qoymuşdur."[242]

---

[241] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh.29*

[242] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 40*

Nə yari-kuyi qoyub xəlq edəydi meyli-behişt,
Nə şeyx olaydı, nə məscid, nə vəzi- minbər olaydı.[243]

Raci başqa şeirlərində dövlətə, orduya işarələr edir, özü də çox qəribə, özünəməxsus təşbehlərlə:

Dolanda sinəmə fikri-müjan ürək döyünür,
*Sipihi-fəth kimi* təbl şadyanə vurar.

Qaçammaz həlqeyi-zülfündən, ey dilbər, mənim könlüm,
Qoyubsan üstünə xali-siyahdən qəravil sən.

Ol gün ki, fövci-hüsnüvə tərtib verdilər,
Qaşun sipahi-kiprigə sərtib verdilər.[244]

Yeri gəlmişkən, qaşın sərkərdəyə, kipriklərin əsgərə bənzədilməsi, qaşın üstündəki qara xalın *qəravil* adlandırılması ədəbiyyatımızda Raciyəxas orijinal bədii ifadələrdir.

Qeyd edildiyi kimi, bədbinləşən, bu dünyadan nəsibini ala bilməyən Raci şikayətlənməyə başlayır:

Nə döndü bu fələki-kəcmədar kamimcə.
Nə mümkün oldu mənə vəsli yar kamimcə.

Nə künci-qəmdə tükəndi fəğanü naləvü ah,
Nə qoydu xəlq eləyim ahu- zar kamimcə.
Nə bu zəmanəyə bağladım bel, ey Raci,
Nə saziş eylədi bu ruzigar kamimcə.[245]

Bu cür düşüncələrə qapılan şair həyatdan küsür, özündən imtina həddinə çatır hər şeydən əl çəkir:

Kəsilməz didədən gördüm, sirişki-tərdən əl çəkdim,
Nisar olsun səri-hanundə, bu gövhərdən əl çəkdim.

... Sərü can verdüm, əmma yetmədim həm sirri-cənanə,
Əbəs həm canidən keçdim, qayət həm sərdən əl çəkdim.

---

[243] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.37*
[244] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 29, 78, 41*
[245] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 64*

Hər yerdən ümidi kəsiləndə, hər şeydən əli üzüləndə, öz dərdini belə kamincə ahu-zar eləməyə imkan verilmədiyi bir mühitdə yeganə yolun Haq dərgahı olduğunu, nəhayət, qəbul edir və bu etirafı belə dilə gətirir:

*Yapışdım həlqeyi-babi-niyazə, Raci icz ilə,*
*Onu hər dərdə gordüm çarə mən, hər dərdən əl çəkdim.*[246]

Raci lirikasından söhbət açılanda onda duzlu yumorun olması, satirik ruhu ilə seçildiyi də qeyd edilir.[247] Başqa mənbələrdə onda yumor və satira ruhunun olduğuna dair bir qeydə rast gəlmədik. Qəzəllərini, digər şerlərini də incələyərkən bu elementlər (xüsusən satirik) görünmədi. Əgər bunların varlığını qəbul etsək də, sosial mənada deyil, bunun ancaq yalançı din adamlarına, xüsusən zahidlərə, bir də rəqibə qarşı yönəldiyini deyə bilərik. Əslində qəzəllərinin əsas mövzusu məhəbbətdir, eşqin tərənnümüdür. Bu dünya onun nəzərində sevgilisinin hicranı və vüsalına bürünərək hicran-vüsal şərbətini dada-dada onun ağrı-acısını yaşaya-yaşaya gileyli bir ömür yolu olmuşdur. Bir tərəfdən ilahi eşqə bağlı olan, hələ ondan qopa bilməyən, bir tərəfdən də zahidliyin mənasız olduğunu qəbul edən rindanəliyə meyillənən, dünya gözəlinə qarşı biganə qalmayan, amma ondan da M.P.Vaqif kimi nəsibini ala bilməyən, bu hisslərdən uzaq, təbiri caizsə, abırlı bir şairdir.

Raciyə görə bu sənət-yaradılış bir sənətkarın əsəridir. Qeyb aləmindən zühur edib, xalq əbəs yerə yaranmayıb və bunun sirri "zühuri-sirri-vəhdətdir".

İstədi sənə edə məsnuə sünin aşikar,
Eylədi qeyb aləmindən bu şühudi ixtiyar.
Bir belə xəlqi əbəs xəlq etmayib pərvərdigar,
Kim bu kəsrətdən zühuri-sirri-vəhdətdür qərəz.[248]

---

[246] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 77*

[247] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 42-43*

[248] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992, səh. 180*

Dünyaya gəldiyi gündən dünyaya talib olan, ondan nəsibsiz qalan haqsızlığı haq, haqqı haqsızlıq kimi görən; yəni haqsız kimi görünənin pərdə arxasındakı sirri aça bilməyən insan bu dünyanın faniliyini "dərk edir" və acı-acı şikayətlənir:

Ver saqiya, şərab ki, ömrün baharə yox,
Heç etibar bu fələki kəcmədarə yox,
Bir sağər ilə dəfi-ğəmi qüssə eylədün.
Ver cami-mey dübarə ki, ömrüm dübarə yox.

Bu cür düşüncəli insanlarin qəlbindəkilər Racinin yaradıcılığı boyu izlənir.

Gözəlliyinlə çox qürurlanma, badi-xəzan əsə bilər. Heç bir gül çəməndə əbədi qalmir. Onun faniliyini dərk edəndə "övraqi-cəmal"inin dağıldığını görəndə, onu saxlamaq üçün süni yollara əl atır. Saqiyə yalvarır, cami-mey istəyir.

Dünyanın, növü-bəşərin etibarsızlğını görəndə güşeyi-viranəni məskən etməyi məsləhət bilir:

Ey dil, əl çək, yox bəni-növi-bəşərdə etibar,
Məskən et bayqusifət bir guşeyi viranəni.

Ona görə də yaşanan anın qədrini bilib, onu dəyərləndirməyi məsləhət görür:

Çəməndə aç gözün ey bağiban, qənimət bil,
Xəzan yeliylə solar rəngi lalə bir saət.

Lakin yaşanan an da, dünyadan alınan ləzzət də keçicidir:

O ləbləri ki edir kami-aləmi şirin
Mənim kimi olu bir vaxt təlxkəm qalur,
Gedər şu zəhməti-mey, zəhməti xumar gəlir,
Həmişə başda haçan nəşeyi-müdam qalur?![249]

– deməklə təkcə maddi aləmin deyil, yaşantıların, ruh aləminin acılı-şirinli anlarının da keçici olduğunu qəbul edir. Sevin-

[249] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 56,71, 81, 28*

cin, nəşənin, məstliyin belə yerini bir boşluq, qəlb rahatsızlığı doldurur. Gözəlin "çeşmi-məstinin naz-nazı" da gedir və "cümlə bədnəzər üz çevirir".

Əsər xəzan yeli gülzari-hüsnünə bir gün,
Nə yüzdə rəng, nə zülfündə bir nizam qalur,
Nə çeşmi-məstün edər böylə naz-naz, nigar,
Səhi qədim nə bu no ilə xoş xürram qalur.
O vəqtə yüz çevirir cümlə bədnəzər səndən
Məgər bu Raciyi-biçarə sübhü şam qalur.

"Bütün bunları dərk eləyən, ürəklə ruhun təzadlarından yorulmuş, onların ...səfa... və cafasından baş aça bilməyən" şair

Nə hüsn olaydı, nə könlüm, nə dəstə-dəstə bu zülf,
Nə şah, nə mülk, nə fövc-fövc bu ləşkər olaydı.
Nə əbruyi-xəm olaydı, nə çeşm, nə müjgan,
Nə tiğ olaydı, nə cəllad, nə bu xəncər olaydı.

beytləri ilə səsləşən "Əl çəkdüm" rədifli qəzəlində "Gözünün camini şərabi-əşki-gülgün" ilə doldurur, meyxanədən və sagərdən keçir və

Kəsilməz didədən gördüm, şirişki tərdən
Nisar olsun səri-rahində, bu gövhərdən əl cəkdim.[250]

– deyir.

Raci çox ustalıqla lirik şeirin içində "şah", "mülk", "fövc-fövc ləşkər", "əhli-bazar", "mədaxil" və s. kimi ifadələrdən öz ictimai fikirlərini sətiraltı məna biçimi ilə verə bilir. Sevgilisinin güldürüb ağlatmağını "dirhəm"ə təşbeh etməklə məişət üslubuna aid sözləri məharətlə şeirə gətirir.

İki dünyanı qəbul edən Raci "kilidi-cənnəti həqi Heydərikərrarə" tapşırdığını güman etdiyindən özünü əhli-beytin xidmətinə vermiş, yazdığı mərsiyələrdə onların dastanını yaratmışdır. Ancaq yenə də rahat ola bilmir, zəmanəsinin dilindən:

---

[250] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 28, 37, 77*

Hərçənd günah ilə səzavari-bəlayux,
Lütf eylə, xuda, bizlərə möhnətü-ətayux.[251]

Əta qəzanın dəf edilməsidir. Bu da Allahın əlindədir. Qəzanı yalnız Allah əta edə bilər. Bu barədə ayə və hədislərdə[252] (17, s.214, ayələr: 13,39, s. 65, ayə 80, s.76, 216, 217) açıq deyilir. Janrca mərsiyə olsa da çox ciddi sosial tutuma malik olan bu şeirdə Raci "başdan ayağa büxli-riyavü həsəd, hər nə qədr desən ondan da bəd" olduğumuzu bildiyindən "ətaya sığınmaqdan", duadan, yalvarışdan başqa bir yol bilmir.

İmdad elə, ya rəb, sən özün, bimədəduğ biz,
Başdan əyağə büxlü riyavü həsədüğ biz.
...Hər qədr təsəvvür edək, ondan da bədüx biz.[253]

Göründüyü kimi, şair sırf ictimai məzmunlu şeirlər yazmasa da, sadəcə bu şeirində həm dövrün reallığını, həm də mənsub olduğu millətin real-tarixi xarakterini görə bilirik. O, şeilərində yeri gəldikcə sosial məsələlərə toxunur və mütəfəkkür şair kimi, öz münasibətini, mövqeyini ifadə edir. Qəbul edək ki, "Raci qəzəllərindəki lirik "Mən"in incə ruhu, mərsiyələrindəki yanar ürək, rübailərindəki müdriklik, mütəfərriqələrindəki sağlam, nikbin əhval, müxtəlif şeirlərindəki vətənpərvərlik, dosta sədaqət duyğuları şairin mənəviyyatının bədii əksidir."[254]

Qəzəllərdən əlavə Racinin "Seçilmiş əsərlərin"də[255] "Hekayəti-İbrahim Ədhəm" mənzuməsi, mürəbbe (16 bənd), mütəfərriqə və rübailəri, Cənub nəşrində iki qəsidə, "Hekayəti-İbrafim Ədhəm", iki "Kərbəla səfəri" mənzuməsi, "Dər mədhi samovar"

---

*[251] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 88*
*[252] Bünyadov Z., Məmmədəliyev V. Qur'an (tərcüməsi). Bakı, 1992. səh. s.214, ayə: 13,39, s. 65, ayə 80, s.76, 216, 217*
*[253] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 88*
*[254] Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh. 250*
*[255] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992,278 səh*

müstəzadı, mürəbbelər (18 bənd), dördlüklər (6 bənd), fərdlər (29), mütəfərriqələr (2), və 182 beytlik təcnisi (Bakı nəşrində 40 beyt) onun zəngin yaradıcılığından xəbər verir.

Bu şeirlər onun qəzəl yaradıcılığının inkişafı və məntiqi davamıdır. Bunlarla və mərsiyələrlə Raci bir sənətkar kimi bütövləşir. Bunu "Görürəm" rədifli qəzəlində özü belə açıqlayır: *"Qəsidə, mərsiyə mundan sonra da yaz, Raci, Mizaci-yarə müvafiq dögül qəzəl, görürəm"*. Bunları oxuyanda qəzəllərində nədən söhbət gedəcəyi hiss olunur. Onun məhəbbət fəlsəfəsi, gözəllərin vəsfi, aşiq-məşuq, rəqib, meyxanə və xərabət, mey və saqi, zahid, can və canan və s. rəmzlər, obrazlar eynən qəzəllərində olduğu kimidir. Ancaq daha yığcam, daha ümumidir.

Bəzilərinə aydınlıq gətirək:

Yeri var olmasa zülfi-siyah bu sərvi-qamətdə,
Bu söz məşhuri aləmdir gecə olmaz qiyamətdə.

mətləli qəsidəsində "məlamət oxlarına" bürünən, "məhəbbətin təsirindən vücudu yarpağa dönən", "eşq kəhrəbasının vücudunu yerdən götürülməsini istəyən", "eşqin ləzzətini dərk edib möhnətdən inciməyən" şair qan-yaşla Qurandansa vəsfi-xali-xəti-ruyi-yari zikr etməyi üstün tutur. Zahidi xərabətə çağırır. Hər şeyin orada olduğunu bildirir və Həzrət Əlinin vəsfinə, şəhadətinə, əhli-beytə dair fikirlərə keçərək, deyir:

Bu əsrari-şəhadət nüktəsin, Raci, sual etmə,
Bu bir şövqi-vüsali-həqqdür əhli-məhəbbətdə.

Həmin fikri:

Eşq əhli bu afaqdə rüsva gərək olsun,

Məcnun kimi sərkəşteyi-səhra gərək olsun mətləli qəsidəsində inkişaf etdirərək:

Öz canını qurban eləsün dust yolunda,
Lazımdı təbərrada təvəlla gərək olsun.

Başdan ayağa yarsala tiğ ilə ğər aşiq,
Məşuq ilə məmlüvv sərəpa gərək olsun[256] qənaətinə gəlir.

Məcnunun, Vamiqin, Leylanın, Üveysi-Qərəninin, Yəqubun, İsanın, Xızrın adlarını çəkir. "Mövt" -ölüm deyəndə hər şeyi fani edən, "Qum"-qalx deyəndə hər şəyi dirildən uca Allahı vəsf edir və ona qovuşmağın, onun üzünü görməyin yeganə çarəsini can verməkdə görür və sonda yenə Hz. Əlinin (əs) mədhini yazmağı qərarlaşdırır.

Cinaslı şeir əsasən heca vəznində çox yayılmışdır. Əruz vəznində ayrıca təcnis yazılmamış, klassik şerimizdə yalnız cinaslı qafiyələrə rast gəlmək mümkündür. Raci isə əruz vəznində ayrıca təcnislər yazmışdır. "Şairin "Divan"ındakı üç yüz altmış misralıq təcnisi isə öz ölçüsünə görə özündən əvvəlki, çağdaş və sonrakı təcnislərin hamısından böyükdür"[257], "Racinin fününi-şeirdə mahir olmağına onun təcnisləri dəxi şəhadət verir"[258]. Şair təcnislərində də müxtəlif məsələlərə toxunur. Ən çox da məhəbbətin tərənnümünə yer verir:

Gəl ey aşiqin atəşə yanduran,
Məni yanə-yanə qoyub yan duran.

Yarın bu sözü səngi-mərmərdə siz,
Qoyun fərq mərd ilə namərdə siz.

Sən ilə böylə doldu cəm ey sənəm,
Həqiqətlə baxsan əgər mən sənəm.[259]

"Mən"in "sən"ləşməsi, "SƏN"ə qovuşması, "SƏN"də bütövləşməsi vəhdəti-vücuda, Haqqa qovuşmağa gedən yolun başlanğıcıdır.

---

[256] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 22, 243, 245, 247, 248*

[257] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 42*

[258] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 354*

[259] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 249, 250*

"Hekayəti-İbrahim Ədhəmi" mənzuməsində İbrahim Ədhəm başda mərifət tacını gördükdən sonra bütün imkanlarından, sərvət və sultanlığından əl çəkir, Həccə gedir. Raci də "biri qəlbən olsa azim ona" fikriylə İ.Ədhəmlə birgə xəyalən ziyarət edir və güman edir ki, özünün də həcci qəbul olub.

Mütəfərriqə və rübailərinin də əksəriyyəti məhəbbət mövzusundadır. Ancaq bir-ikisində sosial məsələlərə toxunur:

Külahın satgilən, xərc et, tüfeyli olma namərdə,
Cahanda kəllə sağ olsun, külah əskik deyil mərdə.[260]

Mürəbbelərində isə daha çox sosial məsələlərə toxunur. Yalançı din adamlarının bidətçiliklərindən, bir çox məsələləri öz xeyirləri üçün din adından dində varmış kimi təqdim etmələrindən şikayətlənir. Hətta iş o yerə çatır ki, müxtəlif təriqətçilər "namaz qılma, oruc tutma, sahibi əmr ol" hökmlərini təriqət şeyxlərinin adına bağlayır. "Hər biri bir Bayazid Bistami olub". "Bu sözü haçan deyib Bayazid Bistami?"[261],-deyərək orta çağ təriqət başçılarından birinin adından danışmağı pisləyir. Öz mürşidinin isə 14 məsum olduğunu bəyan edir.

Raci "Divan"ının farsca bölümündə 168 qəzəl, 32 beytlik bir qəsidə, 3 rübai, 1 fərd verilmişdi.[262] Burada da türkcədə olduğu kimi qəzəllərin çoxu məhəbbət mövzusundadır. Bu qəzəllərdə aşiq, məşuq, rəqib, mey, meyxana, xərabat, saqi, zahid, behişt, kövsər və s. kimi detallar obrazlaşdırılır, bu rəmzlərdən fikrin ifadəsi üçün istifadə olunur. Nümunə üçün:

Ta tora ləle-ləb ey dust, ze mey rəngin əst
Həmeye–omr-məra mouseme-fərvərdin əst.

Və ya

---

*[260] Raci. Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 257*

*[261] Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah, 1992, səh. 255, 256*

*[262] Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377,516 səh.*

Ey şəhne biya bər kef-e mən bin mey-e nab əst
Azad əst neqori bexorəm mey ke səvabəst.[263]

mətləli qəzəllərinə nəzər salsaq, deyilənləri aydın görərik. Hər ikisində zahidə müraciət var, behişti ona, dünyanı özünə götürür. Birincidə qartal əlində əsir olan göyərçin kimi özünün eşqin əsiri olduğu və bu eşqin onun dini olduğu, ikincidə isə gecələr xəlvətdə, meyxanada nigarla, saqi və mütriblə günün xoş keçirdiyini bildirir.

## *2.3. Əbülhəsən Racinin dini-motivli şeirləri*

Mövzusu məşhur Kərbəla hadisəsindən alınan mərsiyələrdən söhbət gedirsə, mütləq bu hadisələrin arxasındakı səbəblərdən, onun xarici və daxili köklərindən, pərdəarxası gizli niyyətlərdən və onların xronologiyasından söz açmaq lazım gəlir. Tarix boyu dünya malı üstündə çəkişmə gedərkən bəzən dünyagörüşlər, dini baxışlar və bunlar arasındakı fərqlər də vuruşmalara səbəb olmuşdur. Təəssübkeşliklərin arxasında çox vaxt siyasi maraqlar durmuş, son anda açıq-gizli hər hansı niyyət güdülmüşdür. Ənənəvi olaraq bunun adına xeyir və şərin mübarizəsi deyilmiş, heç bir tərəf özünü haqsız, günahkar saymamış, haqqın məhz özündə olduğunu iddia etmişdir. Qarşıdurmalar islam dininin nəşət etdiyi və genişləndiyi sonrakı dövrlərdə də davam etmişdir.

Məhəmməd peyğəmbərin (s.ə.s.) həyatda olduğu müddətdə haqq dini uğrunda mübarizə gedərkən tərəflərin kimliyi bəlli idi. Möminlərlə kafirlər, müşriklər arasında gedən çəkişmələrə xəlifəlik dövründə daxili ziddiyyətlər də əlavə olundu. Bu zaman islamiyyətin coğrafi ərazisi çox genişlənmişdi. Peyğəmbərimizin (s.ə.s.) ortaya çıxan hər hansı suala özü cavab verirdi. Ondan sonra suallara səhabələr cavab verəsi, problemləri onlar çözəsi oldular. İslamiyyətin yayıldığı ərazilərdə vəzifələndirilmiş səhabələr

---

[263] *Heyət Cavad. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: Yazıçı, 1993, səh. 104,105*

hər hansı problemi həll edərkən əvvəl "Peyğəmbər sizə nəyi əmr edibsə, qəbul edin, nəyi qadağan edibsə, ondan çəkinin"[264] şəklində Allahın hökmünə əməl edirdilər. Qurana, sonra hədislərə, sünnətə (Peyğəmbərimizin sözlərinə, əməllərinə uyğun olaraq) əsaslanır, cavabını bu iki mötəbər mənbədən tapa bilməyəndə bunlara zidd, müxalif olmamaq şərtilə məsələni özləri həll edir, müvafiq fitva və ya hökm verirdilər. Üstəlik səhabələr özləri də tələbə yetişdirir, onlara Quran və hədis dərsi keçirdilər. Belə tələbələrə tabiin deyilirdi. Tabiinlər də bir məsələdə əvvəl Qurana, sonra hədisə müraciət edirdi. Cavabı tapılmayanda müəllimi, mürşidi olan səhabədən fitva alırdı. Sonra tabiinlər də tələbə yetişdirdilər. Onlara da təbə-i-tabiin deyildi.

"Tabiin alimləri səhabələrin fitvalarını topladıqları kimi, təbə-i-tabiin olan alimlər də tabiinin fitvalarını topladılar. Ayrıca özləri də fitva verdilər... yəni məsələlərdə islama uyğun bir hökm verə bilmək üçün yeni əsaslar ortaya qoydular.

İstər səhabələrin, istər tabiinin, istərsə də təbe-i-tabiinin fitvaları arasında... müxtəlif səbəblərdən fərqli hökmlər ortaya çıxırdı. Müsəlmanlar öz bölgələrində yaşayan imamın fitvalarını bilir, onu üstün bilir və ona görə də əməl edirdi. Bax bu seçmə tərəfdarlıq zamanında "gedilən yol" mənasında "məzhəblər" ortaya çıxdı."[265] Bunlar **fiqhi** məzhəblər idi. İmamları sırf elm adamı idilər. Quran hafizi olmaqla, minlərlə hədisi əzbər bilməklə özlərinə qədərki fitvaları da dərindən bilir və elmi araşdırmalar aparır, müvafiq hökm çıxarırdılar. Belələrinin nə dərəcədə başqalarından fərqləndiyini və üstün olduğunu bilmək üçün bir-iki fakta nəzər salaq. İmam Əzəm tam 40 il fasiləsiz gecə namazının dəstəmazı ilə sübh namazını qılır. Aradakı vaxtı elmlə məşğul olur. 55 dəfə həccə gedir.[266] *İmam Malikdən bir məsələ soruşulanda "sən get,*

[264] *Bünyadov Z.,Məmmədəliyev V.Qur'an (tərcüməsi).Bakı,1992.17,Həşr s. ayə 7*
[265] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh.12*
[266] *Yenə orada, səh. 93*

*mən bu məsələni araşdırım" deyərdi. "Niyə belə eləyirsən?" –deyə soruşanlara cavabı bu olurdu: "Mən bu fitvanın hesabını verəcəyəm. Çox çətin olan qiyamət günündən qorxuram".*

Hələ 20 yaşında fitva verə biləcək səviyyəyə yüksələn, "əlinə kağiz-qələm alan hər kəsin borclu olduğu" İmam Şafi 300 mindən artıq hədis bilirdi. Öyrəndiyini və öyrətdiyini sırf Allah rizası üçün edərdi. *"Bunun savabını Allahdan gözləyirəm, insanlar məni öyməsinlər"*, -deyərdi.[267]

Xəlifə Məmunun mötəzilərə önəm verərək Quranın Allah kəlamı deyil, insanların yazdığı fikrini gerçəkləşdirməyə qarşı Əhməd bin Hanbəl tam 14 illik bir dövrdə sinə gərmiş və hər cür işgəncələrə dözmüşdür. Belə məzhəblərin və məzhəb başçılarının sayı çox olsa da, onlardan ancaq dördünün İmam Əzəm əbu Hənifə (Kufə), İmam Malik bin Ənəs (Mədinə), İmam Şafi (Şam), İmam Əhməd bin Hanbəl (Bagdad) məzhəbləri, yazdıgı kitablar bu günə qədər yaşadı.

İsmayıl Mutlu məzhəblər arasında əmələ gələn fərqlərin səbəblərini ayətlərdən, hədislərdən, adət-ənənələrin təsirindən və başqa şeylərdən olduğunu söyləyir. Bunları ətraflı açıqlamağa ehtiyac görmədiyimizdən mövzumuzla birbaşa əlaqəsi olan **etiqad** məzhəblərinin üzərində duraq.

Peyğəmbərimizdən (s.ə.s.) sonra xəlifə seçmək ciddi fikir ayrılığına, ixtilaflara səbəb oldu. Sonrakı dövrlərdə ixtilaflar dərinləşərək etiqad məsələsində bir çox batil məzhəblərin ortaya çıxmasına səbəb oldu. Ancaq buna qədər etiqad mazhəblərində fərqliliklərə səbəb olacaq bir çox mövzular vardır. İnancla bağlı bu məsələlər Allahın sifətlərini, peyğəmbərlik, mələklər, qəza və qədər, axirət, cənnət və cəhənnəm, möcüzə və kəramət, böyük günah, xəlifəlik, "Allahın əli", "Allahın üzü" və s.-ni əhatə edir. Bunlara münasibətdə də etiqad məzhəbi iki yerə ayrılır. 1, Əhli-sünnət

---

[267] *Yenə orada, səh. 101,109*

məzhəbi, 2. Əhli-bida məzhəbi. Birinciyə aid olanlar Rəsulillahın, səhabələrin yolunda gedənlərdir. İkincilər isə dində olmayanı dində olan kimi qəbul edənlərdir. Hz. Əli ilə Hz. Aişə arasındakı Cəməl və Hz. Əli ilə Müaviyə arasında olan Siffin vuruşmalarından sonra bu hadisələrlə bağlı müxtəlif görüşlər ortaya çıxdı. Bu görüşlər xaricilik, cəbriyə, mütəzilə, mərciyə, şiə kimi məzhəblərin yaranması üçün əsas oldu.[268] Bu baxımdan etiqad-inanc məzhəblərinin də ortaya çıxmasının bir çox səbəbləri vardır. 1.İslamın mahiyyətindən dogan, 2. Siyasi çəkişmələr, 3. Xarici amillər. 4. Başqa səbəblər.

Xarici amillər belə idi ki, islamiyyətin ərazisi genişləndikcə müsəlman olanların bir qismi "islamiyyətin nurlu aydınlığı sayəsində səmimi olaraq bu dini qəbul edərkən, bəziləri də ya cizyədən (vergi) qurtulmaq, ya qaliblər səfinə keçib onlarla birgə izzət və ehtiram görmək, ya da islam inancına fəsad qata bilmək üçün müsəlman olurdular.

Belə adamlardan biri yəhudi Abdullah ibn Səbə idi. Onun uydurmalarına görə Məhəmməd peyğəmbər ölsə də, geri dönəcək, əmrlərinə itaət etməyənləri cəzalandıracaq. Bu əmrlərin biri də Hz. Əli (əs) haqqında vəsiyyətidir. Mühacir və ənsar Peyğəmbərin vəfatından istifadə edərək Hz.Əlini xəlifəlik haqqından məhrum etdilər. İndi bu haqsızlığı aradan götürmək üçün səfərbər olmaq lazımdır.

Aldanan adamlar "Səbəiyyə" adlanan qrupda toplandılar... və Hz. Osmana (ra) qarşı fəaliyyətə başladılar.

Xarici amillərdən digər bir mühümü də islamiyyətin gəlişi ilə digər bəzi millətlərin dağılan dövlətləri, əldən gedən hakimiyyətləri və dədə-baba dini idi. Bu məsələyə N.Gəncəvi də toxunaraq "Xosrov və Şirin" əsərində Xosrovun "dədə-baba dinindən" əl çəkmək istəməməsinin səbəbini göstərir. Məsələyə aydınlıq

---

[268] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh. 125-126*

gətirmək üçün Hz. Osmanın şəhid edilməsindən İmam Hüseynin şəhadətinə və oradan da Təvvabın hərakatına qədərki dövrün xranologiyasına qısa bir nəzər salaq.

Yəhudi əsilli Abdullah ibn Səbənin təbliğatı öz işini görmüşdü: "Hicrətin 37-ci ilində Misir, Kufə və Bəsrədən yola çıxan 300 nəfərlik aldanmışlar Mədinəyə gələrək Hz. Osmanı şəhid etdilər. Müsəlmanların əksəriyyəti Hz.Əlini xəlifə seçsələr də, Şam valisi Müaviyə biət eləmədi, hətta qarşı çıxdı."[269]

Xarici amillərdən biri də onların anti-islam təbliğat aparatı və yazdıqları əsərlər idi. Son illər az qala stolüstü kitabımıza çevrilən "İslam" kitabının müəllifi A.Masse Çingiz xanın yürüşünə "monqol yürüşü" deyərək yazır: "1259-cu ildə bir xristian sərkərdəsinin (? S.H.) başçılığı ilə monqol qoşunu Dəməşqi və Hələbi işğal etdi. Müsəlmanları məhv etmək üçün səlib əhlinə (? S.H.) yalnız monqollarla birləşmək lazım idi."[270]

Hz.Əlinin Müaviyə ilə qarşılaşdığı vuruşmada Hz.Əli (ə.s.) qalib gəlsə də, problem həll olunmamış qaldı. Vuruş əsnasında ortaya çıxan "hakimlik" əhvalatından sonra Hz. Əli ilə razılaşmayan bir dəstə adam xaricilər adlandı və bunlardan ibn Mülcəm ramazanın 17-də məscidin önündə namaz qılan Hz. Əlini ağır yaraladı. Hz. Əli şəhid olarkən bir vəsiyyət etdi. "Haqqı ararkən xəta edən ilə batili arayıb ona qovuşan bir deyil."[271] Haqqı arayıb xata edənlər deyəndə xaricilər, batili arayıb ona qovuşanlar deyəndə əməvilər nəzərdə tutulurdu.

Hz. Əlidən (ə.s.) sonra onun böyük oğlu İmam Həsənin (r.a.) xəlifəliyi 6 ay çəkdi. O, Müaviyənin qoşunları qarşısında islamın birliyini və bütövlüyünü qorumaq xatirinə xəlifəlikdən könüllü əl çəkdi. Ancaq çox keçmədən Müaviyənin sifarişi ilə zəhərləndirilib şəhid edildi.

---

[269] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh. 135*
[270] *Masse A. Islam. Bakı, AE-nin baş redaksiyası, 1992, səh. 210*
[271] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh.168*

İmam Həsənin kiçik qardaşı İmam Hüseyn Müaviyəyə biət etməmişdi. Tərəfdarlarının təkidi ilə onlarla birləşmək üçün Məkkədən çıxıb Kufəyə gedərkən Yəzidin çoxsaylı ordusu ilə qarşılaşdı və Kərbəlada qeyri-bərabər döyüşdə qohumları ilə birgə şəhid oldu. "Öldürülənlərin 29-u İmam Hüseynin ailəsindən idi. Cəsədlər Qadiriyyə kəndində, İmamın mübarək başı Mədinədə "Baki" məzar- lığında dəfn edilir."[272] Bu hadisədən az sonra "Təvvabin hərəkatı" deyilən bir hərəkat başladı. "Təvvabin hərəkatı" 665-684-cü illərdə felən ortaya çıxaraq Hz.Hüseynin intiqamını almaq üzrə toplanan və onların yardımına gəlmədikləri üçün döyünərək tövbə edən kimsələrin oluşdurduğu bir hərəkatdır."[273]

İ.Mutlunun Təbərinin "İbn kəsir əl-Bidayə" əsərinə istinad edərək ümumiləşdirdiyi fikir yığcam şəkildə belədir: İmam Hüseynin şəhadətindən sonra xalqda Əməvilərə qarşı nifrət artdı. Xüsusən də vaxtilə İmam Hüseyni Kufəyə dəvət edənlər və savaş anında vədə xilaf çıxıb gəlməyənlər özlərini günahkar bilir, tövbə edib əvəzində düşməndən intiqam almaqları ilə günahlarının bağışlanacağını düşünürdülər. Qurani-Kərimdə Musanın (ə.s.) öz qövmünə dediyi "tövbə edin və buzovu tanrı bilənləri öldürün. Belə etsəniz, Yaradanınız yanında sizin üçün xeyirlidir" sözlərini özlərinə bayraq edirlər. 680-ci ildən bir qrup toplaşaraq ətrafa məktublar göndərir, intiqama hazırlaşırlar. 93 yaşlı Süleyman bin Suradı özlərinə başçı seçirlər. 683-cü ildə Yəzid ölərkən daha da fəallaşırlar və Kufə valisini vəzifədən uzaqlaşdırır, Məkkədə xəlifəliyi elan edən səhabə Abdullah bin Zübeyrə biət edirlər. 684-cü ilin qasım ayında Kərbalaya İmam Hüseynin qəbri üstə gəldilər. Ağladılar, özlərini döydülər, fəryad etdilər və Allah qarşısında and içdilər ki, bu yolda öləcək və öldürəcəklər.

Sonra vuruşa gedirlər və Ubeydullah bin Ziyadın 12 minlik ordusu ilə qanlı vuruşmada az bir qismi xilas ola bilir. 93 yaşlı

---

[272] *Mehmet Arslan (Prof.dr.), Mehmet Erdoğan. Kerbela mersiyeleri. Tunceli Universitesi. Qrafikler yayinevi. Ankara, 2009, səh. 56*

[273] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh. 199*

Surad da şəhid olur. Bu məğlubiyyətin dalınca Muxtar əs-Şəkafi ortaya çıxaraq Hz. Əlinin oğlu Məhəmməd bin Hənəfiyyə tərəfindən imam Hüseynin intiqamını almaq üçün göndərildiyini bəyan edir. Qısa müddətdə ordu toplayaraq vuruşa atılır. Gedən vuruşmalarda İmam Hüseynə qarşı vuruşanların bir çoxu, o cümlədən qatili və ordu başçısı Ömər bin Səd, bir də Təvvabın döyüşündəki Übeydullah bin Ziyad da öldürülür. Lakin məsələ bununla səngimir. Sonralar müxtəlif adda, daha çox da şiəlik pərdəsinə bürünərək müxtəlif məqsədlə ortaya çıxır və bu günə qədər davam edib gəlməkdədir. Ortaya çıxan şiə məzhəblərinin önündə Zeydilik gəlir.

İmam Hüseynin oğlu Əli tam bir inziva həyatı yaşadığından, Mədinədə həyatını zühd və ibadətlə keçirdiyindən "abidlərin gözəli" -"Zeynül Abidin" adı ilə məşhur olmuşdur. İmam Zeyd, İmam Zeynalabdinin oğludur. Yüksək səviyyədə elm əxlaq və mənəviyyət imamıdır. İmam Əzəm Əbu Hənifə onun elmini yüksək dəyərləndirmiş və Zeyd hərəkata başlayarkən "əgər insanların onun babasını (Imam Hüseyni) tək qoyduqları kimi, onu da tək qoymayacaqlarını bilsəydim, onunla mütləq cihada qoşulardım. *Çünkü o haqq imamıdır.* Ancaq bu düşüncə ilə ona sadəcə maddi yardım elədim" deyərək on min dirhəm göndərmişdir.

740-cı ildə xəlifə Hüsamın ordusu ilə vuruşda şəhid olan Zeyddən sonra Zeydilik bir çox qollara ayrıldı. Cabiriyyə, Salihiyyə və ya Butiriyyə, Süleymaniyyə, Qasimiyyə və s.

Əslində kökü uzaqlara gedən və bünövrəsində Hz. Əli-Əhlibeyt sevgisi dayanan bu hadisələr Hz.Hüseynin Kərbəla müsibətindən sonra tarixə çevrildi və zaman keçdikcə xatırlandı, nəhayət, necə deyərlər, buna siyasi-hüquqi qiymət verildi. "352-(963)-cü ildə ilk dəfə olaraq Buveyhilərin əmrilə Məhərrəmin 10-u matəm və göz yaşları günü olaraq qəbul edilmişdi.

Bağdadda çarşılar qapanmış, qadınlar saçları pərişan bir halda küçələrə tökülmüşlərdi. Acı-acı bağırışaraq Kərbala faciəsini

yad etmişlərdi. Zilhəccə ayının 18-də isə Qadiri-Hum bayramı keçirilmişdi." Katib Çələbinin "Təqvim-üt-Təvarix" əsərinə istinad edən Ə.Qaraxan "Füzuli mühiti, həyatı və şəxsiyyəti" əsərində göstərir ki, sonrakı illərdə hər məhərrəm ayının onu mərasim keçirənlər bununla kifayətlənmədi, sünni məhəllələrinə, evlərinə hücum çəkərək dağıntılar, qətllər törətdilər.

Sünnilər də boş oturmadı. Onlar da Musab bin Zübeyrin qətli gününə rast gələn 18 məhərrəmi matəm və hicrət əsnasında Peyğəmbərin mağarada Hz. Əbu Bəkr(ra) ilə qaldığı 28 zülhəccəni də bayram günü kimi tanıdılar. Bu qarşılıqlı nümayişlər aradakı uyuşmazlığı sönməz bir kin halında yaşadır, insanlar öldürülür, məhəllələr dağıdılırdı.

"Sonrakı çağlarda Qaraqoyunlular şiəliyi, Ağqoyunlular isə sünnülüyü müdafiə edirdilər."[274]

Şah İsmayıl Xətayinin dövrünə A. Massenin məsələyə münasibəti belədir: "1501-ci ildə o özünü İranın şahı elan etdi və şiəliyi dövlət dininə çevirdi."[275]

Məzhəb ayrılığı Nadir şahı da məşğul etmiş və o bu barədə 1736-cı il martın 16-da belə bir fərman imzalayaraq "Hənəfilik və Cəfəriliyin yollarının bir olduqları, dörd xəlifəni tanıdıqları, bundan sonra dörd xəlifənin sayğı ilə anılması, sünnilər ilə şiələrin arasını açacaq sözlərin sərf edilməməsini" istədi.[276]

Sonrakı dövrlərdə də dövlətin dinlə, məzhəblə bağlı rəsmi münasibətləri olub. Belə ki İran İslam Respublikası Ana yasasında belə bir maddəyə yer verilmişdir: "İranın rəsmi dini İslam və İsnaaşəri Cəfəri məzhəbidir və bu maddə əbədiyyən dəyişdirilə bilməz. Hənəfi, Şafi, Maliki, Hanbəli və Zeydi kimi digər islam məzhəblərinə də tam bir sayğı göstərilir."[277] Azərbaycan ictimai fakir

---

[274] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh. 49*

[275] *Masse A. Islam. Bakı, AE-nin baş redaksiyası, 1992, səh. 214*

[276] *Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, səh. 225*

[277] *İsmayıl Aka. (Prof.Dr.) Çağımızda etiqad, islam məzhəbləri. İstanbul, 1998.səh. 107-120*

tarixində də Kərbəla olaylarına münasibət birmənalı olmamışdır. M.F.Axundovun, Z.Marağayinin əsərlərində, "Əkinçi"nin səhifələrində, "Molla Nəsrəddin" və digər mətbuat orqanlarında, Mirzə Cəlil, M.Ə. Sabir və digərləri və sovet əsarəti dövrünün fikir sahibləri hadisələrə müxtəlif mövqedən yanaşsalar da, bir necə məsələdə həmfikirdirlər:

1. Şiəlik pərdəsi altında keçirilən məhərrəmlik mərasimləri əsasən siyasi məqsədlərə xidmət etmişdir;
2. Bir neçə ərəbin bir neçə ərəbi qirmasından bizə nə?
3. Bunlar cəhalətin, elmsizliyin nəticəsidir;
4. Bir sira din xadimlərinin qazanc vasitəsidir;
5. Özünü döymək, baş yarmaq haramdır;
6. Şiəliyin qabardılması müsəlman dünyasını parçalamaq üçün Qərbin əlində çox kəsərli bir silahdır.
7. "Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə Xətai və Füzuli yaradıcılığında Osmanlı təzyiqlərinə qarşı çevrilmiş mərsiyə şeiri çar istilasından sonra Azərbaycanda yenidən canlanmağa başladı."[278] M.F.Axundov Kəmalüddövlənin dili ilə yazırdı: "Bundan əlavə xalq bir belə nadandır ki, bu növ bəlaların vücudunu hərgiz dərk etməyib küçələrdə başına və gözünə döyə-döyə gəzir, şaxsey-vaxsey naləsin ərşə bülənd edir... (nə var ki) min iki yüz bir neçə il bundan irəli beş-on ərəbi beş on ərəb Kufə səhrasında qırıblar."[279]

"Əvvəl binayi-təziyədarlığı səlatini-Dəyalimə qoydular ki, şiə-məzhəb idilər, sonra səlatini-Səfaviyyə ki, Sadatı-ələviyyədən sayılırdılar, xüruc etdilər və *öz politikasının xatiri üçün* (S. H.) təziyədarlığa rəvac verdilər... Amma İranda təziyədarlıq Səfəviyyə zamanından da ziyadə rəvac tapıbdır. Yalnız məhərrəmin əşəreyi-ulasında təziyədarlıqla məşğul olsalar, yenə səhldir; hər yerə gedirsən, təziyədir, hər məsciddə həftədə ləəqqəl bir gün təziyə məclisidir... Tehranda hər gün təkyələrin birində təziyə məclisi var."[280]

---

[278] *Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. II c.EAAzF. Bakı: 1944, səh. 73*

[279] *Axundov M.F. Əsərləri. 3 cilddə. I c., Bakı: Azərnəşr, 1951, səh. 23*

[280] *Axundov M.F. Əsərləri. 3 cilddə. I c., Bakı: Azərnəşr, 1951, səh. 88*

Bu işlərin artıq ifrata yetdiyini, "hər kəsin öz dərdi özünə bəs deyilmiş" deyən Axundovla Z. Marağayi də həmfikirdir: "İranın bir çox şəhərlərində əhali arasında heydəri, neməti davası olur... heç özləri də bilmir ki, Heydər kimdir, Nemət kimdir. Amma hər il bu iki adın tərəfgirliyi üstündə vuruşmalar olur, qanlar axıdılır... Gərək şəhərin üləması... bunları başa salsın. Təəssüflər olsun ki, İnsafsızlar... bu fitnə ocağına odun qoyurlar... Tərəflərdən hər biri elə güman edir ki, o biri tərəfə qarşı nə qədər düşmənçilik eləsə, dünya və axirətdə o qədər xoşbəxt olacaqdır."[281]

Yolları kəsib min oyundan çıxan bu adamların "halına yanandan" sonra müəllif Kərbala facəsinin mahiyyətini açıqlayır: "Hələ pis-pis də öz əməllərində imam Hüseyn Əleyhüssəlamın boynuna əbləhcəsinə böyük bir minnət də qoyurlar. Daha bilmirlər ki, o həzrət şəhadəti və öz pak övladının müsibətini *cəddi-büzürgüvarının pak dininə xələl toxunmaması və bidətin aradan götürülməsi xatirinə qəbul etdi. Bunlar isə o cür mühüm bir təlimi korlayır,(kursiv bizimdir)* ...heç utanmayıb hələ bir xilaf üçün üstünə bir ibadət adı da qoyurlar.

İmam Hüseyndən, onun qiyamət ğünü hamının bağışlanmasını Allahdan xahiş edən böyük cəddindən xəcalət çəkmirlər."[282]

"Əkinçi"nin səhifələrində təziyədarlıqla bağlı bir-birinə zidd yazılar getmiş, bu məsələ mübahisə mövzusu olmuşdur. S. Ə. Şirvaninin "yövmi-aşurada cühəlanın baş yarmasına" qarşı çıxışına Hadi təxəllüslü Qudyal sakini kapitan Sultanov zidd gedərək "dini təəssübkeşlik" edir və S.Ə.Şirvaniyə öz cəddini xatırladar və onu həcv edir. Seyid Əzim isə həcvə həcvlə cavab verir. Onu "əyri oturub düz danışmağa" dəvət edərək "şəriətdə buna hüccət, bürhan" varsa, "biz də baş çapmağa qarışaq", - deyir.

Bu məsələyə münasibət bildirən F. Köçərli də qeyd edirdi ki, bədənə işgəncə vermək mənfəət versəydi, bunu buyuran din

---

[281] *Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Bakı: Elm, 1982, səh. 191*

[282] *Yenə orada, səh.192*

xadimlərinin özləri də edərdilər "...halbuki onları... Yaşsız gözlərinin nəmini hiyləvi və dəsmalı ilə silən görürük... bədənlərinə... əziyyət yetirən yenə əlsiz-ayaqsızlar, biçarə və sadədil əvamünnas olur."[283] Müəllif S.Ə.Şirvani ilə həmrəy olaraq fikrini belə davam etdirir: "...Əgər dini-mübini-nəbəvidə hifzi-bədən əmri sadir olmasaydı, onda baş çapmaq filini, bədənə nizə, ox, qıfıl, at nalı, qılınc, gorda, palanduz sünbəsi kimi ağır şeylər taxıb, ona ...təsəvvürə gəlməyən əziyyətlər verməyi bir növ eşqi-ali-əbaya və məhəbbəti-şühədayi-Kərbəlaya isnad edib sakit qalmaq olardı. Amma ...şə'rən nəhyi qadağan buyrulan bu fe'li icra etmək ...peyğəmbərin buyruğuna əməl etməmək və onun əmrini inkar etmək kimidir."[284]

M. İbrahimov da eyni mövqedə durarkən "Əkinçi"yə istinad edir: "Seyid Rza Sabir hərarətlə "Əkinçi"nin mövqeyini, məramını, məqsədlərini alqışlayır. Sinə döymək və zəncir vurmaq, baş yarmaq kimi halları tənqid etdiyi üçün Zərdabiyə hücum edənləri pisləyir.

Abdulla Sur da bu məsələdən danışarkən "Artıq vaxtdır ki, moizələrə, mərsiyəxanlıqlara xitamə çəkilsin" deyir."[285]

Təziyədarlığa qarşı bu neqativ münasibətlər sovet əsarəti dövrü son həddə çatdı və qəti qadağa qoyuldu. Din xadimləri tutuldu, sürgün edildi, güllələndi, dini kitablar yandırıldı. Bu kampaniya o həddə çatdı ki, ərəb əlifbası ilə yazılan nə vardısa, o da məhv edildi. Yəni bunu adamlar özləri yandırmağa, məhv etməyə məcbur dildilər.

Qeyd etdiyimiz kimi, məzhəb ayrılıqları çox halda siyasi məqsədə xidmət etdirilmişdir. Bir çox dövlətlər və din xadimləri də, yadellilər də istifadə edib faydalanmışdır. I Pyotr vəsiyyətində

---

[283] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 63-65*

[284] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 64*

[285] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984,səh.23*

yazırdı: **"Həm Türkiyə, həm də İran din xadimlərini ələ almaq və onlar vasitəsilə sünni-şiə ixtilaflarını qızışdırmaq lazımdır. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada tətbiq etmək lazımdır."**[286]

Bu hadisələrdən öz xeyirləri üçün istifadə etmək istəyənlər hər vasitəyə əl atırdılar. Xüsusən İranda yetişib Qafqaza göndərilən dərvişlər, mərsiyəxanlar və s. "din xadimləri" çox halda fitnə-fəsad törədirdilər. Onların barəsində Azərbaycan ədibləri kifayət qədər yazmış, bədii obrazlarını yaratmışdır.

Biz bu gün onsuz da düşmənin həddindən artıq və güclü olduğu bir zamanda hər nə qədər məzhəb ayrılığı söhbətindən uzaq qaçmaq istəsək də, bu mümkün olmur. Mərsiyə ədəbiyyatından söhbət gedirsə, orada şiə sözü başda gəlir. Ə. Raci də növhələrində bu sözü işlədir, onlara xitab edir.

Əslində bu söhbətlərdən qaçmaqdansa, onun köklərini araşdırıb hər kəsə bir fikir aydınlığı gətirmək, Allahı bir, Peyğəmbəri bir, kitabı bir, qibləsi bir olan bu ümmətin cüzi, əhəmiyyətsiz fərqlərə görə ixtilaflarına qarşı durmaq lazımdır. Çaldıran bu ixtilafların zirvəsidir və hər müsəlmanın damarı kəsilsə, oradan Çaldıran qanı tökülər; bu bizim ağlamalı dərdimiz, şirin və əziz yaramızdır və bizcə, bu qədər bəsdir, artığını Allah göstərməsin. Bu da ayrı bir mövzu olduğundan bununla bağlı ədəbiyyatımızın qaynaqlarından bir-ikisinə ([287],[288], [289]) nəzər salmaq yetər. Həm "Kitabi-Dədə Qorqud"da[290], həm Nizami Gəncəvidə, həm də "Dastani-Əhməd Hərami"də dörd rəşid xəlifənin dördü də, hətta hz. Aişə ilə hz. Fatimə fərq qoyulmadan hörmətlə yad edilir.

---

[286] *"Dirilik" jurnalı. Bakı, 16 noyabr, 1916, N 5, səh. 47*

[287] *Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.20 cilddə. III c., Bakı: Elm, 1984, 543 səh. 16*

[288] *Onullahi S. XIII-XVII əsrlərdə Təbriz. Bakı, 1982, səh. 237*

[289] *Dastani Əhməd Harami. Bakı: Gənclik, 1978, səh. 17*

[290] *Kitabi Dədə Qorqud. Bakı: Gənclik, 1987, 282 səh. 26, 15,16*

Əlbəttə, buna yetəricə nümunə vermək olar, ancaq bunlar bəs edir deyək ki, bu rəşid xəlifələrə fərq qoymaq düz deyil. Onları ayırmaq istəyənlər müəyyən dəlillərə əsaslanmış və bundan öz məqsədləri üçün istifadə etmişlər. Məsələn, bir hədisdə Məhəmməd (s.ə.s.) peyğəmbər Hz. Əliyə (əs) belə deyir: "Ya Əli, hər peyğəmbərin nəsli özündən davam etmiş, mənim nəslimi isə sən davam etdirəcəksən" və ya **"Mən sizə iki şey əmanət edirəm. Biri Qurani-kərim, ikincisi əhli-beytimdir."[291]** Bu fikri Raci belə ifadə edir:

Çıxmasin yaddan bu vəsiyyətim
Var sizə iki zad əmanətim,
Bir kitabi-həq, bir də itrətim.
Yetdi rehlətə-həzrəti Rəsul.[292]

Əhli-beyt və ya Ali beyt deyiləndə isə Hz. Əli və Hz. Fatimənin soyundan gələnlər-imam Həsən və imam Hüseyn(ra) və onların soyunu davam etdirənlər nəzərdə tutulur. Başqa sözlə, "Hz. Əliyə itaət eynən Allah Rəsuluna itaətdir. Allah Rəsuluna itaət isə Allaha itaət deməkdir."

Könül, qəm çəkmə, müflislər pənahi
Vəliyyül-həqq, Əliyyül-Mürtəzadır.
Yetiş fəryadına ey şahi-Xeybər-
Ki, Seyyid bir qulami-rusiyadır.[293]

deyən Seyid Əzim Şirvani də Hz. Əliyə sevgisini bəyan edirdi.

Bütün bəlaların mərkəzində də elə bu fikir- Əhli-beyt sevgisi durur. Bu səbəbdən əhli-dünya-siyasət adamlari Əhli-beytin nüfuzundan həmişə qorxmuş, çəkinmiş, ümmətin onlara qarşı sevgisini bildiklərindən hakimiyyətə-xilafətə gələcəklərindən ehtiyat etmişlər. Çıxış yolunu onları öldürməkdə, təqib etməkdə, zəiflət-

[291] *Ahmet Lütfi Kazançı. Peyğemberler lahikası. İstanbul,1997. 126*
[292] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 216, 225*
[293] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 71*

məkdə görmüşlər. Hz. Əli Heydəri-kərrar, Əmirəlmöminin, övliyaların babası idi. Bu nəsildən olanların böyük din alimi, övliyaullah olduqlarını bildiklərindən ən yaxşı halda onlara ehtiram bəsləmiş, amma saraydan uzaqda saxlamışlar. Şəhid edilən 11 imamın başına gələnlərin səbəbi bunlardır. 12-ci imam Mehdi Sahibəzzamanın isə qeybə çəkildeiyi və axır zamanda zühur edəcəyi söylənilir. Bir dini rəvayətdə "Hər yüz ildən bir Əhli-beytdən bir mücəddid gələcək və..."İmam Hüseyn də peyğəmbərimizin (s.ə.s.) nəvəsi idi və xəlifəliyə ən yaxşı, ən real namizəd idi. Qarşı tərəf də bu təhlükəni sovuşdurmaq üçün Kərbəla müsibətini törətdi. **Əslində həm imam Həsən, həm imam Hüseyn xilafətdən çox, ruhani hakimiyyəti qoruyurdu və dinimizin qorunmasinda, təhrif olunma təhlükəsindən qurtarmasında gördükləri və görəcəkləri iş xəlifəlikdən daha üstün və daha şərəfli idi.** Bu məsələyə başqa yöndən də yanaşanlar var idi. "Şiələr ( Ali beyt deməli idi S.H.) hər şeydən əvvəl təqiblərdən və qırğından xilas olmağa çalışırdılar."[294]

Şiəliyin mahiyyətində hardasa gizli şəkildə ərəb dünyasına, əməvilərə, xəlifə Hz. Ömər ibn Xəttaba (ra), başqa sözlə, sünnilərə qarşı bir qərəz, nifrət vardır. Təsadüfi deyil ki, Axundov da Kəmalüddövlənin dili ilə "Əhli-İranın bu günə bədbəxtliyinə səbəb ərəblər oldu",-deyir.[295] Ərəblər və sünnilik üzdə görünənlərdir. Pərdə arxasında Sasanilər xanədanlığının darmadağın edilməsi, Kəsra sarayının süqutudur. Bu işi də xəlifə Hz. Ömər (ra) görüb. İslamiyyət İrana Hz. Ömərin vaxtında gəlib. İkinci bir Ömər adı da var ki, çox vaxt bunlar səhv salınır. Bu, Kərbəlada orduya başçılıq edən və 72 məsumə olmazın müsibətlər verən, Yəzidin əmri ilə Kufə əmiri Ubeydullah bin Ziyadın göndərdiyi qoşunun başçısı Ömər ibn Səddir. Bu Ömərlə ikinci xəlifə Ömər bin Xəttabı qarışdırırlar, təssüf ki tənqid hədəfi çox vaxt xəlifə Ömər olur. Ömər bin Sədlə

---

[294] *Masse A. Islam. Bakı, AE-nin baş redaksiyası, 1992, səh. 165*

[295] *Axundov M.F. Əsərləri. 3 cilddə. I c., Bakı: Azərnəşr, 1951, 334 səh. 17*

Səd bin əbu Vəqqasın adlarındakı "Səd"lər də fikri qarışdırır ki, bunları da eyniləşdirmək olmaz.

Üçüncü ən mühüm amil yenə siyasətlə bağlıdır. "İranda mövcud olan bir rəvayətə görə, Əlinin oğlu Hüseyn İranın sonuncu Sasani şahının qızını almış, bu qadın isə istila zamanı əsir düşmüşdür. Beləliklə, Əli nəslindən olanların hakimiyyətinin qanuniliyinə inamı iki qat artırmışdır."[296] Deməli, İmam Hüseynin sasani qızından olan övladı bir gün hakimiyyətə gələr və xəlifə ola bilər. Bu gizli niyyətin baş tutmaması və əvvəlki, yəni Kəsra hadisəsinin quyruq acısı o dövr İranını şiə pərdəsinə bürünməyə vadar edən ən mühüm amillərdəndir. İşin ən ağrılı tərəfi isə bu məsələnin daha çox türk əsilli hökmdarlar tərəfindən qabardılmasıdır. "Şiəlik bir ideoloji silah olaraq Səfəvilərə lazım olduğu kimi, Azərbaycan türkləri olan Qacarlara da lazım oldu."[297](Bəlkə də buna görə mərsiyə ədəbiyyatı məhz Qacarlar dövründə bu qədər vüsət aldı.) Bu səbəbdən də məhərrəmlik mərasimlərində şiələr səfərbərliyə çağrılır və sünnilərə, Yəzid və Şümrlə birgə Ömərə də lənət yağdırılır, onlara qarşı nifrət oyadılırdı. Məsələnin əsil mahiyyəti isə yuxarıda deyildıyı kimi, unudulur, yada salmaq belə ağla gəlmirdi.

Təziyədarlığın cəmiyyət həyatında tutduğu yer və ona münasibət qədər də təziyədarlıq ədəbiyyatının tədqiq və araşdırılmasına ehtiyacı var. Mərsiyə ədəbiyyatının mənşəyi, xronologiyası, mövcudluğu və ona münasibət də müxtəlif tarixi dövrlərdə müxtəlif olmuşdur. Çox vaxt bu ədəbiyyat bir sənət əsəri kimi kənarda qalmış, əvəzində siyasi mübarizə və fikir döyüşlərinin obyektinə çevrilmişdir. Bu mövzunun xranologiyasına, hər millətin adət və ayinlərində oynadığı rola toxunmazdan əvvəl məsələyə iki asbektdən yanaşmağı lazım bilirik :

1. Mərsiyə ədəbiyyatının siyasi, ideoloji xüsusiyyətləri ;
2. Mərsiyə ədəbiyyatının bir ədəbi nümunə kimi bədii-estetik prinsipləri.

---

[296] *Masse A. Islam. Bakı, AE-nin baş redaksiyası, 1992, səh. 169*

[297] *Nadirov Özbəy. Hacı Rza Sərrafın yaradıcılq yolu. Bakı: Elm, 2005,səh. 74*

Vaxtilə M. F. Axundov mərsiyəçiliyi İranın zərərli bir təsiri kimi pisləyərdi. Ona görə "Mərsiyəçilik məhərrəmlik təziyədarlığı ilə əlaqədar idi. Təziyədarlıq ilk dəfə şiə padşahlarının əli ilə süni surətdə Azərbaycan xalqına bağlanmış, ruhanilərin əlində gəlir mənbəyinə çevrilmiş, bu sahədə yazılan əsərlər isə uydurulmuş yalanlardan ibarətdir."[298]

Ədəbiyyatşünas Feyzulla Qasımzadəyə ğörə isə "Mərsiyə ədəbiyyatı 19-cu əsr boyunca qizğın inkişaf yolu keçərək geniş yayılmış və onun Raci, Qumri, Şüai, Süpehri, Ahi, Mirzə Həbib Qüdsi kimi tanınmış nümayəndələri yetişmiş və yüzlərcə mərsiyə kitabları yazılmışdır. Bunun əsas səbəbi odur ki, cəmiyyətin hakim feodal-mülkədar sinifləri və ruhanilər öz hakimiyyətlərini qorumaq, xalq kütlələrini məhkum vəziyyətdə saxlamaq üçün mərsiyə ədəbiyyatından, məhərrəmlik təziyədarlığından geniş istifadə edir və bunları inkişaf etməkdə olan yeniliyə... qarşı bir irtica kimi alovlandırmağa çalışırdılar. Məhərrəmlik təziyədarlığı və onunla əlaqədər yaranan mərsiyə ədbiyyatı Azərbaycan xalqının həyatından, onun milli zərurətindən doğmamışdır. Bu ədəbiyyat onun ruhuna zidd və yabançıdır."[299]

İnsanlar yaranışından itkiləri sarsıntıyla, çaşqınlıqla qəbul etmiş, hisslərini göz yaşı ilə, bacara bildiyi qədər sözlə (oxşama ilə) ifadə etmişdir. Sonralar bu sözlər bədii forma almış, bizim şifahi xalq ədəbiyyatında ağılar formasında özünü göstərmişdir. "Azərbaycan xalqının keçmiş tarixi və onun milli qəhrəmanlıq həyatı ilə əlaqədər olan matəm şeriləri "yuğ" adlanan lirik parçalardır ki, bunlar bizə şifahi xalq ədəbiyyatından məlumdur",- deyən F. Qasımzadə "yuğ"ların həyat tərzimiz, tariximiz, milli xüsusiyyətlərimizlə bir- başa bağlı olduğunu," göstərirdi: "Lakin 19-cu əsr ədəbiyyatımızda özünü göstərən mərsiyə şeiri "yuğ"lardan tamamilə fərqli olaraq dini bir xarakter daşıyır və islam cəhalətpərəstliyini yayırdı."[300] F. Qa- sımzadə daha sonra "yuğ"larin yas

---

[298] *Axundov M.F. Əsərləri. II c., Bakı: Azərnəşr, 1958, səh. 238*
[299] *Qasımzadə F.Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974, səh. 16*
[300] *Yenə orada, səh. 17*

mərasəmlərində bu gün də qadınlarımızın oxuduğunu, ağıların isə həmin yuğların qalıqları olduğunu qeyd edir. Türk ədəbiyyatında ayinlərə yuğ, ağıt, saqu, mərsiyə, məhərrəmiyyə, yas yeməyinə yuğbasan deyilir. Şivən, sızlama və s. kmi əlliyə qədər istilah işlənir.[301] Ağıların yazılı nümunəsinə M. Kaşğarinin "Divani-lüğət-it türk" əsərində rast gəlirik. Bunlar dördlük şəklindədir.

Alp-ər Tonqa öldümü,
İsuz ajun kaldımı,
Ödlək öcün aldımı
İmdi yürək yırtılur.[302]

"Kitabi Dədə Qorqud" dastanında qadınlar "Oğul, oğul, ay oğul" naləsilə, nişanlı qızlar "vay göz açıb gürdüyüm! Könül verib sevdiyim! Vay al duvağımın ayası!"[303] və s. şəklində ağı deyir.

Yazılı ədəbiyyatda Davdağın mərsiyəsi məlumdur. Sonra Xaqanidən, Nizamidən başlayıb günümüzə qədər gələn mərsiyələrdə ya öz qohumları, ya da ölən hökmdar, sərkərdə anılmış, onun müsbət keyfiyyətləri sadalanaraq, kədərli bir dillə oxşanılmışdır. Bu mövzuya dünya ədəbiyyatı da biganə deyil və elegiya janrında müxtəlif əsərlər yazılmaqdadır. Kərbəla mövzusu isə bu çərçivələrdən çıxıb, tarixi, bəşəri, dini səciyyə daşıyaraq ölməzlik qazanmışdır. Bu mövzuya Nəsimidə, sonra Ş.İ.Xətayidə rast gəlirik. Gəraylı formasında olan Xətayinin bu şeiri İmam Hüseynə həsr olunub.

Bu gün matəm günü gəldi, Kərbəlanın yaziləri,
Ah Hüseynü va Hüseyn. Şəhid düşdü qaziləri,
Sənin dərdin bağrım dəldi, Fatma ana quzuları,
Ah Hüseynü va Hüseyn. Ah Hüseynü va Hüseyn.[304]

---

[301] *Ahmet Lütfi Kazançı. Peyğemberler lahikası. İstanbul, 1997. səh 56*

[302] *Özdək Rafik. Türkün qızıl kitabı.(tərcümə edənlər L.Şüküroğlu, N.Yaqublu) 2 cilddə. I c., Bakı: Yazıçı,1992, səh. 44*

[303] *Kitabi Dədə Qorqud. Bakı: Gənclik, 1987, səh. 39*

[304] *Samin Abdullayev Gün Az.http://www.gun.az/religion/89269 səh1*

M.Füzuli isə "Hədiqətüs-süəda"əsəri ilə ilk dəfə geniş və əhatəli şəkildə o hadisələrin salnaməsini yaratmışdır. Ona qədər ərəb, fars və türk ədəbiyyatında bu mövzuda xeyli əsər yazılmışdır. Füzuli öz əsərində bunlara toxunsa da, daha çox İran şairi Hüseyn Vaiz Kaşifinin "Rövzətüş-şühəda" əsərinə istinad edir. "Bu, əcəmdə məşhur olan "Rövzətüş-şühəda" kitabıdır ki, Mövlana Vaiz tərəfindən tarixdən faydalanmaqla onu şərh və təfsir edib diqqətlə yazmış, rəvayətləri yenidən canlandırmışdır. Mən bıçarənin niyyəti odur ki, gerçək təlifdə "Rövzətüş-şühəda"ya təqlid edib başqa kitablarda olan qəribə mənaları mümkün olduqca ona əlavə qılam və "Hədiqətüs-süəda" adlandırıb on fəsil və bir nəticədə tərtib edib tamamlayam"[305] deyən şair əsərin bir qismində peyğəmbərlərin həyatından qissələr vermiş, qalan hissəsini Ali beytin şəhadətinə və Kərbəla faciəsinə həsr etmişdir. Əsər mötəbər bir tarixi mənbə olmaqla yüksək sənət əsəri kimi şöhrətlənmiş, başqa dillərə də tərcümə olunmuşdur. Ancaq bu mövzuda mərsiyə ənənəsi xeyli sonra yarandı. Belə ki, şiəlik XVI əsrdə bir ideoloji siyasi silaha çevrilsə də, Kərbəla hadisəsi ilə bağlı mərsiyə ədəbiyyatı XIX əsrdə rəvac tapdı və dini-fəlsəfi poeziya kimi müəyyən mənada ədəbi hadisəyə çevrildi. "Dini-fəlsəfi poeziyanın əsas qolunu mərsiyələr təşkil edir. Azərbaycan türkcəsində mərsiyələr əsasən Səfəvi hakimiyyəti zamanından (XVI əsr) şiəliyin təbliği ilə bağlı inkişaf tapmağa başlamış, Qacarlar hakimiyyəti (XVIII əsrin sonu, XIX əsr) dövründə ən yüksək mərhələyə çatmışdır. Məzmunca bəzi məqamlarda ağıya yaxın olub qəm, kədər, yas, ölümlə bağlı motivləri özündə yaşadan mərsiyə forma baxımdan ağıdan tamamilə fərqlənir. Konkret ədəbi forması olmayan mərsiyə Azərbaycan şeirinin müxtəlif şəkillərində yazılmışdır. Hər il keçirilən məhərrəmlik mərasimlərindən istifadə edən şairlər hiss və həyəcanlarını, bəşər və onun haqqında düşüncələrini xalqa çatdırmaq üçün bu ədəbi növə üstünlük vermiş, Kərbəla faciəsi kimi tarixi hadisələrə müasir rəng verməklə dinləyi-

[305] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, səh. 8*

cini və oxucunu düşündürməyə çalışmışlar."[306] Mərsiyə ədəbiyyatına sonralar başqa mövqelərdən də yanaşıldı. "Mərsiyə şeirindəki dünyəvilik və tarixilik humanizm ideyaları ilə bağlı idi. ... mərsiyə şairləri də insanın azadlığı ideyasını müdafiə edirdilər."[307]

Məsələyə sinfilik nöqteyi-nəzərindən yanaşan F.Qasımzadə mərsiyə ədəbiyyatını ruhumuza zidd və yabançı hesab edərək onu həm də siyasi alət kimi dəyərləndirir. Onu keçmişin qalığı, mürtəce ruhlu, epiqonçu ədəbiyyat da adlandıran Kamal Talıbzadə öz araşdırmalarında o dövrün ədəbi prosesini incələyərək müxtəlif baxışları nəzərə catdıraraq daha çox sovet dövrünün nöqteyi-nəzərini əks etdirir : "Ziya"da həyatla, yeniliklə səsləşən bəzi yazıların çap olunmasına baxmayaraq, o öz səhifələrində feodal-mülkədar quruluşuna, ruhanilərə rəğbət oyadan məqalələr çap edir. ..."Ziya"nın səhifələrində Bixud, Qumri, Fazil Dərbəndi, Müşfiq kimi "köhnə şeir" tərəfdarlarına geniş meydan verən qəzet redaktoru Səid Ünsüzadə də... dini, epiqonçu ədəbiyyatın qatı tərəfdarlarından biri idi."[308]

Bu "tərəfdarlıq" sonrakı dövrlərdə də davam etmişdir. *"Əgər türkcə mərsiyə olmasa, türk şeir və nəzmi də bu dərəcə ümumiləşməyəcək və Azərbaycan xalqı ehtimal ki, bir çox zaman daha doğma ədəbiyyat üzü görməyəcəkdi... Mərsiyənin xidmət və əhəmiyyəti yalnız ağlatmaqla qalmamışdır. Yeni türk ədəbiyyatımızın qaidləri deyıb Seyid Əzimləri, Hophopları təqdir edərkən sakın! Ağlamaqdan bıkan və buna görə də mərsiyələrdən əzilən cavanlarımız Racilərə Araz çayını addamış bəzi rozəxənlara baxan kimi baxmasınlar. Onların Azərbaycan ədəbiyyatındakı mövqeyi ehtiramsız bir mövqe deyildir. Şeyx Nizami nə qədər dahi, nə qədər böyük bir şairi-binəzir olsa da, azərbaycanlıları doğma türkcələrinə qaytarmaq nöqteyi nəzərdən, məncə, Raci, Dəxil, və Qumrinin*

[306] *Külliyati-Divani-Raci, (t.S.Qəməri)Təbriz,Firdos kitabxanası,1364.səh. 3*
[307] *Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. 4 c., Bakı: "Elm", 2011, səh. 299*
[308] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, səh. 87*

*mövqeyini ehraz edəməz... Əcəba, Şeyx Nizamiyə abidə tikmək həvəsində olan nəslimiz Racisini unudacaq, Qumrisinə xor baxacaq, Dəxilini atacaqmı?"*[309]

Kamal Talıbzadə mərsiyə ədəbiyyatına qarşı çıxan ədibləri belə sıralayır. "H. Zərdabi, N. Vəzirov, Əhsənül-Qəvaid, F. Köşərli, M.T.Sidqi, S.M. Qənizadə, R.Əfəndiyev, N. Nərimanov... "köhnə" şerin qeyri-ictimai, intim (?) keyfiyyətlərini tənqid edərək onun yeni tələb və ehtiyaclara cavab vermədiyini göstərir... Bütün bunlar... öz mahiyyəti etibarilə epiqonçu şeirin əleyhinə çevrilmişdi"[310]

Müəllif sonra tənqidçi A. Surdan danışarkən "intim duyğuların tərənnümçüsü kimi dərk edən epiqonçuları başa salaraq ...şairin (Füzuli nəzərdə tutulur. S.H.) erotik, parnoqrafik əsərlər yazmadığını..." və s. kimi ifadələr işlədir. Özü də bu ifadələr (erotik və s.) deyəndə birbaşa həm də mərsiyə yazan, yeni şeirin "açarını tapa bilməyən" Raci kimilər nəzərdə tutulur. Bura qədər Racinin lirikasından danışarkən onda "*intim hisslərin ifadəsinin*" nə dərəcədə olduğunu gördük. Təəssüf ki, epiqonçu dedikləri şairlərdə belə şeylər axtarıla-axtarıla Vaqifin (Zakirdə də qismən) yaradıcılığındakı o məlum hisslərin tərənnümü gözdən qaçıb, bu günə qədər heç fərqində olmadan o "sinəsi meydan" gözəllər orta məkəb dərsliklərində hələ də təqdim edilməkdədir.

Üstəlik, həm o dövr şairlərinin, həm də tənqidçilərinin bizə ziddiyyətli görünən cəhətlərinin sirrini açmaq da bu gün yeni və ciddi araşdırma tələb edir. Eyni ziddiyyəti Abdulla Surda da görmək mümkündür. O bir tərəfdən cəmiyyətdəki ictimai xəstəlikləri, cəhalət və mədəniyyətsizliyi cəsarətlə tənqid edir, xalqı maarifə, elmə səsləyirsə, digər tərəfdən **"***həqiqi mədəniyyət-islamiyyət deməkdir, əsil mədəniyyət nə isə islamiyyət də odur"* kimi fikirlər irəli sürür, elmlə dini eyniləşdirir...*"zaman elm və hünər zamanı-*

[309] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, səh. 207*
[310] *Yenə orada, səh. 207-209*

*dır"*, -deyə xalqı qabağa gedən millətlərə çatmağa... çağırıb *"babalarımızdan qalmış qəbih–qəbih köhnə və qədim adətlərdən"* əl çəkməyi təklif edırsə, digər tərəfdən, *"cənabi-həqdən şəfa və mərhəmət"* gözləyir, -deyirsə, başqa bir yerdə *"Artıq vaxtdır ki, moizələrə, mərsiyəxanlıqlara xitamə çəkilsin"* fikrini irəli sürür.[311]

Bu ziddiyyətli görüşlər M. İbrahimovu da təəccübləndirir: "Küll halında Azərbaycanın 19-cu əsr ədəbiyyatında ilk nəzərdə anlaşılmaz və qəribə görünən bir hal müşahidə olunmaqdadır. Nəinki Dəxil və Qumri kimi dindar, məhdud dünyagörüşlü (? S. H.) şairlər, hətta Bakıxanov, Seyid Əzim Şirvani, Ləli, Raci və Hadici kimi dar təəssübkeşliyi pisləyən, fanatik görüşlərin əleyhinə olan və bütün bunları xalqın tərəqqisinə, zəmanə ilə ayaqlaşmasına mane olduğu üçün tənqid edən, meyi, meyxanəni ehkamçılığa qarşı qoyaraq azad düşüncə rəmzi kimi vəsf eləyən şairlərin bir qismi mərsiyə yazmışdır. Bunu nə ilə izah etməli. Bizcə, bu əvvəla o zamankı ictimai həyatın hələ billurlaşmaması, bulanıq vəziyyəti ilə bağlı idi. Bir yandan mövhumi görüşlər dumanı çox qəliz idi.

O biri yandan da İran dövlətinin Osmanlı imperiyasına qarşı rəqabətli mübarizələri, şiəliyi bayraq etməsi ilə əlaqədar olaraq sünnü-şiə ədavətləri hakim dairələrin və qaragüruh xadimlərin əlində xalqı qızışdırmaq, itaətdə saxlamaq, soyub talan etmək üçün güclü propaqanda vasitəsi olmuşdur**"**. Müəllifə görə elə bu səbəbdən təziyədarlığa rəvac verilmiş və bu da mərsiyə ədəbiyyatının yaranmasına zəmin hazırlamış, az-çox istedadı olanlar buna sövq edilmişdir. Bəzi şairlər mədrəsə təhsili almış, mollaxanada böyümüş və mərsiyə şeirləri yazmışdır, amma əvvəlkilərin mərsiyə yazmağına yox, bu sonra qeyd olunanların **"dünyəvi hissləri, işıqlı fıkırləri tərənnüm edən, hətta xarabatı tərifləyən şeirlər yaratmasına təəccüb etmək lazımdır."[312]**

---

[311] *Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, səh. 226, 231*

[312] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, səh. 22, 24*

Zaman Əsgərli məsələyə başqa prizmadan yanaşır : "...Azərbaycan şeirində mərsiyənin intişarı dini motivlərin geniş yayılması,...ədəbi gedişatın, mədəni-tarixi prosesin səciyyəsi...ilə bağlı idi. Bu şeir sırf dini ədəbiyyat deyildi. Onun məzmununda, daxili mayasında həyatilik, tarixilik var idi."[313]

Göründüyü kimi, istər təziyədarlığa, istər, mərsiyə ədəbiyyatına, istərsə də onların yaranmasına münasibət tarixən birmənalı olmayıb. Mərsiyəçilik müxtəlif təzyiqlərlə, müqavimətlərlə üzləşsə də, ictimai həyatımıza daxil oldu və bir ədəbi hadisə kimi özünü təsdiq etdi. Xüsusilə də XIX əsrdə inkişaf edib formalaşdı, bir ədəbi məktəbə çevrildi, adı ədəbiyyat tarixində qalacaq mərsiyə şairləri yetişdirdi. M. İbrahimovun dediyi kimi, "...onların açıq görüşləri və əsil istedad sahibi olanları insanlara nəcib hisslər, işıqlı fikirlər aşılayan gözəl şeirlər yazmışlar və məhz beləlari ədəbiyyat tarixində hörmətlə yad edilir"[314]

Firidun bəy Köçərli onların ilkin nümayəndəsi olaraq "...bu dəstgaha cümlədən artıq rövnəq verən şüəra üç nəfərdir: Mirzə Kərim Şüai, Mirzə Cəbrail Süpehri və Mirzə Məhəmmədtağı Qumri"ni göstərir.[315] Müəllif həm də şəbihin binasının 100 ildən artıq əvvəl Dərbənddə qoyuldyğu və hər əsrdə "bu şəbih üməratına mübaşir olan şairlər" olduğunu qeyd edir.

Qüzey Azərbaycanındakı şairlərdən mərsiyə yazanlar və mərsiyə şairləri A.Bakıxanov ("Riyazül-Qüds") Abdulla bəy Asi və Mirzə Ələsgər Növrəs olsa da, Dərbənddən sonra bu məktəb Güney Azərbaycanında intişar tapmış, inkişaf etmişdir. Ahi, Mirzə Həbib Qüdsi, Pürqəm, Dəxil, Dilsuz, Sərraf kimi mərsiyə şairləri hər nə qədər bir-birindən fərqlənsələr də, (Məsələn, Qumrinin "Kənzül-məsaib "ində hadisələr ardıcıllıqla verılır, digərlərində ayrı-ayrı növhələrdə hadisələrin müxtəlif cəhətləri qabarıq təsvir

---

[313] *Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. IV c., Bakı: "Elm", 2011, 856 səh. 297,298*

[314] *Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh. 25*

[315] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 308*

olunur.) hadisələrə və obrazlara münasibətdə hamısı həmfikirdir. Yəni düşmən tərəf lənətlənir, qarşı tərəfin faciəsi yanıqlı bir dillə təsvir olunur. Bu məsələdə hətta əski Osmanlı, indiki Türkiyə ərazisindəki şairlər bir-birinə və bizimkilərə (bəzi janr istisnası ilə) çox yaxındır. Hətta dillərində də ciddi fərq hiss olunmur. Orada da mərsiyəçilik daha çox XIX əsrdə geniş yayılıb. Nümunə üçün Sidqi Babanın bir mərsiyəsinə qısaca diqqət edək:

Geldi çün mah-i Muharrem aşikar ağlar bu gün,
Karalar bağlar melayik asiman ağlar bu gün.
...Səd həzəran, lənət olsun ol Yəzidin canına,
Kıldı zalım-i sariha həp cihan ağlar bu gün.
Dəmbədəm ah eylə Sıdkı naləvü fəryad ilə,
Mərkadində dərd ilə peğəmbəran ağlar bu gün.[316]

Ə. Racinin əldə olan "Divan" larında mərsiyələr, qəzəllər və digər şeirlərlə birgə verilir. Ə.Əhmədlunun növhələr " Divan" ında isə sadəcə mərsiyələrdir və səh. 1-dən 310-a qədər hər mərsiyəyə farsca ad verilir. "Şəhadəti-Əli Əkbər və zəbanhale həzrət əba Abdulla", "Zəbanhale həzrəti-Səkinə və həzrəti-Zeynəb"[317] və s. Nüsxə fərqi olaraq Bakı nəşrindəki 83 mərsiyənin 79-u Cənub nəşrindədir. Deməli, necə olmuşsa, 4 mərsiyə buradan, 4-ü də xalqdan.[318] əlimizə gələn 8 mərsiyə Cənub nəşrlərinə düşməmişdir.

Əvvəlki fəsillərdə gördüyümüz Raci, mərsiyələrində yoxdur. Burada tamam başqa bir şair görürük : ziddiyyətlərdən uzaq, sanki ruhuna Allah, Peyğəmbər, Əhli-beyt sevgisi üfürülmüş Racinin

---

*316 Mehmet Arslan (Prof.dr.), Mehmet Erdoğan. Kerbela mersiyeleri. Tunceli Universitesi. Qrafikler yayinevi. Ankara, 2009, 809 səh. 659*

*317 Raci Təbrizinin novhələri və mərsiyələri. (tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 42, 50*

*318 Hüseyn Sədrəddin. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri // Filologiya məsələləri.N 4.AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil. 2014.(313-320), səh. 313-320*

sevgisi safdır, təmizdir, səmimi və siyasətdən uzaqdir, birmənalıdır. Burada şair axtardığını tapıb. Nə istədiyini, kimi və nə üçün sevdiyini çox gözəl bilir.

F. Köçərli Racinin mərsiyə yaradıcılığından danışarkən onu *"Dəxildən sonra Kərbəla gülşəninin ən fəsih bülbüli-xoşəlhanı"* hesab edir. Onu "təziyələrin rövnəqi və matəmlərin şəfəqi" adlandıran ədib *"Racinin növhələrində olan təsir çox rövzəxanların mərsiyələrindən artıqdır. Əzbəs ki, rövzəxanların əksəri oxuduqları əhvalatda bəzi kərə o qədər mübaliğə edirlər ki, o qədər fəhmi idraka sığışmayan və ağıl qəbul etməyən sözlər və hekayə söyləyirlər ki, əhli-məclis onlara inanmayıb, bir növ qövllərindən ikrah edirlər. Oxuduqları mərsiyələrə meyli-rəğbət göstərmirlər"*,-deyir.[319] "Divan"ın tərtibçisi Hafiz Abıyev də qeyd edir ki, "Raci Dəxil və Qumri kimi Kərbəla faciəsini ardıcıllıqla təsvir etməmişdir. O, əhvalatın ən qabarıq hissəsini seçmiş və onları yanıqlı bir dillə nəzmə çəkmişdir"[320] (96, 12).

Buna görə də şairin az qala hər bir novhəsində Kərbəla hadisəsinin ümumi məzmununu görmək olar. Bunlardan bəlli olur ki. "Şahi-cəhan Kərbəladan Mədinəyə əzm edir."[321] və gedərkən "Canan ilə əhd edən və bu əhdi, peymanı ilə var olan" İmam Hüseyn bacısına məsələni açıq şəkildə izah edir:

Belə əhd eyləmişəm , ey bacı, cananım ilən,
Ərseyi-Kərbübəlada boyanım qanım ilən.

Kərbəlaya "72 qurban ilə" gələn dəstəni orada Ömər ibn Sədin 140 minlik ordusu qarşılayır. Bu dəstədə Yəzıd kimi, Şümr kimi sitəmkarlar var və onlar öldürdüklərini Kərbəlanın isti səhrasında susuz qoyurlar. Fərata su gətirməyə gedən Hz. Abbasın qollarını kəsirlər.[322] Ağzında tutduğu su məşkini oxla vururlar ki,

---

[319] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 355*

[320] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 12*

[321] *Yenə orada, səh. 126, 161*

[322] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992. 104,145*

Əli Əsgərə su çatdıra bilməsin. Bu əhvalat novruz gününə düşür. Düşmən yaralılarla və əsirlərlə amansız rəftar edir. Qadına, uşağa, yaralıya məhəl qoymur, hansını istəsələr, döyür, incidirlər. İmam Hüseynin başını kəsib nizəyə taxır və əsirlərlə birgə Şama aparırlar. Səkinə orada çəkdiyi zülmlərdən təngə gəlir, yuxuda babasını görür və Şümrün zülmündən ona şikayət edir və əsirlikdə də vəfat edir.[323]

Yuxarıda deyildiyi kimi, Kərbəla hadisəsinə baxışlar müxtəlifdir. Bundan müxtəlif dövrlərdə müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Ancaq Racinin məsələyə öz baxışı var. O az qala hər şeirin sonunda mövzuya öz münasibətini bildirir. Düşmənə nifrətini, əhli-beytə rəğbərini dilə gətirir. Özünün də orada olmağını, o torpağı göz yaşı ilə suvarmağını, bu rahi-eşqdə həmrahi təriq istəyir, heyrət vadisində olan dili (ürəyi) Allahdan bir rəhbər niyaz edərək deyir:

Tofviqi-Xudadan bu könül mürği-tər istər,
Səhni-securityəni Kərbübəlada güzər istər.[324]

*Aləmin icadında məqsəd itaətdir. Sənətkar yaratdıqları ilə sənətini aşkar etmək istəyib. Qeyb aləmindən bu dünyaya ixtiyar verdi və bir belə xəlqi əbəs yerə xəlq etmədi. Kəsrətin-bolluğun, növbənövlüyün sirri vəhdətin zühurudur.* Allahın bütün sirləri iki kitabda: kainat kitabında və Qurani-Kərimdə yazılıdır. Kainatdan bir nümunə olaraq sadəcə bunlara məktub gözüylə diqqətlə baxan orada Allahın Sani, Rəzzaq, Qadir, Şafi və s. isimlərini oxuya, çox sirlərdən agah ola bilər. Ancaq zamanında "Quran və islam silahı... yalnız rəqibə-ehkamçı ekstremist dini irticaya təslim edilmişdir."[325] Halbuki kainat kitabını oxumaq üçün də Quran bir məktəb, bir mürşid, bir açar mənziləsindədir. Həqqi görən göz bunu rahat anlaya bilər çünki, "ayineyi-aləmdə nuri-həq zühur" etmişdir.

---

[323] *Yenə orada. 114-115*

[324] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, 90*

[325] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, səh. 88*

Şair "aləmi-bəlada" bir hüma quşu olan ürəyini "cifeyi-dünyaya talib" olmamağa çağırır. Alcaq dünya sevgisi peşmançılıq toru olduğundan bu sevgidən uzaqlaşmağa çağırır. Allahı tanımağın (müvəhhidlik) mənsəbi bütün mənsəblərdən üstündür və bu məsələdə bəni-ali-Nəbiyə (s.ə.s) çatan olmaz. Ona görə də yazır :

Yaxşı kəşf etdi Hüseyn ibn-Əli bu mətləbi,
Gördü iqrari-şəhadətdən şəhadətdir qərəz.

İstədi can vermək ilə həqqi isbat eyləsün,
Ta mivəhhidlər onun həqqin müraat eyləsün,
Nizə başında kəsik başı münacat eyləsün,
Bir münacati ki, Qurandan tilavətdür qərəz.[326]

Bir hədisdə Allah yolunda, din, vətən, ...yolunda ölənlərin şəhid olduğu göstərilir. Məhz bu baxımdan Həq yolunda necə şəhid olmağın, canı canana necə tapşırmağın nümunəsini isə İmam Hüseyn və Kərbəlada şəhid olanlar qədər heç kim göstərməyib. Yuxarıda deyildiyi kimi, Z. Marağayinin də İbrahim bəyin dilindən söylədiyi fikirlər F. Köçərlinin fikirləri üst-üstə düşür: "Əgər iradi-səfa olunsa ki, kədər ilə səfa və qəm ilə sürur və yaş ilə nur bir yerdə ola bilməz, bunlar bir-biri ilə zidd olduğu halda uyuşmaz, onda deyə bilərik, bəli İmam Hüseyn müsibətində bu fəyz vardır, bır yandan ağladır, bir yandan nuraniyyət bəxş edib şad qılır; bir yandan qəmləndirir, bir yandan qəmü qüssədən azad edir. Bir yandan şikəstəvü pərişanhal edir, bir yandan uca məqamlarda dövr etməyə pərü bal verir. Bu feyzü bərəkət, bu qeyri-adi halət və xüsusiyyət ancaq seyidüş-şühəda müsibəti əsasına müqtəsdir, ancaq mahi-məhərrəmdə tərtib olunan mərsiyələrdə hiss olunur."[327]

Bunun bir sirri peyğəmbər nəvəsi, İmam Hüseyn kimi bir ali məqamın ruhu, şəhidlik məqamı ilə bağlıdırsa, bir sirri də ora-

---

[326] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 180*
[327] *Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, səh. 355*

da oxunan mərsiyələrin təsir gücündədir ki, "Mərhum Hacı Əbülhəsən Racinin qönçeyi-təhi-lətifi xüsusən facieyi-Kərbəlanı zikr etdikdə gül kimi açılıb, hər tərəf hüznü ələm gətirici ətirlər saçıb vəlcümlənin ürəklərini qəmü qüssə ilə doldurur. *Və lakin bu qəmü ələm və bu göz yaşı insanı məyüsü təzyiq etmir, bəlkə onun qəlbini saflandırıb, gözünə işıq gətirir"*[328]

Şəhidlikdə məqsəd əhdə vəfanın sübutu, canı canana tapşırmağın nümunəsini göstərmək idi**.** İmam Hüseyn hər şeydən əvvəl dini rəhbər, Peyğəmbər nəvəsi idi. Allahın dininə, haqqa, ədalətə zərrə qədər xələl gəlməsinə öncə o dözə bilməzdi. Canı ilə də olsa ona qarşı durmağı "Yəzidin zülm büsatını dağıtmaq üçün idi". Başqa sözlə, "İnsanlar islamın zülm qarşısında tutduğu mövqeyi dərk etməli və azadlıq yolunu canlı hadisələrdə görməli idilər."[329]

Kərbəla hadisələri sonrakı dövrlərdə ədəbiyyata mövzu, şairlərə ilham qaynağı olmuş, bu günə qədər davam etməkdədir. Bu elə bir hadisə idi ki, "...ümumxalq mədəni həyatı baxımından dərindən mənalananda milli və ümumbəşəri əxlaqi həqiqət gücü kəsb edir. ...bu zaman yazıçının fərdi bədii təfəkkürü ümumxalq və ümummilli təfəkkürlə sintez təşkil edə, onun qanuni davamına çevrilə bilər."[330] Elə bu baxımdan bir çox şairlər bu mövzuya müraciət edirlər. O cümlədən M. H.Şəhriyar Dilirişin "Hüseyni yerlər ağlar, göylər ağlar, Mətülü Mürtəza, Peyğəmbər ağlar" beytli şeirinə "Tənzim" başlıqlı mərsiyə yazıb.

Novhələrdə bir çox şühəda obrazı canlandırılır. Bunların hamısı dolğun, real, təbii obrazlardır. Haqlarında bir cümlə deyilsə belə. Bunların da başında hadisənin baş verdiyi ərazi və İmam Hüseyn gəlir. Hadisələr Fərat çayının yaxınlığında, Kərbəla səhrasında baş verir. İmam Hüseynin adamlarının bir çoxu gecə ikən

---

[328] *Yenə orada. səh. 355*

[329] *Qarayev Yaşar. Füzulinin Tanrı sevgisi // Cahan jurnalı. Bakı, 2000, 12 səh. 217*

[330] *Qarayev Yaşar. Tarix yaxından və uzaqdan. Bakı: Sabah, 1996, səh. 400*

çıxıb getmiş, ətrafında 72 nəfər qalmış və bunlar 140 minlik düşmən ordusunun əhatəsindədir. Bu səhra susuzdur, köməksizdir, istidir. Od kimi yandırır, qarsıb qovurur. Müəllif çox halda Kərbübəla yazır. Belə yazmaq şeirin ahəngi ilə bağlı olsa da, əslində oradakı "bəla" sözünü qabarıq vermək məqsədi güdülür. Kərbəla bu qüdsi, bu əziz insanların qanının axıdıldığı bir yer, bu qanla suvarılan, bəhrəsi cənnətdə göyərəcək bir səhradır. Qasimin üryan nəşi burada qalanda müəllifin **"Bağrına bas, yaxşı saxla can sənin, can Qasimin."**[331] deməsi ən əziz adamının ən güvənilən yerə əmanət edilməsi kimi yadda qalır.

Vətənini fəxrlə Kərbəla adlandıran Füzuli "Kərbəla bir büqeyi-şərifdir ki, canibi-Həqdən onda rütbeyi-ehtirami-xanədani-rəsalət və *təzimi-dudmani nübüvvət kəmalə yetmiş və həqiqəti-zülmi-əşqiya və səbri-övliyada olan əsrari-hikmət zühurə yetmiş*" deyərək fikrini bu rübai ilə tamamlayır:

Göydən endikdə bəla bilməzdi mənzil qonmağa,
Olmasaydı ərseyi-aləmdə xaki-Kərbəla.
Kərbəladan qeyr yoxdur bir mübarək bürqə kim,
Ola anın əksəri-əczayi-tərkibi-bəla.[332]

Deməli, Kərbəla göydən enən bəlaların ən gözəl mənzilidir. Bu bəlaların da ən böyüyü, müsəlmanlar üçün ən əzizi İmam Hüseyn müsibətidir ki, burada qərar tutub. Və tarix boyu haqla haqsızlığın, zalımla zülmün, ədalətlə ədalətsizliyin ölüm-qalım savaşının canlı nümunəsi oldu. Haq yolunda, Allah yolunda candan keçməyin örnəyinə çevrildi. "Bu həmin Kərbübəladır ki, ahi-vaveyla, şurişü qovğa səsi ərşi-kibriyaya çıxır", burada növərüs (gəlin) "bəzmi-vüsalə yetməmiş hicranun qəmin çəkir", bu "bəxtiqarə" "Qasimin nəşini gördükdə zarə gəlir". Bura İmam Hüseynin şəhid olduğu, yerdir. Əkbərin nəşini görəndə dunyanı yandırıb yaxan

---

[331] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 295*

[332] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, 365 səh. 284*

Leylanın səsi şəhid qanı ilə yoğrulub burada. "Buna görə də bura şair üçün müqəddəsdir, cənnətə aparan yoldur. Bura "həzihi-cənnəti-ədndir". Bura"bağı-İrəmdən dilgüşa, gülzari-firdövsi-bərindən ruhəfzadı.", Bura "dəmbədəm şöleyi-Sina kimi təcəlla etdiyindən şairin köylü Musa (əs) kimi az qalır ki, məhv olsun."[333] Məhərrəm ayının 10-da şəhid olanların hər birinin taleyi Kərbəla ilə bağlıdır. Onlara əbədi mədfəndir, cənnətə aparan yoldur. O gündən bu günə qədər mü- səlmanların ziyarətgahı, Racinin də yana-yana, sızlaya-sızlaya gəzib dolaşdığı məkandır. "Kərbəladur... busərzəmini-dilnişin, Hazihi-cənnəti-ədnin, fədxüluha xalidin". Kərbəla İmam Hüseyn və ətrafındakıların başına gələn tarıxdə analoqu olmayan invariant bir hadisənin olduğu yerdir.

Kərbəla hadisələri İmam Hüseynlə bağlı olsa da, hadisələrin kökü onun atası Həzrət Əliyə gedib çıxır. İmam Əli, Heydəri Kərrar, Əmirəlmömin, imamətin atası, "elmin qapısı", sahibi-Zülfüqar və s. sifətlərin daşıyıcısı. Ali-beyt də deyilir. Əhli-beyt, yəni beyt əhli. Bura daxil olan Hz.Əli, Hz.Fatimə, İmam Həsən və İmam Hüseyndir. Peyğəmbər (s.ə.s.) nəslinin davamı bu dörd müqəddəslə bağlıdır. Əhli-beytlə "Ali-əba" ifadələri çox vaxt qoşa işlənir. Bir-birini əvəz edən ifadələrdir. Peyğəmbərimiz (s.ə.s.) əbasını bu dörd nəfərin üstünə örtərək "bunlar mənim Ali-beytimdir" demişdir. Bundan sonra "Ali-əba" müqəddəs olmuş, bədii ədəbiyyatda da ən çox işlənən obraza çevrilmişdir.

Raci Əhli-beytə çəkdirilən zülmə qarşı özlərinin kimliyini xatırladan Zeynəbin dilindən belə deyir:

Şərm eyləyün, ey qövm ki, biz Ali-əbayux,
Biz Ali-Rəsulə nə münasibdi bu təsəddüq?[334]

Şair onların bu qədər zülmə qarşı səbrlərinə heyran qalır:

Nə hövsələdir onda, nə səbr Ali-əbadə
Ol növ kim itrətini dərbədər istər?[335]

---

[333] *Yenə orada, səh. 134*
[334] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 88*

Vuruş ərəfəsində "Ali-əba" Şahi-Kərbəlanın əbasından tutub getməyə qoymur. Bacısı Zeynəb yalvarır ki, "gəl meydana getmə ey əxi, bircə bax bu əhli-beytin naləvü əfqanına", lakin bu meydanda

Ey baba, əhli cəfa başın bədənsiz qoydular,
Əhli-beytin zülm ilə aləmdə tənsiz qoydular.[336]

Əli Əkbər şəhid olanda bibisi Səkinə yenə əhli-beytin dilindən və anasına xitabən belə deyir:

Onda gör xeyməyə nə şivənü, nə nalə düşər,
Əhli-beytin gözü ol qanlu xətü-xalə düşər.[337]

Başqa bir növhədə Kərbəlaya yetişənləri yenə ali-əba kimi mənalandırır.

Ali-əba yetişdi çün Kərbəla diyarinə,
Batdıla sərbəsər o dəm möhnətü qəm qübarinə[338]

Zülmdən Allahın böyük adlarına əl açıb yalvarırkən Ali-əba xatirinə deyilir.

Verrüx səni sövgənd bu əsmai-Əzimə
Əfv eylə bizi Pənctəni-ali-əbayə[339]

Bir növhədə Rəsulillahın " Bir Kitabi-həq, bir də itrətim"[340] dediyi vəsiyyətini xatırladır.

Şair Ali-beytə ali-Rəsul dediyi kimi, Ali-Peyəmbər də, Ali-Mustafa da deyir. Bəzən Ali-beyt əvəzinə "övladi-Əli", "Ali-Əli"

---

335 *Yenə orada , səh. 91*

336 *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 92*

337 *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 100*

338 *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 107*

339 *Yenə orada. səh. 285*

340 *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 175*

kimi ifadələr işlətməklə həm Hz. Əliyə olan sevgisini, həm də bütün imamların, övliyaların, əhli-beytin babası olduğunu xatırladır. O Həzrət Əli ki, "O, Allah və Rəsulunu sevər, Allah və Rəsulu da onu sevərdi.[341] Ali-əbanın başında Hz. Əli durur. O, Peyğəmbərin əmisi Əbu-Talibin oğlu, doğularkən adını Peyğəmbərin (s.ə.s.) özü ve- rən[342], kiçik yaşlarından müsəlmanlığı qəbul edənlərin ilki, Xeybər və Xəndək döyüşlərinin əfsanəvi qəhrəmanıdır, "elmin qapısı" və 4-cü xəlifədir. Peyğəmbərimiz Mədinədə hicrətdə olarkən hər mühaciri bir mədinəli ənsarla qardaş edir, Hz.Əliyə isə "Sənin qardaşın mənəm" deyir. Hz.Əlinin Kərbəla ilə əlaqəsi olmasa da, Raci yeri gəldikcə adını çəkir, bu müqəddəs imama öz sevgisini bəyan edir. Müaviyənin xəlifəliyi zəbt etməsinə münasibətini belə bildirir:

...lə'nət belə dünyaya gələ
Ali-Süfyanı qoyar zadeyi-Heydər yerinə.[343]

Səkinə babası Hüseynin başını qucaqlayıb, sızlarkən Ali-beyt onları dövrəyə alıb Hz. Əliyə xitab edir.

Həlqeyi-zənciri hülqindən açub Ali-Rəsul,
Həlqeyi-matəm vurub dövrində məhzuni-məlul,
Ərz ediblər: Qeyrətün aya buni eylər qəbul,
Ya Əli, çəksün belə bu tifli-biyavər bəla.[344]

Ayrıca Hz. Əliyə həsr etdiyi növhələrin birində İbn Mülcəmin əli ilə şəhid olan xəlifəni oğlu Hüseynin şəhadəti ilə müqayisə edir:

Sənə hərçənd cəfa eylədilər, doymadılər,
Götdülər nəşüvi, biqüsli kəfən qoymadılər,

---

[341] *Kandehlevi M.Y. Həyatüs-Sahabe. (4 c.də) II c., İstanbul,1994, səh. 9,38*
[342] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, səh. 125*
[343] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 38*
[344] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 97*

Ya Əli, cismün Hüseyn cismi kimi soymadilər,
Kərbəlada quri yer üstə qalub gül bədəni.[345]

Bu qədər zülmə dözə bilməyən şair ümidini Allaha bağlayaraq yenə Əmirəlmöminə xitab edir. "Ya Əli, həqq özü divan edə bu hümmət ilən". Başqa bir novhədə deyilir ki, "Yezidi-bihəya" "Əli əyalinə" elədiyi zülmdən özü də dəhşətə gəlir, bunu öz şəninə xələl gətirəcəyini görür və sanki öz əməlindən "peşman olur":

Cövrü cəfanı tərk edüb düşdi vəfa xəyalinə,
Gördü ki, az qalub gələ Şamdə canə əhli-beyt.[346]

Bir nöfhədə Məhəmməd Peyğəmbərin (s.ə.s.) dövründən Hz. Əlinin şəhidliyinə və oradan Kərbalaya-İmam Hüseynin müsibətinə qədərki dövrü təsvir edir. Ona mənsub olan 11 naibdən söz açır. İmam Həsənlə İmam Hüseynin başına gətirilənlərdən şikayət edir. Başda Şümr olmaqla ruzi-qiyamətdə Hz. Əlinin üzünə necə baxacaqlarını düşünür.[347]

Raci Hz.Abbası da Hz.Əli ilə müqayisə edir. Su gətirmək üçün göndəriləndə cəng alətin yerə tökür. Cəddi kimi haldan-hala düşür.

Qeyzindən olub rəngi gahi sürxü, gahi zərd,
Heydər kimi təğyir tapub haləti-Abbas.[348]

Başqa bir yerdə oğlu Əli Əkbər döyüşə göndərilərkən "Allaha tapşıran" Leyla onu babası kimi vuruşmağa çağırır:

Çək qılınc Heydər kimi, bir həmlə et bu ləşkərə.[349]

Bu müsibətlərdə başı ən çox bəlalar çəkən Zeynəb də Hüseyni vuruşdan çəkindirmək istərkən deyir: "İmdi atası Heydərün

---

[345] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 274*
[346] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 182*
[347] *Yenə orada. səh.216-218*
[348] *Yenə orada, səh. 114*
[349] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992, səh. 163*

səndən iyin alur bacun."[350] Ümidi hər yerdən kəsilən Zeynəb bu halı görməyə bir müsəlman axtarır. "Bir müsəlman yoxdu baxsun hali-ali-Heydərə."[351]

Raci Hz. Əlinin də şəhadətinə Allahla qulu arasında əhdə vəfanın rəmzi kimi baxır.

Çün qiyam eylədi Əmirəlmöminin qılsun nəmaz,
Niyyət eylüb can verə məbudə bu iczü niyaz,
Bəzmi-xas ol xasə baxdı, gördü ol Şahi-Hicaz,
Tərki-can canan yolunda eyni taətdir bu gün.[352]

deyən şair qəhrəmanına müştaqdır, özünü ziyarətdə görməklə xoşbəxt sayır.

Çün təvafi-kuyi-canan Kəbeyi-üşşaqdür,
Ya Əli, Raci təvafi -qəbrüvə müştaqdür,
Taqətim ol taqi-eyvanundan ötri taqdür,
Ey xoş ol zair ki, məşğuli-ziyarətdür bu gün.[353]

Raci imamların müsibətinə ağlamaqla bərabər, həm də onların çəkdikləri bu zülmlə, bu müsibətlə, bu əhdə vəfalıqla, axıtdıqları bu şəhidlik qanları ilə çatdıqları elə bir məqamı görür ki, möhnət çəkməyi mənasız sayır. Çünki "Aşiqi-sadiq gərək mutləq fənafillah ola." Fənafillah olmaq -yəni Allahda fani olmaq sufilərin, haqq aşiqlərinin son arzusu, fəth edə biləcəkləri son zirvədir ki, imamlarımız o məqama yüksəliblər, "ənbiyalar belə buna həsrət çəkər".

Raci sadəcə mərsiyələrdə deyil, digər şeirlərində də Hz. Əlinin (ə.s) adını çəkir, sevgisini bildirir. Ona arxalanır."Göz yaşı ilə Hey- dəri-Kərrarə ərizə yazır."[354]

---

[350] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 187*
[351] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 208*
[352] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 278*
[353] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 224*
[354] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 50*

Dini kitablarda imamlıq maqamında Hz. Əlidən sonra İmam Həsənin adı gəlir. O, hicrətin üçüncü ilində anadan olur və adını da babası Peyğəmbər (s.ə.s.) qoyur. Babası onu cox sevər, oynadar, oxşar, öpərmiş. Bir dəfə bu nəvəsinin islam aləmində böyük bir ixtilafı yatıracağına dair xəbər də vermişdi. Tarix bunu təsdiq etdi. Atasından sonra 6 ay xəlifəlik edən İmam Həsən Şamda hakimiyyəti ələ alan Müaviyənin qoşunu ilə üz-üzə gələndə birliyi qorumaq xatirinə hakimiyətdən könüllü əl çəkdi və çox keçmədi ki, zəhərləndirilib öldürüldü.

Raci İmam Həsənin adını müxtəlif hadisələrlə bağlı xatırlayır. Hz.Əlidən sonra ona zəhər verilməsini, Həsənlə Hüseynin yetim qalmasını, şəhadət gecəsi oğlu Qasımın toyunu, şiələrin “bür tərəf Həsən, bir tərəf Hüseyn” olub ağlamalarını təsvir edərkən İmam Həsənin adını ancaq bir şeirdə bir dəfə çəkir. Butun mərsiyələrdə İmam Həsənin adını cəmi beş-altı dəfə çəksə də bunu hadisələrlə elə məharətlə bağlayır, əlaqələndirir ki, Hz. Həsənin dolğun və yadda qalan obrazı canlandırılar.

Şeirlərdə Həsənlə Hüseynin qardaş olması, İmam Həsənin zəhərlənməsi, Kərbəla faciəsində oğlu Qasimin qardaşı qızı ilə evlənməsi kimi faktlar yığcam şəkildə qələmə alınıır.

Kərbəla hadisələrinin və bu mövzuda yazılan əsərlərin baş qəhrəmanı İmam Hüseyn hicrətin dördüncü ilində şəban ayının beşinci günü anadan olur. Onun da adını babası qoyur. İmam Həsən kimi onun da şəhid olacağını qabaqcadan xəbər verir.[355] Və hər kəsin ona hörmətlə yanaşmalı olduğunu bəyan edir. Termizidən gətirilən hədisdə deyilir: ″Mən Hüseyndənəm və Hüseyn məndən. İzzədi-təala sevsin anı ki, Hüseyni sevər.″[356] “O, 58 illik bir parıltı idi.″[357] Göstərilən hədisdən çıxış edən şair “Hərçənd günah ilə səzavari-bəlayux. Lütf eylə, Xuda, bizlərə möhtaci-əta-

---

*[355] Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, 365 səh. 162-163*

*[356] Kandehlevi M.Y. Həyatüs-Sahabe. (4 c.də) II c., İstanbul,1994. səh. 165*

*[357] “Dirilik” jurnalı. Bakı, 16 noyabr, 1916, N 5, səh. 179*

yux" mətləli novhəsində öz günahları ilə "ətaya möhtac" olduğunu, "rahi-müsibətin özümüzdən" olduğunu, özünün acizliyini, bimarlığını bəyan edərək

İmdad elə, yarəb, sən özün, bimədədüğ biz,
Başdan əyağə büxlü riyavü həsədüğ biz,
Hər qədər təsəvvür edax, ondan da bəduğ biz,
Əmma ki, əzadari-şəhi-Kərbübəlayux.

– deyə Allahın Hüseynə "meyilinin çox olduğunu" bilir və bu səbəbdən də "Hər sali sərasər odu kim novhəsərayux" deyir. Allahdan qanad istəyir ki, Kərbəlaya getsin, göz yaşı ilə o səhranı sulasın, "ol mərqədi-şeşgüşəni ağuşə" bassın. Bununçün yenə də Xaliqinə üz tutur:

Tövfiqüvi, yarəb, bizə həmvarə rəfiq et,
Daviyi-təvəllayi-Hüseynidə sədiq et,
Lütfün bu rəhi-eşqdə həmrahi-təriq et,
Dil vadiyi-heyrətdədü, bir rəhbər istər.[358]

Raciyə görə Hüseyn matəmində hər bəla dəf olur. Ona görə də "Ağla, hər gün ruzi-aşuradu, hər yer Kərbəla". "Bəzli-can canan yolunda bu cür olur". Çünki:

Ya Hüseyn, heç kim cəhanda sən kimi məst olmuyub.
Mey bəla, məclis bəla, saqi bəla, sağər bəla.

"Belə əhd eyləmişəm ey bacı cananım ilə
"Ərseyi-Kərbübəladə boyanım qanım ilən."[359]

– deyə hardasa manifestini elan edən İmam Hüseyn öz qanını oğlu Əkbərin qanına qatmağa, təşnə halda can verməyə, isti qum üstə yatmağa, bu meydanda öz qanı ilə dəstəmaz alıb namaz qılmağa hazır olan, İbrahim (əs) Minayi-eşqə bir qurban ilə gəldiyi

---

[358] *Raci. Seçilmiş əsərləri. (t.çi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 88, 90*
[359] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, 315 səh. 17, 37*

halda, 72 qurbanla gələn və bu qurbanların içində başda öz övladları olan bır qəhrəmandır, bir cəfakeşdir, qiyamətə qədər nəsillərə nümunə olacaq bir imamdır. Şair onun öz dilindən bacısı Zeynəbə belə deyir:

Həq yolunda susuz ölmək demə zəhmətdi mənə,
Gözümə ox dəgə gər eyni-məhəbbətdi mənə,
Aləmi-eşqdə hər zəhməti rahətdi mənə,
Dözərəm yüz belə zəhmətlərə bir canım ilən.

"Olsun" rədifli növhədə "qəm atəşini nəzmində şöləvar" istəyən şair Kərbəla səfərinin yığcam və dəqiq mənzərəsini verir. İmam Hüseyn Yasribdən İraqa səfər əmrini verəndə əhli-beytdən hər kəs buna bir cür yanaşır. Qızı Fatimə xəstə imiş. Ona xəbər verirlər ki, "öz qapısın baglar atan öz-öz əlilə". Hər kəsin səfərə hazır olduüunu görüb kədərlənir. Zeynəb "əl hökmü illəllah, Qardaşlarımın canını sag eyləsin Allah", deyib təslim olur. Əli Əkbər atasının daim "Kərbübəla adını zikr etdiyini" deyərək bibisi Zeynəbi Gülsümün Şam içrə xuncigərü didətər" olacağını billdirir. Hz. Abbas qardaşı İmam Hüseynin "hüznü məlalü"nü görüb bu səfərdə fəthi-zəfərin müşküllüyünü başa düşür. O, şövq ilə atları hazırlayır. Yola düşmə əsnasında bu agır anda belə bəzi islami dəyərləri qoruyur, ona hörmətlə yanaşırlar. Zeynəbi Kübra çadraya bürünüb çıxarkən Hz. Abbas və Əli Əkbər qabaga çıxır və

Zeynəb gəlür, övladi Əli baxəbər olsın.
Əl verdi cəvanani-bəni-Haşimə qeyrət,
Söylirdilə: – Durmun, çəkilün yanə, cəmaət,
Salmışdı vəhalonki, başa çadiri-ismət,
Qoymazdilə qəddi genə məddi-nəzər olsun.[360] deyir.

Qeyd edildiyi kimi, İmam Hüseyn əhdə vafalıqda hər kəsə nümunədir. Yola düşərkən bunu bacısına bir daha xatırladır, "şövq ilə can verməyə" getdiyini bildirərək belə deyir:

---

[360] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 104, 202-203*

Ölməgə zülm ilən, bacı, təşnə Əliyyi Əkbəri,
Verməgə həsrət ilə can Qasimü Övnü Cəfəri,
Ta aparam gərək bu gin oglum Əliyyi Əsğəri,
Hərmələ etməgə onu tirə nişan Mədinədən.[361]

Xəbəri Fatimə çox kədərlə qarşılayır, atasına çox yalvarır ki, getməsinlər, getsələr onu da aparsınlar. "Ayırma" rədifli bir novhədə Zeynəb də "bu rahi-səfərdən qan iyi gəldiyi" üçün qardaşına (Hüseynə) çox yalvarır ki, onları Yasribdən ayırmasın. O, Mədinədə olduğu kimi, Kərbalada da qardaşına yalvarır. Ümidin hər yerdən kəsildiyini bilsə də, bir bacı kimi onu qorumağa, son borcunu verməyə çalışır.

Şiə, ver bir guş-huşun Zeynəbün əfqaninə,
Aç bəsirət çeşmüvi, bax Kərbəla meydaninə.
İmdi guya əzm edər meydanə şahi-Kərbəla,
Qoymuri getsün əbasindən dutub ali-əba,
Zeynəb ərz eylər ki, gəl, meydanə getmə, ey əxa,
Bircə bax bu əhli-beytün naləvü əfganinə.[362]

Raci ravının dilindən onun körpəliyini yada salır. Cəddi (s. ə.s.) namaz qılarkən Hüseyn qolunu boynuna salıb "mane" olanda vəhy gəlir ki, "ver öz səcdövə tül, Düşşə gətfündən Hüseyn oğlun, olur zari-məlul, O qədər səbr elə ta qəlbi onun xoştər ola. İndi necə rəvadır ki, onun "peykəri pamal olsun". Bir Hüseyn ki, onu Fatimə sinəsi üstə bəsləyə, onu "Şümri-dəğa öldürə təşnə, quri yerlər ona bəstər ola"

Olmadı əhli-cəfa zülmü sitəmdən doyalar,
Nə rəvadur ki, onun rəxtini yeksər soyalar,
Fatımə bəslədigi başı gül üstə qoyalar,
Şiələr, vay bizim başimizə küllər ola.[363]

---

[361] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 80*

[362] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992, səh. 132*

Şair yeri gəldikcə müəyyən məsələlərə öz münasibətini bildirir, insanın yaradılış qayəsini, açmağa çalışır, bu zaman dövrünün mövcud dini-elmi görüşlərinə istinad edir. Sonda da bu fikirləri İmam Hüseynə və onun şəhadətinə bağlayır. Ona görə "bu icadi-aləmdən itaətdür, qərəz, Aləmü adəm vücudundan ibarətdür, qərəz." Qeyb aləmindən xəbər gəlir ki, sənətkar sənətini aşkar eləsin. Bir belə xəlqi Pərvərdigar əbəs yerə xəlq eləməyib. "Bu kəsrətdən zühuri-sirri-vəhdətdür, qərəz." Aləm ayinəsində Haqq nuru zühur edir, ayətinə Allahın nurunun mənaları görünür.

Eylədi ayineyi-aləmdə nuri-həq zühur,
Tapdı ayətində surət məniyi-əllahi-nur,
Bundan artuq çeşmi-həqbinə degül ayət zərur,
Sərbəsər bu ənfüsü afaqi-ayətdür qərəz.[364]

Bu alçaq dunyanın sevdası peşmançılıq olduğuna görə şahbaz olan kəs "cifeyi-dünyaya" talib olmaz, "arizuyi-hirsü azun tərk qılar" Çünki bütün inanclardan üstün "müvəhhid" (tovhid) mənsəbidir. Bunun da ən üstün məqamı şəhidlik mərtəbəsidir.

Yuxarıda da deyildiyi kimi, hamı bu səfərin sonunu gözəl bilir. Oğlu Əlı Əkbər atasının Kərbübəla sözünü "kərratla" zikr etdiyini bildirir, Hz.Abbas kimi düşmənlərin bağrını yaran cəsur döyüşçü belə Hüseyndəki halı görüb bu səfərdə zəfərinin müşküllüyünü hiss edirdi. Ancaq hər kəs "əl-hökmü-illəllah" düsturu ilə İmam Hüseynin "Yasribdən İraqa səfər olsun" əmrinə təslim olaraq yola hazırlanırlar.

Müəllıf bəzən bırbaşa İmam Hüseynə xıtab edır, onu mədh edərək verdıyı ritorik sualın cavabını sanki özü verir:

Ya Hüseyn, kim sən kimi öz xanimanından keçər?
Kim sənin tək haq yolunda baş, canından keçər?

---

[363] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 140*

[364] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 132*

Kim sənin tək tərk edər cahü cəlalin, ya Hüseyn?
Kim verər yəğmayə sən tək mülkü malin, ya Hüseyn?
Kim verər zillətlə öz əhli əyalin, ya Hüseyn?
Kim Əli Əkbər kimi növrəs cəvanından keçər?

Əlbəttə, heç kim. Əhli-dünyanın – dünyapərəstlərin nəzərincə kimsə nə bu dünyadan, nə onun zövqü-səfasından əl çəkməz. Üstəlik bu qədər şeyi və özünü heç kəs qurban verməz. Ancaq İmam Hüseyn dünyapərəst deyildi. O çoxdan özünü Xaliqinə təslım etmişdi. "Məşuqəsinin (belə ağır) imtahanından" ancaq o keçə bilər. Ancaq Haqq aşiqi olanlar edə bilər bunu. Şair belə cəfa və vəfa qəhrəmanlarını yada salır. Onu ancaq Yusif (əs) üçün ağlamaqdan gözü tutulan Yaqubla, (əs) övladını qurban verməyə aparan İbrahimlə (əs) müqayüsə edür. Ancaq o, bir İsmayılı (əs) apardığı halda, İmam Hüseyn 72 qurbanla gedir.[365]

Hər nə ki, zülmü sitəm etdi sənə əhli-cəfa,
Tab edib cövrü cəfaya birbəbir oldun riza,
Hansı aşiq sən kimi, ey padişahi-Kərbəla,
Birbəbir məşuqəsinin imtəhanından keçər?[366]

Raciyə görə "çoxları eşq meydanına qədəm qoyub, ancaq heç kəs meydanə Hüseyn kimi mərdanə gəlməyib."[367] Şair, Hüseyni Musa (əs) peyğəmbərlə də müqayisə edir.

Tur dağında görünən nurdan peyğəmbərin təsirlənməsini, Kərbəla səfəri ərəfəsində Hüseynlə qızı Fatimənin görüşməsinə təşbih edir:

Vəqt o vəqt olub ki, gəlsün Fatimə çün nəvayə.
Ol mərizə gördü nagah cilvələndi pərtövi-nur,

---

[365] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 130, 186, 147, 159, 187*

[366] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 83*

[367] *Raci.Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz).Bakı: Sabah,1992, səh. 153*

Səhni-xaneyi-Peyəmbər oldu rəşki-vadıyı-Tur,
Çün Kəlim ol nuru görcək ğəşş edüb o zari-rəncur,
Huşə gəldi misli-Musa, təkyə eylədi əsayə.[368]

Füzulinin "Hədiqətüs-süəda"sında da deyildiyi kimi, hər kəs bir-bir Hüseyndən vuruş üçün izn istəyir, gedir, vuruşur, saysız düşmən öldürür, nəhayət, Haqq uğrunda şəhid olur. Ən sonda savaşa Hüseyn özü gedir. Racidə də ümuni şəkildə bu xətt gözlənılır. Yükün bütün ağırlığını, dərdin, müsibətin bütün yaşantısını Hüseyn öz çiyinlərində çəkir. Düşərgədəkilərin hər biri onun qohumu, yaxını, əzizi idi, hər biri üçün o cavabdeh idi. Hər birinin şəhadətini mərdliklə, əsil müsəlman imamına, peyğəmbər nəvəsinə xas bir şəkildə qarşılayır. Bununla belə bir insan olaraq şəfqətlidir. Faciəyə çox vaxt gizli-gizli ağlasa da, bəzən bunu büruzə verir. Oğlu Əli Əkbər şəhid olanda bacısı Zeynəblə bir-birinə sarılıb ağlayır. Şair bu incə və həssas məqamdan düşmənin kimliyini daha qabarıq vermək üçün məharətlə istifadə edir. Şümrlə İbn Səd sinəsinə bala dağı çəkdirdiyi qardaş-bacını qamçılayıb bir-birindən ayırmaq istəyir. Başqa vaxt Hüseynlə üz-üzə gəlməyə cəsarətləri olmadığından bu anı fürsət bilirlir. Və bilirlər ki, bu məqamda öldürsələr belə Hüseyn onlara cavab verməyəcək. O, balasının dərdini bölüşən bacısını ovundurur.

Etdi xitab Şümrə İbn Səd məl'un,
Çəkməz Səkinədən əl, vurma Hüseyni, ey dun,
Vur bu Səkinəni əl çəksin ol cigərxun,
Rəhm etməyüb vurardi giryani-Kərbəlani.[369]

Bütün yaxınları şəhid olanda, vuruşa gedəcək bir adam qalmayanda Hüseyn özü vuruş meydanına çıxır və həm düşmənə, həm də bəşər tarixinə dərs verəcək, örnək olacaq bır qəhrəmanlıq göstərir. Düşmən tərəfdən saysız adam öldürür. Öldürülən

---

[368] *Yenə orada.səh. 151*

[369] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 78*

düşmənin sayı mənbələrdə mübaliğəli şəkildə müxtəlif cür göstərilir. Əlbəttə burada mübaliğə ola bilər, amma saysız düşmən ordusuna qarşı təkbaşına çıxıb 58 yaşında belə bir döyüşə atılmaq bir həqiqətdir. Füzuli göstərir ki, İmama yaxın düşməyə cəsarət etmədiklərindən onu dəfələrlə ox yağmuruna tuturlar. Ən sonda "Həzrəti-İmam namaza məşğul olub səcdədə ikən Şümri-bədbəxt baş qaldırmağa möhlət verməyib şərbəti-şəhadət içirdi."[370] Racidə kədər yükü ağır olduğundan hadisənin müsibət rəngini daha qabarıq verir. Onun aldığı yaraları, susuz, pəjmürdə halını oxşayıb ağlayır. Yaranın sayını qəriibə bir rəqəmlə 1950 olaraq göstərir. Onu namaz üstdə qətlə yetirən "Şümri-ləin" də görür:

> Gördi min doqquz yüz əlli yarə suzan sinəsi,
> On iki zərbətlə kəsdi başini Şümri-ləın.[371]
> Şair bir növhəsində İmam Hüseynin öz dilindən danışır.
> "Ey cəmaət, vurmuyun çox nızəvi xəncər mənə,
> Bəsdü bu sinəmdəki daği-Əli-Əkbər mənə"

deyərək hər tərəfdən "ləşkəri-ənduhun, fövci-əşki-dideyi-pürrnəmin, sipahi-qəmin" hücum etdiyini bildirir. "Əbbası qanını su kimi tökdünüz, Övn ilə Cəfəri zülm ilə öldürdünüz, məhşər günü Əkbərin qanını almaram, Kərbəlanı mənə ərseyi-məhşər etməyin. Vurmuyun, öldürmüyün, rəhm edin, insaf edin, xeymələrdə qırx qara məcər mənə göz tikib. Yol verin, gedərəm Ruma, Firəngə, yol verin" deməklə bu diyardan uzaqlaşacağını bidirir və "qəbti-Peyğəmbərin" ona nişiman olmağa qoymadıqlarını dərdli-dərdli ifadə edir:

> ...Eşq ilə təxmir olubdur əsli-bünyadim mənim,
> Eşqdür bu abü xakü atəşü badim mənim.
> Məktəbi-qəmdə şəhadət dərsin ustadim mənim,
> Hərf-hərfü nöqtə-nöqtə eyləyüb əzbər mənə.[372]

---

[370] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, səh. 181*
[371] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 119, 143, 134*
[372] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 116*

Hədislərdə və başqa qaynaqlarda Peyğəmbərimizin (s.ə.s.) İmam Hüseynin (ra) şəhid olacağına dair işarələr var. Və vaxtı catanda bu gerçəkləşir. Hətta iş o yerə çatır ki, siyasət düşkünü insanlar əhli-beytə əl qaldırmaq bir yana, onları vəhşicəsinə qətlə yetirir və öldürdüklərinin başını heç bir insani dəyərə sığmayan şəkildə xalqa göstərib qorxu yaradır. Haq sevgisi qorxu üzərində qurulan hakimiyyətlə əvəz olunur. Şam əhli əsirləri görəndə bilir ki, Kərbəlada "toy olub".

Şümr zülmünü başa çatdırıb əsirləri Şama gətirir. Görənlərdən kədərlənən də var, sevinən də. Bu zaman Hüseynin ağ saqqalını pürxun görən Zeynəbin əhvalı digərgun olur. Şair burada dözə bilməyib qarğışa keçir. "Lal olsun o dillər ki, Ruyi-üsəradan aparıb feyzi-tamaşa", -deyərək fikrini belə tamamlayır.

Olseydi gər ol taifədə çeşmi-bəsirət,
Etməzdilə ol Seyyidi-səccadə şəmatət.
Qoymazdilə Zeynəb çəkə viranədə möhnət,
Verməzdilə bifərş yer ol ərşməqamə.[373]

Novhələrdə İmam Hüseynin ətrafında olanların da dolğun obrazı yaradılıb. Ayrı-ayrı obrazlardan bəzən bir bənddə, hətta bir misrada danışılsa belə, dolğun və yadda qalan şəkildə təsvir edilir. Bir də bunların ümumi obrazı canlandırılır. 72 nəfərlik bir dəstə neçə min nəfərlə ölüm-qalım savaşına çıxır. Bir tərəfdə Allah eşqi və bu eşqin yolunda şəhidlik mərtəbəsi, digər tərəfdə əmrə tabe olan, qarşısındakının kimliyinə varmadan ona düşmən kimi baxan, bu cəhətdən də ağlagəlməz qəddarlıq göstərən dünyapərəstlər, mal və rəyasət düşkinləri. Bu 72 nəfər İmam Hüseynin xanımı, qardaş-bacıları, övladları, ən yaxın qohumları və əhli-beyt aşiqləridir. Burada hətta Müslümi-Azərbaycani[374] kimilər də var. Səfərdə yalnız xəstə olduğu üçün İmam Hüseynin qızı Fatimə

---

[373] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 49*

[374] *Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, 365 səh.*

iştirak edə bilmir. Bu "72 qurban"dan biri Hz. Əlinin qızı Zeynəbdir. O, "yetimlərin anası", "Banuyi-müəddəb"dir.[375] Yeddi qardaşını qurban verən, təkcə Bimarla qalan Zeynəbdir. O, dözüm iradə, mərdlik simvoludur. İmam Hüseyn Kərbəlaya gedərkən məhz Zeynəblə dərdləşir. Zeynəb "...Cümlə ümmətə şəfaət edərəm mən mən ilən" deyərək qiyamətdə Şümrün yaxasından tutacağını bildirir.[376] Hər işin Allahın iradəsi ilə olduğunu bildiyindən "Əl-hökmi-iləllah" deyərək təslim olur.[377]Zeynəb döyüş vaxtı aram ola bilmir. Şəriətdə qadın üçün vuruşmaq caiz olsaydı, savaşmağa hazır olduğunu bildirir; şühəda qızlarına təsəlli verir[378] (96, 98). Ali-əba Kərbalaya qədəm qoyanda Zeynəbin rəvani-təxtini endirirlər. Qadınlar onun başına toplaşır:

Gördilə Zeynəbi o dəm zarü şikəstə əgləşüb,
Dövri-bərində əhli-beyt dəstəbədəstə əgləşüb,
Bircə Səkinə adlı qız həm dizi üstə əgləşüb,
Hərdəm əlin çəkər onun türreyi-tabidarinə.[379]

Zeynəb Yasribdən yeddi qardaş ilə çıxır. Ancaq "Bircə Bimari qalub yeddi bəradər yerinə". Başqa bir yerdə bu rəqəm Səkinənin dilindən deyilir. "Qalmiyə bircə qardaşım-yeddi cəvan ilən gəlüm? Əmmə, (bibisi Zeynəb S.H.) rəvadu bu çölə təxtirəvan ilən gəlüm..." Şair onun Kərbəla şəhidlərinin bütün müsibətlərinə şahid olduğunu, sağ qalanları və kəsik başları Şama qədər apardıqlarını, Şümrün Hüseynin kəsik başına qamçı vurduğunu, onları daşa tutanların tənələrinə dozdüyünü, yanındakılara həmişə təsəlli verib ovundurduğunu yanıqlı bir dillə qələmə alır, üstəlik ona ayrıca iki növhə də həsr edır.[380] Zeynəb əsirlərlə birgə

---

[375] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 152-153*
[376] *Yenə orada, səh. 104*
[377] *Yenə orada, səh. 202*
[378] *Yenə orada, səh. 89*
[379] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) " Fəxri-Azəri". Təbriz,1389, 315 səh.109*
[380] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 169, 185*

Şamda altı ay qalır. Orada hər saatı bir il olur. Yasribə gələndən sonra da "Hüseyndən sonra" Zeynəbin üzü gülmür. Çünki:

> ...Gəlmibdü bu dünyayə o növi bacı-qardaş,
> Zeynəb ona maildi , o da maili-Zeynəb.[381]

Racinin təsvirində Zeynəbin məqamı çox yüksəkdir. Bu bütün növhələr boyu nəzərə çarpır. Bu məqam məhşərdə Tur dağının onun camalına həsəd aparacağı qədər yüksəkdir.

Kərbəladakı qadınlardan biri də Leyladır. O, İmam Hüseynin xanımıdır. İmam Hüseyn kimi ərini, Əli Əkbər, Əli Əsğər kimi oğullarını Haqq yolunda qurban verən bir qadın. Şair "Ana gər oğlun o gündə görə, nə halə düşər, O da Əkbər tək oğul, Leyla kimi madər ola" deməklə diqqəti toplayır, sanki kimdən söhbət getdiyinə oxucunu səfərbər edir. Əlbəttə bir ana kimi, o da dərd çəkir, fəryad edir. Oğlunun əlindən getdiyini görüb səbr edə bilmir. Ona "zinəti-Peyğəmbər" vuracağını bildirir, zülfünə öz əlilə şanə çəkir, sonra da əli qoynunda arxasınca baxır.[382]Novhələrdə canlandırılan Leyla obrazı qarşısında adamın dili topuq çalır. Füzulinin "Heyrət, ey büt, surətin gördükdə lal eylər məni" sözündə daşa dönür, daşlaşırsan. Bu necə fədakarlıq, necə metafizik gərilmədi? İslamın gücünü onda dərk edir, islamiyyətin bu vaxta qədər, yaşamağının və özünütəsdiqinin sirrini onda anlayırsan. Peyğəmbərimizin (s.ə.s.) "Mənim ümmətimin alimləri Bəni İsrailin peyğəmbərləri kimidir" hədisinin sirri onda aşkar olur. Raci Hacərin İsmayılin (əs) qurbanlığı ilə bağlı məlum əhvalatını dəfələrlə müqayisə edir.

> Hacər İsmaili göndərdi Minayə qurban,
> Zində gördi oni, eylərdi yenə ahü fəğan,
> Eylədüm mən səni baş verməyə meydanə rəvan,
> Vardu yerdən göyətək fərqim, oğul, Hacər ilən.[383]

---

[381] *Yenə orada, səh. 185*
[382] *Yenə orada, səh. 234*
[383] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 102, 234, 235*

Hacər İbrahim (əs) peyğəmbərin xanımı, İsmayıl (əs) peyğəmbərin də anası idi. Leylanın qurbanlıq oğlanlarına və bu qəzavü qədərə münasibətinə nəzər salaq.

Ey oğul, batmıyasan qanuva, razi degüləm,
Verməsən can, qəsəm ol canuva, razi degüləm.
İndiki vermiş icazə sənə şahi-şühəda,
Olmusan bəzmgəhə getməgüvə sən də riza,
Yekdilü yekcəhət olmuş həm oğul, həm də ata,
Deyə bilməz ana: – Hicranuva razi degüləm.[384]

Və ya "Bilüsən, bəsləmişəm mən səni bu gindən ötür", "Olsalar mane əgər getməgüvə etmə qəbul", "İstərəm can verəsən mən səni bu növ susuz, Dəgə gər ləbi-ətşanuva, razi degüləm". Sanki bunlar azmış kimi Leyla ikinci oğlunu da qurban verməyə hazırlaşır. "Qətlgəhdə şühəda hər biri bir yanə düşər, Əsğəri almasan öz yanuva razi degüləm", -deyə Leyla bundan sonra ikinci oğlunu da uğurlayır, düşmənə qan uddurmağını istəyərək onu Allaha tapşırıraraq "Raziyəm mən də kəfən bu sərvi-qəddə biçməgə", deyir.[385] O, bir ana kimi, haldan-hala düşür, vədə sadiq qalsa da, analıq hisslərinin təsiri ilə oğlunu oxşayır, Azərbaycan qadınlarının ənənəvi "Anan ölsün" nidasilə "canan yolunu getməgi gözləyən", "ayineyi-surəti-Peyğəmbərinə" mərsiyə deyir:

Başuvü qoy sinəmə bu dəmdə bir,
Olgilən asudə bu sinəmdə bir,
Bəlkə mənim də oğul aləmdə bir,
Sakit ola bu dili-qəmpərvərim,
Əkbərim.

Novhələrdə İmam Hüseynin qızları Gülsümlə Səkinə, Ruqiyyə və Fatimə də var. Onlar da bu faciənin bütün ağrı-acılarını çi-

---

[384] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 26*

[385] *Raci.Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 126*

yinlərində çəkmiş, Şümrün sitəmlərinə, əsirliyə dözmüş, gözləri önündə əzizlərinin başlarına gətirilən müsibətlərin şahidi olmuş, bala dağı, qardaş dağı görmüş, döyüş meydanında toy edib əli xınalı şəhidliyin şərbətini içmişlər. Növhələrdə daha çox "ərus" (gəlin) sözü işlənir. Fatimə əmisi oğlu Qasımla evlənir, lakin çox keçmir, ərinin, atasının, əmisi Hz. Abbasın nizədə olan başları ilə Şama qədər getmək faciəsini yaşamalı olur:

Kərbəlada eşidibsüz ki, Hüseyn ibn Əli,
Şiələr, Fatiməvü Qasimə toy tutdi, vəli,
Necə toy qanə batub Qasimü damadun əli,
Necə toy, Fatiməyə hiclə sınıx məhmil imiş.[386]

Səkinə atası Hüseyni tez-tez yuxuda görür, ona şikayət edir. Bir şeirdə "əmmə"sinə (bibisi Zeynəb) xitabən həm dərdini danışır, həm babası ilə bağlı yuxusunu, həm də suallar verir; Mədinəyə dönəndə bu olub keçənləri özünün "kafirlərdən" çəkdiyi zülmləri bacısı Fatiməyə necə deyəcəyini soruşur.

Şair İmam Həsənin oğlu Qasimlə bağlı nöqtələrə də çox həssas yanaşır. Onu da eyni sevgi və istedadla təsvir və tərənnüm edir. "nəş'i üstə at çapılan" Qasimi sanki Kərbalaya əmanət edir.

"Qaldı səndə, Kərbəla, çün nəşi üryan Qasimün,
Bağruva bas, yaxşı saxla, can sənün, can Qasimün"

mətləli növhəsində bitkin obrazı yaradılmaqla yanaşı, şeirlərdə də yeri gəldikcə onun adı çəkilir. Əsirlər Şama gələrkən "damad başını növk-cidada, tazə gəlini məhmildə nalə" edən görənlər bilir ki, Kərbalada "toy olub". Amma Şümrün sitəmindən kamə yetməyiblər. "Bu tazə gəlin" "sevgilisinin" qanlı üzünə həsrətdir, "ağlar gözünün" bu "qurbanı olduğunun" nizədəki qanlı üzünə belə baxmağa qoymurlar. "Bircə qoymazla doyunca baxa canan üzünə". Qasim Hüseynə qardaş yerində idi. "Hüsni-Həsən ilə var idi

---

[386] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 206, 190, 232*

şöhrəti Qasim"; bu "fərzəndi-Həsən"di. Şairə görə "çeşmi-zəmanə" belə toy görməyib. "Toyda bu cavandur batan öz əlləri qanə" və s. kimi ifadələrlə Qasimin obrazı canlandırılır:

"Çün ərus etdi nəzər Qasimi-ətşan üzünə,
Gördü zülfündən axubdur, tökülüb qan üzünə";
"Ey əmoğlu, qəmi-hicrün mənə çox müşkil olur,
Bir günüm şami-fərağündə sənün bir il olur"

mətləli novhələr isə öz üslubu, deyim tərzi, ifadə vasitələri baxımından ədəbiyyatımızda orijinal və təkrarsız sənət nümunəsidir. Vuruşda İmam Hüseynlə *"birlikdə 6 qardaşını şəhid edirlər"*. Onların öndə gedəni, *"...kiçik qoşunun ələmdarı, ərəb aləmində öz şücaəti ilə şöhrət qazanmış"*[387], bir çox şairlərin ilham qaynağına çevrilən əfsanəvi qəhrəman Hz. Abbasdır. Düşmənlərin bağrını yaran Hz. Abbasa çox vaxt "qolsuz ələmdar" da deyirlər. Şair bəzən bu şəhidlərin adlarını birgə çəkir. Əbbas, Qasim, Övnü Cəfər, Əli Əkbər, Əli Əsğər.[388]

Hz. Abbas çox vaxt "Əbbasi-Ələmdar-Əlinin qəzəb oğlu" şəklində anılır. "Əbbas" rədifli mərsiyəsində təsvir olunur ki, düşmən Əlqəmə (Fərat) nəhrini tutub yaralıları suya həsrət qoyub. Hz. Əbbas düşmən qoşununu dağıdıb çaya yaxınlaşır, məşki su ilə doldurub geri dönür. Düşmən həlqəsini yararkən qollarını itirir, məşki dişilə tutub irəliləyir, lakin düşmən məşki oxla deşib özünü də ölümcül yaralayır. Onun nərəsini eşidən Hüseyn "Belimi bükdi, bacı, firqəti-Əbbas"-deyir. "Çün çak-çak olubdur, tiğ ilə cismi-Əbbas". Zeynəb görəndə ki, "olmadı mümkün gətirsün xeyməyə bir curə si", "Əliyyi-Əsğər içmüb su can verir", qardaşına deyir: "Qaldı Əbbasim xəcalət bu Səkinədən sənün" Abbasa əzadarlığı bacısı Gülsüm eləyir:

---

[387] *Dahilərin göz yaşı mərsiyələr (tərtibçilər M.İ.Əliyev, A.F.Ramazanov). Bakı:Elm,1990, səh. 3*

[388] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 120, 126, 130, 142*

Yüz tutub cənab Gülsüm əhli-beytə: -əyyühənnas,
Söylədi: -Amandu, qoymun, xar ola əzayi-Əbbas,
Kərbəladə yox anası, ta tuta öz oğluna yas,
Eyləyə fəğanü şivən ol Şəhidi-namidarə.[389]

Gülsüm tapıb başsız Ələmdari, töküb yaş,
Gördi ki, həmi qol kəsilüb zülm ilə həm baş,
Ərz eylədi: -Nə kül sovurum başimə, qardaş,
Başsız bədən axir olu, qolsuz bədən olmaz.

Raci İmam Hüseynin oğlanları Əli Əkbərlə Əli Əsğərin obrazını da məharətlə canlandırmış. Onların da əhdə sadiq olmalarını, canan yolunda can nisar etməyə hazır olduqlarını qürur hissi ilə təsvir etməklə bərabər, bu on altı, on səkkiz yaşlı yeniyetmələrin düşmən əlində susuz can veməlırini yanıqlı bir dillə təsvir etmiş, üstəlik, düşmənə qarşı necə qəhrəmancasına, mərdliklə vuruşmalarını da ustalıqla qələmə almışdır. Leyla onları vuruşa göndərəndə "Allaha tapşırır", on səkkiz il zəhmətini çəkdiyini söyləyir.[390] Şair anasının dilindən ayrıca bır oxşama-mərsiyə deyir. Burada "Əkbərim" sozü hər dörd misralıq bəndin sonunda nəqarət şəklində təkrar olunur ki, bu da onu ağı kimi avazla və nəqarəti xorla deməyə imkan verir. Əli Əkbərə düşmənlər yaxın düşə bilməyəndə uzaqdan ox və nizə yağdırırlar. Uqab adlı atın boynunu qucaqlayıb, döyüş meydanından çıxır. Bu mənzərəyə dözə bilməyən atası Hüseynin dilindən Şair bu sözləri deyir:

...Yaxşi belimi bükdi bu hicranın, oğul,
Ola kül başinə səndən sora dünyanun, oğul,
Gözi yollarda qalub xeymədə Leylanun, oğul,
İntizarun çəkər ol Zeynəbi-qəmpərvər ilən.[391]

---

[389] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, səh. 222*

[390] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 136, 206, 214*

[391] *Raci Təbrizinin novhələri və mərsiyələri.(tərtibçi Əbulfəzl Əhmədlu) "Fəxri-Azəri". Təbriz,1389, 315 səh. 31*

Oğlunu qana bulaşmış görən Leyla zülfünə toz qonmağa dözmədiyi halda, indi bu hala necə dözəcəyini bildirir. Eyni sözü Əli Əkbərin kəsik başını görən Yəzid də deyir və öz sözləri ilə onun böyüklüyünü təsdiq edir.

– Olseydi mənə bir belə fərzəndi-dilara,
Qoymazdum onun zülfünə bir toz qona əsla.

Raci Əli Əkbəri çox yüksək qiymətləndirir. Yusifin (əs), Yaqubun (əs), İsmayılın (əs), Hacərin adlarını çəkir, onlarla müqayisə edir ("*Misli olmaz nə Əli Əkbərə, nə Leylayə, Yüz min İsmayıl ola, yüz min əgər Hacər ola*".) və üstünlüyü əhli-beytə verir. (Bu, əlbəttə, əhli-beyt sevgisi ilə bağlıdır. Əslində hərənin öz yeri, öz məqamı var).

Növhələrdə susuzluqdan əzab çəkən yaralı "6 aylıq südəmər Əli Əsğərə bacısı əza saxlayır, yeganə təsəllisi zəncirə vurulmuş qardaşı Bimar olur. Bimar yeddi qardaşdan biridir. Xəstə olduğuna görə döyüşə çıxa bilməyən və buna görə də sağ qalan əsil adı Əli (Əlövsət 25, 3) olan İmam Zeynülabidin (əs) (abidlərin gözəli. Həyatını zühd və təkva ilə keçirmiş boyük islam alimi, dördüncü imam). Bu "Abidi-Bimarın" sağ qalacağı və islam dini üçün böyük işlər görəcəyi sanki oradakıların çoxuna bəlli idi. Əli Əkbər can verən anda, atasından xahiş edir ki:

Bir sözüm var sənə, tapşur onu Bimarə, baba,
Xaki-payündə mənim nəşimi dəfn eyliyə ta,
Qoya zəvvarun əyaq sinəmə çeşmi-tər ilən.[392]

Bundan əlavə Həbib ibn Məzahirin, Bəşirin, İmam Hüseynin (ə.s) oğlanları Övnlə Cəfərin də adları çəkilir. Fərat–Əlqəmə çayı, İmam Hüseynin atı Zülcənah, Hz. Əbbasın atı Üqab, mərkəb obrazlaşdırılır. Müxtəlif münasibətlə nəbilərin, Hz. Əlidən əvvəlki üç boyük xəlifənin adları çəkilir, hadisələrlə əlaqələndirilir.

[392] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 95, 102*

Həm Kərbəla, həm də orada şəhid olanlar şərq, o cümədən Azərbaycan ədəbiyyatında əsrlər boyu qələm əhlinin sevə-sevə müraciət elədiyi mövzu olub. Bunların hamısı əhli-beytə yanmaqda, yas tutub ağlamaqda, düşmənə tənə və lənət etmədə birləşir. Ancaq bu yanaşmalar yerinə, zamanına və şəxsinə görə hərədə bir cür təzahür edir. Racidə isə xəyalımızda şəhidlərin timsalında başda İmam Hüseyn olmaqla haq din uğrunda, Allah yolunda necə şəhid olmağın, qəhrəmanlığın, mərdliyin, ərliyin, döyüş meydanında belə Peyğəmbər əxlaqının təcəllisinin nümunəsi canlanır. İmam Həsənlə İmam Hüseyn babalarının "reyhanım" dediyi bu cənnət güllərinin hələ uşaqlıqdan gələcəyi haqqında Xaliqi tərəfindən xəbər verilmişdi. Hədislərdən bəlli olur ki, bir qurban bayramında babaları onları hədiyyə almaq üçün bazara aparır. İmkanı ancaq ağ parçadan paltar almağa çatır. Nəvələrinin kefi yoxdur. Cəbrayıl (ə.s.) nazil olur. Niyə kefsiz olduqlarını soruşur. Sonra bir ovuc suya nəsə oxuyub İmam Həsənin üstünə üfürür, onun paltarı sarı olur. İmam Həsən sevinir. İmam Hüseyn deyir ki, mənimkini də rənglə. Bu dəfə onun paltarı qırmızıya boyanır. Nəvələr sevinir, ancaq Peyğəmbərlə (s.ə.s.) Cəbrayıl (ə.s.) kədərlidir. Çünki gələcəkdə birinin zəhərlə, birinin də qılıncla şəhid olacağının xəbəri verilmişdi.

İmam Həsən haqqında babası bir dəfə "mənim bu nəvəm böyük bir ixtilafın önünü kəsəcək" deyir. Vaxtı gələndə 6 aylıq xilafəti dövrü müsəlmanları bir-birinə qırdırmamaq üçün Müaviyəyə biət edərək xəlifəlikdən əl çəkir. İmam Hüseyn isə haqsızlığın, əldən getməkdə olan dini dəyərlərin önünü kəsmək üçün haq yolunda bu şəkildə candan keçməyin nümunəsini göstərir. Əhli-beytə mənsub olan qadınlar isə qədərə təslim olub bu müsibəti mərdlikə qarşılayır, sevə-sevə ən əzizlərini şəhidliyə uğurlayır. Kərbəla səhrası, Əlqəmə çayı dünyada bu qədər məşhurlaşmaz, əsərlərə mövzu olmazdı, əgər o şəhadətə şahidlik etməsəydi, qucaq açmasaydı. Bunlar olmasaydı, Kərbala bu cür obrazlaşa bilməzdi. Bütün bunlara görədir ki, Bədirdən, Uhuddan sonra Kərbəla da

əziz və müqəddəs yerlərdən biridir. Çünki oranın torpağı şəhid qanları ilə suvarılıb. Özü də bu şəhidlərin çoxu Peyğəmbər ailəsindəndir. Allah qatında din, vətən, namus, can uğrunda vuruşub ölənlər şəhid olur. Onlar Allah yolunda-dini ihya eləmək üçün vuruşub şəhid oldular. Kərbəla onlar üçün bu dünyada cəhənnəm, Fərat əl çatmaz su idisə, axirətdə cənnətə, Əlqəmə isə kövsər suyuna dönəcək. Onları qətl edənlərə isə cəhənnəm yuvasına, zəkkuma.

Raci mərsiyələr boyu düşmən obrazlarını da dolğun, inandırıcı təsvir edir. Şəhidlərə qarşı sevgisi qədər, qarşı tərəfə nifrət edir, onları gah öz dili ilə, gah obrazların dili ilə lənətləyir. Qəddarlıqlarını, zülmünü, haqsızlığını zorun, zorbalığın tüğyan elədiyi bir dövrün simvolu kimi qələmə alır. Müsəlmanlığa sitəmlər çəkdirmiş boykotun təşəbbüsçüsü və hicrətin səbəbkarı Bədr, Ühüd və Xəndək savaşlarının təşkilatçısı və ilhamvericisi Əbu Süfyandır. Əbu Süfyan varisləri sonradan islama təfriqə salmış və Əhlibeytə sitəm çəkdirmişlər. Başda Müaviyə və onun oğlu Yəzid olmaqla Əməvilər sülaləsini şair Ali-Süfyan adlandırır. Onları qövmi-Nəmruda təşbeh edir. Xaricilərdən Hz. Əlini qətlə yetirən İbn Mülcəmin cinayətkar obrazını yaradır. Yəzidin Kufəyə vali təyin etdiyi Übeydullah Ziyadın Kərbəlaya göndərdiyi qoşunun başında Ömər Səd durur. O, xeymələrə od vurur, Şamda Zeynəb onun zülmündən şikayət edir. Ən böyük qəddarlığı isə Şümr eləyir. Bu qoşunun sayı 5 mindən 140 min arasıdır. Burada mübaliğə ola bilər, amma mənbələr 5 mindən az olmadığını göstərir. Bu rəqəm belə, 72 nəfərə qarşı həddən artıqdır və İmam Hüseynin (əs) və onun timsalında Əhli-beytin gücünün nə demək olduğunu göstərir. Düşmən rəhmsizdi, qəddardı. Yaralıya su verilməsin deyə bütün su mənbələrinin yolunu kəsir. Su üçün gedən Əbbası şəhid edir, son anda məşki oxlayır.

Şümr Səkinəni qamçılayır. Buna görə Zeynəb yalvarası olur ki, "onu vurma, məni vur". İmam Hüseynə vurulan yaraların sayı 1950-dir. Xeyməgaha qırx min sitəmkar daxil olur və bunların zül-

mü ərşə dirənir. Şümr əmr edir ki, "fövti-fürsət olmağa qoymasınlar". Qarət eləyib talasınlar. Gözü səccadədə olan Səkinəyə deyir: Hüseyndən gözünü kəs, çün başını kəsmişəm. Şümrün alçaqlığı o yerə çatır ki, Hüseynin kəsik başını qamçı ilə vurur. Dözə bilməyən Zeynəbü Gülsümü Səkinə şur ilə: - "Vurmazla kəsik başi, bu nə dindü, nə məzhəb", -deyirlər. Zülmlər o həddə çatır ki, Şümrə belə təsir eləyir. "Ağladı haluva ol vəqtdə düşmən də sənün."[393]

Bədiiliyin şərti kimi bəzi mübaliğələr nəzərə alınmazsa, təsvir olunan hadisələr tarixi həqiqtlərlə üst-üstə düşür. Bu düşmən obrazlarının hərəsinin öz marağı var. Mərsiyələrdə də lənət obyekti Şümrdür, Ömər Səddir və Yeziddir. "Yezidin evin Allah özü yıxsın" şəklində qarğış edilir. Əslində bütün məsələlərin başında elə Yezid durur. "Müaviyənin oğlu Yezid... İslam aləminə xəlifə olmaq fikrinə düşdü. Odur ki, islamın həqiqi varisləri olan bəni-Haşim övladlarını... ələlxüsus Hüseyn ibn Əlini ya biət etdirməli, ya da qətlə yetirməli idi." Kufə valisi Übeydullah Ziyad ondan əmr alır ki, əgər biət eləməsələr, tutulub gətirilsinlər və ya məhv edilsinlər. O da eyni əmri Ömər Sədə verir. Deyək ki, bu ikisi əmri icra edir. Qətldə iştirak edən Şümrün də zülmü intiqam hissindən və qəddarlıq xislətindən irəli gəlir. Bəs Yəzid niyə müsəlman ola-ola Peyğəmbərimizin (s.ə.s.) əmanətinə qarşı bu cür xəyanət edir? Çünki onun babası Əbu Süfyandır. Atası Müaviyə hələ Şam valisi olanda xəlifə Hz. Əliyə biyət eləməmişdi, hətta ona qarşı üsyan etmiş, aralarında əvvəl qeyd etdiyimiz müharibə olmuşdur. Hz. Əli qətlə yetirildikdən sonra Xəlifə olan İmam Həsənə biət etməmiş, əksinə üstünə qoşun çəkmişdir. İxtilaf olmasın deyə hakimiyyətdən əl çəkib biət edən İmam Həsəni zəhərlədib öldürtmüşdür. Müaviyə üçün dava hakimiyyət, xilafət davasıdır. Ona görə də *"Kindən əl götürmüri taifeyi-Müaviyə"* (96, 168). Bu davada qarşılarında ən böyük güc olan "Peğəmbər itrətidir". Bu səbəbdən biət etsə belə məhv etməkdən əl çəkmir. Bu da bəs eləmir, xalq

---

[393] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 230*

arasında onları "xarici məzhəb" adlandırırlar. *"Zülmü kin ilən firqeyi-Ləhəb, Ad qoyar sizə: "xarici-məzhəb"*. Bunu bildiyindən şair sanki İmam Hüseyni müdafiə edir, *"əzəl gündən şəhadət əmrini qəbul edən, cananı ilə əhdini yerinə yetirməyə hazır olan"* İmamın dilindən *"Həqq imamın öldürürsüz, neyləyib nahəq yerə, Mən ki həq-həq söylərəm, kim xarici söylər mənə"*[394], -deyir. Imam Hüseynin davası, hakimiyyət deyil, həqq davası, din davası idi. Bilə-bilə mərdanə ölümə getməkdə bircə məqsədi vardı, o da "Hakimiyyəti bu şəkildə qəsb etmək olmaz, bələ xəlifəyə biət olunmaz və əsil Haqq aşiqləri Allah yolunda candan belə keçərlər, bu meydan Yezidlərin meydanı deyil, bu Əhli-beytin meydanıdır" fikrini yaradıb formalaşdırmaq və yaşatmaq idi. Bunu təkcə Kərbəlada şəhid olanlar isbat etmir, bunu sağ qalanlar, xüsusən Zeynəb və İmam Zeynülabidin Kərbəladan xəbərsiz aldanan müsəlmanlara Şamda, Kufədə sübut edir, həqiqəti aşkara çıxarır. İmam Zeynülabidin bir imam kimi, böyük bir din alimi kimi öz elmi, təkvası, zühdü ilə, yaşantısı ilə, şəxsiyyəti ilə dinə xidmət etdi, onu qoruyub saxladı, təhrif olunmağa qoymadı. Onun başladığı işi sonrakı imamlar davam etdirdilər, imam Mehdi Sahibəzzamana kimi hər biri sonsuz zülmlərə məruz qaldı, amma dini qoruyub saxladı.

Burada nə bədii, nə də elmi əsərlərdən sirrini tapa bilmədiyimiz bir sual da cavabsız qalır. Düşmən cəbhədə əmr verənləri anlamaq olur, ancaq bu zülmü icra adən əsgərlərin durumunu, bunun psixologiyasını və fəlsəfəsini anlamaq mümkün deyil. Bunlar da müsəlman idi, kimin üzərinə getdiklərini bilirdilər. Əmrə itaət fəlsəfəsinin yanında bir də bu əmrin zülm olduğunu, zülmün də necə bir günah olduğunu bilməmiş deyildilər. Kütlə psixologiyası da desək, döyüş meydanının psixologiyası və fəlsəfəsi də desək, bunlar ya savaşdan əvvəl, ya da sonra namaz da qılırdılar. İçlərində verilən əmrin zülmə səbəb, ona itaətin, icrasının da zalımlıq olduğunu bilənlər yox deyildi. Amma vuruşurdular. Tədqi-

[394] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 168, 116*

qatda bu məsələyə münasibətə və bu zülmə düşmən cəbhədən etiraz edilən bir fakta belə rast gəlmədik. Bu tam başqa və mövzumuzdan kənar bir məsələ olduğundan cavabını açıq qoyub deyilənlərlə kifayətlənirik.

Nəticə etibarilə "Uzun illər... yasaq olsa da, xalqın yaddaşından silinməyən"[395] (40.) digər mərsiyə nümunələri kimi Racinin mərsiyələri də ədəbiyyatımızda hadisədir, və müsbət hadisədir. Həm dini-ideoloji, həm ədəbi və dil baxımından müsbət təsirini qorumaqdadır. "Mərsiyə şeiri Azərbaycan ədəbiyyatında süjetli lirikanın inkişafına xeyirli təsir göstərmiş, insanın daxili dünyasının, subyektiv hisslərinin canlı və təsirli təcəssüm etdirilməsində, poetik dilin orta əsrlərə məxsus qəliz ərəb-fars tərkiblərindən təmizlənməsində və sadələşməsində əhəmiyyətli rol oynamışdır. Bu əsərlər poetik-struktur baxımdan bəzi keyfiyyətlər qazanmışdı. Növhə və sinəzənlərin bir çoxu yüksək bədiiliyi və şeiriyyəti ilə fərqlənirdi."[396]

Kərbəla mövzusu Azərbaycan hüdudlarını aşaraq islam dünyasının yayıldığı coğrafiyada bu gün üçün də aktuallıq kəsb etməkdədir. İstər Osmanlı, istər indiki Türkiyədə də bu mövzuya müraciət edən şairlər yüzlərlədir.[397] Hər il məhərrəm ayında dünyanın bir çox telekanallarında bu mövzu ilə bağlı verilişlər gedir, mərsiyələr səsləndirilir, bunların hamısında da müsbət əxlaqi dəyərlər təlqin edilir.

Bütövlükdə mərsiyə ədəbiyyatına mövcud olan mənfi münasibətə gəldikdə isə deyə bilərik ki, Kərbəla mövzusunda yazılan bəzi zəif, ideoloji, siyasi məqsəd güdən, bıqdırıcı mübaliğələrlə süslənən şeirlərdən başqa, haqqında söhbət gedən mərsiyə ədəbiyyatı göz ardı edilə, diqqətdən kənarda qala bilməz. Bu olaylara

---

[395] *Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 452 səh.*

[396] *Azərbaycan ədəbiyyatı tarixi. 6 clddə. IV c., Bakı: "Elm", 2011, səh. 299*

[397] *Mehmet Arslan (Prof.dr.), Mehmet Erdoğan. Kerbela mersiyeleri. Tunceli Unıversitesi. Qrafikler yayinevi. Ankara, 2009, 809 səh. 118*

qarşı çıxanlar isə iki məsələdə haqlı idilər: Bu hadisələrdən və ona həsr olunan əsərlərdən öz çirkin məqsədi üçün istifadə edənlərin əlində vasitə olması, bir də rituallardakı yaşantı, mərasimlərdəki icraat. Bunlar həqiqətən yol verilən və qəbul edilən deyil və biz də bu məsələdə M.F.Axundovla, Seid Əzim və s.-lə eyni fikirdəyik.

Bu məslələrin özü və ona münsibətin ən dəqiq ifadəsi isə Racinin öz sözləri ilə yekunlaşdırıla bilər:

İmdad elə, ya Rəbb, sən özün bimədədüğ biz,
Başdan əyağə büxlü riyavü həsədüğ biz,
Hər qədər təsəffür edax ondan da bəduğ biz,
Əmma ki əzadari-şəhi-Kərbübəlayux.

# III FƏSİL

## Ə.RACİ POEZİYASININ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

Ə.Racinin sənətkarlığı haqda danışmazdan əvvəl onun şeir və sənət haqqında fikirlərinə nəzər salmaq lazımdır. Raci alim deyil, ədəbiyyatşünas deyil. Bu baxımdan onda sistemli şəkildə fəlsəfi və ya estetik görüşlər aramaq doğru olmazdı. Bununla belə, bir çox sənətkarlar kimi o da yeri gəldikcə, bəzi sənət məsələlərinə öz münasibətini bildirmişdir. Raci şeirə həssas yanaşır, ona çox incə məsələ kimi baxır. Yüksək sənətin yüksək elmlə, savadla ola biləcəyi fikrindədir. Bunun üçün elmlərin əsas qaynağı kimi Qurana əsaslanır. Hər şeyi idrakın yolunun burdan keçdiyini bildirir. Bunsuz haqqı dərk etmək mümkün olmadığı kimi, Racini də anlamaq çətin olacaqdır.

Qəşr ilə annamaz bu sözün, Raci, məğzini,
Dərrakə yox bu şəhrdə ləbbü ləbbadə.

"Annamaq" üçün "rümuzi-eşqi dərk etmək" lazımdır. Rümuzi-eşqi dərk etmək üçün eşqə düşmək lazımdır. Çünki "bu" eşq ilə "Hüsnün mətalibin kəşf etmək" olur. "Kəşfi-raz etməyə zəbanı olmasa da, yarə dərdini yenə də rəmz ilə bildirir". Raci dərk olunmayacağından, ustadı Füzuli kimi şeirlərinin təhrif olunacağından qorxur:

Bir hərfin bu şeirlərin salsa nəzərdən,
Raci, görüm ol katibin əli qələm olsun.

Şair "hər "əlif-bey" oxuyan"ın üzündən "rümuzi-eşqin dillərə düşməyini" istəmir, "tiflin, dərsin, məktəbin, elmin" olmasına etiraz edir. Bu eşqin nə olduğunu anlatmaq üçün Həllac Mənsuru yada salır:

Şərabi-eşqdən bir cürə içdi, ey zahid.
Dedi məstanə-məstanə "ənəlhəq", dar başində.

Şairə görə bunları anlamaq üçün kitaba üz tutmaq lazımdır. Kitab deyəndə Raci Quranı, kainat kitabını (yaradılan nə varsa), onun içində də "xalü xətti" nəzərdə tutur. Bu kitaba "gözünə qara su gələnə qədər" baxacaq.

Dur eylə sureyi-ixlası həzərxan, Raci,
Müdərris ol ruxi-ümmülkitabə baxmaqdan.

Müdərris olmaq-mədrəsə təhsili görmək və ümmülkitabə baxmaq. Racinin aləmində insanın qayəsi və vəzifəsi budur. Allahın "ikra"-oxu[398] əmrinə əməl etməsidir. O zaman "xalü xəttin" də sirrini anlamaq olar:

Nəzər et, səfheyi-ruyində xalü xəttə, əy zahid,
Rümuzi-eşqi dərk eylə bu Qurani mütərcimlə.[399]

Bütün bunlardan sonra "əfvaci-süturə hökmrəvan olan, qələmi nur saçan nəzmi ilə şair əzmi-Füzulini ehya edəcəkdir". "Mə'ni-nəfs olan" şair "namü nişanı çıxsın" deyə həm də "simü zəri tərk eyləyib, əşari-qəzəli cəm eləməyi", indi kitab vəqti" olduğundan "vəsfi-nigari cəm eləməyi" lazım bilir.

Şeir dünyasında özünü təsdiqləyən, öz səsi, öz sözü, öz yeri olan şair "fünuni-şeirdə həddə, kəmalə yetdiyini"[400],"vahidliyini" bilir. Buna görə də məsələyə çox həssas, duyğu və düşüncə ilə yanaşır. Ənəniyyətindən, qürurundan, boşboğazlığından qorxur:

Raci, fünuni-şeirdə gərçi vahidsən,
Dəm vurma çox ki, baisi-lafi-gəzaf olur.

"Xeyli nazik məsələdür, bunda diqqət yaxşıdır", -deyir. O, "yarın təsvirini cana nəqş edən" sənətkardır. Bunun üçün şairə "dimağ" gərəkdir:

---

[398] *Quran. Səudiyyə Ərəbistanı. Əl-Mədinə Əl-Münəvvərə. 1305,səh. Alak surəsi, 96-cı ayə*
[399] *Raci. Seçilmiş əsərləri.(tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 75,*
[400] *Yenə orada, səh. 28*

Cana, şəbi-hicranun təqriri dimağ istər,
Bu barədə söz çoxdur bir miri çirağ istər.[401]

İki dildə gözəl əsərlər yazan Raci türki dilini üstün tutur. Bu "türki qəzəlində rümuzi-eşqə bələd olmaq" mümkündür. Klassik ədəbiyyatımızda vulqarizmlər adətən başqa dildən alınan sözlərlə ifadə edilmişdir. Öz dilimizdə ədəbsiz söz işlətmək ədəbdən kənar hesab olunmuşdur. Mənasını açmağı ədəbdən kənar hesab etdiyimiz "Dədə Qorqud"dakı "qavat" sözü də başqa dildə-ərəbcədir. Bu, Q.Zakirdə də belədir, digərlərində də. Raci də yalvaranda türkü-türkanə yalvarır, söyəndə başqa dildə "səgsifət" deyir.

Şair forma baxımından da dolğun sənətkardır. Klassik ədəbiyyatın qəzəl, qəsidə, rübai, mütəfərriqə, mürəbbe, hekayət, növhə və sinəzən formalarında gözəl əsərlər yazmışdır. Daha çox qəzələ üstünlük versə də,"əşari-qəzəl cəm elə"sə də, mərsiyəni də unutmur və

Qəsidə, mərsiyə mundan sonra da yaz, Raci,
Micazi-yarə müvafiq dögül qəzəl görürəm,[402] -deyir.

Şeirə, sənətə belə dəyər verib onun məsuliyytinin fərqində olduğunu Raci əsərlərindəki yüksək sənətkarlıqla sübut etmişdir.

Raci ustad sənətkardır. Ustadlarından aldığı dərsi layiqincə mənimsədiyi kimi, özündən sonrakılara da təsir edəcək, örnək olacaq qədər yüksək qələm əhlidir. Onun yaradıcılığında bütövlük və tamlıq var. İstər mövzular, istər hadisələr, istərsə də obrazlar bir-biri ilə intellektual vəhdətdədir. Yəni bir şairin qələmindən çıxması, özünəxas dili və üslubi ilə seçilir. Bədii-estetik idealın tendensiyasının ölçüləri ilə hesablansa, Ə. Raci sənətkarlıq baxımdan orijinal şairdir. Onun şeirlərində hər nə qədər alınma söz, iqtibas, başqa şairlərəxas izlər görünsə də, yetərincə özünəməxsus fikir-

---

[401] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992 səh. 17, 53*
[402] *Yenə orada, səh. 22*

lərə, bədii tapıntılara, yeni deyimlərə -poetik füqurlara rast gəlmək mümkündür. Racinin tədqiqatçılarından N. Rizvana görə "Raci lirikasına gözəllik verən, ...amillər sırasında bıdii tsvir vasitələrinin xüsusi yeri vardır. Məqaminda, mövqeyində işlətdikdə şeirə təravət, zəriflik, şirinlik gətirən bu vasitələrdən Raci zərgər məharətilə istifadə etmişdir."[403] Məşuqənin məhəbbət telləri vasitəsilə aşiqin gizli sirlərini bilmək fikri Raciyə qədər işlənmiş ola bilər. "Könuldən könülə yollar var" ifadəsi kimi. Ancaq teleqraf sözünün ilk dəfə bu şəkildə şeirə gətirilməsi Raciyəxas yenilikdir.

Məşuqə aşiqin bilü razi-nihanini
Bu riştеyi-məhəbbət ona telqiraf olur.

Və ya hərb aləmində barıtın, fitilin kəşfini, istifadəsini şair qeyri-adi şəkildə şeirə gətirir:

Yarəsində gecələr işlər fitilə sübhə tək,
Sinəsin amac edəndə navəki-müjganə şəm[404].

"Bu bəzmə" rədifli qəzəlində zahidə xitabən "bəzmi-tərəbi-eşqdən ibarət olan ərş və fərşə hər ləngin gələ bilməyəcəyini" bildirir və yenə də gözlənilməz halda "sərhəng" sözünü şeirə daxil edir. Eşq əhlinin ayaq üstə durub nizam ilə sərhəngi gözlədikləri vaxt kimsəsiz, biçarə Raci yalvarır ki,

Bir kimsəsi yox rəhm edə, biçarədü Raci,
Qaşun-gözün oynatma, düşər səng bu bəzmə.
Cünki Eşq əhli nizam ilə ayaq üstə durublar,
Çün gəlməlidir bu gecə sərhəng bu bəzmə.

Ədəbiyyatımızda "bağıra basmaq" ifadəsi müxtəlif məqamlarda işlədilir. Racidə isə bu məqam tamamilə yeni məna kəsb edir.

---

[403] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 41*

[404] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 16, 83*

Söylə canana sənin dərdü qəmin sübhə kimi,
Basaram bağrıma mən hər gecələr can yerinə.

Ehtiyacım sənə bu dərdilə yox, ey loğman,
Yar dərdin basaram bağrıma dərmən yerinə.

Racidə şəxsləndirmə də yenidir, "pənceyi-müjganı" ov quşunun pəncəsinə təşbih edilir. Quş necə şahinin pəncəsində titrəyirsə, özü də "pənceyi-müjgan"da elə titrəyir:

Necə ki, çəngəli şahbazdə tuhiyi-tətər,
Titrər ol pənceyi-müjganda bu mürği-dili-zar.

və ya

Dolanda sinəmə fikri-müjən ürək döyünür,
Sipihi-fəth kimi təbl şadyanə vurar.[405]

Racidə inzibati-hərbi istilahlarla ənənəvi bədii simvollar iç-içədir. Ədəbiyyatımızda adətən qaş yaya, kiprik oxa bənzədilir. Racidə bu elementlər ayrı mahiyyətdədir. Hətta çox incə şəkildə ictimai motivlərə meydan verilir. "Qaşun sipahi-kiprigə sərtib verilir", "Nərdi-eşq üstündə gahi sülhü, gahi cəng olur", Üstünə "həlqeyi-zülfdən qəravil" qoyduğu üçün könlü heç yerə qaça bilmir. "Könüllər mülkünə müjganlar elə səfbəsəf düzülüb ki, sanki sərbaz məşq eləyir". -Sərtibin, sərbazın xalqa və müəllifin onlara münasibəti bu şəkildə üstüörtülü bildirilir. Əgər "zəmanənin dolaşıq kələfini zərəfşan zülfə" təşbih edir desək, onda bu dolaşıqlığı kipriyin oxla atdığı "qətrə-qətrə" göz yaşı damlalar bombaları ilə açmaq istəyir.

Zərəfşan zülfüvə lazımdu inci dişli bir şanə,
Düzüm qoy qətrə-qətrə əşki-çeşmi növki-müjganə.

Məşşatə, vurma şaneyi-şümşad o kakilə,
Müjganım ilə qoy edərəm yaxşı şanə mən.

[405] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 26, 40, 69,29*

Racinin göz yaşı, qaş və kiprik ilə bağlı beytlərinə nəzər salaq:

Su səpmək ilə şöleyi-atəş xamuş olur,
Əmma sirişkün artıru könlüm zəbanəsin.
...Yolların silləm, supurrim qaş ilən, müjgan ilən.

Racinin şeirlərində Günəş və Ay obrazlaşır. Sevgilisinin qaşı-gözü ilə müqayisələr aparılır. "Xurşid rubəru dursa, asimandan ayağına düşər", "Qaşları altından tülu edən yanaqlarını qövsdən Günəşin doğmasına bənzədir", "Bu məhvəşin gün ilə hüsndə fərqi budur ki, Əbr ilə tar olu gün, zülf ilə pürnurdu bu", "Hüsnünün şüası günəş kimi gözünü qamaşdırıb onu görməyə mane olur."

Raci zülflə bağlı çox qəribə ifadələr işlədir. Az qala hər şeirində ona toxunur:

Zahiddən etdim üqbeyi-zülfün sual,
Saldım hərifi bəndə, dügüldü cavabdə.

Ey badi-səba , rəhm elə, mümkün dögü görmək,
Yarın yizini zülfi-siyahkari tututbdu[406].
Sayeyi-zülfi-siyahində könül daldalanur,
Ay aman, qoyma, ona rəhm elə, bir kəs dəgsün.

Nizaminin Fərhadı Şirinin rəsmini qayalara rəsm edir, Raci öz ürəyinə. Özü də bunu elə "şirin" ifadələrlə nəqş edir ki, bu ifadələrə ancaq **Raci şirinliyi** demək olar.

Qazaram sinəmi dırnaq ilə şirin-şirin,
Eşq Fərhadı nədür, kuh nədür, tişə nədür?

Qazaram tişeyi-həsrətlə dildə nəqşi rüxsarun,
Məni Fərhada nisbət etmə, ey Şirin şəmayil sən.

Şair təkcə Fərhadla deyil, digər rəmzlərlə də qarşılaşdırır və üstünlüyü yenə öz sevgisinə, öz sevgilisinə aid olanlara verir, onu tərənnüm edir.

---

[406] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah, 1992,278 səh. 67, 60, 35, 43, 19, 21*

Qələtdir, ey mələk, nisbət gülə bu arizi-alun,
Məlahət güldə zaildir, vəli səndə dəvam eylər.
Bülbül gülün vüsalini bilmərrə tərk edər,
Görsə səni çəməndə bu rüxsar ilən belə.

Çünki arizi-canan ilən fərqi budur ayinənin,
Arizi-cananda məni, onda sürət görsənir.

Bu rəftari-qədü rüxsar ilə yarım nə çox bənzər,
Otursa şəmə, dursa sərvə, getsə mahi-tabanə.[407]

Ayinə ilə sevgilisinin üzü müqayisə olunan beytdə Raci əslində dünyagörüşünü ortaya qoyur. Ayinədənsə sevgilisinin üzü ilə güzgülənməyi üstün tutur. Çünki güzgüdə surət, camalda isə məna-Yaradanın Camal isminin təcəllisi var.

Sevgilisini bu cür mədh edən Raci ona qarşı bir təmənnada olanda qaş-gözünü şəxsləndirir, metaforik fonda güclü bir təzad yaradır.

Ləli-ləbindən istədi bir busə Raci çün,
Çeşmün dedi: gəl al, -qaşun etdi işarə: yox-yox!

Raci yaradıcılığının ən böyük gücü, özəlliyi onun poetizmində, bədii təsvir və ifadə vasitələrindən yaradıcılıqla, orijinal şəkildə istifadə etməsindədir. Bunlar üslubu, sənətkarlıq təzədir, Raciyə məxsusdur. "Raci təqliddən uzaq, orijinal xüsusiyyətləri ilə seçilən ustad şairdir. Onun şeirlərində deyiliş tərzi də təfəkkürü kimi bənzərsizdir." Məcazi söz Raci yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Onun yaradıcılığı üçün normadır. Raci üçün şairlik qafiyə tapmaqdan ibarət deyil. O, qeyri-adi, ağır fikir tutumu ilə birgə, güclü poetizmi ilə də seçilir. Şair leksik səviyyədə metafora, təşbih, mübaliğə, litota, fonetik səviyyədə alletirasiya, assonans, təkrir, anafora, epifora və s.-dən, sintaktik səviyyədə poetikləşən,

---

[407] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah, 1992, səh. 74, 65, 78, 27, 57, 66, 76*

aforizmləşən deyimlərdən,sintaktik konstruksiyalardan gen-bol və yerində istifadə etmişdir.

***Metaforalar.***

Göstərdi Kəlimi-dilə nəxli qələmim nur,
Sinəm genə Sinayə dönüb pürlməandır[408].

Xurma ağacından olan qələmi həmsöhbəti olan ürəyə nur göstərdi. Sinəsi Sina dağına dönüb, çoxmənalıdır. Qələmin nur göstərməsi metaforadır. Sinənin Sina dağı kimi oxunması mümkün olmayan pürlməan (çoxmənalı) sirlərlə doludur. (təşbeh, mübaliğə). Əslində burada Musa (əs) peyğəmbərlə bağlı bir əhvalata işarə olunur. Allahın (cc) üzünü görmək istəyən Musa peyğəmbərə Xaliqimiz dağa baxmağı məsləhət görür və o baxarkən elə qeyri-adi bir nur görür ki, özündən gedir. Əlbəttə, burada nur Allahın təcəlli sifətlərindən olmaqla həm də insan ağlının (peyğəmbər olsa belə) irişə bilməyəcəyi müəmma ilə dolu olmasına işarədir. Şair bir beytdə həm, metafora, həm təşbeh, həm də mübaliğə işlətməklə bərabər belə dərin fikir ifadə edir.

Nə cürm edibdü könül bilmirəm o məhvəşə,
Çəküb kəməndə o zülf ilə tazyanə vurar.

Könlün məhvəşə cürm etməsi metaforadır, məhvəşin də əvəzində könülü kəməndə çəkib zülf ilə təzyanə vurması ilə zülfü həm kəməndə, həm də sazın tellərinə təşbeh edir. Üstəlik, bu adi tora salma deyil, adi təzyanə vurma deyil, kəməndə düşüb aşiq olanlara çəkilən dağdır, sitəmdir, zülmdür.

Eşq bir divanxana, hicran bir qazidir, o da aşiqin qətlinə gündə bir fitva çıxarır.

Eşq divanxanəsində qaziyi-hicrandən
Aşiqin qətlinə nahəq gündə bir fitva çıxar.

Bilsə əgər nə növ pərişandu bu könül,
Xətircəm ol ki, sındıru məşşatə şanəsün.

---

[408] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992,278 səh. 57, 16*

Məşşatə adətən zülfə daraq çəkər. Amma burada pərişan könülə. Könlün pərişanlığı da şanə sındıracaq qədərdədir:

Padişaha dövlətindən bu yetimü tifli-əşk,
Yolların silləm-süpürrəm qaş ilən, müjgan ilən.

Şərhə-şərhə sinəmə basdum xədəngi-çeşmuvi,
Bir nihali-tazə tikdüm bağı-canə can ilən.[409]

Birinci beytdə dəsmalla süpürgəyə xas əlamət kipriklə qaşın, ikinci beytdə isə gülə, bostana xas əlamət kipriklə canın üzərinə köçürülüb. Başqa nümunələrdə söz çuşə gətirir, yaşla dolan göz nizədəki başla mükalimə edir. "Əmdən bizi qəmdan gətirir söz niyə cuşə", "Zeynəbin ağlayan gözü doldu dübarə yaş ilən, Eylər idi mükalimə nizədə qanlı baş ilən".

Raci poeziyasını zənginləşdirən elementlərdən biri də *bənzətmələr, təşbehlərdir*.

Təşbehlər Raci yaradıcılığının tərkib hissəsidir. Şairdəki orijinallıq ondadır ki, başqalarında məşuqənin müjganları aşiqə ox olursa, bunda bədənin müxtəlif üzvləri şəxsləndirilir: "Göz göz eləyir, göz müjgan atır," "gözlərim gözlər, oğul". Racidə çox vaxt ritmik vahidlər iç-içədir. Bir nümunədə bir neçəsi iştirak edir. Müqayisə, təzad, təşbeh, mübaliğə bir yerdə verilir. "Göz gəl deyir, qaş yox işarəsi verir".

Gözün bu könlümə müjgan oxun vurar bir-bir,
Vuralla yarə məgər bir şikarə yüz yerdən.

Nədəndi bəs mənə təsir eyləməz, dağılur,
Mənim bu ahim ilə səngi-xarə yüz yerdən.

Baxma bu çeşmi-naz ilə çox məst-məst kim,
Sixi-müjgəndə oldu cigərlər kababi-nar.

---

[409] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 29, 32, 35, 43, 44*

Raci, göz yaşi əgər əskildü cövri-düşməni,
Şöleyi-atəş kabab əşkinə əfsanələnməsün.

Raci gah müjganını darağa təşbeh edərək onunla zülfə şanə çəkmək istəyir, gah qara zülfünü qara yaylığa, gah da səbanı məşşatəyə, könlünü aynaya bənzədir. Bəzən çox incə və gizli şəkildə siyasi manevrlər edir. Özünə qədər olmayan bir gedişlə şah rejiminə toxunur, ustalıqla qaşı sərkərdəyə, kibrikləri sərbaza bənzədir:

Düzülmüş dəstə-dəstə, səfbəsəf müjganların guya,
Könüllər mülkünün təsxirinə sərbaz məşq eylər.[410]

"Nə eşq olaydı..." qəzəlində Sərbaz məsələsini N.Rizvan belə izah edir: "...üsyançılara divan tutumuş şah cəlladlarına da cəsarətlə etirazını bildirir:

Nə hüsn olaydı, nə könlüm, nə dəstə-dəstə bu zülf.
Nə şah nə mülk, nə bu fövc-fövc ləşkər olaydı.
Nə əbruyu-xəm olaydı, nə çeşmü, nə müjgan,
Nə tiğ olaydı, nə cəllad, nə də bu xəncər olaydı!

Ustad sənətkar dövlətin cəza aparatından yaxa qurtarmaq üçün gözəl ədəbi vasitəyə əl atır. Elə məcazlar işlədir ki, heç kim onu şaha, cəlladlarına, qoşun-ləşkərinə nifrətdə təqsirləndirməyi bacarmır".[411]

Pərvanələr özlərini şama vurub onda fani olur, onu bürüyür, niqaba çevrilir. Şairin sevgilisinin yüzündən şəmi-məclis hicab eylər. Hilal onun qaşı ilə bəhsə girməsin, onun kəsikcə dırnağına tay ola bilməz.

Mərsiyələrdə isə bənzətmələrin forma və məzmunu tamam dəyişir. Kərbəlanı Sinaya, şəhidləri İsmayıla, Leylanı Hacərə, Ab-

---

[410] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 36, 72, 65, 73*

[411] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 41*

basın halətini Heydərə, məlul, məhzun çöllərə dağılan "silsileyi-ali-Rəsul"u "həlqeyi-silsilə"yə təşbeh edir. Fatimə Qasimə xitabən "... Afitabından görülmüb ayrıla cahanda sayə", -deyir.

Bu dərd, ələm içərisində dəyişməyən təkcə sevgidir və ona xas bənzətmədir. Belə ki, Qasim sevgilisininin üzünə baxanda görür ki,

Dəstə-dəstə tökülüb gül yüzə bu zülfi-siyah,
Deyəsən əbr düşübdür məhi-taban üzünə.

Raci yaradıcılığı boyu *metonimiya, təzad, mübaliğə, epitet, bədii sual* kimi digər bədii təsvir və ifadə vasitələrindən də ustalıqla istifadə etmişdir:

Su səpmək ilə şöleyi-atəş xamuş olur.
Əmma sirişkin arturu könlüm zəbanəsin.[412]

Burada könlünün zəbanəsi şöleyi-atəşə təşbih edilməklə həm iki beyt arasında təzad, həm də göz yaşının könül zəbanəsini artırması ilə metafora yaradır. Sirişk sevgilisinin ona çəkdirdiyi sitəmin əlamətidir. Əslində isə zəbanəni artıran sirişk deyil, sevgilisidir. Sirişk onu qismən əvəz edir –metonimiyadır. "Dil vadiyi-heyrətdədü bir rəhbər istər"də olduğu kimi.

Racidə **ah** Füzuli kimi asimanə bülənd olur, əflakı yandırır, göz yaşı səhralar suvarır, sel olur. Cami-eşqdən bir zərrə içən aşiqin göz yaşından dərya çıxır. Düşmən 140 minlədi, şəhidlər yenilməz. Ərşə bülənd olan zülmə təhəmmül edə bilər. İmam Hüseyn 1950 yara alır. Burda qan cuşə gəlib ümmana dönür. Belə mübaliğələr istənilən qədərdir. Bəzilərinə nəzər salaq:

Qoydum qədəm fəqan ilə bu asitanəyə,
Çıxdım kəməndi-ahim ilə asimanə mən.
Göz yaşım indi eylər bu Kərbəlanı tufan.
Göz yaşim dəryayi-ümman tək vurar bu çöldə mövc,
Səfbəsəf, dəstəbədəstə, beyt-beyt, fövc-fövc və s.

---

[412] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh.175, 35*

***Təzadlar.***

Racidə "bülbüllə zağü zəğən," "sübhi-vüsalla şəbi-hicran" bir yerdədir; məşuqə covr elədikcə, aşiq səbr eləyir, onun coxlu zoru, bunun təkcə Tanrısı var. Gülçöhrələr günbəgün lətafətdən düşür, Ra- cinin nigarının hüsnü günbəgün artır.

Hər kimsə görər zaği gülşəndə qovar, ey şux,
Gülzari –cəmalundan bilməm niyə zağ istər[413]

Burada küfr ilə iman bir yerdədir. Ərus cameyi-gülgün geyəcəyi halda, başına qara məcər salır. Adətən qurbana su verildiyi halda, bunlar 72 qurbanı susuz qoyur. bir çox halda kiçik bir parçada təzadlı səhnələr, antitezalar yaradılır. Leyla Əli Əkbərin zülfünə toz qonmağına dözmədiyi halda, indi qana bələnən zülfünə sığal çəkib təhəmmül edir.

O yanda Şümri-dunun var başında sövqi-mülki-Rey,
Bu yanda binəva Zeynəb sızıldar dəmbədəm çün ney,
O yanda əhli-Şamü Kufə eylər zülm peydərpey,
Bu yanda yalvarur Ali-Əli üdvanə meydanda.

Əlavə olaraq onu da deyək ki, Racidə təzadlar sadəcə ayrı-ayrı misraların, beytlərin içində deyil, bütünlükdə yaradıcılığındadır.

Divanda *bu dil şikəstə mən, bu bəxti qara mən, sərv qədd, qəmxanə cahan, əbr tək zülf, lalə rəng, gül cəmal, xəstə könül* və s. kimi epitetlərdən ustalıqla istifadə edilmişdir. Burada Saqi, bu şəkər ləb ki, sənin vardı, kimin var? Bu cami-ləbaləb ki, sənin vardı, kimin var? mətləli büsbütün bədii sualdan ibarət qəzəlindən əlavə çox sayda bədii sual işlətmişdir.

...Leyla necə görə, ya mən necə görüm,
Gəlmiş bu nizədə cövlanə başuvi?

---

[413] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 61, 124, 214, 53*

Gördüz bir o xatuni, necə qəddi var axir,
Olsun ona manənd, kimün həddi var axir?
Ya Hüseyn, eylədün aya necə bu zülmü qəbul,
Vurala itrətüvə silsiləvü kündə sənün?

Misalların sayını artırmaq mümkündür, ancaq bəzilərinə bir-iki nümunə verməklə kifayətlənirik. Şair görün *hüsn ilə günü, əbr ilə zülfü, tar ilə nuru* necə ustalıqla qarşılaşdırır, müqayisə edir, necə gözəl poetik mənzərə yaradır.

Gün ilə hüsndə bu məhvəşin fərqi budur,
Əbr ilə tar olu gün, zülf ilə pürnurdu bu[414]

***Təkrir:***

"Misraların səs naxışları şeir dilinin poetik gücünü, səslərlə maneralar bədii mətnin elastikliyini nümayiş etdirir. Təkrarlanmaqla səslərin formalaşdırdığı obraz fonoloji vahidlərin linqvopoetik imkanlarından xəbər verir"[415]. Bu baxımdan Racinin yaradıcılığında fonetik səviyyədə poetizmlər də mühüm yer tutur. Misallara nəzər salaq. "Bu ada şəkk eyliyən zatində bişəkk vardu şəkk". "Ümmətə cümlə şəfaət edərəm mən mən ilə". Cinas təkrir: "Sən məgər üz verüsən aşiqüvə, yoxdur üzi, Ta ayaqüvə qoya bu müztər üzin". "Yüz verüb viranədə yüz dərdi möhnət Zeynəbə". "Onu hər dərdə gördüm çarə mən, hər dərdən əl çəkdim". Yeri gəlmiş deyək ki, Racidə cinas qafiyələr çoxdur, üstəlik ayrica bir məsnəvisi cinaslı qafiyələrdən ibarət olduğundan onu "Təcnis" adlandırmışdır.

"Gül kimi gül xilas ola könlüm gümandən". "Gülsən, yaraşusən gülə sən, ey gül üzlü, gül üzlü, gəl", nümunələrində *g* səsləri; "Nineyvada ney kimi eylər nəva bu binəva"da *n* səsləri; "Taqətim ol taqi eyvanundan ötri taqdür"-də *t* səsləri; "dəstə-dəstə,

[414] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 186, 212, 217, 230, 55*
[415] *Hüseynov Məhərrəm. Dil və poeziya. Bakı: Elm, 2008, səh. 15*

naqə üstə eyləyüm əfğan, gedüm"-də *s* və *t* səsləri, "sənsən gərib, mən də qərib, qəriblər gedə gərək daim qərib evinə", "Gülsən yaraşusən gülə sən, ey gül üzlü gül, mən bülbüləm gərək gələm ahü fəğanə mən" nümunələrində *g,q,l* səsləri orijinal alletirasiyalar yaradır. "Könül, könül, nə könül; Biçarə mən, fələkzadə mən bəxtiqarə mən" kimi *anaforalar* və təkrirlər işlədir. "Təbibi-eşqi gedün başim üstə bir gətirin, Bu dərd ilə gedə bilməm dəxi təbib evinə" kimi litotadan istifadə edir. Bu kimi poetizmlərin qaynağı əlbəttə sözdür, sözün sahibi də dildir, şairlər üçün poetik dil. Raci söz sərrafıdır, dilin-cənub ləhcəsinin poetik imkanlarından məharətlə istifadə edən qüdrətli bir söz sərrafıdır.

Hər bir "...şairin poetik təfəkkürünün açarı, oxucuya təsir etmə vasitəsi onun dilidir."[416] "Dil millətin kodlaşmış yaddaşı, mənalı işarələr sistemidir. Bədii mətn harmoniyası tapılmış dil işarələri sistemidir."[417] Əbulhəsən Racinin ədəbi dilimizin inkişafında, onun xəlqiləşməsində və milliləşməsində, yeni poetik füqurlarla zəngin- ləşməsində, bədii mətnin harmonik inkişafında, oxucu zövqünün formalamasında xüsusi yeri və rolu vardır. Müxtəlif obrazların canlandırılmasında onun fərqli üslubu ortaya çıxır. Çox incə, bəzən yumoristik, bəzən ritorik, bəzən kinayəli şəkildə münasibət bildirilir. Rəqibə qarşı münasibəti heç kəsə bənzəmir. "...şeirlərə canlılıq və həmişəyaşarlıq bəxş edən qısqanclığın duzlu, məzəli ifadəsi Racini demək olar ki, bütün qələm sahiblərindən fərqləndirir...: Razı deyiləm yar ilə əğyar danışsın, Əğyar hələ cəhldi, istər dədəm olsun."[418]

Şair farsca divan bağlasa da, türkcəyə üstünlük verir və bir yerdə "De bir türki qəzəl, Raci, oxusun bu gözəl Raci",–deyə türkcənin yerini bildirir. "Ana dilinin dadı-tamı şeir dilində daha şirin,

---

[416] *Hüseynov Məhərrəm. "Sözün poetikası". Bakı: Elm, 2010, səh. 15*
[417] *Şəmsizadə Nizaməddin.Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1912, səh. 118-119*
[418] *Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, səh. 37*

daha mənalı əks olunur. Onun qüdrəti, əzəməti poeziya fonunda daha füsunkar görünür. ...şeir ancaq bədii istedad sahibinin xalq dilini mükəmməl bilməsi və poetik mədəniyyət səviyyəsi ilə ...araya-ərsəyə gəlir". Racinin dili sadədır, aydındır, xəlqidir, poetikdir. Şirin Cənub dialektinə xas bir çox xüsusiyyətlər qorunub saxlanmışdır. Cənub şairlərinin (Q. Təbrizidən Şəhriyayadək) çap olunan əsərlərində cənub dialektinəxas xüsusiyyətlər ya yoxdur, ya da çox az hiss olunur. Racidə isə bu özünü qabarıq şəkildə göstərməkdədir.

Onun şeirlərində çoxlu müxtəlif ifadələrə, deyimlərə də tez-tez rast gəlmək olur. "qan tutmaq", "tükətdi ömrümü", "Bahar ayında oruc tutmaq deyil insaf", "Boyun bəlasun alım", "gözdən salmaq, mən kimi bir bəxti qarə yox", "döndərdi gözün, vurdi mənim sinəmə bir ox, Dəydi o oxun adinə qıyqaci deyillər", "üzü qara olmaq", "ey zalım oğlu", "əl mənim, damən sənin", "şamişum eləmək, əlim əldən üzüldü" , "boyun bəlasın alum" , "zülfü yolub açma başın", "sənə qurban", "qurbana su verəllər başin kəsən zamanda", "qoymazdım onun zülfünə toz qona əsla", "baran tək olub ox-oxa peyvəstə havadə."

Cana, bu hüsn ilən gecə ayı gün eylisən,
Qurban olum cəmaluva yoxsa güneylisən?[419]
İstəsən puli siyəh ilə uşaq aldadasan,
Raci sərrafdu bu çox görüb simü zər üzün.[420]

"Gözə qara su gəlmək", "qolun sal boynuma", "gözün qurbanı", "bir gül ilə yaz, insaf tərəzisi", "vay mənim halimə" kimi deyimlər Raci poeziyazını zənginləşdirən ifadələrdir.

Qışda insan ağ qara çox baxarkən gözləri ağrıyır, sulanır, xəstəhal olur. Onda "gözünü qara salıb və ya gözünə qar düşüb"

---

[419] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 63*
[420] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: "Fəxri-Azər" nəşriyyatı.1377, səh. 188*

deyirlər. Şair sevgilisinin sinəsini o qarla müqayisə edir və gözündən "əşki-tər" gətirdiyini bildirir:*"Daim gözüm sinən görəli əşki-tər tökər, Bicarə Racinin gözünü qarə salmısan"*. Badi-səba ilə dərdlərini bölüşən, onunla sevdiklərinə, dərdi-dilini ərz edən şairlərdən fərqli olaraq, Racinin istəyi başqadır. Özü də bəzən güclə hiss olunan zərif və incə yumor tərzində deyir fikrini.

Dəgüb ahəstə tərpət ol nigarın zülfi-pürçinün
Sənə, badi-səba, yüz yol bu bəxtiqarə tapşırmuş.[421]

Racidə klassik ədəbiyyatda çox az rastlanan söz, hətta heca və səs oyunları da müşahidə olunur. Nəsimidə rast gəldiyimiz *"Gə, gə, gə, gəl ki, sevirəm, sə, sə, sə, sən Mahi-Cini, Za, za, za, zar olubam mən çə, çə, çə, çəndi nişini."*[422] kimi ritmik vahidlərin Tərzi Əfşarda daha çox işlədildiyini görən Ə.Əhmədlu söz törəmələrinə nümunə kimi verdiyi

Pərvazlandı dil yenə bağdalanmağa,

Ol bürcü-övliyaya qonub şadlanmağa... beytindən sonra diqqəti məhz buraya çəkərək bildirir ki, bu cür söz oyunları Raciyə də təsir etmiş... dir".

Laləyə göstər yüzün gülşəndə həmrələnməsun,
Nitqə gəl, bülübl çəməndə bir də şeydalanmasun,
Dur gözün qurbanı səhni-gülşənə qoy bir qədəm,
Sərv bəlalanmasun, nərgiz də şəhlalanmasun.[423]

Şeirlərin qrammatikasına diqqət yetirərkən bunları müşahidə edirik: Fellərdə 3-cü şəxsin cəmini bildirən "–lar$^2$" şəkilçısı çox vaxt "–la$^2$" şəklində işlənir. Məs: "açıbla, eylübıə, versəllə, yazmubla, vuralla, salulla" və s. İnkar ədatı "deyil" sözündə bəzən son samit ixtisar olunur. "Degü" şəklində. Bəzən indiki zamanın 3-cü

---

[421] *Raci. Seçilmiş əsərləri. (tərtibçi Abıyev Hafiz). Bakı: Sabah,1992, səh. 83*
[422] *Klassik Aərbaycan ədəbiyyatı kitabxanası.V c., Bakı: Elm.1985, səh. 243*
[423] *Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377, səh.38, 39*

şəxsin təkində bir “–ı$^4$” səsi əlavə olunur. “Olmur” əvəzinə “olmuru” şəklində. Bəzən də indiki zaman şəkilçisindən “-r” ixtisar olunur. “Öldürür”- “öldürü”, “çəkdilər-çəkdilə”, “-ma$^2$” inkar çəkilçisi “-me”, “-ıb$^4$” zaman çəkilçisi “-üb” şəklində. Qalmayıb-qalmeyüb. “-ın$^4$” mənsubiyyət şəkilçisi “-ün”, “-ım$^4$, -ın$^4$” şəxs şəkilçisi “-üm, -ün” şəklində. “Arüzün, ləbün, çəkün, baxdum” və s. Yiyəlik halında çox vaxt “-ın,-in,”əvəzinə, “-un,-ün” variantı işlənir. Şəkilçilərdə ahəng qanununun pozulması Raci yaradıcılığında normaya dönür ki, bunlar cənub -Təbriz dialektinin əsas xüsusiyyətləridir. Məs: “güzaruvi, aruvi, ölməqimü, dəgsün, getməsün.”

Sonu “k”ilə bitən sözlərə saitlə başlayan şəkilçi artırdıqda |k| |g|-yə keçir. Bu hal cənub dialektinəxas formalarda Racidə də yer alır. “Ölməyimi” – “ölməgimü” və s.

Dilimizdə II şəxsin tək və cəminin mənsubiyyəti (-ın$^4$, -ımız$^4$) Racidə “güzaruvi, aruvi, xumaruvi, canuvi, cananuva, hüsnüvün” və s. şəklindədir. Racidə “y”, “g” əvəzlənməsi də özünü göstərir. “deyil-dögü”. Bu gün M. Şəhriyarda da “-maq” məsdər şəkilçisinin tələffüzdəki özünü göstərən “-max$^2$” forması Racidə də müşahidə olunur. “vurmax”, “ayırmax”, “bəlayux, edax, keçmax”, və s. (-lar$^2$ ) cəm şəkilçisinin təsiri ilə geri assimilasiya müşahidə olunur. Yəni tələffüzdəki kimi yazılır. “Deyirlər”- “deyillər”, “eylərlər-eylələ”, “olur-olu”. və s.

Bir sıra sözlərdə orfaqrafik norma pozulur. Dialektəxas şəkildə işlədilir: *növ-nov bu qədər-bu qədri, gündüz-günüz, müftə-müf, sonra-sora və s.*

M-b əvəzlənməsi. *Bundan sonra-munnan sora*.

Felin şəkillərində *eləməyin -eləmün, qoymayın-qoymun, tutmayın-tutmun* (Füzulidə olan kimi), *bax-baxgilən* (“Dədə Qorqud” da baxgil.), *söyləyib-söylüb, eyləyibsiz-eylübsüz, qoymayıb-qoymub, oxşayırsan-oxşisən* və s. Cənubaxas ən mühüm cəhət indiki zaman fellərində (–ır$^{4)}$ şəkilçisinin sonuna (–i) səsinin artırılmasıdır: *qoymuri, gəliri, gediri* və s.

Felin inkarında *m-n* əvəzlənməsi. *ayağa duranmadı*;

İndiki zamanda *bilirsən-bilüsən, sındırır-sındıru, artırır-artıru, qoymur-qoymuri*

Başqa sözlərdə*: isti-issi, könlüm-köylüm, kimsə-kmsənə, qiyamətədək-qiyamətətən, indiyədək-indiyətən, yüz minətən, tutmaq-dutmaq, peygəmbər-peyəmbər, stəkan-istəkan* kimi əlamətlərə rast gəlirik. Sonradan *o, ki, ilə, vaxt, qərar vermək* şəklinə düşən *ol, kim, ilən, vəqt, qərar qoymaq* və s. kimi söz və ifadələr Racidə də klassik ədəbiyyatda olduğu kimidir. *Qut, nəsnə, banu, qübar, əyağ, yəğma, us, dişrə* kimi çox az miqdar arxaik sözlərə rast gəlinir. "Divan"da təqribən iki-üç yüzə qədər söz var ki, onların tərcüməsini verməyə ehtiyac hiss olunur. Amma bunun da çoxu klassik ədəbiyyatda sıx-sıx işlədilən bildiyimiz ərəb-fars tərkibli sözlərdir. Mənasını bilmədiyimiz yüzə qədər sözün də çoxusu mətmin məzmunundan aydın olur. Bu baxımdan Racinin dili bu günkü oxucu üçün Vaqif qədər, Aşıq Ələsgər qədər aydındır, oxunaqlıdır. Yalnız mərsiyələ- rində bəzən "düçari-qəzəbi-dəhri-xudayux", "Mirati-füyuzati-ilahiy-yə", "Səltənəti-ruyi-zəmin", "əyali-şahi-mərdan", "mövsümi-fəsli-bəhari-Kərbəla", "Ey xaki-dəri-şövkəti-Əbbas", "dudi-ahi-dili-yeti-man" və s. kimi çox az miqdarda mürəkkəb quruluşlu söz birləşmələri-zəncirləmələr işlədilmişdir ki, bunların da tərkibindəki sözlərin çoxu anlaşılandır.

Bəzən izafət birləşmələri dilimizdəki II və III növ təyini söz birləşməsi şəklində işlədilir. "Bələd olsun əzəl Raci rümuzi-eşq(in) dərdinə" cümləsindəki "rümuzi-eşq" izafəti başqa yerdə "Naqislərə təklif eləmün eşq rümuzin" şəklində milliləşdirilir ki, bu, **dilimizin inkişaf tarixində mühüm tarixi dil faktıdır**. Yad kəlmələri alıb özəlləşdirmək, onu dilin qanunlarına uyğunlaşdırmaq, dildə əritmək mümkündür, amma söz birləşmələrini bu şəklə salmaq sintaksislə bağlı məsələdir ki bu, XIX əsr ədəbiyyatında Racinin timsalında özünü büruzə verir.

Racidə vətən və millət anlayışı da geniş yer tutur. O, 5-6 yerdə *türk* və *türki* sözləri işlədib. *Təbriz, vətən* kəlmələrini dilə gətirib.

Çox az hallarda rəqibi yamanlarkən (səgsifət), (zahidi-əbləh) və mərsiyələrində düşmənə qarşı (ləin, bihəya, Şümri-dəğa) kimi vulqar ifadələr işlədilir. Qarğışlardan istıfadə edilir. Bunlar çox halda poetik mənin rəqibinə, mərsiyələrdə zəmanəyə, gərdişə, düşmənə qarşı yönəldilib: "Tuf belə gərdişə", "lənət gələ dünyayə!", "Axir Yezidin evin Allah özü yıxsun", "Şümri-bipərvaya lənət ya Hüseyn" və s.

Xitablardan daha çox növhələrdə istifadə olunur. Kərbəla, Əmmə, Ya Zeynəba, Ya Hüseyn, Əkbərim, Ey şəhidi-sitəmi-əhlicəfa, qardaş, bacı , şiələr və s. şairin tez-tez müraciət etdiyi ünvanlardır.

"Divan"da İran, Şam, Məkkə, Mədinə-Yasrib, Kufə, Kərbəla, Fərat-Əlqəmə kimi coğrafi adlar, adı bəlli peyğəmbərlər, Fərhad, Şirin,Yusif, Züleyxa, Leyli, Məcnun, Sənan kimi aşiqlər tez-tez xatırlanır.

Nümunələr Racinin bir şair kimi sözə necə hakim olduğunu, xalq dilini dərindən bildiyini, onu klassik poetizmlərlə necə uzlaşdırdığını, poetik dilimizi necə zənginləşdirdiyini göstərir və onun necə qüdrətli bir qələm əhli olduğuna dəlalət edir. Onun poeziyası sənətkarlıq cəhətdən mükəmməldir; klassik poeziyanın bütün özəlliklərini özündə daşıyan şair dövrün, zamanın ruhunu da əsərlərində əks elətdirir. Racinin əsərlərinin mövzusu, problematikası ənənəvi olsa da, ona yanaşma, təsvir üsulu, poetizmlər yenidir, özünəxasdır. Bunlar da Raci poeziyasını yaşadan amillərdəndir.

# NƏTİCƏ

Nəticə olaraq deyə bilərik ki, Racinin yaradıcılığını tədqiq edərkən bir tərəfdən onun dövrü, həyatı ilə baglı tarixi materialların öyrənilməsinə, digər tərəfdən də yaradıcılıgına dəxli olan başqa mənbələrə istinad edildi. Özündən əvvəlki və sonrakı ədəbi nümunələrə də istinad edilərək varislik əlaqələri işığında araşdırıldı. Mümkün qədər sərbəst olmağa, müstəqil təhlil yolu tutmağa çalışdıq. Tədqiqatın yekunu bu qənaətlərə gəlməyə əsas verir:

1. Yaradıcılığında müşahidə etdiyimiz üç mərhələdən poetik mənin prototipi -şairin özü görünür. Yəni öz həyatı ilə sanki əsərlərindəki şair mənini tamamlayır. Belə ki yazmağa "bismillah"la başlayıb ilahi eşqin bir çox pərdələrində gəzişən şair bəşər övladının (yəqin ki özünün də) bağışlanmaz günahlara batdığını görür, tövbə edir, Allahdan mədəd diləyərək "Kərbəla əzadarı"na dönür. Lakin bu da onu xilas edə bilmir. Küskünlük, az qala inkar kimi görünən özündənimtina "Nə eşq olaydı..." və bu məzmunlu başqa şeirlərində sabitləşir. Bunun da sonunda dünyanın faniliyini dərk edir və qəbul edir. Nəticədə həyatın əsil qayəsini haqqa qovuşmaqda görür. Öz həyatı ilə də kredosunu təsdiq edir.
2. Raci Azərbaycan klassik şairləri içərisində öz yerini tutmağa layiq sənətkardır. Ancaq az çap, az tədqiq olunmuşdur. Yalnız mərsiyəxanlar arasında tanınmış, məhərrəmlik mərasimlərində yada düşmüşdür. O da mərsiyəxan kimi daha çox Qumrinin adı hallandığından burada da Racinin "bəxti gətirməmişdir". Bununla belə dəfələrlə "Divan"ı basılmış, bir qismi kitabxanalara düşmüş, bir qismi də Racisevərlərin şəxsi kitabxanalarında qorunub saxlanmışdır. Onun "Divan"ları hazırda Əlyazmalar İnstitutunda, ME Akademiyasının kitabxanasında və bəzi fiziki şəxslərdə mövcuddur. Cənubda divanı dəfələrlə çap olunmuşdur. Tehran 1340, Təbriz 1287, Təb-

riz 1289, Təbriz 1295, Təbriz 1364. Əsərlərini ana dilində və farsca yazmışdır.

3. Şairin yaşadığı dövr Azərbaycanın və Yaxın Şərqin ən qarışıq, gərgin və bizim üçün arzuolunmaz olan, heç də xoş gələcək vəd etməyən bir dövr idi. Nəsrəddin şahın hakimiyyəti dövründə xalqın mənəvi və fiziki aşınması, assimilasiyası prosesi sürətlənmiş, Qüzey Azərbaycanı Rusiyanın, Güney isə İranın nüfuz dairəsində əzilməyə, əriməyə məhkum olunmuşdur. Belə bir şəraitdə sənətkarlar yaradıcılıqlarını dörd istiqamətdə davam etdirirdilər:

a. *Klassik ənənələr üzrə,*

b. *Zülmə, istibdada, müstəmləkə rejiminə qarşı mübarizə hissləri oyandırmaqla,*

c. *Avropadan Rusiyaya yayılan, oradan da Azərbaycana gələn, bir az da milli əsaslara söykənən maarifçiliyi yaymaqla,*

ç. *Xalqın dərdi-bəlasını Kərbəla müsibəti fonunda dilə gətirməklə, Kərbəla dərdinə bürünüb özünü ağlamaq meyillərinin gücləndiyi vaxtda mərsiyə ədəbiyyatını inkişaf etdirməklə.*

4. Raci yaradıcılığı özünəxas şəkildə ortaya çıxdı və lirik şeirləri ilə ilahi eşqin tərənnümünü Füzuli səviyyəsində dilə gətirməklə bərabər, həm də onu dünyəvi məhəbbətlə əlaqələndirdi. Bu ikisinin sintezindən ibarət zəngin bir poeziya yaratdı. Bir də bunların içərisinə ictimai rıh qataraq bir çox məsələlərə özünün münasibətini ustalıqla və matnaltı ştrixlərlə verə bildi.

5. Mərsiyə ədəbiyyatının zənginləşməsində, Kərbəla faciəsinin əsil məram və məqsədinin aşkarlanmasında misilsiz rol oynadı. Əbu Süfyandan tutmuş Şümrə qədər, Peyğəmbərimizdən (səs) tutmuş Zeynəlabidinə qədər, bu hadisələrlə bağlı olan digər elementlərin obrazlaşdırılmasına qədər zəngin bədii obrazlar silsiləsi yaratdı.

6. Klassik ənənələri üzvi şəkildə özündə əks etdirməklə müasirləri və özündən sonrakıların yaradıcılığı arasında önəmli bağlantılar qurdu. Ədəbiyyatımızı yeni bədii keyfiyyətlərlə, deyimlərlə, bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirdi. Racinin dili poetikdir, şirindir, oxunaqlıdır, ahəngdardır. Şirin cənub ləhcəsində olmaqla dilimizin xəlqiləşməsində mühüm rol oynamışdır. Şeirlər əruzun ən oynaq və ədəbiyyatımızda da ən işlək olan rəməl, həzəc, rəcəz, səri bəhrlərində yazılmışdır. Bundan əlavə az sözlə yığcam və dərin bədii fikirlər, qeyri-adi deyimlər-Raci deyimləri deyilə biləcək beytlər, poetik lövhələr, bir beytlə bəzən bir misra ilə güclü bədii obrazlar yaratdı. Bütün bu deyilənlər və deyilə bilməyənlər əsas verir deyək ki, Racinin ədəbiyyatımız xəzinəsində öz dəyərli yeri, mövqeyi vardır.
7. Onun tədqiqi göstərdi ki, bu iş klassik ədəbiyyatın, tarixin kontekstində, onunla əlaqəli görülməlidir. Əsərlərindən onun haranın və hansı dövrün şairi olduğu qabarıq hiss olunmasa da, o, dövrü və mühitindən əlahiddə bir sənətkar deyil. Raci dinə çox bağlı şairdir. Bu baxımdan islam dini, onun tarixi, xüsusən Kərbəla əhvalatı, təriqətlər və məzhəblər, sufilik və onun qolları dərindən öyrənilməlidir. Məlum səbəblərdən bu sahələr üzrə bizdə ciddi və obyektiv tətqiqat işləri aparılmamışdır. Aparılanlar da yuxarıların məlum proqramı, çərçivəsi içərisində olmuş, onların plan və göstərişləri içərisində getmış, o ideologiyaya bağlandırılmış, araşdırmalarda əsasən Moskvayönlü mənbələrə istinad edilmişdir.
8. Raciyə Nəqşibəndi, Muhyiddin Ərəbi, Həllac Mənsur, Şəms Təbrizi, M.C.Rumi, hətta Yunis Əmrə kimi arif-ürəfa əhli demək, onu təsəffüf-sufi şairi adlandırmaq mümkün olmasa da, bu sayılan sifətlər "dərvişsifət" Racinin həm yaradıcılığında, həm də həyatında özünü göstərməkdə və haq yolunun yolçusu etməkdədir. Çünki o, bir mürşidin yanında seyri-sülukunu tamamlayan bir mürid olmadı, onun nəzəri əsaslarına

yiyələnə bilmək imkanına da sahib deyildi. Ona görə ara-sıra "Pir"indən danışdı və bacardığı qədər ustadlarının yolunu davam etdirərək müəyyən bir mərtəbəyə yüksələ bildi.

9. Tədqiqat vaxtı o da aydın oldu ki, Racinin "Divan" nüsxələri bir-birini təkrar etsə də, eynisi deyil. Əlyazma və nüsxə fərqləri mövcuddur. Onların transliterasiyası və nəşri də ayrıca tədqiqat işləridir. Farsca divanının tərcüməsi və nəşri də olmadan onun haqqında bütöv söz demək çətindir. Bununla Raci, xüsusən də mərsiyə ədəbiyyatı ilə bağlı görüləcək çox işlər var. Bu indiyə qədər görülən və bu sahədə görüləcək işlərin kiçik bir hissəsidir.

Ədəbiyyatımızı həm bu sahələrdə, həm də tarixi keçmişimiz üzrə sistemli araşdırmalar aparılandan, reallıq, tarixi həqiqətlər obyektiv işıqlandırılandan sonra düzgün tədqiq etmək olar. Bu deyilənlər hələlik olmadığından bacara bildiyimiz qədər, mövzunun verdiyi imkanlar daxilində əlaqədar məsələlərə toxunmağa və bu sahədə əlimiz yetə bildiyi qədər mənbələrə istinad etməyə çalışdıq. Mümkün qədər obyektiv olmağa cəhd etdik.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. "Açıq söz" qəz., Bakı, 1916, 2 may.
2. Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki (Qədim dövr- lərdən 1930-cu ilədək). Bakı: 2013.
3. Anar.Min beş yüz ilin Oğuz şeiri. Antologiya.I kitab. Bakı, 1999, 911 səh.
4. Axundov M.F. Əsərləri. 3 clldə. I c., Bakı: Azərnəşr, 1951, 334 səh.
5. Axundov M.F. Əsərləri. II c., Bakı: Azərnəşr, 1958,441 səh.
6. Aristotel. Poetika. Bakı, 1974, 191 səh.
7. Azərbaycan ədəbiyyatı tarixi.3 cilddə. IIc., Bakı, 1960, 905 səh.
8. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. IV c., Bakı: "Elm", 2011, 856 səh.
9. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti.(*tərtibçilər: A.M.Babayev, C.B.İsmayılzadə*). Bakı: Maarif, 1981, 380 səh.
10. Azərbaycan tarixi. Bakı, 1996, 872 səh.
11. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. II c., Bakı, 977, 592 səh.
12. Azərbaycan Sovet Ensiklopediyası. VIII c., Bakı,1984, 608 səh.
13. Aşıqlar. Bakı: Gənclik, 1970, 107 səh.
14. Aşıq Ələsgər.Əsərləri, dastan-rəvayətlər,xatirələr.Bakı:Şərq-Qərb,1999,577 səh.
15. Avropa mənşəli sözlərin qısa lüğəti. (*tərtibçilər Ə.S.Səfərov, A.N.Qarayev, K.Ə.Səfərova).* Bakı: Maarif, 1981, 234 səh.
16. Belinski V.Q. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979, 272 səh.
17. Bünyadov Z., Məmmədəliyev V. Qur'an (*tərcüməsi).*Bakı, 1992.362 səh.
18. Cəfər Xəndan. Ədəbiyyatımızın dünəni və bu günü. Bakı,1980, 246 səh.
19. Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Azərnəşr, 1958, 287 səh.
20. Cənubi Azərbaycan ədəbiyyatı analogiyası. 4 cilddə. I c., Bakı: Elm, 1981, 383 səh.
21. Cənubi Azərbəycan ədəbiyyatı antalogiyası, II c., Bakı: Elm, 1983, 580 səh.
22. Cənubi Azərbaycan Ədəbiyyatı tarixi I c., Bakı: Nurlar nəşriyyatı, 2009, 480 səh.
23. Cənubi Azərbaycan ədədbiyyatı tarixi. II c., Bakı: Qanun, 2013, 680 səh.
24. Cənubi Azərbaycan tarixi oçerkləri (1828-1917). Bakı: Elm, 1985, 316 səh.
25. Dahilərin göz yaşı mərsiyələr (tərtibçilər M.İ.Əliyev, A.F.Ramazanov). Bakı:Elm,1990,110 səh.

26. Dastani Əhməd Harami. Bakı: Gənclik, 1978, 94 səh.
27. Dilsuz Məhəmməd Əmin. Divani-Dilsuz.-[Təbriz], 1285 h. (1869).- 128 s.- 25 sm.- Daş basması.- Ərəb qrafikasında
28. Divani-Raci Təbrizi. (tərtibçi Əbulfəzl Əhmədlu). Təbriz: Fəxri-Azər nəşriyyatı.1377,516 səh.
29. Divani-Sərraf. Təbriz, [s n],1992 (1331 h.), 190 səh.
30. Divani şaire türki Rza Sərraf Təbrizi. Prof.Dr.H.Düzgün. Təbriz:Nidayi-Şəms 2010, 297 səh.
31. "Dirilik" jurnalı. Bakı, 16 noyabr, 1916, N 5, 77 səh.
32. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif,1978, 200 səh.
33. Əkbərov Zahid. Hüseyn Cavidin "Şeyx Sənan faciəsi". Bakı, 1997,167 səh.
34. Əkinçi (*tam mətni*).Bakı: Azərnəşr, 1979, 464 səh.
35. Əliyev Rəhim.Ədəbiyyat nəzəriyyəsi. Bakı: "Qanun" nəşriyyatı,2012, 461 səh.
36. Ərəb və fars sözləri lüğəti. Bakı: Elm,1985,1026 səh.
37. Fuad Esmira. Söz sərrafı Şəhriyar. Bakı: Avrasiya press, 2004, 304 səh.
38. Qaraxan Ə. Füzuli mühiti, həyatı və şəxsiyyəti. Bakı, 1989, 165 səh.
39. Qarayev Yaşar. Füzulinin Tanrı sevgisi//Cahan jurnalı. Bakı, 2000, 12 səh.
40. Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 452 səh.
41. Qarayev Yaşar. Tarix yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 711 səh.
42. Qasımzadə F.Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974, 486 səh.
43. Qəribli İ.Mirzə Məhəmmədtağı Qumri. "Ədəbiyyat və incəsənət" qəzeti, 29.10.1991,N 48
44. Qumri Mirzə Məhəmməd. Kənzül-məsaib.(naşiri Hacı Əli Sərraf). Təbriz, 1890,(h.1308) 139 səh.
45. Haqverdiyev Ə. Əsərləri. 2 cilddə. Ic., Bakı: Azərnəşr, 1956,s. 347, 547 səh.
46. Heyət Cavad. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: Yazıçı, 1993, səh. 167.
47. "Nərbi and" qəzeti. Bakı, 1916, (020) 16,30 sentyabr, 20; 03.
48. Hüseyn Cavid. Əsərləri.4 cilddə. II c., Bakı, 1982, 393 səh.
49. Hüseynov Məhərrəm. "Sözün poetikası". Bakı: Elm, 2010, 317 səh.
50. Hüseynov Məhərrəm. Dil və poeziya. Bakı: Elm, 2008, 433 səh.
51. Hüseyn Sədrəddin. Ədəbiyyatımızda can və canan obrazları / Azərbaycan-Avropa Ədəbi -mədəni Əlaqələr Mərkəzi. Tədqiqlər -2. Bakı: Elm, 2000. səh. 42-49
52. Hüseyn Sədrəddin. Ə.Racinin dünyagörüşünə bir nəzər/Azərbaycan Respublikası Təhsil Nazirliyi. ADPU. filologiya məsələlərinə dair tematik toplu. Bakı, 2002,N 3-4 (22-23) səh.11-23

53. Hüseyn Sədrəddin.Əbülhəsən Raci əsərlərinin nəşri və tədqiq tarixindən / Elmi axtarışlar. VII toplu. Bakı: Nurlan nəşriyyatı, 2002, səh.165-168
54. Hüseyn Sədrəddin. Nə eşq olaydı... Azərbaycan Respublikası Təhsil Nazirliyi. ADPU. filologiya məsələlərinə dair tematik toplu. Bakı, 2003, N 1-2 (22-23)
55. Hüseyn Sədrəddin.Azərbaycan ədəbiyyatında mərsiyə mövzusu və Əbülhəsən Racinin mərsiyələri / Kafkas Universitetler birliği. Uluslararası Ağrı Sosial Bilimler konqresi. Ağrı. İ.Çeçen Universiteti, 25-27.09.2013. səh.405-410
56. Hüseyn Sədrəddin Əbülhəsən Racinin cənub nəşrləri. Journal of Qafqaz University. Philologi, and Pedagogi. Bakı, 2013,(163-168),130 səh.
57. Hüseyn Sədrəddin. Əbülhəsən Raci və quzey Azərbaycan // Xudafərin jurnalı. s.10(108-109), (səh.23-29), Tehran, 2014, (23-29) 74 səh.
58. Hüseyn Sədrəddin. Klassiklərin tədqiqi və Əbülhəsən Raci // Filologiya məsələləri. N 2. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil. 2014,(335-341), 415 səh.
59. Hüseyn Sədrəddin. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri // Filologiya məsələləri. N 4.AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil. 2014.(313-320), 520 səh.
60. "Kəlam" jurnalı. Bakı, 2002, avqust, 1, səh.40-43, (4),60 səh.
61. "Kəlam" jurnalı. Bakı, 2002, sentyabr, 2, səh.51-52, (2), 64 səh.
62. Klassik Azərbaycan ədəbiyyatı kitabxanası.20 cilddə. III c., Bakı: Elm, 1984, 543 səh.
63. Klassik Aərbaycan ədəbiyyatı kitabxanası. V c., Bakı: Elm, 1985, 355 səh.
64. Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. VII c., Bakı: Elm, 1988, 583 səh.
65. Klassik Azərbaycan ədəbiyyatı kitabxanası. VIIIc., Bakı: Elm, 1988, 566 səh.
66. Kitabi Dədə Qorqud. Bakı: Gənclik, 1987, 282 səh.
67. Köçərli F. Azərbaycan ədəbiyyatı.2 cilddə. I c., Bakı: Elm, 1978, 596 səh.
68. Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981,459 səh.
69. Külliyati-Divani-Raci, (t.S.Qəməri)Təbriz, Firdos kitabxanası, 1364. 196 səh.
70. Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Bakı: Elm, 1982,499 səh.
71. Masse A. Islam. Bakı, AE-nin baş redaksiyası, 1992, 253 səh.
72. Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, 269 səh.
73. Məhəmməd Füzuli. Hədiqətüs-süəda. Bakı, 1993, 365 səh.
74. Məhəmməd Füzuli. Leyli və Məcnun. Bakı: Azərnəşr, 1940. 231 səh.
75. Məhəmməd Hadi. El fəryadı. Bakı: Yazıçı, 1940, 152 səh.
76. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: Elm, 2000, 489 səh.
77. Məmmədov Xeyrulla. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: Yazıçı, 1987, 268 səh.

78. Məmmədov Xeyrulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: 2006
79. Məmmədli P. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı: Elm, 2009, 199 səh.
80. Məmməd Tahirə. XIX əsr Azərbaycan ədəbiyyatı.(I hissə) Bakıl:2010, 161 səh.
81. Mirəhmədov Ə., Əsgərli Z. Ədəbiyyat (X sin. üçün dərslik). Bakı: Maarif, 2001,326 səh.
82. Mirzə Ələkbər Sabir. Hophopnamə. Bakı: Yazıçı, 1980, 557 səh.
83. Molla Pənah Vaqif. Əsərləri. Bakı: Yazıçı, 1988, 190 səh.
84. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi. II c. EAAzF. Bakı: 1944, 395 səh.
85. Müsəddiq. M.Şükuhinin həyat və yaradıcılığı. Bakı, 1988, 128 səh.
86. Nadirov Özbəy. Hacı Rza Sərrafın yaradıcılq yolu. Bakı: Elm,2005, 148 səh.
87. Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, N-2, 8 səh.
88. Necə qan ağlamasın daş bu gün, (mərsiyələr, sinəzənlər, qəsidələr) *(tərtibçi Islam Qəribli,Teymur Kərimli).* Bakı: Yazıçı, 1993, 136 səh.
89. Natəvan X. Əsərləri.*(tertibçi Bəylər Məmmədov)*. Bakı: Yazıçı, 1983. 158 səh.
90. Nəbati S.Ə. Əsərləri.Bakı: Azərbaycan SSR EA nəşrləri, 1968, 332 səh.
91. Nəsimi. Seçilmiş əsərləri. (fars divanı) Bakı, 1985,189 səh.
92. Nizami Gəncəvi. Lirika. Sirlər xəzinəsi. Şərəfnamə. Bakı: Elm, 1992, 629 səh.
93. Onullahi S. XIII-XVII əsrlərdə Təbriz. Bakı, 1982,280 səh.
94. XIX əsr Azərbaycan şeiri antologiyası.Bakı: Şərq-Qərb.2005,(səh.7-9)424 səh.
95. Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988, 379 səh.
96. Raci.Seçilmiş əsərləri. *(tərtibçi Abıyev Hafiz)*. Bakı: Sabah,1992,278 səh.
97. Raci Təbrizinin novhələri və mərsiyələri.*(tərtibçi Əbulfəzl Əhmədlu)* "Fəxri-Azəri". Təbriz,1389, 315 səh.
98. Salatın Əhmədova, Teymur Əhmədov. XIX ısr Azərbaycan ədəbiyyatı. I cild. Poeziya. Bakı: Nurlar, 2009, 704 səh.
99. Salehi M.P. (dr.). Ədalətin qurbanları. İran: Qum, 1973. 168 səh.
100. Seyfəddin Rzasoy. Azərbaycan dastanlarında şaman-qəhrəman arxe- tipi. Bakı: Elm və təhsil, 2015, 435 səh.
101. Səfərli Ə., Yusifli X. Ədəbiyyat *(IX* sinif *üçün).* Bakı: Maarif, 2001. 366 səh.
102. Səməd Vurğun.Seçilmiş dram əsrləri və poemaları. Bakı, 1974, 494 səh.
103. Səməd Vurğun. Seçilmiş əsərləri. 2 cilddə. Ic., Bakı: Azərnəşr, 1976, 287 səh.
104. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1912, 433 səh.
105. Şirvani S.Ə. Əsərləri.3 cilddə. IIIc., Bakı, 1974. 499 səh.
106. Şirvani S.Ə. Qəzəllər. Bakı, 1960, 658 səh.

107. Şükuhi M.M. İmam Hüseyn haqqında mərsiyələr, Təbriz, 1317.
108. Özdək Rafik. Türkün qızıl kitabı.(tərcümə edənlər L.Şüküroğlu, N.Yaqublu) 2 cilddə. I c., Bakı: Yazıçı, 1992, 179 səh.
109. Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, 339 səh.
110. Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, 433 səh.
111. Türkmənçay müqaviləsi, Azərbaycan tarixi üzrə qaynaqlar. (tərtibçilər: S.S, Əliyarov, F.R.Mahmudov, F.İ,Əliyeva, L.L.Həsənova). Bakı:BDU.1989, 328 səh.
112. Yaqub Babayev.Təriqət ədəbiyyatı: sufizm,hürufizm. Bakı: "Nurlan", 2007, 144 səh.

## Türk dilində

113. Abdullah Yegin. Islami-elmi-edebi-felsefi yeni lüğat. İstanbul, 1997, 800 səh.
114. Ahmet Lütfi Kazançı. (Doç.Dr.) Peyğemberler lahikası. İstanbul, 1997.
115. Buxari. Məğazi. 38.İstanbul,2003, 317 səh.
116. Eliot T.S.,On Poetiy, and Poets (*Şerlər və Şairlər, ingilis dilin də,"Yağmur" dərgisinə istinadən, Istanbul, 2002, sayı 14).* 64 səh.
117. Kandehlevi M.Y. Həyatüs-Sahabe. (4 cilddə) II c., İstanbul,1994. 2445 səh.
118. Mehmet Arslan (Prof.dr.), Mehmet Erdoğan. Kerbela mersiyeleri. Tunceli Universitesi. Qrafikler yayinevi. Ankara, 2009, 809 səh.
119. Mutlu İsmayıl. Mazhebler nasıl ortaya çıktı. Istabul, 1997, 310 səh.
120. İsmayıl Aka. (Prof.Dr.) Çağımızda etiqad, islam məzhəbləri. İstanbul, 1998.
121. Ramazan Kaplan. Klassiklər tartışması Ankara, AKM yayın, 1998, 212 s.
122. "Sızıntı" dərgisi. İstanbul, 2002, mart sayı, 45 səh.
123. "Yağmur" dərgisi. İstanbul, 2002, sayı 14.s.57, 65 səh.
124. "Yeni ümid" dərgisi. İstanbul, 2002, sayı 55, 66 səh.

## Ərəb dilində

125. Quran. Səudiyyə Ərəbistanı. Əl-Mədinə Əl-Münəvvərə. 1305,406 səh.
126. Caniüs sağir. II/12. Mətbəə Dar-əl-fikr. Qahirə. 2004. (Hədis N 1201)

## Rus dilində

127. Аверянов П.И.,Шекински Ф. Отчет в поездке поездке современном Азебайджане в конце 1899, г.Тифлис, 1890, 241 стр.
128. Бакuулин Ф., Оцерки торговлис Персий, Азербайджан, Мазандаран, Астарабад, г. Санкт-Ретербург, 1875, 214стр.
129. Ениколопов. Первaятюркskaягазета на Кафказе, "Култура ирисменност Вастока", Баку, 1928, N. 3.

130. Гусейн Садреддин. Литературная елегияначиная М.Фузули, Магомеда Лутфи и до Мехмета Акифа.(стр.479-485), Литература I художественная култупра тюгкскмих народов в контексте восток-запад, Казан, 2014, (7 с.), 577 стр.

131. ГусейнСадреддин. Жизненнаядилемма бытьилине быть I искус- ство, Учебные зариски, том 27 (66), N 3, Симферопоl, 2014, 477 с.(7 с.)

132. Корф Ф. Восроминание о Персии 1843-1835, Санкт-Петербург, 1838,

133. Мирзе Казым-Век.Избранные произведения. Ваку: Элм, 1985, 423 стр.

134. Соколов A.N.Историярусскийлитература XIX века (I роловина), Москва: Русскаяшкола, 1976.

## Fars dilində

135. Adamiyyat Firidun. Əmir kəbir və İran ya vərəq əz tarixe-siyasiyye İran, qismət əvvəl, Tehran,1323 (1945), 271 səh.

136. Əli Əsgər Səmimi. Dər dövre səltənəte Qacar. Tehran,1342 (1924).

137. Hüseyn Ümid. Tarixe-fərhənge-Azərbaycan. I c.,Təbriz,1332 (1954).

138. Hüseyn Ümid Tarixe-fərhənge-Azərbaycan. II c., Təbriz,1333 (1955)

## İnternet

139. Azərbaycan mərsiyə ədəbiyyatına bir baxış.http://www.ihq.az/index.php?news=322

140. Samin Abdullayev Gün Az.http://www.gun.az/religion/89269


İmdad elə, ya Rəbb, sən özün bimədədüğ biz,
Başdan əyağə büxlü riyavü həsədüğ biz,
Hər qədər təsəffür edax ondan da bəduğ biz,
Əmma ki əzadari-şəhi-Kərbübəlayux.
İNDİ HƏR GÜN RUZİ-AŞURADI,
İNDİ HƏR YER KƏRBƏLA